




# XIX ƏSR QARABAĞ ŞAİRLƏRİNİN ŞEİR ANTOLOGİYASI






AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR
İNSTİTUTU

# XIX ƏSR QARABAĞ ŞAİRLƏRİNİN ŞEİR ANTOLOGİYASI

Bakı – 2024

Tərtib edəni və ön sözün müəllifi: Raqub Kərimov filologiya üzrə elmlər doktoru

Redaktoru: Teymur Kərimli akademik

Naşiri: Turan İbrahimov

*XIX əsr Qarabağ şairlərinin şeir antalogiyası/ Tərt. edəni Raqub Kərimov. Bakı: SkyE, 2024. – 512 s.*

XIX əsr Qarabağ ədəbi mühiti özünün yeni çalarları, orijinal forma və məzmun zənginliyi ilə ümumazərbaycan ədəbiyyatının inkişafında xüsusi yer tutur. Tədqiqat zamanı məlum olmuşdur ki, Qarabağda XIX əsrdə 150-dən çox şair yazıb-yaratmışdır. Həmin dövrün ədəbiyyatını özündə əks etdirən mənbələrdən məlum olur ki, digər dövrlərdə olduğu kimi XIX əsrdə də aparıcı yeri şeir sənəti, poeziya tutmuşdur. Əfsuslar olsun ki, bu şairlərin əksəriyyətinin Azərbaycan dilində yazdığı şeir nümunələrini əldə edə bilmədik, onların fars dilində yazdıqları şeirləri isə antologiyaya daxil etmədik. Bu səbəbdən antologiyanın davamlı olacağını nəzərə alaraq I kitab adlandırdıq.

**ISBN 978-9952-440-33-9**

**@Raqub Kərimov, 2024**

# XIX ƏSR QARABAĞ ƏDƏBİ-MƏDƏNİ MÜHİTİ

“Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daimi qorunması, saxlanılması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu Azərbaycan xalqının yaratdığı böyük bir abidədir”... “Şuşa təkcə şuşaşlılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir azərbaycanlı üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir abidədir.”

***Heydər Əliyev***

Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır.

***İlham Əliyev***

Özünün tarixi, maddi mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və mədəniyyəti ilə məşhur olan Qarabağ diyarı həm də dünyanın qədim tarixində özünəməxsus yeri olan bir məkandır. Onun əsrarəngiz təbiəti, gözəl iqlimi, təbii sərvətlərinin zənginliyi bu bölgənin bədii təfəkkür sahiblərinə, yaradıcı insanlarına ciddi təsir göstərməklə yanaşı, tarix boyu bu gözəllik və zənginliyə sahib olmaq isəyi ilə yaşayan qonşu dövlətlərin maraq dairəsində olmuşdur. Bununla yanaşı Qarabağın yerləşdiyi coğrafi məkan mühüm strateji əhəmiyyət kəsb etdiyi üçün də həmişə qonşu dövlətlərin diqqətini çəkmişdir. Bu səbəbdən Qarabağ bütün tarix boyu öz gözəlliyi, zəngirliyi və coğrafi mövqeyinə görə bəlalara düçar olmuş, istilalara, qətlü qarətlərə məruz qalmışdır. Lakin bu ağır məşəqqətlərə mərdliklə sinə gərən Qarabağ elatı heç zaman yadellilərə baş əyməmiş, tarixin bütün dönəmlərində öz mənlik və ləyaqətini, qürurunu şərəflə qoruyüb saxlaya bilmişdir. Xüsusilə Cavanşirlər nəsli hakimiyyətə

gəldikdən sonra Qarabağ elatı ağıllı, tədbirli, uzaqgörən müdrik rəhbəri Pənahəli xanın ətrafında sıx birləşərək qüdrətli bir xanlıq yaratdı, öz sözünü deməyə qadir olan bir xanlıq kimi Azərbaycan məmləkətində yerini müəyyənləşdirdi. Bu xanlığın yaranma tarixi digər xanlıqların yaranma tarixindən tamamilə fərqlidir. Azərbaycan ərazisində olan bürün xanlıqlar mövcud şəhərlər ətrafında yarandığı halda, Qarabağ xanlığı heç bir konkret məkan və bazası olmayan, necə deyərlər, quru bir yerdə yaranmış, bədxah qonşu xanların qəsbkar hücumlarına mərdliklə sinə gərərək özünü təsdiq etmiş, tez bir zamanda regionda ən qüdrətli xanlıqlardan birinə çevrilmişdir. XVIII əsrin ikinci yarısında baş verən bu dirçəliş nəticəsində Qarabağ xanlığı tezliklə regionda ən güclü feodal dövlətlərindən birinə çevrildi. Onun qonşu dövlətlərlə ticarət əlaqələri genişləndi, ölkənin siyasi, iqtisadi və sosial həyatında ciddi dönüş yarandı, Şuşa şəhəri Azərbaycan mədəniyyəti, ədəbiyyat və incəsənətinin mühüm mərkəzlərindən birinə çevriidi. Pənahəli xan Şuşanı paytaxt etdikdən sonra birinci növbədə ətraf regionlarda yaşayan ən məşhur sənətkarlar, varlı bəylər, iri tacirlərlə yanaşı, məşhur alim, şair, müğənni və sazəndələri də oraya dəvət edərək onların yaşaması və səmərəli fəaliyyət göstərmələri üçün hər cür şərait yaratdı. Bu qayğının nəticəsində tezliklə Pənahabadda kifayət qədər şair, rəssam, xəttat, memar, musiqiçi və digər peşə sahibləri qrupları yarandı. Əsasən Təbriz, Ərdəbil, Ordubad, İrəvan, Dərbənd, Şamaxı, Gəncə şəhərlərindən gələn bu sənətkarlar həm Pənahəli xanın səxavəti, ınsanpərvərliyi, insanlara qayğı ilə yanaşmasını və həm də bu məkanın gözəlliyini nəzərə alaraq oranın ilk sakinləri oldular.

Pənahəli xan poeziyaya, ədəbiyyatın inkişafına xüsusi diqqət verirdi. Hətta o, Qarabağa gəlmiş Yüzbaşı, Aşıq Lələ, Hamidi, Baharoğlu kimi istedadlı aşıq və şairlərə Şuşada qalıb orada fəaliyyət göstərmələri üçün məvacib kəsmiş, insanları maarifləndirmək üçün sarayında dövrünə görə zəngin olan bir kitabxana da yaratmışdır.

Pənahəli xandan sonra hakimiyyətə gələn İbrahimxəlil xan Cavanşir də atasının müdrik və uzaqgörən siyasətini davam etdirərək ilk növbədə, ondan yadigar qalan ədəbi-mədəni ənənələri dirçəltməyə çalışdı və kiçik qardaşı Mehralı bəyin müvəqqəti hakimiyyəti zamanı qayğıdan kənarda qalaraq oradan uzaqlaşmış neçə-neçə şair, musiqiçi, xəttat və elm adamlarını yenidən saraya dəvət etdi. Onun möhkəm iradəsi və qətiyyəti sayəsində qısa müddət ərzində müxtəlif sənət sahələrinin inkişafı üçün münbit şərait yarandı, ədəbi hərəkat canlanmağa başladı, bədii intellektual həyat tamamilə öz axarına düşdü. Qarabağ xan sarayı yenidən şerin, sənətin əsl inkişaf mərkəzi, poeziya və incəsənət məbədgahı kimi tanınmağa başladı. Burada xalq təfəkkürünün ən gözəl abidələrini yaradan böyük sənətkarlar ordusu – mahir söz, qələm ustaları, müxtəlif zövqlü zəka sahibləri, yaradıcı qüvvələr yetişdi. Musa Kəlimullah, Mirzə Vəli Baharlı, Molla Pənah Vaqif, Mirzə Əliyar bəy Tahirzadə, Əmiraslan bəy Məhəmməd bəy oğlu (Mir Möhsün Nəvvabın ana babası –R.K.) kimi dövrünün görkəmli şəxsiyyətləri şəhərin əsas aparıcı ictimai qüvvəsinə çevrilərək öz bilik və bacarıqlarını xanlığın mədəni inkişafına sərf etdilər. İbrahimxəlil xan Cavanşirin aydın, yetkin təfəkkürü və məntiqi zəkası sayəsində Pənahabad daha da inkişaf edərək yenidən Qarabağın gözəllik, mədəniyyət, poeziya, incəsənət beşiyinə çevrildi. Az vaxt içərisində Qalanın mənəvi həyatının bütün sahələrində artan "mədəniyyətin dünyəviləşdirilməsi" adlanan hadisələrin əsası qoyuldu, yeni dünyəvi əsaslar günü-gündən mədəni qüdrəti artan Qarabağ mədəniyyətinə nüfuz eləməyə başladı. Bu işin uğur qazanmasının başlıca səbəbi İbrahim xanın düzgün seçim edərək Molla Pənah Vaqifi saraya dəvət etməsi idi. Molla Pənah Vaqifin yaradıcılığı ilə ilkin realizmin meydana gəlməsi milli ədəbiyyatın inkişafına yeni istiqamət və güclü təkan verdi, onun təsiri ilə yeni-yeni ədəbi qüvvələr- Mirzə Vəli Baharlı, Mirzə Camal Cavanşir, Əli ağa Alim, Əbülfət ağa Tuti, Ağabəyim ağa Ağabacı, Məhəmməd bəy Cavanşir kimi gənc yerli şairlər, digər vilayətlərdən gəlmiş Rafei Kəleybəri,

Ağahüseyn Arif, Ağqız oğlu Piri, Aşıq Əli Kəleybəri, Sarı Çobanoğlu, Qəhrəman bəy Arif kimi söz ustaları Qarabağ poeziya məktəbinə öz layiqli töhfələrini verdilər. Bunun davamı olaraq XIX əsrin birinci yarısında Baba bəy Şakir, Qasım bəy Zakir, Abdulla Canı oğlu, Cəfərqulu xan Nəva kimi şairlərim yaradıcılığında tənqidi realizm ictimai satira səviyyəsinə çatdırıldı ki, bu da ədəbiyyatımız tarixinə mühüm ədəbi hadisə kimi daxil oldu. Qarabağ ədəbi mühitində formalaşan bu iki ədıbi üslub ümummilli ədəbiyyatımızın inkişafına güclü təkan verməklə yanaşı onun gələcək istiqamətini də müəyyənləşdirdi. Bu prosesi nəzərdən keçirdikdə boyük ədəbiyyatşünas alim Firiduh bəy Köçərlinin Qarabağ və onun sakinləri haqqında peyğəmbərcəsinə söylədiy kəlamlar yada düşür: "Qarabağ mahalı, şəhri-Şişə, ...onun torpağı və ab- həvası hər qism əhli-kəmal və sahibi-elmü hünər və xüsusən xoştəb və şirinzəban ədiblər və şairlər yetirib ki, cümləsini zikr etməklə qurtarmaz..." (1.s.153). Əlimizdə ədibin söylədiklərini təsdiq edən kifayət qədər faktlar mövcuddur. Araşdırmalar göstərir ki, Qarabağ regionunda XIX yüzillikdə 150-yə qədər azərbaycanlı, cəmi bir nəfər erməni əsilli Mirzəcan Mədətov adlı şair yazıb – yaratmışdır. Ondan başqa Qarabağda yaşayıb-yaradan ikinci bir erməni əsilli şairə təsadüf etmədik. Bu da maraqlıdır ki, heç bir mənbədə onun erməni dilində şeir yazmasına kiçicik bir işarə də vurulmur. Bütün mənbələrdə onun yalnız Azərbaycan dilində yazdığı şeir nümunələrindən və bu nümunələrin yüksək sənətkarlıqla qələmə alındığından bəhs olunur. Hətta, onun məsləkdaşı və həmkarı, milliyətcə erməni olan Mirzə Yusif Nersesov (1798-1864) da 1856-cı ildə Teymurxanşura qalasında nəşr etdirdiyi "Məcmueyi-əşari-Vaqif və müasirini-digər" əsərində azərbaycanlı şairlərlə bir sırada Mirzəcan Mədətovun Azərbaycan dilində yazdığı şeirlərindən nümunələr versə də, onun erməni dilində şeir yazıb-yazmaması barədə fikir söyləmir.

Məlum olduğu kimi, istər yeni yaranmaqda olan Qarabağ ədəbi mühitinin və istərsə də regionlarda mövcud olan digər ədəbi

mühitlərin vahid ədəbi prosesinin təşəkkülü və formalaşması üçün onların birgə, qarşılıqlı, əlaqəli şəkildə inkişafı olduqca vacib və zəruri idi. Digər dövrlərə nisbətən XIX əsrdə bu əlaqə çox güclü inkişaf etmişdi. Azərbaycan ərazisində mövcud olan xanlıqlarda yaşayan ayrı-ayrı məşhur, yaxud ictimaiyyətdə müəyyən qədər tanınan şairlərin, söz, sənət adamlarının biri-biri ilə müşairələr təşkil etməsi, yaradıcılıq əlaqəsi yaratması bu prosesin başlıca şərtlərindən idi. İstər Qasım bəy Zakir, istərsə də ona qədərki şairlərin hər biri istisnasız olaraq özündən əvvəl yaşayıb-yaratmış klassiklərin əsərlərini dərindən mütaliə edib öyrəndikdən sonra onlardan qəlbinə, ruhuna daha yaxın olanlarına nəzirə yazmış və bununla da həm özlərində yaradıcılıq vərdişləri yaratmış, həm də həmin sənətkarların ədəbi ənənələrini poeziya aləmində yaşadaraq nümunə kimi gələcək nəslə ərməğan etmişlər. Bu xüsusiyyət tarixin müəyyən mərhələsində deyil, bütün dövrlərdə mövcud olduğu üçün onu nəzirəçilik kimi yox, ədəbi yaradıcılıq kimi qəbul etmək daha düzgün olardı. Çünki bütün Şərq poeziyasında, eləcə də dünya ədəbiyyatı tarixində sənətkarlar biri-birindən qarşılıqlı şəkildə faydalanaraq yeni-yeni əsərlər yaratmış və istər-istəməz nəzirəçiliyi bir ənənə olaraq davam etdirmişlər. Ən başlıcası isə, bu sənətkarların əksəriyyəti nəzirə yazarkən seçdiyi sənətkarı kor-koranə təqlid etməmiş, ona yaradıcı şəkildə yanaşaraq əksər hallarda orijinal poeziya nümunəsi yaratmağa nail olmuşlar. Bu da maraqlıdır ki, XX əsrin əvvəllərinə qədər nəzirəçilik, nəzirə ədəbiyyatı qəbahət hesab olunmamış, hətta bu qəbil şeirlər hər bir şairin orijinal əsərləri ilə eyni səviyyədə qiymətləndirilmişdir.

Filologiya üzrə elmlər doktoru Paşa Kərimov ədəbiyyatımızda baş verən bu hadisəyə münasibət bildirərək yazır: "XIX əsr istər farsdilli, istərsə də anadilli ədəbiyyatımızda yeni axtarışlar dövrü olmuşdur. Şərq poetikasına görə, orijinal sənətkar ənənədən kənara çıxmamalı, onu inkişaf etdirməlidir. Təkmilləşdirmə mexanizmi ənənənin mahiyyətindədir. Buna görə də, bəzən hər hansı bir şairin ardıcılı əgər ənənəni bacarıqla inkişaf etdirirsə,

epiqonçu deyil, təqlid etdiyi sənətkardan daha üstün sayıla bilər (2, s.193).

Əfsuslar olsun ki, sovet dönəmində bir sıra ədəbiyyatşünas alimlər nəzirə ədəbiyyatına, eləcə də nəzirəçiliyə təqlidçilik kimi baxmış, ədəbiyyatımızın inkişafına heç bir faydası olmayan, onu inkişafdan qoyan pis bir ənənə kimi onun inkişaf etdirilməsini qeyri-məqbul hesab etmişlər. Təbii ki, nəzirə dedikdə, birinci növbədə qeyri-iradi olaraq dahi Füzuli yada düşür. Çünki məhz Füzuli yaradıcılığı ilə qəzəl janrı Azərbaycan şeirinin zirvəsini təşkil edərək ən oxunaqlı şeir növü kimi geniş yayılmışdır. Təsadüfi deyildir ki, Füzulidən sonra gələn bütün şairlər istisnasız olaraq onun bədii irsindən bəhrələnərək füzuliyanə şeirlər yazmağı özlərinə şərəf hesab etmişlər. Bu məsələyə münasibət bildirən filologiya üzrə elmlər doktoru Nəsib Göyüşov yazır: “Ədib və şairlərin biri-birindən bəhrələnməsini təqlidçilik kimi qəbul etmək olmaz. Nizami, Hafiz, Rumi və Füzuli kimi söz sərraflarında təqlidçilik ola bilməz. Hər bir həqiqi sənətkarın məharəti məhz eyni mövzu və ya şeir növündə oxşar bədii obrazlar, bədii vasitələr, poetik qəliblər və rəmzlərdən faydalanaraq yeni söz demək, daha gözəl bədii-estetik təxəyyül lövhələri yaratmaq, oxucunun zehnini yeni bədii məna incəlikləri və rəmzi yozum qatları arasında hərəkətə gətirmək, ona yeni zövq və düşüncə bağışlamaq qabiliyyəti ilə aşkar olur. Füzuli öz sənətində klassik dövrdə ən geniş işlənən bütün ədəbi fənlərdən, qəlib və kateqoriyalardan, obraz və rəmzlərdən faydalanmışdır, lakin onun bədii təxəyyülü və düşüncə çevrəsi o qədər dərin, çevik və mükəmməldir ki, savadlı oxucu hər dəfə onda yeni estetik dəyərlər tapır”(3,s.15-16).

Bu məsələ ilə bağlı akademik Kamal Talıbzadə yazır: “Böyük Füzuliyə ən yaxşı nəzirə yazmaq, qəzəlin daha kamil nümunəsini yaratmaq, bakir qafiyələr və rədiflər işlətmək sahəsində şairlər arasında gedən yarışları da tamam faydasız yaradıcılıq işi hesab etmək doğru olmazdı”(4, s.99).

Füzuliyə nəzirə yazan hər bir sənətkar ilk növbədə böyük

ədibin fövqəladə sənətkarlıq qabiliyyətinə məftun olub onun cazibəsinə düşdükdən sonra məhz onun kimi şeir yazmağa, bədii təsvir və ifadə vasitələri seçməyə, ardıcıl, axıcı misralar yaratmağa çalışır və bu vəziyyət getdikcə təkrar olunduğu üçün həmin şairdə yaradıcılıq vərdişi əmələ gətirir. Ona görə də, bəzən bir o qədər də məşhur olmayan şairin elə şah beyti meydana çıxır ki, onu Füzuli şeirindən ayırmaq çətin olur.

XIX əsr Azərbaycanın müxtəlif regionlarının ədəbi qüvvələri nəzirəçilik əlaqələrində fəal iştirak edirdilər. Bu cür nəzirəçilik əlaqələri çox zaman müştərək yarışmalar və müsabiqələr şəklində həyata keçirdi. Əlbəttə, bu Azərbaycan ədəbiyyatı üçün yenilik deyil, mövcud ədəbi ənənənin XIX əsrdə davamı idi. Firidun bəy Köçərli "Molla Qasım Nuxəvi" adlı oçerkində qarabağlı Qasım bəy Zakirə məxsus olan "Gözləyən, kimsə, gözüm, haqqı deməz ay sənə" misrası ilə başlayan müsəddəsini nümunə göstərərək yazır: "Vəsfü tərifi-dilbər babında tənzim olunmuş əşari-müsəddəsəni ki, aşağıda zikr olunur, - bəziləri qarabağlı Qasım bəy Zakirə və bəzi digəri nuxalı Molla Qasım Zakirə nisbət etmişlər. Bizim anladığımıza görə, bu kəlam gərək Qasım bəyin olsun. Buna şiveyi-lisan dəxi şəhadət verir və bundan əlavə çox ehtimal var ki, bu şeirləri Qasım bəy gülablı Kərbəlayi Səfi Valehin kəlamına nəzirə olaraq yazmışdır və Kərbəlayi Səfi də məzkur kəlamı, bəzi rəvayətə görə, Molla Pənah Vaqifin fərmudəsi ilə təzə səpkidə inşa etmişdir (1, s.464).

F.Köçərlidən gətirdiyimiz bu nümunə mövqe və mərtəbəsindən asılı olmayaraq bütün şairlərin bir-biri ilə sıx yaradıcılıq əlaqəsində olduqları və biri-digərindən yaradıcı şəkildə bəhrələndiyini bir daha təsdiq edir. Əlbəttə, lirika əvvəllər olduğu kimi XIX əsrdə də aparıcı rolda idi. Bunu əlimizdə olan XIX əsrdə tərtib edilmiş cüng və bəyazlarda, fraqment və şeir dəftərlərində gəlib bizə çatan yazıların əsasən (90-95%) poeziya nümunələrindən ibarət olması faktı da birbaşa təsdiq edir. Artıq XIX əsrdə epik şeir, mənzum hekayə, nəsihətnamə kimi uzun müddət gündəmdə olan janrlar öz mövqeyini əldən vermiş, yalnız çox az

sayda ayrı-ayrı sənətkarların yaradıcılığında özünü göstərməkdə idi. Açığını desək, yenilik kimi XX əsr ədəbiyyatına daxil olan maarifçi şeirlər, ictimai məzmunlu satiralar da hələlik ictimailəşərək öz layiqli yerini tam şəkildə tuta bilməmişdi. Ona görə də bu dövrdə yaranan tənqidi realizm, satira üslubunda yazan şairlər də Zakir səviyyəsinə ucala bilməmiş, ona bənzər bir neçə satirik şeir yazmaqla kifayətlənmişlər. İctimai satira XIX əsrin I yarısında yaransa da onun layiqli davamçıları əsrin sonunda meydana gəlmişdilər.

Digər dövrlərdə olduğu kimi, XIX əsrdə də Füzulinin bədii irsi qəzəl janrında yazan əksər şairlərin əsas ilham mənbəyi olaraq qalırdı. Lakin Füzuli şeirləri ilə yanaşı qəzələ yeni ruh, məna və məzmun gətirən A.Bakıxanov, M.Ş.Vazeh və Q.Zakir kimi şairlərin yaradıcılığı da bu dövr şairlərinin bir çoxunun diqqətini cəlb etmişdir. Bu məsələyə münasibət bildirən professor Əsgər Qədimov yazır: "Milli və xəlqi mövzuların lirikaya gətirilməsinin nəticəsi olaraq ədəbi mühitin (Ordubad ədəbi mühitinin –R.K.) Qüdsi Vənəndi kimi nümayəndələri daha klassik Şərq şeirlərinə deyil, öz müasiri olan Qasım bəy Zakir kimi realist sənətkarların tənqidi ruhlu şeirlərinə nəzirə və bənzətmələr yazır və lirikada realist mövzuları sənətə gətirirdilər. Təsadüfi deyildir ki, Qüdsi Vənəndinin realist və tənqidi ruhlu şeirlərinin müəyyən bir qismi də Q.Zakirə yazılan bənzətmələrdən ibarət idi. Bu bənzətmələrdə Qüdsi romantik təsvir üslubundan qismən ayrıldığını və lirikada tənqidi realist üsluba münasibətdə Q.Zakirin ədəbi mövqeyində dayandığını təsdiq edirdi" (5, s.226).

Daha sonra tədqiqatçı XIX əsr Azərbaycan ədəbiyyatında təqlidçi mövqedə duran epiqonçu şairlərin də olduğunu söyləyir və "bu cür epiqonçu şairlərin həyati gözəllərə qeyri-təbii münasibəti Q.Zakirin əsərlərində tənqid olunur və şair təqlidçi sənətkarların təbiilikdən uzaq olan yaradıcılıq prinsipinə öz etirazını bildirirdi" (5,227) -qənaətinə gəlir. Bununla yanaşı alim Q.Zakirə bu istiqamətdə nəzirə və bənzətmələr yazan Padarlı Abdulla və Qüdsi Vənəndi kimi şairlərin şeirlərindən gətirdiyi nümunələrlə

dediklərini əsaslandırmağa çalışmış, Zakirin məşhur "Gözləyən kimsə, gözün, həqqi deməz ay sana" misrası ilə başlayan müsəddəs-müstəzadını nümunə olaraq seçmiş və onun üzərində paralellər aparmışdır. Qeyd edirik ki, AMEA Əlyazmalar İnstitutunun arxivində saxlanılan və əsasən Abdulla Padarlının şeirlərindən ibarət olan, əvvəldən və sondan naqis B-1714/3339 şifrəli bir əlyazmasında Zakirin on bənddən ibarət olan müxəmməsinin hər bəndinə ayrı-ayrılıqda Abdulla Padarlı bənzətmə yazsa da, onu təkrar etməmiş, əksinə, sonrakı bəndlərdə hətta Zakirin dediklərinə əks fikirlər söyləməkdən də çəkinməmişdir. Qüdsi Vənəndi isə Zakirin müxəmməsinə tamamilə orijinal forma və məzmunlu şeir yaratmışdır.

Əsgər Qədimov Q.Zakir və Q.Vənəndinin yaradıcıclıq əlaqələrini daha geniş şəkildə təhlil edərək yazır ki, Vənəndinin Q.Zakirin şeiri ruhunda qələmə aldığı realist məzmunlu qəzəlləri də vardır ki, bu qəzəllərdə onun epiqonçu şeirə Zakir mövqeyindən tənqidi münasibəti əsas yer tutur (5, s.232). Daha sonra o, fikirlərini faktiki materiallarla – Zakirin "Olsun" rədifli qəzəli və "Qocalıq" rədifli müxəmməsinə Vənəndinin yazdığı bənzətmələrlə müqayisə fonunda gəldiyi nəticələrlə təsdiq edir. Digər regionlarla olduğu kimi Qarabağ ədəbi mühitinin nümayəndələri Ordubad şairləri ilə də yaradıcılıq əlaqələrində olmuş və onlar bir-birinin ədəbi irsindən kifayət qədər bəhrələnmişlər. Bu prosesin fəal iştirakçılarından biri Qüdsi Vənəndi idi. Ordubad ədəbi mühitində özünə layiqli yer tutan Qüdsi Vənəndi ətraf regionlarda da tanınmış, dövrün bir sıra məşhur şəxsiyyətləri ilə dostluq münasibəti yaratmağa nail olmuşdur. Əsgər Qədimov yazır: "Qarabağ ədəbi mühiti ilə yaxından əlaqə saxlayan Qüdsi Vənəndi də Gövhər ağanın xalq arasındakı nüfuzundan və şairlərin onu vəsf etməsindən xəbərdar olmuş, o da Zakir və Əsəd bəy Cavanşir kimi bu şairə qadını vəsf etmişdir. Qüdsinin Qarabağ mühiti ilə bağlı olan əsərləri içərisində onun Fikri bəy Qarabağiyə yazdığı mənzum məktubu da xüsusi yer tutur. Bu mənzum məktubunu Qüdsi Qasım bəy Zakirin:

Neçələr silsileyi-təbimə təhrik verir,
Rişteyi-nəzmə çəkəm yəni düri-qəltani (6, s.385).

- beyti ilə başlayan "Üsuli və şeyxi təriqət mollaların həcvi" satirasının vəzni, qafiyəsi və üslubu tərzində qələmə almışdır… Bu əsər Qüdsinin Qarabağ xanlığı və onun nümayəndələri ilə yaxın təmasda olduğunu təsdiq edir" (7, s.181-182).

Beləliklə, Qüdsi Vənəndinin yaradıcılığından götürdüyümüz bu nümunələrdən, eləcə də onun Qasım bəy Zakirə yazdığı digər bir neçə nəzirələrindən məlum olur ki, o, Qarabağ ədəbi mühiti ilə sıx yaradıcılıq əlaqəsində olmuş, böyük Zakirin yolu ilə gedərək Azərbaycan ədəbi mühitində tənqidi-realist fikrin yaranması, formalaşması və inkişafında öz imkan və bacarığı səviyyəsində iştirak etmişdir.

Faktlar təsdiq edir ki, Azərbaycan ədəbiyyatında tənqıdı-realist fikir hələ X1X əsrin 40-50-ci illərində formalaşmağa başlamışdır. Lakin bu fikirlə razılaşmayan formalist, epiqonçu şeirə qarşı mübarizənin təməl daşlarının X1X əsrin sonu, XX əsrin ilk illərində qoyulması fıkrını irəli sürən alimlərimiz də vardır. Ə.Qədimovun bu alimlərin fikri ilə razılaşmamasını biz də təqdir edir və onun gətirdiyi arqumentlərlə tam razılaşırıq. Çünki müxtəlif zaman kəsiyində ayrı-ayrı şairlərin yaradıcılığında epiqonçuluğa qarşı etiraz motivləri ara-sıra səslənsə də, o geniş vüsət tapmadığı üçün müəyyən təsir gücünə malik olmamışdır. Lakin XIX əsrin 40-50-ci illərində başda Qasım bəy Zakir olmaqla Qüdsi Vənəndi, Abdulla Padarlı və başqaları kimi bir sıra şairlər epiqonçuluğa qarşı tənqidi münasibəti daha da gücləndirmişlər. Əsrin əvvəllərində bəzi regionlarda, xüsusilə, Gəncə, Şamaxı və Ordubadda Qasım bəy Zakirin irsinə maraq göstərildiyi kimi, əsrin ikinci yarısında da bu ənənə davam etdirilmiş, Mirzə Həsən Yüzbaşov, Mir Möhsün Nəvvab, Abdulla bəy Asi kimi Qarabağ şairləri onun təsiri ilə satirik, hətta lirik şeirlər də yazırdılar. Şairin kiçik müasiri Mirzə Həsən Əli oğlu Yüzbaşov məsnəvi janrında yazdığı şeirləri, mənzum məktubları, təmsilləri "Rəsmi-vilayəti-

Qarabağ" və "Şəhri-Şişə", "Oğluma nəsihət" əsərləri ilə böyük şöhrət qazanmışdır. Geniş yaradıcılıq diapazonuna malik olan şairin seçdiyi mövzu dairəsi çoxşaxəli olmuş, zəmanəsində gördüyü, hər gün rastlaşdığı ədalətsizliyi, riyakarlığı, yoxsulların acınacaqlı həyat tərzini, varlıların özbaşınalığını, yalançı din xadimlərinin riyakarlığını cəsarətlə qələmə alaraq cəmiyyətdə mövcud olan eybəcərlikləri, neqativ halları kəskin tənqid atəşinə tutmuş və bu kimi şeirləri ilə Qasım bəy Zakir məktəbinin layiqli davamçısı olduğunu təsdiq etmişdir.

XIX əsrin birinci yarısında formalaşmağa başlayan Qarabağ ədəbi mühiti əsrin ikinci yarısında yeni, daha uğurlu inkişaf mərhələsinə qədəm qoydu. Dövrün yüksək intellektinə malik ziyalılarını özündə birləşdirən ədəbi məclislərin yaranması Şuşanın mədəni həyatında xüsusi rol oynadı vəədəbiyyatımız tarixinə mühüm ədəbi hadisə kimi daxil oldu. Bu mühitin yetirmələri təkcə Azərbaycan məmləkətinin ayrı-ayrı regionlarında deyil, onun hüdudlarından kənarda da tanınmağa başladılar.

Əslində, şeir – sənət yarandığı gündən şairlərin fikir mübadiləsi aparmaları üçün bu və ya digər şəkildə şeir məclisləri də təşkil olunmuşdur. Zaman keçdikcə şeirə artan maraq nəticəsində bu məclislər ayrı – ayrı imkanlı şəxslərin malikanələrindən şah saraylarına yol taparaq daha çox şöhrət qazanmış oldular. Təbii ki, saraya məxsus şairlər məclisinə üzv olmaq üçün qoyulan son dərəcə ağır şərtləri yerinə yetirmək çox çətin olduğu üçün oraya yalız xüsusi şairlik istedadı olan son dərəcə hazırlıqlı şairlər yol tapa bilirdi. Buna görə də xalqa yaxın olan el – oba şairləri ənənəvi qayda ilə müxtəlif yerlərdə - evlərdə, malikanələrdə, əsasən də qəhvəxanalarda kiçik şeir məclisləri təşkil edirdilər. Bu ənənə XIX əsrdə də mövcud idi. Araşdırmalar göstərir ki, Azərbaycanın müxtəlif regionlarında (Şəki, Qazax, Ağdaş, Göyçay, Qəbələ, Xaldan, Zərdab, Nəvahi, Şamaxı, Ordubad, Lənkəran və s.) həmin dövrdə çoxlu sayda qeydiyyata düşməmiş kiçik ədəbi məclislər fəaliyyət gostərirdi. Əsrin ortalarında Şuşa şəhərində Cəfərqulu xan Nəvanın öz sarayında şair, xanəndə və

sazəndələrdən ibarət xüsusi məclis təşkil etməsi faktı da deyilənləri təsdiq edir.

Əsrin 40-cı illərində mərkəzi şəhərlərdə mütəşəkkil ədəbi məclis yaratmaq ideyası yenidən gündəmə gəldi. Yeni yaradılan bu məclislər özünün demokratikliyi, maarifpərvərliyi, müstəqilliyi ilə yanaşı yaradıcı təşkilat olması ilə də mühüm əhəmiyyət kəsb edirdi. Tiflis və Gəncə mühitində böyük nüfuzu olan Mirzə Şəfi Vazeh rəsmi şəkildə Gəncə şəhərində " Divani-hikmət" adlı məclisi təşkil etdi. Qısa müddət ərzində məclis böyük şöhrət qazandı. Onun təsiri ilə digər regionlarda da bir-birinin ardınca ədəbi məclislər yarandı. Şuşa şəhərində Xurşidbanu Natəvanın sarayında onun başçılığı ilə "Məclisi-üns" adlı ədəbi məclisin yaradılmasını da həmin ənənənin davamı kimi qiymətləndirmək olar. 1872-ci ildə sarayın dərbar münşisi Mirzə Məhəmmədbağırın dünyasını dəyişməsi ilə əlaqədar olaraq Xan qızı onun oğlu Mirzə Rəhimi atasının missiyasını davam etdirmək üçün saraya dəvət etdi. Mirzə Rəhimin vəzifəsini layiqincə yerinə yetirdiyini görən Xurşidbanu ona daha çox etimad göstərərək 1864-cü ildə Şuşada Hacı Abbasın mənzilində qeyri-rəsmi şəkildə təşkil etdiyi məhdud sayda üzvü olan məclisin sonrakı fəaliyyətini sarayda davam etdirməsnə razılıq verdi. Bu vaxta qədər məclisin rəsmi adı olmadığı üçün sarayda fəaliyyətə başladığı ilk yığıncaqda ona məclisin ağsaqqalı Mirzə Sadiq Piranın təklif və xeyir-duası ilə "Məclisi-üns" (Dost məclisi) adı verildi. Məclisin yarandığı ilk günlər seçimlə əlaqədar olaraq onun say tərkibi məhdud idi. Oraya əsasən xan ailəsinə yaxın olan kübar şəxslər dəvət olunduğundan başda Mir Möhsün Nəvvab olmaqla Şuşanın bir sıra tanınmış şairləri kənarda qalmışdı. Vəziyyətlə əlaqədar Şuşada daha bir ədəbi məclisin yaradılmasına ehtiyac duyan Mir Möhsün Nəvvab ikinci bir məclis təşkil edərək onun adını "Məclisi-fəramuşan", yəni "unudulmuşların məclisi" adlandırdı. (Məclisin ikinci adı "Məclisi-xamuşan" (Susanlar məclisi) olsa da o birinci adla daha məşhur idi). Əvvəllər məclis üzvləri arasında müəyyən anlaşılmazlıq, qarşıdurma olsa da, tezliklə bu narazılıqlar aradan

qaldırıldı və məclislər arasında sağlam rəqabətə söykənən qarşılıqlı yaradıcılıq əlaqələri yarandı. Əlbəttə, məclislər arasında belə bir mühitin yaranmasının əsas səbəbkarları el anası Xurşidbanu  Natəvan və el ağsaqqalı Mir Möhsün Nəvvab idi.

“Məclisi-üns” saraya köçdüyü gündən onun şöhrəti artmağa başladı. Xüsusilə Xurşidbanunun məclisə başçılıq etməsi onu daha da məşhurlaşdırdı, müxtəlif bölgələrdən onun ünvanına təbriklər göndərildi.“Məclisi-üns” sədası Qafqaziyə şəhərlərində iştihar tapdığına, ən əvvəl şüərayi-Şirvan cənab Hacı Seyid Əzim, Bixud, Səfa, Zühuri qəzəllər yazıb təhniyyət izhar qıldılar. Əczayi-“Məclisi-üns” şeirlə cəvabi-dustanə əda etdilər. Şəkidən İsmayıl bəy Sədrəddinbəyov raqim adına şeir yazdı, cavab aldı. Naxçıvandan mərhum Sidqi izhari- məhəbbət etdilər” (6).

Tezliklə bu məclis həmin dövrdə müxtəlif regionlarda  təşkil edilən ədəbi məclislər içərisində həm iştirakçılarının sayına, həm də ədəbi məclislərlə əlaqəsinə görə xüsusi yer tutdu. “Bu məclisin sədası nəinki Azərbaycan rayonlarına, hətta Tiflis, İrəvan, Təbriz, Tehran, Aşqabad və başqa şəhərlərə belə yayıldı” (8, s. 118). Tədqiqatçı aim Bəylər Məmmədov Qarabağ ədəbi məclislərinin Azərbaycan şəhərlərindən əlavə, Tiflis, Kəlküttə, Bombey, Buxara, Mərv şəhərləri ilə də ədəbi əlaqə saxlayaraq məktublaşdığını qeyd edir (9,s.62).

Məclisə yaşca hamıdan böyük olan Mirzə Sadıq Piran ağsaqqallıq edirdi. Məclisin üzvləri Xurşidbanunun razılığı, Mirzə Rəhimin məsləhəti, və onun xeyir-duası ilə təyin olunurdu. Şairənin nəvəsi Əkbər xan xatirələrində yazır ki, nənəm həmişə məclisdə üzüaçıq oturar, danışanda da ucadan danışardı. Elə bil natiq idi. Həmişə nöqsanları göstərərək deyərdi ki, çalışın fars dili qatmayın, axı biz fars deyilik (10).

Məclisin sarayda fəaliyyətə başlaması ilə əlaqədar olaraq oraya üzv olmaq üçün müəyyən tələblər də qoyulmuşdu. İlk növbədə onların şairlik istedadı ilə yanaşı davranışı, əxlaqı və digər insani keyfiyyətləri də nəzərə alınırdı. Hətta əksər vaxtlarda şairin özü üçün seçdiyi təxəllüslə razılaşmayıb ona yeni təxəllüs də

qoyulurdu. Təxəllüs çox zaman şəxsin fərdi xüsusiyyətləri, təbiəti və təbinə müvafiq şəkildə verilirdi. Xurşidbanuya "Natəvan" təxəllüsünün verilməsi də məhz bu kriteriya ilə müəyyənləşdirilmişdir. Onun tez-tez xəstələnməsi, çəkdiyi dərd-kədərdən üzülməsi və zəifləməsini nəzərə alan Mirzə Rəhim Xurşidbanuya "Natəvan" təxəllüsünü götürməsini təklif etmiş və bu təklif məclisdə yekdilliklə qəbul olmuşdur.

"Məclisi-üns"də və istərsə də "Məclisi-fəramuşan"da əxlaq normaları, ayrı-ayrı şəxslərin davranışı, onların insanlara münasibəti, mehribanlığı və səmimiyyəti də ciddi nəzarətdə saxlanılırdı. Məclis üzvləri nəinki öz həmməclislərinə, digər məclis üzvlərinə də doğma münasibət bəsləməli və onlara ehtiramla yanaşmalı idilər. Əks təqdirdə, hər hansı bir nalayiq hərəkətə görə yoldaşlarının qınağına səbəb olub, tənqid hədəfinə çevrilə bilərdilər. Bu səbəbdən də ədəbi məclislərdə qarşılıqlı ehtiram, dostluq və səmimiyyət əsas meyar kimi həmişə mühafizə olunub saxlanılırdı. Burada qadın şairlərə xüsusi qayğı və rəğbət bəslənilirdi. Bu məqamlara xüsusi diqqət yetirən tədqiqatçı Nəsrəddin Qarayev haqlı olaraq: "... Şuşada hər iki məclisin qabaqcıl mədəni üzvləri sənətkar, gözüaçıq qadınlara yüksək qiymət vermişlər. Heç də təsadüfi deyildir ki, məhz qabaqcıl fikirli məclis üzvlərinin yaxından köməyi sayəsində Şuşada olan hər iki Məclisdə Natəvan və Kəminə kimi şairələr yaxından iştirak etmiş və bütün Azərbaycan şairləri arasında xüsusi hörmət qazanmışlar" (8, s.126) qənaətinə gəlmişdir. Əlbəttə, XIX əsrdə, cəhalətin tüğyan etdiyi bir məqamda qadınların kişilərlə çiyin-çiyinə bir məclisdə şeir oxumaları sözün həqiqi mənasında olduqca çətin bir məsələ idi. Bu hər şeydən öncə onlardan böyük cəsarət, möhkəm iradə və qətiyyət tələb edirdi. Mübaliğəsiz demək olar ki, bu məziyyətləri özlərində birləşdirən Natəvan və Kəminə bütün Azərbaycan qadınlarına örnək olmuşdur. Biz digər məclislərdə belə hallara təsadüf etmirik. Bunun özü də Qarabağda mədəni səviyyənin daha yüksək olmasını sübut edən faktor kimi qəbul edilə bilər. Təsadüfi deyildir ki, onlar öz cəsarətli addımları ilə digər mü-

tərəqqi dünyagörüşlü ziyalı qadınlara da təsir etmişlər.

Öz nəcib xüsusiyyətləri, xeyirxah əməlləri ilə xalqın rəğbətini qazanan Xurşidbanu Natəvan digər sahələrdə olduğu kimi ədəbiyyat, şeir, sənət aləmində də böyük uğurlar qazanmışdır. “O, novator şair olaraq lirik poeziyanı, qəzəli mücərrədçilikdən uzaqlaşdiraraq müəllif şəxsiyyətinə, həyatına, öz qadın hissiyyatına xeyli yaxınlaşdırmış, istedadı sayəsində klassik ədəbiyyatın qanunları, klişeləri çərçivəsində öz şəxsi duyğularını daha ətraflı verə bilmişdir. Onun geniş qəlbinin özünüifadəyə ehtiyacı olduğu üçün son dərəcə təsirli, dolğun və nüfuzedici əsl poeziya nümunəsi yarada bilmişdi.”.

Qarabağda mövcud olan “Məclisi-üns” və “Məclisi-fəramuşan” ədəbi dərnəklərinin üzvləri də ənənəyə sadiq qalaraq digər regionda fəaliyyət göstərən ədəbi məclis üzvləri ilə dostluq əlaqələri yaradır, qarşılıqlı müsabiqələr təşkil edirdilər. Bunun bariz nümunəsi kimi “Məclisi-fəramuşan”ın ən fəal üzvlərindən olan Abdulla bəy Asinin “Beytüs-səfa” (Şamaxı) ədəbi məclisinin başçısı Seyid Əzim Şirvani ilə dostluq əlaqəsini göstərmək olar. Bu iki istedadlı şairin dostluğu nəticəsində XIX əsrin iki aparıcı ədəbi məclisinin üzvləri arasında dostluq, mehribanlıq və qarşılıqlı yaradıcılıq əlaqələri yaranmışdı. Belə məqamlara xüsusi diqqət verən görkəmli tədqiqatçı Firidun bəy Köçərli Qarabağ şairləri ilə Şirvan şairləri, xüsusilə Asi ilə Seyid Əzim arasında yaranmış bu əlaqələri şərh edərək yazır: “Mərhum Asinin şöhrəti və hörməti xüsusən Şirvan şüəravü ürəfası mabeynində intişar bulmuşdu. Belə ki, Hacı Seyid Əzim kimi müqtədir bir şairi-dövran və ədibi-süxəndan Asini məliküşşüəra məqamında tutub özünü ona nisbət bir kəmtərin qulam hesab edir. Necə ki, deyibdir:

Nə Asi, ol ki, dəri-izzətinə Seyyidi-zar,
Qulamı olmaq ilə sahibixtiyar olacaq...” (1.s.104)

Daha sonra ədib bu məclislər arasında yaranmış ədəbi əlaqə-

lərin əyani sübutu kimi Şamaxı şairlərinin Şuşa şairlərinə ünvanladıqları məktubu nümunə olaraq olduğu kimi verir:

"Şamaxı şüəralarından ərizeyi-əczü inkisar.

Calisani-"Beyti-xamuşan"i-məsərrətbünyan hüzurlarına əshabi-"Beytüs-Səfa"dan ol xüsusda ki, bu günlərdə biz şüərayi-Şivan mabeynində qüvveyi-şe`rə mətanəti-nəzm barəsində müşairə vaqe olmuşdu. Mövlana Füzulidən bir qəzəli-fəsahətməşhun və bəlağətməzmunu intixab etdik ki, mütabiqi-qafiyə onun müqabilin deməyə iqdam edək və ol qəzəllər bir-birindən mafövq olmağın imtiyaz etməkdə biz şüərayi-Şirvan arasında mübahiseyi-külli və mücadileyi-əzim vaqe olmuşdur. Ona binaən haman qəzəlləri tamamən yazıb, hüzuri-bahirün-nurlərinizə pisnəhad etdik. Ümid ki, əshabi-firdovsnişan, xüsusən ol səramədi-dövran və qibleyi-ürfan Mövlana Abdulla bəy Asi və Növrəsi-əvvəl və tamami-əhli-məclis ol qəzəllərin biri-birindən əla və pabəst olmağın tərtibən imtiyaz edib, elam buyuralar ki, ta bu qəzəllərin hansı-hansından əla olduğu məlum və müşəxxəs ola. Məsələn, bu qəzəl əvvəlincidir, bu ikincidir, bu üçüncüdür, ilaxir.

Müxlisi-şüma: Hacı Seyid Əzim, Qafil, Rağib, Bixud, Salik, Səfa, Zövi və Zühuri".

Məktubun sonunda Füzulinin müsabiqə üçün seçilmiş məşhur:

Təriqi-fəqr tutsam, təb tabe, nəfs ram olmaz,
Qina qılsam tələb, əsbabi-cəmiyyət təmam olmaz.

- mətləli qəzəli verilmişdir. Başda Asi olmaqla "Məclisi-fəramuşan" üzvləri yekdilliklə birinci yeri Bixuda, ikinci yeri Seyid Əzimə, qalan yerləri isə ardıcıllıqla Zövi, Səfa, Salik, Qafil, Zühuri və Rağibə vermişdilər. Şirvan şairlərinin bu təşəbbüsündən ruhlanan Qarabağ şairləri "dəxi şe`rü qəzəl deməkdə öz qüvvələrini bildirmək üçün onlara cavab olaraq həman bəhrü qafiyədə hər hansı bir qəzəl tənzim edib Şirvana göndərdilər"(1.s.105)

Təbii ki, bu XIX əsr ədəbi məclisləri və onların ayrı-ayrı

üzvləri arasında dostluq və qarşılıqlı yaradıcılıq əlaqələrini əyani şəkildə təsdiq edən yeganə fakt deyildir. Mirzə Bəybaba, Məhəmmədəli bəy Məxfi, Mir Mehdi Xəzani, Seyid Mir Həmzə Nigari, Xurşidbanu Natəvan, Seyid Əzim Şirvani, Sədi Sani, Məşədi Əyyub Baki, Qüdsi Vənəndi və sair bir çox şairlərin adını çəkmək olar ki, onların hər biri digər bölgələrdə yaşayan şairlərlə yaxın dostluq və qarşılıqlı yaradıcılıq əlaqələrində olmuşlar. Bunu həm də onların mənsub olduqları ədəbi məclislərə və o məclislərin digər üzvlərinə də şamil etmək olar. Qarabağlı şair Hacı Abbas Agəh dəfələrlə Şamaxıya gələrək Seyid Əzimə qonaq olmuş, onunla məktublaşmış (11, v.122), Məmo bəy Məmai də bir neçə dəfə Şamaxıya gəlmiş, orada şeir və musiqi məclisində iştirak etmiş (12, v.217[a]), Şirvan şairlərindən Mirzə Əbdüləli Hilali Şirvani dəfələrlə Şuşaya gələrək "Məclisi-üns"də iştirak etmiş (13, v.71[a]), Mirzə Əli Lənkərani Şuşada olarkən "Məclisi-üns"ün qonağı olmuş (11, s.v.26), Xurşidbanu Natəvan dəfələrlə Şamaxıda Mahmud ağanın qonağı olmuş, Udulu Musa ilə məktublaşmışdır. Mir Mehdi Xəzaninin on ilə yaxın Gəncədə yaşayarkən sənət adamları ilə əlaqə yaratması, Məşədi Məhəmməd Bülbülün uzun müddət Gəncə, Bakı və Şəkidə yaşaması və yerli əhali, xüsusilə də şairlərlə əlaqə yaratması, Məşədi Əyyub Bakinin tez-tez Aşqabada, oradan da İranın Şiraz şəhərinə gedib-gəlməsi, onun böyük qardaşı Məşədi Lövhinin ticarət məqsədilə Şiraza getməsi və orada "Əzizi" təxəllüslü şairlə dostluq əlaqəsi yaratması, Məmo bəy Məmainin dəfələrlə müxtəlif şəhərlərdə, o cümlədən Rusiyada olması, Fatma xanım Kəminənin atası, şair Mirzə Bəybaba Fənanın tez-tez Tiflisə gedərək özünə çoxlu sayda dost-aşina qazanması və M.F Axundzadə ilə dostluq əlaqəsi yaratması, Xurşidbanu Natəvanın dəfələrlə Bakıda, Naxçıvanda, Tiflisdə olması və öz şeirləri ilə müxtəlif regionlarda çoxlu sayda pərəstişkarlar tapması, Seyid Mir Həmzə Nigari və Sədi Saninin uzun müddət Türkiyənin Amasiya şəhərində yaşayıb-yaratmaları və orada mövcud olan ədəbi mühitin formalaşmasında fəal iştirak etmələri, Məhəmmədəli bəy Məxfinin uzun müddət İrəvanda

dövlət qulluğunda çalışarkən yerli şairlərlə sıx təmasda olması və s. Qarabağ şairlərinin geniş diapazonlu xarici əlaqələrini sübut edən faktlardır. Rus və fars dillərini mükəmməl bilən və bu dillərdə həm nəsr, həm də nəzm ilə mükəmməl əsərlər yazan, tərcümələr edən Məhəmmədəli bəy Məxfi həm də maarifpərvər bir şəxs idi. Onun "Əkinçi" qəzetinin təsisçisi maarifçi-demokrat Həsən bəy Zərdabi ilə şəxsən tanışlığı və qəzetin daimi oxucusu olduğu, ölkə daxilində, eləcə də qonşu dövlətlərdə baş verən mühüm hadisələri mütəmadi olaraq izləməsi və bu olaylara müxtəlif qəzetlərdə münasibət bildirməsi dövrün "Təzkireyi-Nəvvab", "Riyazül-aşiqin", "Təzkireyi-Qaradaği", İbrahim Tahirin təzkirəsi və Firudin bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" kimi mötəbər mənbələrdə qeyd olunmuşdur. Bu faktlar onun XIX əsr maarifçilik hərəkatının önündə gedən şəxslərdən olduğunu sübur edir.

Qarabağın paytaxtı olan Şuşa  XIX əsrin ən inkişaf etmiş şəhərlərindən biri idi.  O "gündən-günə yox, saatdan saata böyüyür... əhali hər tərəfdən bu şəhərə axıb gəlirdi" (15). Böyük mədəniyyət mərkəzi olan Şuşa həm də dövrün ən qabaqcıl ziyalıları, alimlər, şairlər, xüsusilə də məşhur xanəndələrin toplaşdığı mərkəz idi. Təbii ki, ziyalılar arasında xüsusi yeri və çəkisi olan xanəndələr ictimaiyyət tərəfindən sevilən ən qabaqcıl zümrə kimi həmişə diqqət mərkəzində olmuş, mühitin formalaşmasında xüsusi rol oynamışlar. Musiqi və şeir qoşa  qanad kimi XIX əsr Qarabağ ədəbi mühitinin aparıcı qolları olmuşdur. Bunlardan birini digərindən ayrı hesab etmək qeyri-mümkündür. Həmin dövrdə müxtəlif regionlarda fəaliyyət göstərən digər məclislərdə də musiqiçilər mövcud idi. Lakin musiqiyə Qarabağda, xüsusilə, Şuşada olan diqqəti digər regionlarla müqayisəyə çıxarmaq böyük səhv olardı. Ana vətənin heç bir diyarında Qarabağda olduğu qədər musiqiyə rəvac verilməmişdir. Təbii ki, məclislərin formalaşması, onların fəaliyyətlərinin daha canlı və real olmasında xanəndələrin, musiqiçilərin böyük rolu danılmazdır. Dövrün tanınmış xanəndələri – Hacı Hüsü, Məşədi İsi,Keşdazlı Haşım,

Molla Vəli, Molla Abbasqulu, Məşədi Dadaş, Hacı Məhəmməd Alı oğlu, Muxtar Kərbəlayi Məhəmməd oğlu, Məhəmməd Qaryağdı oğlu ("Bülbül" təxəllüsü ilə şeir də yazırdı) və digərləri Şuşada fəaliyyət göstərən hər iki məclisin fəal iştirakçıları olmuşlar. Öndə qeyd etdiyimiz kimi, Şuşanın ilk memarı Pənahəli xanın quruculuq ilə əlaqədar gördüyü işlərin davamı olaraq onun varisi İbrahimxəlil xan da musiqiçilərə hörmətlə yanaşır və həmişə sarayında musiqiçilər dəstəsi saxlardı. Bu ənənə xanlıq hüququ ləğv olunana, yəni 1822-ci ilə kimi xan sarayında davam etməkdə idi. Qarabağ xanı Mehdiqulu xan ölkəni tərk etdikdən sonra bu ənənə pozuldu və musiqiçilər himayəsiz qaldı. Ölkədə üsul-idarə, nizam pözulduğu üçün xanəndə və sazəndələr saraydan uzaqlaşmış, dolanışıq üçün başqa regionlara üz tutmuş, əksər hallarda isə güzəranlarını təmin etmək üçün özlərinə başqa peşə seçmişlər. Lakin tarixin bütün dönəmlərində olduğu kimi, XIX əsrdə də xalqın babalardan miras qalan adət-ənənəsini sevən, onları gündəmdə saxlayaraq yaşadan insanlar sənət adamlarını bir yerə toplayaraq ənənəni yaşatmaq üçün məktəb yaratdılar. Belə məktəblərdən biri Xarrat Qulu məktəbi idi. Xarrat Qulunun atası Pərinaz oğlu Məhəmməd Mehdiqulu xanın sarayında fəaliyyət göstərən ansanblda sazəndə idi. O, musiqini çox sevdiyi üçün oğlu Qulunu da musiqiçi kimi görmək arzusunda idi. Ona görə də kiçik yaşlarından onun tərbiyəsi ilə özü məşğul olmuşdur. Qulu İrşad adlı müəllimdən dərs alaraq ərəb, fars dillərini mükəmməl öyrənmiş, dini elmlərə, yaxından bələd olmuş və musiqini də mükəmməl öyrənmişdir. Qulu gənc yaşlarında Kərbəla ziyarətinə getsə də, din xadimi olmadı, özünə başqa bir sənəti – xarratlığı seçdi. Bundan sonra Xarrat Qulu adı ilə məşhur oldu. Gözəl səsi olan Xarrat Qulu əsasən dini məclislərdə xoş avazla oxuyardı. Bununla yanaşı o, məhərrəmlik mərasimlərini canlı keçirmək üçün xanəndələrin rollarını müəyyənləşdirir və böyük ustalıqla həyata keçirərdi. Bu kimi tədbirlərin keçirilməsi nəticəsində Xarrat Qulu Şuşada xanəndəlik və vokal sənətinin inkişafında mühüm rol oynamışdır. Onun məclisi get-gedə sırf musiqi

məclisinə çevrilmiş və burada gələcəyin məşhur muğam istaları yetişmişdir.

F.Köçərli yazır: "Kərbəlayi Qulunun sənəti xarratlıq idi. Çox dəqiq və əhli-zövq, şirinkəlam bir şəxs idi ki, cümlə Şuşa əhli onu əziz və mehriban tuturdu. Öz sənətində artıq məharəti olduğu kimi elmi-musiqidə dəxi baxəbər idi və Qarabağın məşhur xanəndələri onun dəstpərvərdələridir. Ustad Qarabağ sənətkarları Hacı Hüsü, Məşədi İsi, Keçəçi oğlu Məhəmməd, Əbdülbaqi Zülalov, Cabbar Qaryağdı oğlu və onlarca muğam ustası və musiqiçisi Xarrat Qulu məktəbinin yetirməsidir".

Xarrat Qulu bacarıqlı xəttat, gözəl muğam ustası və istedadlı şair idi. O, təkcə Qarabağda yox,Gəncə,Tiflis,İrəvan,Bakı, Şamaxı kimi böyük şəhərlərində də şəbih tamaşalarında əsas rolları oynayardı. Buna görə də o, bütün Qafqazda məşhur idi.

XIX əsr Qarabağ ədəbi-mədəni mühitində Xarrat Quludan sonra musiqi elmilə məşğul olan sənətkarlardan biri dəMir Möhsün Nəvvabdır. Onun musiqi elmi və ifaçılığı sahəsində fəaliyyəti xüsusilə maraqlıdır. Ədib musiqi sənətinin estetik problemlərini, xanəndələrin ifa üsulunu, muğamlarda oxunan şeirlər və digər problemləri müzakirə etmək üçün 80-ci illərdə Hacı Hüsnü ilə bərabər "Musiqiçilər məclisi"ni yaratdı. Məclisə dövrün məşhur xanəndə və musiqiçiləri daxil idi. Hacı Hüsü, Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski, Sadıxcan və başqa bir çox musiqiçilər ilk təhsillərini məhz bu məclisdə almışlar. Məclisin yaranması ilə əlaqədar Nəvvab öz ənənəsinə cadiq qalaraq musiqi elminə aid dərs vəsaiti yazmaq qərarına gəldi. Beləliklə, yaradıcılığının ən kamil dövründə - 1884-cü ildə özünün Azərbaycan musiqi nəzəriyyəsinə dair ana dilimizdə yazılmış ilk ən uğurlu əsərlərindən olan "Vüzuhül-ərğam" (rəqəmlərin şərhi) əsərini yazdı. Bu əsərdə muğamın əmələ gəlməsi, onun təbabətlə əlaqəsi, şeirlə muğamın bağlılığı, estetika məsələləri, səsin akustikası, dəstgahların tərkibi, muğamlarda rəqəmlərin izahı, muğamların adları, musiqi alətləri haqqında məlumat verilmişdir.

Praktik məqsəd daşıyan bu əsər muğamların öyrənilməsi üçün kütləvi dərslik kimi də nəzərdə tutulmuşdur.

Başda dahi Üzeyir bəy Hacıbəyov olmaqla Firidun Şuşunski, Vəli Məmmədov, Zemfira Səfərova və başqa görkəmli musiqişünas alimlər Nəvvabın bu əsərinə istinsd edərək omu musiqişünas alim kimi dəyərləndirmişlər.

Əlbəttə, musiqi elminə aid əsər yazıb onu təbliğ etmək Nəvvab üçün o qədər də asan olmamışdır. Dini fətva və təqiblərdən ehtiyat edən ədib özünü qorumaq üçün  Zaqafqaziya müsəlmanlarının dini qanun və ehkamlarını başa salan, onları şərh edən baş ruhani Fazil İrəvaniyə müraciət etmək məcburiyyətində qalır. O, isə ədibin sorğusuna cavab olaraq "çalğıya və zəngulə ilə oxumağa" icazə verməmiş, lakin "Musiqi elmini öyrətmək və öyrənməyin eybi yoxdur, hətta vacibdir, amma onu təcrübədə işlətmək caiz deyil" cavabını da vermişdir. Cavab əlbəttə, Nəvvabı qane etməmişdir. O, mötəbər din xadiminə qarşı açıq-açığına çıxmasa da öz sözünü: "...bütün dövrlərdə musiqi elmi ilə məşhur alimlər məşğul olmuş və elmin ləzzətini dünyanın cəmi ləzzətindən artıq hesab etmişlər. "Vüzuhül-ərqam"ı yazmaqda bizim də elmiyyədən savayı bir niyyətimiz yoxdur" deməklə,  fikrini üstüörtülü ona çatdırmışdır. "Mən nə yazdımsa doğruluq və həqiqət üçün yazdım, öz nəfsim üçün yazmadım"- deyən ədib "Cəmi millətlər qəribə olan elmlər, və əcəba olan sənətlər ixtira etməklə tərəqqiyi-tam tapıb özlərini məqami-rüfətə yetiriblər. Amma bizim millətimiz o elmlər ki, onların əlindədir, bitamam tərk etməklə mədəniyyət aləmindən uzaqlaşıb və mətlələrdən geri qalıblar və elmlər bilmərrə mündəris olub xatirələrdən məhv və fəramuş olub"- deməklə heç bir dini qadağalara məhəl qoymadan, çəkinmədən öz mütərəqqi fikirlərini söyləmişdir. Bu da onun dövrünün açıq fikirli ziyalısı olduğunu təsdiq edirdi.

Qeyd etdiyimiz kimi, Natəvanın da şeirə, sənətə olduğu kimi, musiqiyə də dərin marağı var idi. O, yaxşı musiqiçiləri qəlbən sevir və onları hər yerdə əziz tutaraq həmişə qiymətləndirməyi bacarırdı. Mənbələrin verdiyi məlumata görə o, xan qızı olmasına

baxmayaraq məşhur sənətkarların, musiqişünasların ayağına getməyi özünə ar bilmirdi (12, s.267), tez-tez sarayında şeir müsabiqəsi ilə yanaşı musiqi müsabiqəsi də təşkil edirdi.

Tədqiqatçı-musiqişünas Ağalar bəy Əliverdibyov Natəvanın musiqiyə və müğənnilərə olan münasibətlərinə aydınlıq gətirərək yazır: "Müsiqi ilə artıq maraqlanıb, öz sarayında musiqi müsabiqəsi təşkil edib. İstedadlı və müstəhhəq xanəndələr bunun ənamına nail olardılar. Həmişə öz bargahında musiqi dəstəsi də saxlardı" (16, s.181).

Natəvanın qız nəvəsi Əkbər xan xatirələrində yazır ki, nənəm həmişə qəlyan çəkərdi. Onun gümüş başlı yaxşı Şiraz qəlyanı var idi. Qəlyançı Şükür adlı cavan oğlan idi. Şükürün yaxşı səsi var idi. Natəvan ona muğamatı öyrədirdi. Nənəm özü yaxşı musiqi həvəskarı idi. Qəlyan çəkə-çəkə Şükürə deyərdi ki, filan qəzəli oxu. Şükür oxuyardı, Natəvan isə onun qəzəlini düzəldərdi. Natəvan Şükürü yaxşı bir xanəndə etmişdi (10). Göründüyü kimi, musiqini də poeziya qədər sevən Natəvan onun Qarabağda formalaşması, inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Mənbələrdə Üzeyir Hacıbəyovun anası Şirinxanım Əliverdiyevanın musiqiyə, şeirə, ədəbiyyata maraq göstərməsində Natəvanın xüsusi rolu olduğu da qeyd edilir.

Faktlar göstərir ki, yeni yaranmış ədəbi məclislər təkcə ədəbiyyatın, şeirin, ümumilikdə poeziyanın deyil, həm də paralel olaraq musiqi mədəniyyətimizin inkişafında da mühün rol oynamışdır. XIX yüzillikdə Qarabağda (Şuşa və ətraf rayonlarda) 150-dğn çox şair yaşayıb-yaratmışdır. Təbii ki, bunların müəyyən qismi Şuşada fəaliyyət göstərən məclislərdə iştirak etmişlər. Bu da maraqlıdır ki, məclis üzvlərinin əksəriyyəti ya müəyyən bir musiqi alətində çala bilmiş , ya da məlahətli səsə malik olmuşlar. Onlar musiqiçiyə və ifaçaya yüksək tələbkarlıqla yanaşır, xeyirxah irad və təklifləri ilə onların kamil sənətkar olmaları üçün əllərindən gələni əsirgəmir və bununla da Azərbaycan poeziyasına, onun musiqisinə, ümumilikdə Azərbaycan mədəniyyətinə öz layiqli töhfələrini vermiş olurdular. Bunun nə-

ticəsi idi ki, özünün füsunkar təbiəti və qabaqcıl mədəniyyəti ilə şöhrət tapan Şuşa, musiqi, muğam diyarı kimi də məşhur olmuş, bu diyarı ziyarətə gələn səyyahların, ədiblərin, şairlərin və birinci növbədə musiqişünasların nəzər diqqətini cəlb etmişdir. Görkəmli rus musiqişünası V.Vinoqradov Şuşa səfərindən sonra yazılarında onun əsrarəngiz gözəlliklərini vəsf etməklə yanaşı musiqi beşiyi olmasını da xüsusi olaraq qeyd etmişdir: ”Şuşa uzun zamanlardan bəri musiqi mərkəzi kimi tanınmış və xalq musiqi istedadlarının tükəmməz məktəbi kimi bütün Zaqafqaziyada şöhrət qazanmışdır. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər”(17,s.9).

Başqa bir məşhur rus musiqişünası P.Vostrikov da həmkarının səsinə səs verərək yazırdı ki, oxumaq Qarabağdakı kimi heç yerdə yayılmamışdır. Burada hamı oxuyur. Qarabağda həm uşaq, həm böyük , həm cavan və qoca belə oxuyur. Hamı oxuduğu mahnılarda təskinlik və mənəvi qida tapır (18,s.12).

Bu sətirləri oxuyarkən istər-istəməz Xalq şairi Əli Tudənin misraları yada düşür:

Şuşada bir bulaq çağlayanda da,
Oxuya-oxuya çağlayır ancaq.
Uşaqlar beşikdə ağlayanda da,
Muğamat üstündə ağlayır ancaq.

Qarabağda xalq arasında məsəl kimi məşhur olan: “Şuşanın uşaqları ağlayanda “Seygah”, güləndə isə “Şahnaz” üstə gülərlər” – deyimi də həmin həqiqəti təsdiq edir(19,s.31).

Araşdırmalar göstərir ki, XIX əsrin ikinci yarısından XX əsrin iyirminci illərinə kimi Şuşa musiqiçiləri nəinki Qarabağda, eləcə də Zaqafqaziyanın əksər şəhərlərində çıxış edərək həmin yerlərdə milli musiqimizin inkişafına, yayılmasına və təbliğinə güclü təkan verirdilər. Məsələn, şuşalı musiqiçilərdən Məşədi Məmməd Fərzəliyev, Əbdülbağı Zülalov, Bala oğlu, Şəmil Məli-

kov, Saşa Tarxanov, Sevi, Levon Qaraxanov - Tiflisdə; Cabbar Qaryağdı oğlu, Qurban Pirimov – Bakıda, Malıbəyli Həmid, Əsgər, Məşədi Cəmil Əmirov, Böyükkişi Əliyev, Əli Cavad oğlu – Gəncədə; Məcid Behbudov, Rövşənin nəvəsi Şükür - İrəvanda xanəndəlik edirdilər. Bu səhnənin şahidi olan böyük ədibimiz Ə.Haqverdiyev haqlı olaraq yazırdı: ”Qarabağ xanəndə mədənidir. Buradan Hacı Hüsü, Məşədi İsi, Həsənçə, Qaryağdı oğlu kimi adlı-sanlı xanəndələr çıxıbdır. Qafqazın hər yerinə getsən orada xanəndəni, tarçalanı, kamaçaçını qarabağlıdan görəcəksən”(20,s.56).

Bütün bu faktlar bir daha sübut edir ki, Qarabağ musiqiçiləri xalqımızın mənəvi sərvəti olan milli musiqimizin təkcə Qarabağda deyil ümumilikdə Azərbaycanın, eləcə də bütün Qafqazın hər yerində yayılması və inkişaf etdrirlməsində əvəzsiz rol oynamışlar.

Göründüyü kimi, öz zənginliyi və unikallığına görə Qarabağ mədəniyyəti ümumazərbaycan mədəniyyətinin aparıcı və ayrılmaz tərkib hissəsi olmuşdur. Buna əsaslanaraq cəsarəltə deyə bilərik ki, Qarabağ mədəniyyəti Azərbaycan mədəniyyətinin güzgüsüdür.

Hələ XIX əsrin birinci yarısında Qarabağ ədəbi mühiti özünün inkişaf səviyyəsinə görə dövrün bir sıra görkəmli şəxsiyyətlərinin diqqətini cəlb etmişdir. Belə şəxsiyyətlərdən biri də ədəbiyyatımızın, ictimai fikir tariximizin böyük memarı Mirzə Fətəli Axundzadə idi. Əsrin 40-cı illərində xidməti vəzifəsi ilə əlaqədar olaraq Qarabağa ezam olunan M.F.Axundzadə bu regionda rastlaşdığı, sonralar isə yaxın dostluq əlaqəsi yarada bildiyi insanların potensial imkanlarını nəzərə alaraq onların dünyagörüşünə ciddi təsir edə bildi; onlarda maarifə, maarifçiliyə, mədəniyyətə, dövrün hadisələrinə, cəmiyyətdə baş verən yeniliklərə maraq hissi oyatdı və bu olaylara yeni prizmadan açıq gözlə baxmaq vərdişini aşıladı. Ədəbi bədii əsərlərində Qarabağ elatının məişətini, həyat tərzini ən xırda detallarına qədər dəqiq

verməsi onun bu regionda dəfələrlə olması və hətta müəyyən müddət bu insanlar arasında yaşamasından xəbər verir.

1852-ci ildə Mirzə Fətəli Qafqaz canişinin sərəncamı ilə Qarabağda bir qrup qaçaq-quldur dəstəsini tutmaq və mühakimə etmək üçün polkovnik Meyyerin başçılığı ilə təşkil olunmuş istintaq-məhkəmə komissiyasının tərkibində tərcüməçi kimi iştirak etməsi və bu səfər zamanı Şuşada uzun müddət (on aya yaxın) yaşaması Qarabağ ədəbi mühitini yaxından öyrənmək üçün ona şərait yaratdı. Axundzadənin burada yeni-yeni mütərəqqi ruhlu insanlarla tanış olub onların əsərlərini nəşr etdirmək üçün özü ilə Tiflisə aparması, Mirzə Camal, Mirzə Adıgözəl bəy, Qasım bəy Zakir, Cəfərqulu xan Nəva, Bəhmən Mirzə, Baba bəy Fəna, Məhəmmədəli bəy Məxfi, Mirzə Məhəmməd Katib, Xurşidbanu Natəvan, Həsənəli xan Qarabaği və digər tanınmış qarabağlı ziyalılarla birbaşa təmasda olması və bu insanlarla yaxın dostluq əlaqələri yaratması fakt olaraq dediklərimizə sübutdur.

M.F.Axundzadə tezliklə bu regionda məşhur oldu, onun Qarabağ ədəbi ictimaiyyəti ilə əlaqələri möhkəmləndi. Mükəmməl tanışlıqdan sonra, ədib özünün mütərəqqi ideyalarını bu regionda yaymaq qərarına gəldi. Bunun üçün əsərlərinin üzünü köçürtmək bəhanəsilə onları Qarabağa – Şuşaya xəttat Əbdüllətifə göndərdi. Qasım bəy Zakirin vasitəçiliyi ilə yaranan bu əlaqə çox faydalı oldu. Zakir, Mirzə Məhəmməd Katib, Əbdüllətif, Cəfərqulu xan Nəva Axundzadənin əsərlərini Qarabağda oxuyan ilk ziyalılar idi. Onlar ədibin ideyalarını bəyəndilər, mənzum məktublarında öz münasibətlərini bildirdilər, onun başladığı işin faydalı olduğunu xüsusi olaraq qeyd etdilər. Lakin M.F.Axundzadəni Qarabağ ədəbi mühitində qəbul etməyənlər, hətta ona düşmən münasibət bəsləyənlər də meydana çıxdı. Bu, əsasən, Axundzadənin yeni əlifba islahatı ilə bağlı olaraq baş verdi. Bəzi din xadimləri, şairlər, o cümlədən, tanınmış ziyalı Mir Möhsün Nəvvab, şair Həsən Qara Hadi və başqaları Axundzadənin əlifba islahatına qısqanclıqla yanaşaraq onun bu xeyirxah işini dinə zidd, müqəddəs Qurana xəyanət kimi qiymətləndirdilər. Təbii ki,

dini amildən ehtiyat edən Zakir, Nəva, Katib kimi ziyalılar bu xeyirxah işdə Axundzadəyə yaxından kömək edə bilmədilər. Çünki Zakir də, Nəva da, ictimaiyyət arasında nə qədər böyük nüfuz sahibi olsalar belə cəmiyyətin tənzimləyici qüvvəsi olan dinə qarşı heç bir ixtilafazidd hərəkətə yol verə bilməzdilər. Əlbəttə, bunu tam dəqiqliklə başa düşən böyük mütəfəkkir M,F.Axundzadə dostlarını qınamır, mövcud reallıqla barışmağı üstün tuturdu.

M.F.Axundzadənin Qarabağda ilk tanışlığa kiminlə başlamasını söyləmək çətindir. Bizim fikrimizcə, o, birinci növbədə Şuşanın tanınmış şəxsləri, ziyalıları, dövlət adamları və şairləri ilə tanış olub münasibət yaratmışdır. Ancaq sonrakı mərhələdə onun ən çox etibar edib ictimai dərdini bölüşdüyü Qasım bəy Zakir və Cəfərqulu xan Nəva olmuşdur. Çox güman ki, Axundzadə bu iki şəxsiyyətlə eyni vaxtda – qırxıncı illərin ortalarında Şuşada tanış olmuşdur. O zamanlar Zakirlə Nəvanın dostluq əlaqələri hələ pozulmamışdı. Onlar yaxın qohum, sirdaş, dost kimi mehriban yaşayır, birgə şeir yazır, yaradıcılıq əlaqələrini davam etdirirdilər. Əlbəttə, Axundzadənin Zakirlə ünsiyyət qurmasının əsas səbəbi də onun şair kimi məşhur olması idi. Akademik Feyzulla Qasımzadə yazır: “40-cı illərdə o (Axundzadə - R.K.) məşhur şair Qasım bəy Zakirin şeirləri ilə dərindən maraqlanır və nəzmən onunla yazışmağa başlayır ki, bu yazışma onların arasında şairin ölümünə qədər davam edir” (21.s.256). Qasım bəy Zakirin irsinin öz vaxtında toplanılması, səliqəyə salınması,mühafizə edilməsi, tədqiq olnması və təbliği sahəsində də M.F. Axundzadənin əvəzsiz xidmətləri olmuşdur. Zakirin nəfis şəkildə üzü köçürülmüş əsərlərini M.F.Axundzadənin yazdığı kimi, özü Zakirdən almışdır. 50-ci illərdə M.F.Axundzadə öz komediyalarını da Zakirə verərək şuşalı xəttat Mirzə Əbdüllətif tərəfindən üzünü köçürtmüşdür. O, Zakirin əsərlərini nəşr etdirmək məqsədilə əlyazmasının bir hissəsini redaktə etmiş, hətta ona “Nəzm və nəsr haqqında” adlı müqəddimə də yazmışdır (22,s.221) Ədibin arxivində saxlanılan Mirzə Yusif Qarabağinin

«Məcmueyi-Vaqif və digər müasirin» adlı kitabının (23) sonunda yazılmış «Nəzm və nəsr haqqında» adlı məqalə də olduqca maraqlıdır. Məqalənin yazılma səbəbi haqqında müəllif tərəfindən məlumat verilməsə də, onun əsl məramını anlamaq o qədər də çətin deyil.Tədqiqatçıların fikrincə, Axundzadə onu M.P.Vaqif və Q.Zakirin nəşrini nəzərdə tutduğu əsərlərinə müqəddimə olaraq yazmışdır. Ədib "əyyami-səyahətində səhifeyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını görür və zikr etdiyi şərt bir növ ilə onda görünür"; "... dəxi Qasım bəy Sarıcaluyi-Cavanşirə düçar olur ki, əlhəq, türk dilində onun mənzumatı ədibin heyrətimə bais olur" və buna görə də "onların mənzumatını bir mücəllədin içində basdırıb müntəşir edirmək istəyir ki, bundan sonra şeir maddəsi ilə zühurə gələn vücudlara nümunə və əndazə olsun və bunların əşarını görəndən sonra bir para öz haqlarında müştəbeh olan nəzm sənətkarları şair olmadıqlarını anlayıb, bihudə özlərini zəhmətə salmaqdan və yavan nəzmlərin inşasına övraq sərf etməkdən əl çəksinlər» (22,s.222).

Göründüyü kimi, M.F. Axundzadə digər şairlərə nümunə olmaq üçün qəti qərara gəlmişdi ki, Vaqif və Zakirin əsərlərini nəşr etdirsin. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, M.F. Axundzadənin «Nəzm və nəsr haqqında» məqaləsi istər M.P. Vaqif və istərsə də Q. Zakirin yaradıcılıq istedadına, onların şairlik qüdrətinə layiqli qiymət verən ilk ciddi əsərdir.

M.F. Axundzadə Zakirin əsərlərinin toplanması, tərtibi və nəşri ilə bağlı gördüyü işlərlə yanaşı, onun təbliği ilə də ciddi şəkildə məşğul olmuşdur. Məhz onun sayəsində Zakirin ilk mətbu əsəri ("Fərzəndi-əziz") dövrün ən mötəbər mətbu orqanı olan "Kavkaz" qəzetində nəşr olunmuşdur. Tiflis ədəbi mühitində xüsusi yeri olan Axundzadə həm də Qafqaz Arxeologiya Komissiyasının rəsmi üzvü idi. Bu komissiyanın sədri görkəmli şərqşünas alim Adolf Petroviç Berje (1828-1886) Axundzadə ilə yaxın əməkdaşlıq edir, ədəbiyyatla bağlı əksər məsələləri onun məsləhəti ilə həll edirdi. A. Berjenin 1867-ci ildə Leypsiqdə nəşr etdirdiyi "Məcmueyi-əşari-şüərayi-Azərbaycan" (24) əsəri də məhz

Axundzadənin birbaşa köməyi və tövsiyəsi ilə ərsəyə gəlmişdi. A.Berjeyə lazımı materialları da Axundzadə vermişdi. Bunu başda M.P. Vaqif və Q. Zakir olmaqla məcmuədə adı çəkilən şairlərin əsərlərinin Axundzadənin arxivində olması faktı da sübut edir. Sonralar M.F. Axundzadə və Q. Zakir münasibətlərini dərindən öyrənən F. Köçərli bir sıra əsərlərində Zakirin məhz Axundzadənin arxivində saxlanılan əsərlərindən seçdiyi nümunələrdən istifadə etmiş, ilk dəfə olaraq M.F. Axundzadə və ondan sonrakı realist ədəbiyyata Q. Zakirin göstərdiyi novator təsiri böyük cəsarətlə söyləmişdir(1,s.418).

Zakirin yaradıcılığına ilk düzgün və obyektiv qiymət verən də Mirzə Fətəli olmuşdur. O, poeziya üçün müəyyən etdiyi kriteriyanın əsas atributlarını Zakirin əsərlərində gördüyü üçün elə ilk tanışlıqdan sonra (40-cı illərin ortalarında) onları nəşr etdirmək üçün özü ilə Tiflisə aparır. Zakirin Divanı üzərində Axundzadənin apardığı düzəlişlərdən məlum olur ki, ədib onu nəşr üçün tam hazırlamışdır. Ümumiyyətlə, Zakir irsinin toplanması, səliqəyə salınması, mühafizə edilməsi, tədqiq olunması və təbliği sahəsində Axundzadənin misilsiz xidmətləri olmuşdur. Onların arasında yaranan yaradıcılıq əlaqələri sonralar inkişaf edərək əqidə-məslək birliyinə çevrilmiş və yaxın dost, məsləkdaş olmaları üçün zəmin yaratmışdır. M.F.Axundzadənin Zakirə olan dərin məhəbbətini gizlətmədən ona “Ata” deyə müraciət etməsi bu yaxınlığın ən bariz nümunəsidir. Bu məhəbbət təkcə sözdə yox, əməldə də özünü aydın şəkildə göstərmişdir. Q.Zakirin başına gətirilən müsibətlərə qəlbən acıyan və bu müsibətləri özününkü hesab edən Axundzadə onun təqiblərdən mühafizə olunması, fiziki cəhətdən məhv edilməsinin qarşısını almaq yolunda əlindən gələni etmiş, hətta dövlət orqanlarında çalışan, ictimaiyyətdə mövqeyi olan ən yaxın dostlarını da bu məsələyə qoşulmağa vadar etmişdir. Həmin dövrdə Qafqaz canişinliyində işləyən və böyük nüfuz sahibi olan M.F.Axundzadə ilə Q.Zakirin şəxsi əlaqələrini aydınlaşdırmaq üçün Rzaqulu bəy Mirzə Camal oğlunun verdiyi məlumat elmi baxımdan olduqca maraqlıdır.

Rzaqulu bəy, həm atası Mirzə Camal Cavanşirin, həm də özünün yaxın dostu olan Qasım bəy Zakirin həyatının son dövrlərini, ömrünün ixtiyar çağlarında onun başına gətirilən müsibətləri, eləcə də M.F.Axundzadə və başqa dostları tərəfindən ona göstərilən köməyin mahiyyətini öz əsərində təfsilatı ilə təsvir etmişdir.

M.F.Axundzadənin Qarabağda əməkdaşlıq etdiyi dostlarından biri də İbrahimxəlil xanın nəvəsi Cəfərqulu xan Nəva idi. O, Nəva, Arif, və Xan təxəllüsləri ilə lirik-satirik üslubda şeirlər yazırdı. Ədəbiyyatımız tarixinə Cəfərqulu xan Nəvanın adı Qasım bəy Zakirlə əlaqədar olaraq düşmüşdür. O, uzun müddət Zakirlə yaxın dostluq və qarşılıqlı yaradıcılıq əlaqəsində olmuş, 1849-cu ildən sonra isə münasibətləri pozulmuş, aralarında olan dostluq düşmənçiliyə çevrilmişdir. Həmin tarixdən etibarən Zakir onu hədəfə almış, yaxın dostlarına, xüsusilə də M.F.Axundzadəyə yazdığı məktublarında Cəfərqulu xanı rüsvayi-cahan etmişdir. Sovetlər dönəmində Zakirin irsini araşdıran tədqiqatçılar onlrın aralarında olan münasibətlərə qərəzli mövqedən yanaşaraq Cəfərqulu xan haqqında ədalətsiz qərar çıxarmış, onu dünyanın ən qəddar, zalım, yaramaz adamı kimi qələmə vermişlər. Araşdırmalar göstərir ki, Cəfərqulu xan Nəva müəyyən mənfi xüsusıyyətlərə malik olsa da, əslində vətənini sevən, prinsipial, açıq fikirli, maarifpərvər bir şəxs olmuşdur. M.F. Axundzadə Cəfərqulu xanda olan bu keyfiyyətləri nəzərə alaraq onunla yaxın dostluq əlaqəsi yaratmış, Qarabağ regionunda ən etimadlı şəxs kimi ona arxalanmış, mütərəqqi ideyalarını, xüsusilə də əlifba siyasətini həyata keçirmək üçün onun da potensial imkanlarından istifadə etməyə cəhd göstərmişdir.

Əmisi Mehdiqulu xanla düşmənçilik etməsinə baxmayaraq Cəfərqulu xanın Qarabağda çox böyük nüfuzu var idi. Onun əldə olan şeir nümunələrindən məlum olur ki, şair, yalançı din xadimlərinə qarşı olduqca aqressiv münasibət bəsləmiş, hətta lazım gəldikdə mövqeindən asılı olmayaraq ən mötəbər din xadimini də həcv etməkdən, satira atəşinə tutmaqdan çəkinməmişdir. Yəqin

ki, Mirzə Fətəlinin diqqətini çəkən başlıca səbəb də Nəvanın bu xüsusiyyətləri olmuşdur. Bizim fikrimizcə, Cəfərqulu xanın bir müddət Rusiyada yaşaması, onun rus dilini bilməsi və rus mədəniyyətindən xəbərdar olması, açığını desək, elə Axundzadə kimi buspərəst olması, onların dostluq əlaqələri üçün başlıca zəmin yaratmışdır. Məhz Cəfərqulu xanda olan bu keyfiyyətləri nəzərə alan Axundzadə onunla dostluğun binasını qoymuş və Qarabağ regionunda arxalandığı ən etibarlı şəxs kimi onu seçmişdir. Mirzə Fətəlinin əlimizdə olan ona ünvanlanmış üç, Cəfərqulu xanın isə Mirzə Fətəliyə yazdığı bir cavab məktubu mötəbər sənəd kimi yuxarıda deyilənləri təsdiq edir.

Axundzadənin ona ünvanladığı doqquz benddən ibarət məktubuna cavab olaraq Cəfərqulu xanın yazdığı on bənddən ibarət məktubu olduqca maraqlıdır. Bu məktubları tarixi bir sənəd də adlandırmaq olar. Çünki həmin məktubda Axundzadənin Qarabağa güclü meyl göstərməsinin əsas səbəbi aydınlaşır. Məktubdan məlum olur ki, Axundzadə əlifba siyasətini həyata keçirmək üçün münasib hesab etdiyi məkanlardan biri, bəlkə də birincisi Qarabağ, onun mərkızi Şuşa şəhəri olmuşdur. Şairin bu məsələ ilə əlaqədar yaxın dostları Mirzə Əli (Şuşanın ilk qazisi) və Cəfərqulu xana müraciət etməsi də təsadüfi deyildir. Bu şəxslərin hər ikisi regionda yüksək mənsəb sahibi olmaqla yanaşı, həm də mütərəqqi görüşləri ilə başqalarından seçilirdilər. Cəfərqulu xanın mollalarla münasibətini yaxşı bilən Axundzadə diplomatik gediş edərək ona ünvanladığı şeirini mollalardan şikayətlə başlayır və sonra nahaq yerə onlardan kömək dilədiklərini təəssüflə qeyd edir. Sonrakı bəndlərdə bunları başa salmağın "soyuq dəmiri döymək" kimi ağır bir iş olduğunu, hərəsinin bir avaz oxuduğunu, ikiüzlülük edərək yeni əlifba haqqında üzdə bir, arxada isə başqa bir söz demələrini, yalnız bu işdə Mirzə Əlinin sabitqədəm olduğunu təəssüflə Cəfərqulu xana çatdırır. Cəfərqulu xan da öz növbəsində Axundzadəyə yazdığı cavab məktubunda onun gördüyü bu işi yüksək qiymətləndirərək "əhsən"ə layiq olduğunu söyləyir. Sonra o ədibin gördüyü bu xeyirxah işi

müqabilində "qiymətli xələt" əvəzinə düşmən qazanmasını təəssüflə bildirərək məsələnin demokratik yolla həll olunması üçün məsləhət görür ki. mollalar da öz fikirlərini bildirsinlər. Əgər onların ideyaları məqbul olsa, hamımız onunla razılaşaq.

Mənzumələrdə həmçinin onların hər ikisi eyni fikirdə olub ərəb qrafikalı əlifbanın mürəkkəbliyindən, oxunuşunda yaranan çətinliklərdən bəhs edərək onun dilimiz üçün məqbul olmadığını qeyd edirlər.M.F.Axundzadənin Cəfərqulu xana yazdığı məktublar onun yüksək səviyyəli ziyalı, tərəqqiyə açıq gözlə baxan bir insan olduğunu sübut edir. Əlifba məsələsi ilə əlaqədar Axundzadənin Cəfərqulu xana müraciət etməsini təsadüfi hesab etmək olmaz. Onlar həmfikir, həmməslək olmasaydılar, təbii ki, ümumi dil tapa bilməz, belə qlobal məsələnin həllində yekdil olmazdılar.

M.F.Axundovun Qarabağda dostluq etdiyi Fəna təxəllüsü ilə şeir yazan Mirzə Bəybaba Fatma xanım Kəminənin atası idi. O, dövlət qulluğunda çalışmaqla yanaşı ticarətlə də məşğul olurdu. Peşəsi ilə əlaqədar Zaqafqaziyanın bir sıra iri şəhərlərinə, o cümlədən Tiflisə tez-tez səfərlər edən Bəybaba Qasım bəy Zakirin vasitəçiliyi ilə Mirzə Fətəli Axundzadə ilə tanış olur və bu tanışlıq sonralar möhkəm dostluğa çevrilir. Mirzə Bəybabanın mütərəqqi ruhlu şəxs olduğunu hiss edən M.Axundzadə öz ideyalarını, xüsusilə də əlifba islahatını həyata keçirmək üçün onun köməyindən də istifadə etməyə çalışır. M.Bəybaba həmyerlisi və tabeçiliyində çalışdığı Cəfərqulu xan Nəva kimi bu işdə Axundzadəyə yardımçı olmağa çalışsa da, Qarabağda, xüsusilə Şuşada mövcud olan əks qüvvələr bu mütərəqqi ideyanın həyata keçməsinə ciddi şəkildə mane olduqları üçün onların cəhdləri fayda vermir. M.Bəybaba hər dəfə Tiflis şəhərinə səfərindən öncə Qasım bəy Zakirlə görüşər, məsləhətləşər və lazımi məlumatları M.F.Axundzadəyə çatdırardı. Beləliklə, o M.F.Axundzadə ilə Qarabağ ədəbi-ictimai mühiti arasında daimi əlaqə yaranmasında birbaşa vasitəçi missiyasını həyata keçirirdi. Bu faktlar Q.Zakirin M.F.Axundzadəyə yazdığı mənzum məktublarda öz əksini tapmışdır.

Qarabağın maarifçi ziyalılardan olan Həsənəli xan Qaradaği də Axundzadə ilə yaxın təmasda olmuşdu. Onun himayədarı olan əmisi Məhəmmədhüseyn ağa dövrünün tanınmış ziyalılarından idi, ana dilindən başqa rus, ərəb, fars və fransz dillərini də yaxşı bilirdi. Məhəmmədhüseyn ağa 1862-ci ildə Tiflisə köçmüş və orada Qafqaz canişinliyinin baş idarəsində dövlət əmlak departamentində xidmət edərkən Axundzadə ilə yaxın dost olmuşdur. Həsənəli xan da Axundzadə ilə Tiflisdə tanış olmuş və aralarındakı yaş fərqinə baxmayaraq bu tanışlıq sonralar dostluğa çevrilmişdir. Axundzadə səmimiyyət əlaməti olaraq istər yazdığı məktublarda və istərsə də danışıq zamanı Həsənəli xana "qardaşoğlu" deyə, müraciət edirdi. Həsənəli xan istedadlı şair olmaqla yanaşı tərcüməçi, aktyor, təzkirəçi alim, müxbir və müəllim kimi də Qarabağda məşhur idi. O, Şuşada Xandəmirovun tikdirdiyi teatr binasında verilən tamaşalarda Yusif bəy Məlik-Haqnəzərov, S.S.Axundov və başqaları ilə birlikdə müxtəlif rollarda səhnəyə çıxmış, teatr həvəskarları dərnəyində aktyor və suflyor kimi çalışmış, İ.Krılovun təmsillərini Azərbaycan dilinə çevirmiş, Tiflisdə çıxan "Kəşkül" qəzetində məqalələrlə çıxçş etmişdir (25).

Xan Qaradaği Şuşada fəaliyyət göstərən ədəbi məclislərinin hər ikisində fəal iştirak etmişdir. O tərtib etdiyi "Təzkireyi-Qaradaği" əsəri ilə də məşhurdur. Şairin bu əsəri Zəngəzur və Qarabağ şairləri haqqında məlumat verən qiymətli mənbə hesab olunur. Təsadüfi deyildir ki, Sarı Aşıq haqqında ilk məlumatı da Xan Qaradaği bu təzkirəsində vermişdir (26. s.3).

Xan Qaradaği uzun illərin zəhməti olan "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları, Pənah xan, İbrahim xan və Mehdiqulu xan əyyami-hökumətlərinin əksər vəqaye və hekayətləri" adlı əsəri ilə tarixçi kimi də məşhur olmuşdur. O, həmçinin 1870-ci ildə Şuşada ana dilində yeni tipli üsuli-cədıd məktəbi açmış, ilk dəfə olaraq parta və yazı taxtasından istifadə etmiş, rus dilindən tərcümə etdiyi "Körpə uşağı saxlamaq", "Göz ağrısına müalicə" kimi elmi-kütləvi əsərlərlə, tərtib etdiyi lüğətlə,

bu yöndə gördüyü digər işlərlə xalqın maariflənməsi işinə xidmət etmişdir. Təbii ki, onun maarifçi kimi formalaşmasında Mirzə Fətəlinin böyük rolu olmuşdur.

Axundzadənin Qarabağda yaradıcılıq əlaqəsində olduğu şəxslərdən biri də Mirzə Məhəmməd Katib idi. O, klassik və aşıq şeiri üslubunda şeirlər yazan istedadlı şair və gözəl xəttat idi. Təbiətcə son dərəcə mehriban və səmimi olan şairin çoxlu sayda dostları olmuşdur. Onların sırasında böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə ilə dostluğu xüsusi yer tutur. Axundzadə Şuşada ezamiyyətdə olarkən Katibin əsərləri ilə tanış olmuş, hətta onu Tiflisdə təşkil edəcəyi "Məclisi-xas"a üzv olmağa dəvət etmişdir. O, həmçinin Katibdən əsərlərini toplayıb nəşr etdirmək üçün ona göndərməsini də xahiş etmişdir. Lakin Katib tufanlı bir gündə Kür çayını keçən zaman içərisində şeir dəftəri olan xurcunu suya düşüb axdığı üçün Axundzadəyə verdiyi vədi yerinə yetirə bilməmiş və ona bir neçə şeir göndərməklə kifayətlənmişdir. Katibin əlimizdə olan şeirləri içərisində Axundzadəyə yazdığı 20 bənddən ibarət bir mənzuməsi də vardır (27,s.10). Burada şair öz vəziyyəti, başına gələn hadisələrlə əlaqədar məlumat verməklə yanaşı Axundzadənin xalq üçün gördüyü işlərdən, onun xeyirxahlığı və alcənablığından, "şairlərin piri-süxəndanı", "aqillərin sərvəri, sultanı" olmasndan da söz açır, yazdığı əsərlərin başdan-ayağa hikmət olmasını fərəhlə qeyd edir. Hiss olunur ki, Katib Axundzadənin bəzi əsərlərini oxumuşdur.

Axundzadə Qarabağa təkcə şairlərlə deyil, orada yaşayıb-yaradan müxtəlif peşə sahibləri: dövlət qulluqçuları, filosoflar, alimlər, tarixçilər, ziyalılar və hətta bəzi mollalarla da dostluq əlaqəsi yarada bilmişdi. Onlardan biri Qarabağın ictimai və siyasi həyatında böyük rol oynayan, ilk "Qarabağnamə" müəllifi kimi məşhur olan Mirzə Adıgözəl bəy idi. Onun 1845-ci ildə yazdığı "Qarabağnamə" əsəri tezliklə inzibati mərkəz olan Tiflisdə böyük şöhrət qazanmışdı. Axundzadə əsər haqqında Adolof Berje və məşhur şərqşünas Xanıkova məlumat verdikdən sonra ümumi razılıqla 1848-ci ildə onun üzü nəfis şəkildə Mirzə Şəfi Vazeh

tərəfindən köçürüldükdən və Axundzadənin məsləhəti ilə redaktə olunduqdan sonra Xanıkova təqdim edildi. Xanıkov əsəri Peterburqa- “Asiya” muzeyinə göndərdi. Əsər bir müddət “Asiya” muzeyində saxlanıldıqdan sonra EA Şərqşünaslıq İnstitutunun kitabxanasına təhvil verildi. Hal-hazırda əsər həmin ünvanda mühafizə olunur. (28,s.37).

Axundzadə Qarabağın ikinci bir görkəmli şəxsiyyətinin, tarixçi alim Mirzə Camal Cavanşirin yazdığı “Qarabağ tarixi” əsərinin də geniş ictimaiyyətə çatdırılmasında mühüm rol oynamışdır. O, Mirzə Camalın oğlu Rzaqulu bəyi Tiflisdə poruçik rütbəsi ilə işə düzəltmiş və Adolf Berje ilə tanış etmişdir. Bu tanışlıq bilavasitə Zakirin vasitəçiliyi ilə baş tutmuşdur. “Kavkaz” qəzetinin redaksiya heyətinin üzvü olan M.F.Axundzadə həmin əsəri A. Berıe ilə rus dilinə çevirərək hissə-hissə “Kavkaz” qəzetində (29) dərc etdirmiş və onun müəllifi haqqında da oxuculara geniş məlumat vermişdir. Mirzə Camalın əsərinin Rusiya İmperator Akademiyasına göndərilməsində də Axundzadənin xüsusi rolu olmuşdur.

Göründüyü kimi, Axundzadənin əsərlərinin, xüsusilə komediyalarının ilk oxucuları qarabağlı ziyalılar olmuşdur. Bunun başlıca səbəbi ədibin Qarabağa və onun ziyalılarına xüsusi rəğbətlə yanaşması və onlarla uğurlu qarşılıqlı yaradıcılıq əlaqəsi yarada bilməsindən ibarət idi. Bu qarşılıqlı yaradıcılıq əlaqələrindən təkcə qarabağlı ziyalılar deyil, Axundzadənin özü də kifayət qədər bəhrələnmişdir. Görkəmli tədqiqatçı Kamran Məmmədovun dili ilə desək: “Zakirin satiraları müstəqil ədəbi cərəyana çevrilən şeirin vuran qəlbi və düşünən beyni olmuşdur desək heç də səhv etmərik. O da diqqətəlayiqdir ki, həmin işdə Axundov kimi dahi sənətkara müəllimliyi Qasım bəyZakir və Mirzə Şəfi Vazeh etmişdir”(30, s.84).

Yekun olaraq bu qənaətə gəlmək olar ki, XIX əsr ədəbiyyatı sanki ötən əsrlərin yekunu, onun məntiqi nəticəsidir. Bu əsrdə klassik ədəbi ənənələrin müxtəlif çeşidli rəngarəng təzahürünə rast gəlmək mümkündür. Burada klassik ədəbi ənənələrə yeni

prizmadan yanaşıb ona yaradıcı münasibət bəsləyən novator sənətkarlarla yanaşı ötənləri təqlid etməklə nəzirəçilik çərçivəsindən kənara çıxa bilməyən və bu təşəbbüsdə olmaq belə istəməyən epiqonçu şairlər də fəaliyyət göstərməkdə idilər. Bunlardan birincilər realizmə meyl edir, klassik üslubda yazdıqları şeirlərə yeni məna və məzmun gətirir, ikincilər isə keçmişləri təkrar etməklə epiqonçuluğun məhdud çərçivəsindən kənara çıxa bilmirdilər.

Ədəbiyyat:


1. Köçərli F. Azərbaycan ədəbiyyatı. İki cilddə, II c. B., "Elm" nəşr.1981.
2. Kərimov P. XVIII əsr anadilli azərbaycan lirikası. B., Nurlan, 2011.
3. Göyüşov N. Füzuli: düşüncə və ruhun poetikası. B., Elm və təhsil, 2012.
4. Talıbzadə K. Azərbaycan ədəbi tənqidi tarixi. B., Maarif, 1984.
5. Qədimov Ə. XIX əsr Ordubad ədəbi mühiti. Qüdsi Vənəndi. B., Elm. 2003.
6. Zakir Q. Əsərləri. B., EA Nəşriyyatı, 1964.
7. Qədimov Ə. XIX əsr Ordubad ədəbi mühiti. B., ADPU nəş., 2010.
8. Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri. B., Elm və təhsil. 2012.
9. .Məmmədov B. Xurşidbanu Natəvan. B., Yazıçı, 1983
10. "Şuşa" qəzeti №13 (127) 15 iyul 2012-ci il.
11. AMEA ƏYİ. M-13.
12. AMEA ƏYİ D-306.
13. AMEA ƏYİ B-724.
14. AMEA ƏYİ M-91.
15. "Kavkaz" qəzeti 1868. №59.
16. Əliverdibəyov A. Rəsmi musiqi tarixi. B., "Şuşa" nəş., 2001.
17. Виноградов В.Узеир Гаджибеков и Азербайджанс-

кая музыка., М. 1933.
18. Востриков П. Музыка и песня у азербайджанских татар. СМОМПК, Тифлис, 1912, выпуск 42
19. Şuşinski F. Seyid Şuşinski., B. 1991.
20. Haqverdiyev Ə. Seçilmiş əsərləri, II c. 1957.
21. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. B., Maarif. 1974.
22. Axundov M.F. Əsərləri, 3 cilddə, II c. B., Elm, 1988.
23. Mirzə Yusif Qarabaği. Məcmueyi-Vaqif və müasirini-digər. B., Şuşa, 1999.
24. Berje A. Məcmueyi-əşari-şüərayi- Azərbaycan. Leypsiq, 1867.
25. AMEA ƏYİ. S.S.Axundovun arxivi. Şifrə №84.
26. Axundov Ə. Sarı Aşıq. Şeirlər. B., Azərnəşr, 1966.
27. Mirzə Məhəmməd Katib. Şeirlər. B.2004. Şuşa Nəşriyyatı (Tərtib edən və nəşrə hazırlayan Samirə Gəncəli.)
28. Axundov N. Qarabağ salnamələri. B.,Yazıçı, 1989.
29. “Kavkaz” 1855,  s.61-69.
30. Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. B., Elm, 1975.

# AŞIQ VALEH

Kərbəlayi Səfi Məhəmməd oğlu Valeh təqribən 1766-cı ildə Qarabağın dilbər guşələrindən olan Gülablı kəndində anadan olmuş, ilk təhsilini də orada aldıqdan sonra bir müddət Şuşada, Molla Səfərin yanında şəriət qanunları, dini elmlərlə yanaşı dövrün dəbdə olan ərəb, fars dillərini də mükəmməl öyrənmişdir. Aşıq sənətinə xüsusi maraq göstərən Səfi bir müddət dövrün tanınmış aşıqlarından olan Aşıq Səmədin şagirdi olmuşdur. Şeirə, sənətə böyük maraq göstərən Səfi klassik Şərq və Azərbaycan ədəbiyyatını dərindən öyrənmiş, özü də“Valeh” təxəllüsü ilə şeirlər yazmışdır. Müasirləri Baba bəy Şakir, Abdulla Canı oglu, Qasım bəy Zakir kimi məşhur şairlərlə müşairələri onun geniş dünyagörüşünə malik istedadlı aşıq-şair kimi məşhur olduğunu göstərir.

Daima mollalarla ixtilafda olan Səfi onların fitvası və camaatın tənəsindən ehtiyat edərək Kərbəla ziyarətinə getmiş və bundan sonra Kərbəlayi Səfi kimi daha məşhur olmuşdur. Şair təqribən 1830-cu illərin ortalarında (1825-1836-cı illər arasında) vəfat etmiş və Gülablı kəndində dəfn olunmuşdur.

Xalqımızın digər maddi mədəniyyət abidələri kimi Aşıq Valehin əlyazmaları da mənfur erməni vandallarının 1905-ci ildə Gülablı kəndini yandırıb külə döndərməsi nəticəsində məhv olmuşdur. Lakin onun əsərlərinin bir qismi şeir həvəskarlarının tərtib etdikləri cüng, bəyaz və şeir dəftərlərində, ən çoxu isə Valehsevər insanların hafizəsində gəlib bizə çatmışdır. Şairin nəticəsi Xaspolad Mirzəyev şair Famil Mehdi ilə birlikdə Valehin şeirlərini toplayaraq Gənclik nəşriyyatında “Alçaqlı, ucalı dağlar” adı ilə nəşr etdirmişlər. 2007-ci ildə isə Kolanlı Həsən Şıxavəndli tərəfindən şairin əsərləri “Aşıq Valeh” adı ilə işıq üzü görmüşdür. Buradakı şeirlər həmin kitablardan və AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivində mühafizə olunan əlyazmalardan götürülmüşdür.

## Qəzəl

Gördüm yüzini şəmsü qəmər yadıma düşdü,
Sordum ləbini şəhdi-şəkər yadıma düşdü.

Derdim kim ola apara peyğamumu yarə,
Bu sözdə ikən badi-səhər yadıma düşdü.

Ləb qıldı təbəssüm, dür dəndanın açıldı,
İncivü sədəf, ləlü gövhər yadıma düşdü.

Sövda başa urdu, işim oldu genə əfqan,
Ol zülfü siyəhdən bir əsər yadıma düşdü.

Dedim ki kimin həddi var belini quca,
Nagah bu xəyal içrə kəmər yadıma düşdü.

Valeh, gül rüxsarını gördüm genə yarın,
Eşq içrə həvadan bu xəbər yadıma düşdü.

***

## Qoşmalar

Həqdən fərman gəlib qərar tapandan
Başlamısan cəngə, savaşa, dünya!
Qəsdinə girmisən yaranmışların,
Cümləsin vermisən talaşa, dünya!

Neçə nəbiləri keçirtdin yandan,
Nuh tufanı qopdu, doymadın qandan.
Zal oğlu Rüstəmi eylədin candan,
Bükdün Süleymanı farmaşa, dünya!

Neçələrin saldın çovğun, borana,
Neçələrin etdin dəli-divana.
Neçələri nakam getdi məkana,
Qoymadın onları yanaşa, dünya!

Valeh alar görüb belə divanı,
Kimsələrə gəlmir daha gümanı;
Kama çatıb şənlik edən zamanı,
Döndərdin şənliyin qan-yaşa, dünya!

***

Könül, gəl əl götür bu qəm-qüssədən,
Sənin də yurdunda toy olar bir gün!
Vaxt olar ki, dəyişirilər bu dövran,
Bahar fəsli gələr, yay olar bir gün!

Düşübdür həyatın tubu borana,
Laləzarlı yurdlar qalıb virana,
Fəsil çönər, dağlar dönər arana,
Bu buzlar əriyib çay olar bir gün!

Alıbdır namərdlər vaxtı araya,
Zülmkar şah olub çıxıb saraya.
Haqq-ədalət gəlib çatar haraya,
Zalımlar evində vay olar bir gün!

Unutma, ey Valeh, gələr bir zaman
Şənliyə bürünər bu çöl, bu orman.
Məzlumlar həyatı olar çıraqban –
Qüdrətdən bəxtinə pay olar bir gün!

***

Toy evindən gələn qızlar, gəlinlər,
Toyunuzdan əcəb hallı gəlibsiz.
Aşıq öldürməkdə varmı qəsdiniz,
Fikr eyləyib nə xəyallı gəlibsiz?

Bir-birin çağırır nə şirin bacı,
Bir dərdə düşmüşəm, yoxdur əllacı.
Nə vaxtdı dəhanım dadıyır acı,
Üçünüz də ləbi ballı gəlibsiz.

Eynini eynimdən eyləmə iraq,
Axıban didəmdən tökülər fəraq.
Bir sənəm, bir Valeh, bir xəlvət otaq,
Hayıf ola qalmaqallı gəlibsiz.

***

Bir qız ilən bir gəlinin bəhsi var,
Gəlin deyər: bu gün meydan məndədi.
Qız da deyər: açılmamış qönçəyəm,
Fəsli-bahar, bağı-reyhan məndədi.

Gəlin deyər: ördəyim var, qazım var,
Şirin-şirin söhbətim var, sazım var.
Sallananda yüz qız qədər nazım var,
Həya, iman, ədəb, ərkan məndədi.

Qız deyər: mən oxşamışam anama,
Ləlü mərcan düzülübdür tanama,
Əl vursalar, tağdan qopar şamama,
Əl dəyməmiş tağı-bostan məndədi.

Gəlin deyər: gəl, qız, düşmə araya,
Gər mən ölsəm, aləm batar qaraya,
Bəzənərəm, sallam səni bəlaya,
Şövq salan camalü can məndədi.

Valeh deyər: ikinizə mən qurban,
Yolunuzda mən qoymuşam başla can,
Eyləməyin bu qəribi bağrıqan,
Sizdən ötrü çeşmi-giryan məndədi.

***

Bu yer gözəlinə nabələd oldum,
Bir söz dedim, qurumuş dilə bükülmüş.
Xətayını görcək eylədim xəta,
Dürrü gövhər bit məndilə bükülmüş.

Səhər ikən mehman olduq bunlara,
Geyinib batıblar yaşıl, allara.
Qızıl bazübəndlər şümşad qollara,
Gümüş kəmər, incə belə bükülmüş.

Qurban olum ala gözün məstinə,
Süzgün baxıb, girmə canım qəstinə.
Əlim qoyum tər sinənin üstünə,
Darçına, mixəyə, hilə bükülmüş.

Nabələdəm ulusuna, soyuna,
Mina gərdəninə, uca boyuna.
Divanə Valehi sən al qoynuna,
Elə bil ki, bülbül gülə bükülmüş.

***

De, necə şad olum bu aləmdə mən,
Dünya fani, insan mehman deyilmi?
On səkkiz min böyük sirli dəryalar
Başdan-başa dolu al qan deyilmi?

Tarixin cəryanı bizə yan verir,
Zalıma, cəllada qüvvət, qan verir,
Fağır-füqəralar vaxtsız can verir,
Zamana yoxsula düşman deyilmi?

Zalimi şah edir bimürvət fələk,
Zülmünü görəndə deyir: mübarək!

Qoymayır aləmdə biz də gün görək,
İnsana zülm edən insan deyilmi?

Valeh necə dözsün belə möhnətə,
Təriq əhli düçar olub möhlətə.
Neçə piranələr gəlib minnətə,
Qamçı altda cismi üryan deyilmi?

***

Feyruz, söylə İstambul paşasına,
Qarabağın çox dəyərli adı var.
Dostlar üçün səfalıdır hər yanı,
Düşmən üçün min tufanı, badı var.

Bir yanı Gəncədir, bir yanı Şirvan,
Bir yanı Arazdır, bir yanı Muğan,
Dağları kəklikdir, düzləri ceyran,
Gözəl ləzzəti var, şəkər dadı var.

Bu torpağa kim əl atsa xar olar,
Geniş dünya gözlərinə dar olar.
Günü qara, işi ahüzar olar,
Bu ellərin köməyi var, dadı var.

Ərdəbilli aşıq Mahmud zay oldu,
Məsum Əfəndinin yaşı çay oldu,
Naxçıvanlı Süleymana tay oldu,
Bu mahalda şairlər övladı var.

Ustad Səməd sənətdə bir dağ idi,
Kələntərli Alı fəndli bağ idi.
On il qabaq molla Pənah sağ idi,
Valeh kimi aşıqlar ustadı var.

***

Bu məkanda müşki-ənbər buyi-var,
Ala gözlüm gəzən yerdir bu yerlər.
Səg rəqiblər aralıqda şərmsar,
Əlim yardan üzən yerdir bu yerlər.

Mən özüm düşüm yar əyağına,
Hiç rəhmi gəlməz öz dustağına,
Dəstə-dəstə qönçə gül buxağına,
Sağ əlimnən düzən yerdi bu yerlər.

Əzəl başdan qara yazıldı yazım,
Qan ağlaram, yara yetməz avazım.
Xumar-xumar danışanda şahbazım,
Qaşın, gözün süzən yerdi bu yerlər.

Bir bülbüləm, gülşən olub məkanım,
Açılmamış soldu gülü gülşənim.
Valehəm, bəxtimi qaralar bənim,
Qələm alıb yazan yerdi bu yerlər.

***

## Gəraylılar

Ay ana, bu bir cüt sonanın,
Hansına qurban mən olum?!
Süzgün baxıb, can alanın
Hansına qurban mən olum?!

Könül bağladım bir ada,
Dərd tapdım həddən ziyada,
Hər ikisi mələkzada,
Hansına qurban mən olum?!

Cüt baxışlı nazlı xanım,
Xoş avazlı mehribanım,
Valeh deyər: var bir canım,
Hansına qurban mən olum?!

***

Bu gələn bir cüt gözəlin
Yolunda qoymuşam səri.
Biri əcəb səfalıdır,
Birisinin adı Pəri.

Biri dağların qarıdır,
Biri bağçalar barıdır.
Külli dünyanın varıdır,
Lərzəyə salıb sərsəri.

Valeh sevdi Zərnigarı,
Olar onun xidmətkarı.
Atsa üzündən qubarı,
Mat eylər şəmsü qəməri.

***

## Müxəmməslər

Fəryad! Gətirdin məni sən canə, isitmə!
Döndərmə gözüm yaşını ümmanə, isitmə!
Bu il məni saldın belə nöqsanə, isitmə!
Qəsb etmək üçün qoymadın heç yanə, isitmə!
Axır eylədin xanəmi viranə, isitmə!

Hər dərddən artıq, bəli, qızdırmanı gördüm,
Baş ağrısına dürməli qızdırmanı gördüm.
Çəndan ilə çəkdi ili qızdırmanı gördüm,
Əqillini eylər dəli, qızdırmanı gördüm,
Yazıqdı, sən əl vurma heç insanə, isitmə!

Ey vay, günam zar olu, titrətmə gələndə,
Min dərdə bəla car olu, titrətmə gələndə,
Dünya başıma dar olu, titrətmə gələndə,
Canım yenə pərkar olu, titrətmə gələndə,
İncitmə, isitmə, məni, amma nə isitmə!

Titrəməvi qızdırma, isitmə - üçü həmrah,
Bunlar üzün heç kafirə göstərməsin allah.
Bir körpə görən kimsənə sağ canə çəkər ah,
Acız qalı, candan olur axır ki, o ikrah,
Hər kimsə içərsə dolu peymanə, isitmə.

Bir gün hər üçü gəldi bular Valehə mehman,
Dedi sənə iş tovlarıq, aciz qalı Loğman.
İndi nə verirsən, de görüm, sən bizə ehsan,
Bəxş etdi məni ol şahi-Mərdanə isitmə.

***

Sizi sahib kim edibdir, söylən, cahana mollalar?
Özünüzdən şübhələnib düşmən gümana, mollalar.
Sizi bu damaqda qoymaz bilin, zamana, mollalar.
Xeyir işi şərə çəkib yozman ziyana, mollalar,
Cəhənnəm ki, haram deyil eşqə uyana, mollalar?

Günah, savab nə olduğun artıq biz də anlayırıq.
Nə bircə qəlbə dəyib, nə kimsəni danlayırıq.
Nə beçətək qaqqıldarıq, nə xoruztək banlayırıq.
Nə varlıya baş əyirik, nə kimsəni yanlayırıq.
İnsaf edin, əl atmayın dinə, qurana, mollalar!

Kərbəlayı olmaq üçün necə düşman çıxım saza?
Sevdalı şeyda bülbüləm, könül müştaq olub yaza.
Ehtiyacım yoxdur mənim nə oruca, nə namaza,
İki mələk müqərrərdi, hər əməli görə, yaza,
Kənd içində sərsəm edib olman divana, mollalar.

Neçə hacı, kərbəlayı saqqalına həna qoyur;
Girvənkədə bir çətvəri oğurlayır, yana qoyur.
Bir yetimdən mal alanda inək adın dana qoyur;
Yalan satır müştəriyə, kürək adın şana qoyur.
Qəpik üçün and içərlər ayə-qurana mollalar!

Aşıq Valeh bu sənətlə məşhur olub ucalıbdır.
Hər ümmana qəvvas olub təbiətdən tac alıbdır.
Neçə deyiş meydanında ustadlardan bac alıbdır.
Könül eşqə gəl-gəl deyir, deməyin ki, qocalıbdır.
Bir də mənə kafər demən, gəlin imana, mollalar!

***

## Cahannamə

Dəhri- fənada belə insan hanı?
Qılmaya fani ona dövran hanı?
Ey bivəfa dünya, sən nə zalımsan,
Bu qayətdə sənə gələn can, hanı?

Əvvəl sənə gəldi Adəmü Havva,
Beş gün səndə qonaq qaldı binəva.
Öldürdün Habili, saldın bir dava,
Düşdü aralığa nahaq qan, hanı?

Necə padşahlar gəldi sahibi-cəng,
Cəmşidü Cəm, Nuşiravanü Huşəng.
Dağyanus, Hulaku, Çingiz, Teymurləng,
Onlardan bircəsi bu zaman hanı?

Ey bivəfa dünya, fanisən, fani,
Necə dağıtdın sən şövkətü şani!
Gecələr çaldılar gürzü girani,
Rüstəmi-Zal kimi pəhləvan hanı?

Dünya hanı Mühəmmədəl Mustafa,
Səni ondan örü yaratdı xuda,
Onu da özündən eylədin cüda,
İsa, Musa, təxti-Süleyman hanı?

Neçə həkim gəldi, təbibi-zaman,
Ərəstun, Əflatun, Fərəzdək, Xaqan,
İstədi dirildə özünü Loğman
Qaldı kuzəsi də yarımcan, hanı?

Hanı Xosrov, Həsən, Yusif, Züleyxa,
Hanı Əsli-Kərəm, Vamüqü Əzra?
Şeyx Sənan sevmiş idi bir tərsa,
Ey bivəfa, səndə din, iman hanı?

Hafizü Nəvai, Füzuli, Cami,
Şeyx Sədi, Hilali, Ürfi, Nizami.
Dünya, səndə gəşt eləyib tamami,
Firdövsitək nəzmi dürəfşan hanı?

Rumdan qalxan zaman o Fətəli xan
Qılıncının ucundan damırdı qan.
Harami mənimdi deyən qəlbi qan,
Harami burdadır, Həsən xan hanı?

Dünya, səndə aşıq Səməd var idi,
Nəzmü şeri ləlü göhərdar idi,
Bir gözəl eşqinə giriftar idi,
Onun kimi bir bəhri-ümman hanı?

Bu dünyada heç də gəzməmişdi kəm,
Aşıq Əli oğlu aşıq Məhərrəm.
Həsrətin çəkirdi Rum ilə Əcəm,
Əlində tütəyü balaban hanı?

Hanı Molla Pənah, bivəfa cahan,
Təxəllüsü Vaqif, nəzmi dürrəfşan.
İndi eyləmisən xak ilə yeksan
Tapmaq olmaz o kamalda can, hanı?

Tamam yola gedər hayıf gözəllər,
Sırf müşki-ənbər qoxuyan tellər,
Murad üstə neçə xınalı əllər
Torpağa döndülər, ay aman, hanı?

O ala gözlərə, o gül yanağa,
O nazik əndama, o tər buxağa,
Necə qıyıb döndərirsən torpağa,
Nazənin-nazənin incə can, hanı?

Müşkül işdi bir də dolana dövran,
Növbət mənə yetə, aman, əlaman!
Bir gün olar, görən, bilən, tanıyan,
Deyərlər Valehi-dürdəhan hanı?

***

Dostum namə yazdı, dedi: durma, gəl,
Aldandım, bazarın nəyinə gəldim.
Unutdum sənəti, oldum sövdagər,
Bir libas tikdirdim əyinə, gəldim.

Biiman göndərib naməni dərhal,
Yazıbdır bu yerdə mətahdır zoğal.
Tapılsa, üstündə olar qalmaqal,
Aldandım namərdin küyünə, gəldim.

Kimlər səbəb oldu deyin, bu hala,
Xəstə ölür, şəfa qalıb zoğala.
Dərdirdim hər nə var, yığdım çuala,
Dost dedim nadanın səginə, gəldim.

Bir öküzüm vardı kəndi-Qacarda,
Yazıq heyvan çəkməmişdi azar da.
Dedilər urbatdı zoğal bazarda,
Yolları sevinə-sevinə gəldim.

Allahqulu ilə keçdi ilqarım,
Yazdı: gətir satım hər nəki varın...
Yurdu viran olsun bu səbəbkarın,
Sovqatla zalımın evinə gəldim.

Xalqın ulaqları kəkliktək səkər,
At mayallaq aşar, öküzlər çökər.
Bacım oğlu gözlərindən yaş tökər,
Yolları deyinə-deyinə gəldim.

Şuşa baqqalları ara qatanlar,
Dini girov qoyub, iman satanlar,
Xırman sıpasıtək şıllaq atanlar...
Nadanlar adına tənəyə gəldim.

Zoğalın qaydına qalan olmadı,
Mənim kimi mağmın olan olmadı.
Öküzlərin gönün alan olmadı,
Nəzərdə diqqətin səyinə gəldim.

Allahqulugildə vardı bir nökər,
Gecə durub haramzada bixəbər.
Atın çulun alıb, at olur qəysər,
Dalını basdırdım, peyinə gəldim.

Bir baqqal zoğalı qoydu kasıya,
Süzələndi suyu axdı lasıya.
Yükünü kəsdilər bir abbasıya,
Onu da istədim nisiyə, gəldim.

Valeh sinəsinə çəkildi bu dağ,
Zoğal ağacından hər kim əksə bağ
Arvadı lotudur, özüü qurumsaq,
Su sözlə sənətin çiyinə gəldim.

***

# ASƏF LƏNBƏRANİ

Dövrün “Təzkireyi-Nəvvab”, “Riyazül-aşiqin” kimi mötəbər mənbələrində adı ehtiramla çəkilən, “Türkcə şeirguluqda səramədi-şüəra” (Müctəhidzadə) kimi qeyd olunan Asəf Lənbəraninin kimliyi, anadan olma və ölüm tarixi haqqında heç bir məlumat verilmir. Hətta Firidun bəy Köçərli kimi zəngin məlumatı olan bir alim onun barəsində: “bu şairin ismü nəsəbi bir kəsə məlum deyil” – yazmaqla kifayətlənir. Araşdırmalar zamanı xoş bir təsadüf nəticəsində şairin adının Molla Mir Hüseyn olduğunu müəyyənləşdirmək bizə nəsib oldu. Şairin yeni tapılan şeirləri nəticəsində o da məlum oldu ki, Molla Mir Hüseyn Asəf Lənbərani dövrünün ən istedadlı şairlərindən biri olmuşdur. Bəzi məlumatlara əsaslanaraq onun Baba bəy Şakir, Məhəmməd bəy Aşiqin müasiri olduğunu və XVIII əsrin ikinci, XIX yüzilliyin birinci yarısında yaşayıb-yaratdığını qətiyyətlə söyləmək olar.

Buradakı şeirlər AMEA ƏYİ-nin arxivində saxlanılan A-81/9602, B-1116/6050, B-3959/23410, B-3351/22370, B-1987/3146, B-2228/3147, B-1251/11238 şifrli cünglərdən götürülmüşdür.

## Qəzəllər

Bilməm ki, cismindimi görünür pirəhən içrə,
Ya ruhi-rəvandımı dolanur bədən içrə.

Müjganların içrə sənin, ol çeşmi xumarın,
Bir nərgisi-tərdir ki, bitüpdür tikən içrə.

Kuyində yüz il zülfə əsir olsam, usanmam,
Əz-bəs ki, qara gün xoşdur bana vətən içrə.

Bir şeri-nəməkriz ilə ağzından öpərdim,
Pinhan ola bilseydim əgərçi süxən içrə.

Asəf güli-ruxsarıni görmişmi nigarın,
Qönçə dəhəni açıla qalmış çəmən içrə.
***
Ol ahuvəş ki, səri- zülfünü hər yan atar, çıxar.
Əttari-Çin qabağına varıban satar, çıxar.

Gisulərinara rüxi-pürzivərin sənin,
Əbr içrə bir günəş kimidir kim, batar, çıxar

Qəmzən xədəngin əhli-nəzərdən driq tut,
Əlindən, ey sənəm, demək olmaz, xətər çıxar.

Yadıyla qılsam ah rüxi-atəşin sənin
Dudi-diruni-dil dəhənimdən tutar, çıxar.

Ey Asəf, olgil ol xəmi-zülfə əsir kim,
Urduqca şanə hər tərəfə müşki-tər çıxar.
***
Ta rəvaci-hökm göstərmiş cəmali-yarə xal,
Əhli-imanın qılıpdır ruzigarın qarə xal.

Rövşən etməkmi dilər əhli-nəzərlər halını,
Müttəsil şəmi-camalınlan yanar odlarə xal.

Ta xüruci-mülki-hüsn etmiş xəti-hinduvəşi,
Yüz xətlərdir görür dəfinə, bilməz çarə xal.

Eyləmiş tərfi-zənəxdan üzrə kakilin kəmənd,
İstər ol çahi-nədamətdən özin qurtarə xal.

Dəftəri-bəxtin yazanda Asəfin kilki-qədər,
Düşdi miskin nöqtələr ol səfheyi-ruxsarə xal.
***

Laləvəş könlümdə pünhan eylədim bən köhnə dağ,
Tişeyi-tənü məlamətdən ona verdim dağ.

Baş ağardı, getdi zövqi-eşq, yetmədim vüsalına,
Küllənib başı, sönər sübhə yetişcək bir çirağ.

Saqiya, sun badeyi-qəm fərsudələr dəstin tutub,
Canibi- üftadələrdən kəsmə başınçun əyağ.

Xali oldum həlqəvəş feyzi-dəri-meyxanədən,
Zahidi-biismətin vəzinə dün dutdum qulağ.

Asəfa, gülzari-dəhr içrə dəm urma eşqidən
Kim, bərabərdir nəvayi-bülbülü zağü kəlağ.

***

Ey sənsiz bən cahanda nəyəm, çun mədar yox
Aramü ixtiyarü şəkibü qərar yox.

Can kim, bədəndə bir neçə müddət müqimdir,
Vəslindən özgə bir qərəzü intizar yox.

Hər kimdə bir qəm olsa, ona qəmküsar idim,
Min qəm bənimlə var ki, bir qəmküsar yox.

Nəqdi-tərbinə cəm idi vəslində günbəgün,
Sərfi-fəraqın eyləmişəm hər nə var-yox.

Şami-qiyamət oldu bana sübhi- fəraqın,
Vəslindən özgə Asəfə bir şəb güzar yox.

***

Şücaəti-fələk, Zali bir qiyasə yetir,
Əğərçi Rüstəm əlin heybətin hərasə yetir.

Nicat riştəsin suzəni-ümidə qərin.
Libasi-səltənəti bir köhnə pəlasə yetir,

Qəza kamanından riza əlini çəkmə,
Məlamət oxlarını nəfsi-bisipasə yetir.

Ayağa saldı səni, saqiya, qəmi-dövran,
Piyalə dut ələ, söbhanı kasə-kasə yetir.

Bu nəzmi hər yerə izhar qılma, ey Asəf,
Apar buni, dürrü yenə bir gövhərşinasə yetir.

***

## Qoşma

Sevdigim, şöleyi-şəmi-rüxsarın
Görən aşiq neylər tabi-afitab.
Afitabü qəmər, sərasər şəhab,
Alır rüxsarından zərrə-zərrə tab.

Tabım yox cismdə səbr edəm dərdə,
Düşmüşəm hicrinə dönmüşəm kürdə,
Rəhm qıl mən kimi dərdpərvərdə,
Gəlmişəm qapuna, ey alicənab.

Alicənabımsan, izzət, cahımsan,
Adilü dadrəsən şahənşahımsan,
Mülazimü müllam, ümidgahımsan,
Sahibi-bəndəqan, maliki-rüqab.

Rüqabi-üşşaqə salıbsan zəncir,
Sübhən fəraqından qılmadın təhrir,
Xalların danəsi mayeyi-təzvir,
Cövri-sərkakilin könlümə qüllab.

Qüllabı-zülfünə paybəstəm mən,
Çeyşi-qəm çəngində zirdəstəm mən,
Asəfəm, dövrandan dilşikəstəm mən,
Əxtəri-bəxtimdən açılmaz səhab.

***

## Müxəmməslər

Şəmi-lamiədir yüzin, dilbər, şərar ondan çıxar,
Həm dəhanın dürcüdür, şahvar ondan çıxar.
Qaşların qanım tökər kim, zülfüqar ondan çıxar,
Kəbədir kuyin bana darülqərar ondan çıxar,
Gəbrdir hər kəs girər bilixtiyar ondan çıxar.

İbn Məryəmtək hədisin baisi-tuli-həyat,
Xəlqü aləm cümləsindən buldu həlli-müşkülat.
Səndən özgə dəhrara yoxdur dəxi fərxəndə zat
Tərki-küfr etdim görüb rəşhi-ləbindən möcüzat.
Ey həbibim, süni-pak, girdkar andan çıxar.

Kaşifi-əsrari-hüsnün oldu ta yövmülhesab,
Nüsxeyi-çar mənzil siymamül-kitab,
Şakəri-feyzi-vücudun rədədir bərğü səhab,
Varisi-Kərrarsən görsə səni Əfrasiyab,
Tərk edər rəsmi-şüca, İsfəndiyar andan çıxır.

Neylərəm mən bu dəhbad ruzigari-bulqəlaq,
Zahidi-şəyyaddilbərtək bilməzəm zöhdü nifaq,
Çəkməzəm qəm, nəyəm xərdil olmasa cövri-fəraq,
İçmişəm gülgün şərab, eşqidən kasən dühaq,
Cüreyi-gülrəngi-bəzm paydar andan çıxar.

Olmuşam sübhansifət, sehr elərəm səhhartək,
Saxlaram səbani-eşqi künci-dildə martək,
Seyli-əşkim hər dü çeşmimdən axar mədrartək,
Asəfa, gəzsən cahanı səbeyi-səyyartək,
Sən kimi divanə yox, külli diyar andan çıxar.

***

Gəldi ol mövsüm ki, güllər pərdədən rüxsar açar,
Qönçeyi-güli-əğəni səd nafeyi-tatar açar,
Şadlıq təliminə hər lalə bir tumar açar,
Hər zaman hər mürğ bir növilə güftar açar,
Zümreyi-üşşaqilən həmraz olub əsrar açar.

Daneyi-nüzhət saçar dünyaya qəlbiri-fələk,
Oldu mütləq xərməni-qəm cümlə pamali-fələk,
Şadlıq babına yox bir ləhzə ehmali-fələk,
İşrəti-binöqsdür məhsuli-amali-fələk,
Çöhreyi-ümmidimizdən pərdeyi-bidar açar.

Mütrübi-şirindəhən can riştəsin yonqar edər,
Suzi-dildən nəğmeyi-fantəzali asar edər,
Dəmbədəm badi-səba arayişi-gülzar edər,
Kim mətai-hüsn, kim nəğdi-rəvan izhar edər,
Nüğlədən məşuqü aşiq bir əcəb bazar açar.

Aşiqü məşuqü saqi daməni-səhra dütar,
Hər biri nazü niyazü badeyi-məhba dutar.
Əxtəri-bədçeşm özün bu bəzmdən əma dütar.
Aləmi sər ta besər avaz, ya bəşra dütar,
Bülbüli- şurinlər hər vəqt kim, minqar açar.

Mürği-can, ol daneyi-rüxsari-alından sölər,
Surəti-zəfəm, miyani-mumisalından sölər,
Tutiyi-dil həm ləbi-şəkkərməqalından sölər,
Fəsli-fəsli-dey tazə gül vəsfi-cəmalından sölər.
Asəfi-məcruhdil ta dəftəri-əşar-açar.

***

Ey vücudun bir əlamət qüdrəti-cəbbardan,
Ağzını var eyləyən yoxdan, yox etmiş vardan.
Möcüzi-ləlinlə min kafər dönər kəffardan,
Eylədin əşkim dü nim ol qəmzeyi-xunxardan,
Ni əcəb şəqq olsa dərya zərbəti-ibrardan.

Tiri-müjganın fəna eylər bəni yüz alilən
Kim, görən bu cismimi fərq eyləmz qərbalilən,
Cudi-zülfün hər zaman könlüm çəkər çənqalilən,
Aşina oldu sana halım zəbani-halilən,
Arif anlar bin həqiqət surəti-divardan.

Mən kimi mütləq bulunmaz möhnət ilə şadiman,
Ruzü şəb odlara yansam kim çağırman əlaman.
Qayiləm gər çərxi-dun hər dəm bəna uddursa qan,
Neçə müddət bağrımın qan olduğun dutdum nihan.
Aləmə faş oldu bu dəm dideyi-xunbardan.

Çun özüm sərcadeyi-üşşaqa rəhro dutmuşam,
Ləşgəri-zənbari-hicrə sinəmi u dutmuşam,
Şöleyi-ahım şəbi-zülmatə pərto dutmuşam,
İxtirai-raz edib bir adəti- no dutmuşam,
Artırıb Fərhadü Məcnundan qalan ətvardan.

Mundan artıq, mərdümi-çeşmim, gövhərpaş eyləmə,
Parə-parə bağrınu manəndi-xaşxaş eyləmə.
Xəlq içində naz ilə rəmzi göz-qaş eyləmə
Hübbi-qüdrət, Asəfin əhvalın faş eyləmə,
Ehtiraz et, nuri-çeşmim, təneyi-əğyardan.

***

Qəmi-hicr ilə halım, dilbər, düşvar keçsinmi?
Nə dersən, ruzigarım böylə hər gün tar keçsinmi?

Tənimdən hər zaman tən oxları səd bar keçsinmi?
Təmami-ömr bağrım qan, gözüm xunbar keçsinmi?
İki sərçeşmədən dəryaçeyi-zəxxar keçsinmi?

Yaxam cisi-bəla cəngində belə çak qalsınmı?
Özüm heyran, işim əfqan, könül qəmnak qalsınmı?
Həmin bu gərdişi-varun ilə əflak qalsınmı?
Başım sərgəşteyi-qəm girdabında, ey pak, qalsınmı?
Qəmi-hicr ilə halım, dilbəra düşvar keçsinmi?

Pərişanəm həmişə tari-zülfi-mişkinindən,
Bəla zənciridir boynumda hər bir tari-muyindən,
Tükəndi səbrü taqət, can üzüldü çustucuyindən,
Qalıb şami-fəraqında cüda xurşid ruyindən
Nə dersən, ruzigarım böylə hər gün tar keçsinmi?

Saraldı rəngi-ruyim mövsümi-firqət hərasilə,
Bahar əyyamından verməz xəbər bir kəs nişanilə
Olurmuş dərdsizlər şad üşşaqın fəqanilə,
Rəvadırmı yetən naqabilin şəsti-zəbanilə?
Tənimdən hər zaman tən oxları səd bar keçsinmi?

Şəbi-hicrində birbəbir dayim yanmış pərü balım,
Rüxün şəmi təmənnasında  yox bir ləhzə ehmalım.
Bəlavü dərdi-sərlə yetdi payanə məhü salım,
Nolur silsən sirişkim, bağrıma mərhəm qoyub, zalım,
Təmami-ömrüm bağrım qan, gözüm xunbar keçsinmi?

Təriqi-nəzm dutman, Asəfa, bihudə nə hacət?
Kəlami-pənc misradan nə mümkün şərh ola möhnət.
Əlamət bəs degilmi şölə çəkmiş atəşi-həsrət,
Təəccüb birlə göz yaşım görən sölər qalıb heyrət:
İki sərçeşmədən  dəryaçeyi-zəxxar keçsinmi?

***

## Müsəbbə

Lovhi-hüsnə çəkdi ol şuxi-gülruxsar xət,
Dəftəri-iqbalda göstərdi bir tumar xət,
Saldı mirati-ümidim vəchinə xəngar xət,
Qıldı çoxları bu yüzdən vaqifi-əsrar xət,
Bir güli-tərdir rüxün kim, çevrəsində xar xət,
Əhli-irfandır, bu qövlə eyləməz inkar xət,
Arizin eşq əhlinə iqbaldır, idbar xət.

Xanda kim, nəzzareyi-qəddin təmənna eylədim,
Sinəmdən bir ahi-aləmsuz peyda eylədim.
Çevrəmi seyli-sirişkim birlə dərya eylədim,
Kafərəm gər hər büti-məhruyə pərva eylədim.
Nəzmimi nəti-ruxinlə nüzhətəfza eylədim,
Hər rəqəm kim, yadi-xəttinlən hüveyda eylədim,
Naməni növki-qələmtək qıldı ənbərbar xət.

Şaxsar hüsnə bir bərgi- nəzakətdir rüxün,
Ya güli-sirabi-gülzari-lətafətdir rüxün,
Nazil olmuş hüsn babında bir ayətdir rüxün,
Şölələnmiş kövkəbi-bürci-səadətdir rüxün,
Eyləmiş mahi du nim, əhli-kəramətdir rüxün,
Şəhrə vermiş zib, bazari- məlahətdür rüxün,
Dutmuş ol bazarə yüz əttari- müşkasar xət.

Əndəlibəm kim, bənim hər dəm işim fəryadü ah,
Ahü vaveyla kim, ol gülrux bana qılmaz nigah,
Ruzigarım tirə, bəxtim qarə, ovqatım təbah,
Bulmadım bu dərdə bir ölməkdən özgə çarəxah,
Şükr kim, əhvalıma şərh əhlidir cümlə güvah,
Dud rəxti-mah giryəm birlə oldu rusiyah,
Urdu atəş göz görə, yandurdı hər nəm var xət.

Kim ki, ol gözdən məni-bimartək oftadədir,
Guşeyi-meyxanə dutsun kim, ilacı badədir,
Sərv seyrindən sana heyran olan azadədir,
Ey xoş ol üşşaqə kim, məhbubi sən simadədir,
İşvə babında müjən təlim içün amadədir,
Xalın ol rüxsar üzrə bir tifli-hinduzadədir.
Kim dutupdur əldə simin-lövh, edər təkrar xət.

Sayə salmaz başıma, ol sərvi-ahuruyə bax,
Könlümü almaz ələ, ol zülfü-ənbərbuyə bax,
Cövrlərdir çəkdügim, rəhm etməz ol bədxuyə bax,
İşvəvü nagzü itabü qəhri-canfərsuyə bax,
Hüsnə bax, simayə bax, rəftari-şəhraşubə bax,
Baxma yaquta sən, ol qələməbruyə bax,
Gör nə möcüzdür kim, atəşdən qılur izhar xət.

Gərçi bir ğəmzə ilə verdin çox könüllər kamini,
Pərtövi-ruxsar ilə sübhə yetürdün şamini.
Asəfin yəğmayə verdin taqətü aramini,
Şöhreyi-şəhri cünun etdin bənimtək namini,
Sanma kim, eylər qara əhli-nəzər əyyamini,
Bəlkə lütf etmiş siyəhtalelilər əncamini,
Dil uzadub arizindən, eylər istifsar xət.

***

## ƏBÜLFƏT XAN TUTİ

İbrahimxəlil xanın oğlu Əbülfət ağa 1766-cı ildə Şuşa şəhərində anadan olmuş və orada da mükəmməl saray təhsili almışdır. Öz bilik və bacarığı ilə atasının diqqətini çəkən Əbülfət ağaya hələ erkən yaşlarında ən mühüm dövlət əhəmiyyətli məsələlərin həllində xanlığın adından danışıq aparmaq səlahiyyəti də verilmişdi.

1797-ci ildə əmisi Ağa Məhəmməd şahın qətlindən sonra Iranda hakimiyyətə gələn Fətəli şah İbrahimxəlil xandan sarayda saxlamaq üçün girov tələb etdikdə İbrahimxəlil xan oğlu Əbülfət ağanı və qızı Ağabəyim ağanı Tehrana göndərmək məcburiyyətində qaldı. Fətəli şah İrana girov kimi göndərilən Əbülfət ağanı sarayda saxlamayıb, oğlu Abbas Mirzənin xidmətinə göndərdi. Vəliəhd Abbas Mirzə Naibüssəltənə Əbülfət ağaya xan titulu verib, onu qoşun başçısı, daha sonra isə şəxsi yavəri təyin etdi. Əbülfət ağa siyasi xadim olmaqla yanaşı İranda şair kimi də məşhur idi. Məhəmmədəli Tərbiyətin "Nigəristani-Dara" adlı əsərə müraciət edərək: "Tuti həm nəzmdə, həm də nəsrdə misli, bərabəri olmayan şair idi" söyləməsi bu fikri təsdiq edir. Əbülfət xan həyatı boyu siyasi mübarizələrdə olmuş, uzun müddət qürbətdə yaşamış və 1839-cu ildə dünyasını dəyişərək müqəddəs Qum şəhərində dəfn olunmuşdur. Aşağıdakı şeir örnəkləri AMEA ƏYİ-də saxlanılan cünglərdən götürülmüşdür.

### Qəzəl

O gün kim həsrət ilə ol büti-zibadan ayrıldım,
Qalıb bir surəti-bihiss kimi mənadan ayrıldım.

Çəkib əl xəlqdən Məcnunsifət səhraya üz qoydum,
Kəsilmiş səbrü tabım vəsləti-Leyladan ayrıldım.

Mana şümşad sərvi, bağban, ərz etmə kim hərgiz,
Yoxumdur meyli-gülşən qaməti tubadan ayrıldım.

Nolur şamü səhər ney tək sızıldar sineyi-zarım,
Mərizi-bəstəri-hicrəm dəmi-İsadan ayrıldım.

Fəraqın şiddətindən lal olur bu Tuti təbim,
Məzacım təlxdir kim ləli-şəkərxadan ayrıldım.

***

Aldı qərarım bənim zülfi-siyahın, gəlin,
Saldı məni çöllərə o al yanağın, gəlin.

Görcək onun qamətin aşiq olub söylədim:
Bəndəyə də lütf qıl, sibü ənarın, gəlin.

Qaşlarının tərifin mən necə təkrar edim,
Kipriklərin ox kimi cana nisarın, gəlin.

Sübhə kimi yatmaram, şədd eylərəm naləmi,
Qorxuram axır duta ahü fəqanın, gəlin.

Ha eylədim bir qucam incə miyanın sənin,
Kafəri-birəhmlər etdi cüdalın, gəlin.

Tab yoxumdur mənim hicrinə, ey bivəfa,
Bir gecə mehman eylə olum qonağın, gəlin.

Tutiyə şəkkər verib lütfilə xamuş elə,
Yoxsa yanar şəm kimi bu sinədağın, gəlin.

***

## Vəsiyyətnamə

Ey nigari-qədimü dirine,
Qəmi-eşqindir rahəti-sine.
Firqətin cismimi natəvan etdi,
Axərül-əmr qəsdi-can etdi.
Bivəfaliq təriqinə uyma,
Könül matəmində məni qoyma.
Deməzəm baş açıb fəqan eylə,
Bu müsibətdə qəsdi-can eylə.
Leyk olma hüquqdan ari,
Sukvar ləvazimi-yari.
Zinəti-hüsnü pak qıl yüzdən,
Tök nihani sirişki gözdən.
Gah məni-binəvanı yad eylə,
Ağlamaq şivənin ziyad eylə.
Gah dərdü bəlavü ahə meyl eylə,
Gahi rəxti-siyahə meyl eylə.
Rəxti-al zibi-qamətdir,
Leyk geysən, sənə məlamətdir.
Rahi- eşqində gör dəyanətimi,
Yaxşı saxla mənim əmanətimi.
Qoyma naməhrəmi hərimə, gözlə,
Etibarü dəyanətini özlə.
Demə ki, getdi, bunları bilməz,
Dəxi bir də bu aləmə gəlməz.
Dil ki, kuyində qaldı, fəhm eylər,
Həftəbəhəftə ruhuma söylər.
Həşrdə xəlq kim, hesabə gedər,
Hamı məzlumlar təzəllüm edər.
Ruhum ol gündə dadxahın olar,
Dil qabağa gedər güvahin olar.
Olarsan dil yanında şərməndə,
Oalarsan həşrara sərəfkəndə.
Tuti, kimdir asan bu sözə qulaq,
Olur gözdən uzaq-könüldən iraq.

# MƏHƏMMƏD BƏY AŞİQ

Məhəmməd bəy Behbud bəy oğlu Cavanşir "Aşiq" təxəllüsü ilə şeir yazdığı üçün Məhəmməd bəy Aşiq adı ilə daha məşhur idi. O, 1776-cı ildə Şuşa şəhərində anadan olmuşdur. İstər XIX əsrdə yaranan təzkirələrdə, istərsə də ayrı-ayrı tədqiqat əsərlərində şairin adı böyük ehtiramla yad edilir. Salman Mümtazın verdiyi məlumata görə şairin ikinci babası Behbudəli bəy Şuşa şəhərinin banisi Pənahəli xanın əmisi oğludur. Behbud bəyin oğlanlarından biri-Mirzəli bəyin üç oğlu olduğu üçün onun yaşadığı yer "Üçoğlan" adlanır və getdikcə bu yer böyük bir kəndə çevrilir. Məhəmməd bəy bir müddət sonra kiçik qardaşı Böyük bəydən ayrılaraq Qarabağdakı mülklərini ona verib, özü isə Zəngəzur mülklərini götürür və Zəngilana köçərək orada yaşayır.

Firudin bəy Köçərlinin məlumatında deyilir ki, Məhəmməd bəy "ziyadə qeyrətli, sahibi-kəmal bir vücud imiş,.... müasirləri arasında hörmət və izzəti çox imiş. Bununla belə düşmənləri də az deyilmiş. Rus dövləti Zəngəzur mahalını zəbt edərkən orada bəzi iğtişaşlar baş verir. Şairin düşmənləri bu hadisədən istifadə edərək Məhəmməd bəyi bu iğtişaşların əsas təşkilatçısı kimi qələmə verir və nəticədə, "ricalı-dövlət dəxi onun haqqında söylənilən iftira və böhtanları təhqiq etməmiş" onu Ordubada sürgün edirlər və şair 1861-ci ildə ömrünü orada başa vurur.

Məhəmməd bəy klassik və folklor üslubunda yazan şair kimi tanınır. Onun əsərləri "Keçmişlərdən gələn səslər" dərgisində (V buraxılış, B., Elm, 1987), Azad Qaradərəli. Aşiqlər. (B., 1998) kitabında hissə-hissə nəşr edilmişdir. Buradakı şeir nümunələri göstərilən əsərlərdən və AMEA ƏYİ-nin arxivində saxlanılan cünglərdən götürülmüşdür.

## Qəzəllər

Necə kim ol sənəmin qəmzeyi-xunxarəsi var,
Dili-zarımda mənim qanlı ciyərparəsi var.

Dilü əşkimi mənim salma nəzərdən, ey göz,
Dut giranmayə, onun səbəyi-səyyarəsi var.

Yar xalına baxan gözdə qaradan qalmaz,
Demə aşiq ona kim, gözlərinin qarəsi var.

Dami-təxsirə salır hər yetən azadələri,
Qaşü göz, zülfün əcəb qəmzeyi-məkkarəsi var.

Sanma bikarə məni şahi-hünərməndanəm,
Yığılıb başıma dəhrin nə ki avarəsi var.

Rəngi-zərdim yox əcəb əşk ilə gülgünə dönüb,
Cigərimdə acı müjgan oxunun yarəsi var.

Küfri-zülfün sevəli kamil olub iymanım,
Gərçi bu rəmzlərin şəridə kəffarəsi var.

Bağlanmış silsileyi-kakilə könlüm möhkəm,
Mən kimi yüz min onun Aşiqi-biçarəsi var.

***

Aldım qələmi namə yazam, yarə könüldən,
Ya rəb, ola bir məhrəmi aparə könüldən.

Ol qönçədəhən dilbərə yetkəc dil uzadıb,
Bülbül kimi hər dəm gələ göftarə könüldən.

Tez-tez qoyub ol sərvi-qədin payinə başın,
Pabus qılıb icz ilə yəlvarə könüldən.

Əvvəl alıb nitqi-Məsihadən icazət,
Axır edə hər ərzimi sərdarə könüldən.

Xunbarlığın dideyi-giryanımı bir-bir,
Təqrir edə ol gözləri xunxarə könüldən.

Pərvanəsifət düşdügümü vadiyi-hicrə,
Hər ləhzə deyə atəşi-rüxsarə könüldən.

Naçarlığımı ərz edə ol şahi-cahanə,
Rəhm eyləyibən,bəlkə, edə çarə könüldən.

Keyfiyyəti-əhvalı və həm qisseyi-hicri,
Ərz eyləyə, bilgi verə dildarə könüldən.

Aşiq, qəmi-hicranı yazıb eylədim irsal,
Ol zülfi-siyahə bu üzüqarə könüldən.

***

O qara tellərinə oğru deyim, ya rəhzən,
Ya könlüm məmləkətin qarət edib badə verən.

O münəvvər yüzini gördü məgər ay ilə gün,
Düşdülər dağa-daşa, oldular avarə gəzən.

O gözü qaşın olub qətlim üçün amadə,
Biri şəmşir çəkib, ol birisi yayə düzən.

O xəttü xali-siyahın, dəxi rüxsarın,
Ləşkəri-hindü həbəş türkə tapıb əl deyəsən.

O qədü qamətə bax, gör nə qiyamət eylər,
Rəşgdən bağə qaçıb, guşə tutub sərvi-çəmən.

O hənalı əlinə, nola, mübarək deyələr,
O ki şirin dilinə şəhdü şəkərdir deyilən.

Ağzına qönçə deyən kəslərin ağzın yumasan,
Görsə bir gəz onu yüz yerdən açar qönçə dəhən.

Şikəni-zülfdə dil naləsi keçdi həddən,
O qarə gündən onu qurtarın, Allahı sevən.

Dürfəşanlıq bu qədər eylədik, Aşiq, bəsdir,
Hanı bu dəhrdə bir dərdə yetib qədr bilən.

## Qoşmalar

Səndən ayrı işim mənim, ey dilbər,
Gecə-gündüz ahü fəqan olubdur.
Təğafül rəhmindən zülmü sitəmi,
Bizim barəmizdə ehsan olubdur.

Ləhzə-ləhzə halın sorduğun könlüm,
Gündə min nəsihət verdiyin könlüm.
Daim şadü xürrəm gördüyün könlüm,
İndi dərd əlindən viran olubdur.

Nə istərsən, zalım, mən binəvadan?
Bir gün əl çəkməzsən cövrü cəfadan.
Sanma indi, bil ki, qalü bəladan,
Gözlərim hüsnünə heyran olubdur.

Haçan almamışdın əqlimi sərdən,
Oxurdum məhdi-hüsnün əzbərdən.
O gündən ki saldın gözdən, nəzərdən,
Mənim halım çox-çox yaman olubdur.

Heç yada salmırsan mən dilfikarı,
Səni nə bimürvət yaradıb tarı,
Dəhanın şövqündən Aşiqi-zarı
Öldürən bu dağı-pünhan olubdur.
***
Təzədən bir işə düşmüşəm genə,
Ala gözlü bir şux gəlin sevmişəm.
Mina gərdənini, tər sinəsini,
Rəna qəddin, qulac qolun sevmişəm.

Qədri-qiymət bilən bir əsilzada,
Namü nişanını deмənəm yada,
Sərasər əndamı oxşar şümşada,
Nazik ayaqların, əlin sevmişəm.

Bəyənmişəm onun  məcmui-karın,
Şövqində var idim bir belə yarın,
Xoş ədasın, xoş rəftarü göftarın,
Danışanda şirin dilin sevmişəm.

Görməmişəm belə zülfü dəhəntək,
Yüz min əsiri var, əlbəttə, məntək,
Gülüstanə düşmüş zağü zəğəntək,
Ay qabaqda siyəh telin sevmişəm.

Mişkin kakilinin sərgəştəsiyəm,
Növki-müjganının dil xəstəsiyəm.
Aşiqəm, zülfünün pabəstəsiyəm,
Üzün, saçın, incə belin sevmişəm.
***
Bilirsənmi könlüm, yar, səndən ayrı,
Necə miskin-miskin, natəvan gəzir.
Düşüb  səhralara şeydalar kimi,
Sübhü şami bilməz, hər zaman gəzir.

Bir dilbəri-əla, çeşmi məstanə,
Qüssəsindən könül oldu viranə,
Bilmirəm ki, neynəmişəm cananə,
Hər görəndə məndən belə yan gəzir.

Bu dili-divanə, ey şuxi-ali,
Canü dildən sevib ol xəttü xali,
Kakili mişkinə aşiq olali,
Başın üçün, daim sərgərdan gəzir.

Firqətindən qara bağrım olub su,
Alıbdır qərarım o zülfü geysu,
Mən ölmüşəm ləli-ləbindən ayru,
Deyirlər ki, cismində bəs can gəzir.

Genə Aşiq unudubdur hər karı,
Sevibdir bir şuxi- çeşmi xunxarı,
Ol yanağı mahı, lalərüxsarı,
Necə qıyır, zülfü pərişan gəzir.

***

Ey bivəfa, qədirbilməz dilbərim,
Şikayətim səndən bir kitab olmuş,
Yaza bilməz onu xameyi-qüdrət,
Çünki həddən keçmiş, bihesab olmuş.

Saraldım həsrəti-ali-ruyindən,
Tapmadım bir rəmz hali-ruyindən.
Dərdimə ol şirin göftguyindən,
Nə bir sual olmuş, nə cavab olmuş.

Müjgan oxun canda o sipər kimi,
Dərin əzizimdir simü zər kimi,
Dil dəfinə, daim əfilər kimi,
Türreyi-tərrarın piçü tab olmuş.

Qızıl gül həsrətdir o al ruyuna,
Sərvi-səhi mat olubdur boyuna,
Hər gündə üz düşər xaki-kuyuna,
Kəmtərin qulamın afitab olmuş.

Əsiri-zülf olmuş divanə könlüm,
Olubdur Aşiqdən biganə könlüm,
Dağılmış dünyada viranə könlüm,
Bir gün şad olmadı, ol xarab olmuş.

***

Səni Tarı, məndən olma mükəddər,
İncitmə, bu dili viranı sənsən.
Neylərəm dünyanı, əzizim, sənsiz,
Bilirəm dərdimin dərmanı sənsən.

Gözəldir camalın, hüsnündür cəmil,
Ölmədim hicrində, qalmışam xəcil.
Başınçün, ey gülüm, dolansa yüz il,
Könlümün mülkünün sultanı sənsən.

Vamiqin Əzrayə var idi meyli,
Onuncun axardı gözündən seyli,
Yusifin Züleyxa, Məcnunun Leyli,
Mənim də canımın cananı sənsən.

Hər nə ki ərz etdim, ona yetmədin,
Şad eyləyib bizi, gəlib- getmədin.
Könlüm alıb, bir yol qəbul etmədin,
Bu qədər ki, çəkdim imanı, sənsən.

O gizli baxışın alıbdır canı,
Cadu qəmzələrin verməz imanı.
Tarı hifz eyləsin növki-müjganı,
Aşiqin qatili-pünhanı sənsən.

## Gəraylılar

Mərdümi-çeşmim qan ağlar,
Xali-hindudan ayrılmış.
Sızıldar mürği-dil daim,
Zülfi-xoşbudan ayrılmış.

Qoynunda bağü bustanın,
Barvərdir gülüstanın,
Sanasan iki püstanın,
Şaxi- limudan ayrılmış.

Qayıdıb baxmağın hər yan,
Görən kimsə qalır heyran,
Deyirlər, ya rəb, bu ceyran,
Hansı ahudan ayrılmış.

Əgər tab etməz hicranə,
Məzəmmət etməyin canə,
Yarə-yarə olur şanə,
O tari-mudan ayrılmış.

Qaşın şövqilə peyvəstə,
Qaməti olub şikəstə,
Dirilməz Aşiqi-xəstə
Taqi-əbrudən ayrılmış.

***

Firqətindən, ey dilrüba,
Təngə yetib canə gəldim,
Sənsiz bu xəstə könlümün
Əlindən amanə gəldim.

Məni bu dildəki nalə,
Saldı bir özgə xəyalə,

Getdim, yetmədim vüsalə,
Genə yanə-yanə gəldim.

Bir zaman küyində qalsam,
Qolumu boynuna salsam,
Küfr zülfün ələ alsam,
Elə bil, imanə gəldim.

Hicrində qaldım avarə,
Rəhm edən yox dili-zarə,
Sən özün eylə bir çarə
Kim, sizin divanə gəldim.

Aşiq, yamandır zəmanə,
Etibar olmaz xübanə,
Qoymağa mərdi-mərdanə
Bu başı meydanə, gəldim.

***

Böylə ki, bir könül olmaz.
Acizi-binəvdır bu.
Eyləyib zülfündə məskən,
Əcəb günüqaradır bu.

Cəmiyyəti-dərdü ələm,
Ətrafında görənlər həm,
Sorsalar nədir, deyərəm:
Yardan gələn bəladır bu.

Səgi-küyinin həmdəmi,
Nə dərdi var, nə də qəmi,
İstəməz külli-aləmi,
Özgə zövqü səfadır bu.

Ağzını dərdimə dərman,
Gərçi derlər, yoxdur güman,
Müşkül oldu aman, aman,
Bidərdü bidəvadır bu.

Qapsında eyləsəm şivən,
Desə kimdir o məh, bilmən,
Bir deyin, Allahı sevən,
Aşiqi-binəvadır bu.

***

Qan ağlar, can quşu daim,
Rəhmsiz səyyad əlindən,
Öldürməz, eyləməz azad,
Hə çəkər fəryad, əlindən.

Sultani-eşqdir zalım,
Yaman yerə yetib halım,
Dil şəhri ilə xəyalım,
Olubdu bərbad, əlindən.

Zülmündən ol sitəmkarın,
Naləsindən dili-zarın,
Bir neçə gün ruzigarın,
Olmadım dilşad, əlindən.

Navəki-müjganı səf-səf,
Eşq əhlini qılmış hədəf,
Atsa yayınmaz hər tərəf ,
Çıxmışlar ustad əlindən.

Gözlərini Aşiqi-zar,
Sevəndən bəridir bimar,
Səni Tarı, öldür qurtar,
Ol iki cəllad əlindən.

***

Ləbin can versə üşşaqə,
Genə tez alı gözlərin,
Bir kəz baxmaz xəstəsinə,
Nəzərdən salı gözlərin.

Çəkmiş üzə tiği-əbru,
Düzmüş xəttü xali-hindu,
Dil qəsdinə dami-geysu,
Qurmuş bəlalı gözlərin.

Yüz tərəfdən olsa kömək,
Mümkün olmaz tab eyləmək,
Dönüb yorulmuş maraltək,
Baxanda dalı gözlərin.

Hər yan səfi-müjganıdır,
Aləm onun heyranıdır,
Guya Xütən ceyranıdır,
Ya Çin qəzalı gözlərin.

Gənci-hüsnün pasibanı,
Kəc nigahı alır canı,
Aşiqin dinü imanı,
Həm mülkü malı gözlərin.

***

## Müxəmməs

Ey Pəri, dəhrdə yox sən kimi bir canana,
Tən edir mehri-rüxün göydə məhi-tabanə,
Gərci bihədd görürəm lütfünü hər insanə,
Piri-bifaidədir uyma Məlik Aslanə,[1]
Olgilən yar genə mən təki bir oğlanə.

Çün sənin qədrini Fərhad ilə Şirin bilməz,
Mirzəcan bilsə də yüzdən o da birin bilməz
Mirzə Məmməd dəxi o „fəthə“ vü „zirin“ bilməz,
Kim ki, məşuq ola öz zülfi əsirin bilməz,
Rəng ilən salmagilən sən buları böhtanə.

Mən sənə hər nə deysəm mehrü məhəbbət sözüdür.
Sən mana yazdığın əfsanəvü möhnət sözüdür.
Gər desəm həmdəm olaq bil ki, müvəddət sözüdür,
Bir zaman ərzim eşit, gör neçə ülfət sözüdür,
Tövsəni-əqlini fikr ilə gətir cövlanə.

Sən təki şux münasibdi ki, məstanə gələ,
Əldə sazü məzəvü sağərü peymanə gələ,
Aşiqi-məst görüb din ilə imanə gələ,
Kim gərək doqquz ola başı, bu meydana gələ,
Özünə qürrələnib girmə bizim meydanə.

Sana şayəstə odur kim, tapasan əhli-vəfa,
Cani-dildən edəsən eşq təriqni rəfa.
Olasan yar ona, etməyəsən cövrü cəfa,
Dövri-fanidə sürüb bir neçə gün zövqü səfa,
Əhli-haldan özünü tutmayasan biganə.

Qəmzən əyyardır, ey şuxi- cahan, bilməzsən,
Ləblərin tökdüyü nahəq yerə qan bilməzsən,

Öldürürsən məni, heç ahü aman bilməzsən,
Məst çeşmin sənin, ey afəti-can, bilməzsən,
Nə zamandır ki, edib könlüm evin viranə.

Ey gözəl, mehrin ilə mən olalı pabəstə,
Hicrdən daim  olub can ilə könlüm xəstə,
Nə yazım mən, nə deyim sən təki bir sərməstə,
Zülf zəncirini göstərmə mana peyvəstə,
İstəmə kim, edəsən Aşiqini divanə.

***

# ABDULLA CANIOĞLU

Abdulla Canıoğlu təxminən 1777-ci ildə Şuşa şəhərində anadan olmuş və 1838-ci ildə vəfat etmişdir. Mənbələrin verdiyi məlumata görə, o xoş əxlaqlı, gözəl xüsusiyyətli, “məclislərin zinəti, məhfillərin yaraşığı”, “dövrünün ariflərindən hesab olunan rəvan və səlis təbə malik” ağıllı bir şəxs olduğu üçün vilayətin əksər əyan və əşrəfi ilə dostluq və yaxınlıq edərmiş. Güzəranını ticarətlə təmin edən Abdulla kimyagərliklə də məşğul olurmuş. Bədahətən şeir deməkdə, xüsusilə, həcvguluqda tayı – bərabəri yox imiş. Onun bu məharətini müasiri Qasım bəy Zakir də şeirlərinin birində qeyd etmişdir.

Abdulla Canıoğlu şeirlərini “Abdullah” və “Qənbər” təxəllüsləri ilə yazmışdır. Şairin irsi tam təqdid olunmasa da, Firidun bəy Köçərlinin “Azərbaycan ədəbiyyatı” (I cild, 1978), Hüseyn Əfəndi Qayibovun “Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir”(I cild, 1986), Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab” (1998), Məhəmməd ağa Müctəhidzadənin “Riyazül-aşiqin” (1995), eləcə də AMEA ƏYİ-nin arxivində mühafizə olunan B-1987/3145, B-208/5356, B-1251/11238, D-288/7670, B-1987/3141, M-180/10501 şifrəli əlyazmalarında gəlib bizə çatmışdır. Aşağıdakı nümunələr qeyd etdiyimiz mənbələrdən götürülmüşdür.

## Qəzəllər

Verdim əgərçi türreyi – tərrarə könlümü,
Etdim düçar gör necə şəhmarə könlümü.

Ey şanə, mubəmu ara hər tari – zülfünü,
Gör kim çəkibdi harda mənim darə könlümü?

Naseh, demə ki, yarə könül vermədin dəxi,
Ruzi - əzəldə verdim o bir tarə könlümü.

Gör taqətim nə tağ qılıb ol iki qaşı,
Qoymuş nişanə kiprigi biçarə könlümü.

Zahid, məlamət etmə sən Abdullahı görüb,
Məzur dut, alıbdır mehparə könlümü.

***

Müəttər qıldı eşq əhlin dəhanın nəfyü isbatı,
Yəqin oldu mənə kim, var – yoxdandır onun zatı.

Nə şirindir dəhanın söhbəti, ləli – ləbin hərfi
Ki, təlx olmuş ləbi – ləlindən ayrılmır ovqatı.

Cəhan zülmətsərayın rövşən etməzdi, əgər yüz gəz,
Yüzündən kəsbi -ənvar etməsəydi şəms miratı.

Dağıtdı – əğdi – zülfün dövri – ruyindən səba, guya,
Tülui - sübgahı nurdan fərq etdi zülmatı.

Gözün gördüm, xətadan olmadım xali, müsəlmanlar,
Xuda küffarə mərcu etməsin həm beylə afatı.

Məqaləti – ləbin babində natiq İsavü Məryəm,
Xətü xalü rüxün haqqında nazil müshəf ayatı.

Ləbi – ləlin sevənlər etmədi kövsər təmənnasın,
Səri – kuyin görənlər şövqdən tərk etdi cənnatı.

Nə mümkün kakilündən ömri – kutahilə kam almaq,
Könül, başdan çıxar, tul etmə bu batil xəyalatı.

Dəhanın zülməti – pünhanə çəkdi abi – heyvanı,
Qubarı – xətti – ruyin həsrəti tar etdi miratı.

Bəla peykanı dolmuş canə yüz qat, ey gözüm nuru,
Xədəngin saxla ondan kim, dəmirdəndir onun qatı.

Hava səqfində quşlar kamiyab olmaq xədəngindən,
Həsəddən sıçrayıb əflaka çıxdı ahımın atı.

Səgi – kuyinə nəzr etmiş cigər pərkaləsin könlüm,
Səadətdir ona məqbuli – dərgah olsa xeyratı.

Xədəngı – çeşmi – məstin sineyi – məcruha mərhəmdir,
Təğafül qılma Abdullaha mərsul et bu sovqatı.

***

Aləm içrə xoş rəfiqü mehribandır suxtələr[1],
Xoştəbü xoşxəlqü şirinzəbandır süxtələr.

Gərçi surətdə görünürlər həqirü natəvan,
Leyk əyyanü-hünərdə şiri-jəyandır suxtələr.

Cani – şirin sərf edərlər bir – birinin yoluna,
Ərsəyi - əhdü vəfada pəhləvandır suxtələr.

Şol səbəbdən göstərirlər hər dəmdə istiqna yüzin.
Kim qənaət üzə daim kamrandır suxtələr.

Gər hezaran cövr təqdiri- qəzadan gösrələr,
Guşeyi – möhnət icrə şakirandır suxtələr.

Kimyayi – elm birlə cəhl xaki pak edib,
Zibdeyi çini – xürdəbinü nüktədandır süxtələr.

Tiği – təqvilə gör kim, babi – cənnət fəth edib,
Gülşəni – firdovs içində sakinandır suxtələr.

---

[1]Suxtələr - əzaba düçar olanlar, dərdə düşənlər.

Gərci dünya məhləsində ruyi – izzət görməmiş,
Leyk abi – kovsər üzrə saqiyandır suxtələr.

Xəstə Abdullah həm onlardan məfariq olmasın
Kim, təriqi-şər üzrə rəvandır suxtələr.

***

Hər dəm səni – bivəfayə canan deməkdən öldüm,
Düşdüm qəmi – cəfaya, aman deməkdən öldüm.

Bunca dadü fəryad çəkdim ki, vəqtü bivəqt
Bir qövrə yetmədin sən, sultan deməkdən öldüm.

Bəzmi – vüsalın üzrə bir qılmadın məni yad,
Ta sübhədən dərində mehman deməkdən öldüm.

Ləli –ləbin şərabı təşbihdir dəvayə,
"Bəxş etmədin bu dərdə dərman" – deməkdən öldüm.

Şol arizin dəmadəm açan qönçeyi – irəmdir.
Bir əndəlibi – zarəm, əfqan deməkdən öldüm.

Verdin zəkati – hüsnünü əğyarə lütf ilə
Bən sayil gədatək "ehsan" – deməkdən öldüm.

Bəni – Abdullahi – məzlum, ey şah, ərzi – halim
Şərhi – dilim sana bən hər yan deməkdən öldüm.

***

Darışdım hammam yolunda bir lətif cananəyə,
Qaşları hilala bənzər, dişləri dürdanəyə.

Sən doğanda şəkkər əzmiş, duz yerinə dayələr,
Səd hezaran bar rəhmət səni doğuran anəyə.

Sudur ki, həmmam içində yüzi cin –cin tərləmiş,
Sanasan şəbnəm düşübdür nərgisi – məstanəyə

Sağ əlim ilə şəpeydim yar yüzinə gül suyun
Sol əlim ilə çəkeydim yarı mehmanxanəyə.

Abi – kövsər ceşmindən nüş qılmış ol Xızır,
Genə həqdən nida endi Qənbəri - divanəyə.

***

## Müxəmməslər

Ah kim, qalmadı can cismdə canan gedəli,
Oldu hər yerdə ki, canan gedəli, can gedəli,
Tutdu zülmət göz evin şəmi – şəbistan gedəli,
Oldu viranə könül kişvəri sultan gedəli,
Yəni sərdari – cahan, sərvəri – dövran gedəli.

Gül üzün görməyəli olmadı xəndan güllər,
Şəm odlara yanıb, başına qoydu küllər,
Zülfü sövdası ilə dərhəm olub sünbüllər,
Necə fəryadü fəqan eyləməsin bülbüllər –
Ki, olub xar ilə həmdəm güli – xəndan gedəli.

Çərx rəhm eyləmədi dideyi – giryanımıza,
Qoydu həsrət bizi ol şəmi – şəbistanımıza,
Atəşi – hicr ilə od saldı bizim canımıza,
Sancılıb navəki – qəm sineyi – suzanımıza,
Güşeyi – çeşmdən ol kipriyi peykan gedəli.

Çıxdı çün Şişədən ol mahliqa misli – gülab,
Şişə əhlinə bu vəch ilə həram oldu şərab,
Sındı başlarda həva şişəsi manəndi – hübab,
Oldu aləmdə fərəh gülşəni bilmərrə xərab,
Üzü gül, kakili sünbül, xəti reyhan gedəli.

Çəkəli bəzmdən ol ləbləri meygun atəyin,
Doldurub qan ilə sağər dili – purxun ətəyin,
Əşk seylabı tutar aşiqi – məhzun ətəyin,
Nola fəryadü fəğanım tuta gərdun ətəyin –
Ki, qara oldu günüm ol məhi – taban gedəli.

Mənəm ol qumriyi-miskin ki, salıb aləmə səs,
Sərv kü-kü deyərəm hüzn ilə ta qəti-nəfəs,
Abü danəm ələmü qüssə, yerim künci – qəfəs,
Bir zaman eyləməzəm seyri – gülüstanə həvəs
Səhni – gülzardən ol sərvi – xuraman gedəli.

Məqsədim rövzeyi – küyində budur şamu səhər –
Ki, bula feyzi – vüsalında ziya dideyi – tər,
Ola xaki –qədəmin sürmeyi - ərbabi – bəsər,
Qılasan gülşəni – küyində olan murə nəzər,
Görəsən kim, necədir halı Süleyman gedəli.
***
Ey ki, zülmətgəhi – zülf içrə üzün misli – çiraq,
Məstü sərxoş gözünə qarşı yaman gözlərə ağ,
Olmasın xaki – dərin güşeyi – çeşmimdən iraq,
Ləblərindən dəhənim dərdə dəva etdi soraq,
Söylədi: ağzıma innabi – ləbü sibi – buxaq.

Baxdı mərdüm üzünə, saldı nəzərdən ayi,
Qıldı xəm şöhrəti - əbruyi – lətifin yayi,
Qədrü qiymətdə deyil ləl ləbin həmtayi,
Həvəsi – zülfi – siyahınla olub sövdayi –
Ki, çəkib silsileyi – kakili – tərrarə daraq.

Görünür çöhrələrin laləyə gülgün, gülə al,
Qoymadı al ilə ruyin dili – ayinədə hal,
Sürmeyi – şux gözün fitnəyə saldı filhal,

Qıldı izhari – şərəf Kəbeyi – rüxsardə xal,
Vərəq üz sürtdü qədəmgahına gülgünə yanaq.

Kakilin şanələnir zinəti – duş etmək üçün,
Xoş gəlir xəlqə ləbin hərfi nüyuş etmək üçün,
Dil dilər şərbəti – güftarını nuş etmək üçün,
Xəlqdən vəsfi – bənagüşünü guş etmək üçün,
Bəhr açdırdı sədəfdən düri – qəltanə qulaq.

Gül xitab etsə sənə, qönçə ona eylə itab,
Qönçə kimdir ki, sənə qarşı durub verə cavab,
Baxsa hər dəm üzünə şərmdən olmazmı gülab,
Nədir ayinə görən dəmdə səni eyləyə tab,
Əksi – ruxsarın ona olmasa mənada dayaq?!

Dursa ayinə müqabil, üzünə qılsa nəzər,
Ona üz vermə, nəzərdən sal onu şamü səhər,
Fazədən qoyma ola dövri – yənağında əsər,
Vəsməvü sürmə gözü qaşına meyl etsə əgər,
Sürməni seyrə salıb vəsməyə qıl qaş – qabaq!

Hüsnünə aşiqi – sadiq demə hər gümrahi,
Aşiq oldur yaxa çərxi dili – atəşgahi,
Imtəhan eylə şəbi – hicrdə Abdullahi,
Şöleyi – ahında gər yanmasa çərxin mahi,
Tiğ çək, başını kəs, şəm kimi atəşə yaq.

***

## Cığalı müxəmməs

Ey iki gözüm, qıl belə şahbazə tamaşa,
Mövsümdü, güşad et iki dərvazə tamaşa,
Bu nazü nəzakətdə sərəfrazə tamaşa.
    Gör necə gözəldir,

Məhbubi - əzəldir,
Leylayə bədəldir,
Məcmuyə məhəldir.
Xoşbuyə tamaşa,
Ahuyə tamaşa,
Giysiyə tamaşa,
Əbruyə tamaşa.
Xəncər nəkarədır,
Hər yarəsi göyçək, hər muyə tamaşa,
Xoşbəxtü xoşəlhanü xoşavazə tamaşa.

Ey bülbüli – can, çıx belə, rəftarına bir bax!
Qıl seyrü səyahət, gülü gülzarına bir bax!
Yüz canalıcı işveyi – rüxsarına bir bax!
Gör kim neçə candır,
Can içrə nihandır,
Mənzuri – cahandır,
Hər qəməzsi qandır,
Mən öldüm, amandır!
Şirin dilə bir bax!
Nazik belə bir bax!
Şümşad ələ bir bax!
Ənbər nəkəradır,
Kövsər nəkəradır,
Ruxsarəsi göyçək,
Getmə, hələ bir bax!
Heyvasinə, şəmmaməsinə, narinə bir bax!
Qoynunda nə əlvan bəzənib tazə - tamaşa.

Bir gözləri xummar, zənəxdanı əcayib,
Bir dişləri mirvarid, rəxşanı əcayib,
Bir təngdəhan, qönçeyi – xəndanı əcayib.
Gör bu nə ədadır,
Canım nə fədadır,

Bir huriliqadır,
Pürçövrü cəfadır
Ya nuri – xudadır,
Əxlaqı əcayib,
Durmağı əcayib,
Buxağı əcayib,
Dodağı əcayib,
Mərmər nəkəradır,
Gövhər nəkəradır,
Nəzzarəsi göyçək,
O tağı əcayib.
Ey dil, edəsən kəsb bu meydanı əcayib,
Təfsili – bahar oldu, buyur yazə tamaşa.

Bu sərvqədin qaməti – rənası da xoşdur,
Şahbazsifət zülfi – mütərrası da xoşdur,
Durna kimi həm gərdəni – minası da xoşdur.
Ya nəcmi – dürərdir,
Ya şəmsü qəmərdir.
İksiri – nəzərdir,
Yandım, nə xəbərdir?!
Baxması da xoşdur,
Sövdası da xoşdur,
Zibası da xoşdur,
Əzası da xoşdur.
Əxgər nəkəradır?
Məcmər nəkəradır?
Həm arəsi göyçək, beyzası da xoşdur.
Gəl, indi sən et bu yerişə, nazə tamaşa!

Yüz püstələbü ləli – Bədəxşan buna peşkəş!
Yüz laləüzar afəti – dövran buna peşkəş!
Cümlə nə qədər var isə xuban, buna peşkəş!
Bu hurü mələkdir,

Qılmanə köməkdir,
Bu simbiləkdir,
Rizvan nə deməkdir?!
Rizvan buna peşkəş!
Bostan buna peşkəş!
Reyhan buna peşkəş!
Cövhər nəkəradır?
Həm zər nəkəradır?
Xunxarəsi göyçək,
Bu can buna peşkəş!
Abdulla kimi neçə qəzəlxan buna peşkəş!
Dur, söhbəti – meyxanəyə gəl, sazə tamaşa!
***

**Kəsəyən**

Nə gətirdi başıma gör sən, bu, ala kəsəyən
Pasalaq tülküsifət cüssəsi bala kəsəyən,
Süfrədən qaçıban girdi çuvala kəsəyən,
Annıyan var idi içində molla kəsəyən,
Sald bəzən hücrəmizə qoyma ki, qoyma kəsəyən.

Bir günü gəldi biri, girdi çörək süfrəsinə,
Tazə bişmişdi, məgər bu çörəgin həvəsinə,
Həsrət oldu kişilər bir kəsəyən tələsinə,
Nəki var idi tamam yığıldı munun səsinə,
Cuha –cu düşdü genə, oldu mühəyya kəsəyən.

Həzərat, gəldi biri, çəkdi qazanı yanına,
Dişini itiləyib soxuldu onun canına,
Qazmağın yeyib, üzün döndərdi arı şanına,
Bu gödək fasiqü zalim hələ barı tanına,
Süpürüb dutam anı, eyləyəm əma kəsəyən.
Eşibən hücrəni döndərdi bu mal qazmasına,

Necə mərddir ki, yetə yumrubaşın yorqasına,
Görənlər heybət edər bunun bığlarının pasına,
Bir günü gəldi dadandı genə yağ qalqasına,
Yağı da yedi tamam bığları zorba kəsəyən.

Dəməginin[1] hər birinin olur beş arşın dərini,
Kişilər, vallah onu qazmağa adəm ərini,
İttifaq gəldi pişik, gördü buların yerini,
Tullanıb şir kimi, alıb oturdu birini,
Biçarə başına küldü, indi ağla, kəsəyən.

Nagəhan düşdü o palazqulaq qarnıyekə,
Hövsələk, tələsimiş tez yüyürüb çıxdı yükə,
Bir döşək tapdı zalım, ötdü anı sökə - sökə,
Nə qızım var mənim, nə övrətim, anı tikə,
Əlaman, sənin əlindən, belə lovğa kəsəyən.

Mühəssil, mən nə deyim tazədən adət bu qurur,
Cuha – cu ta sübhdən zurna, nağaranı urur,
Biri düşüb kafərin, biri də tənfədə durur,
Füqəra Abdullah, bil, koxanı darğa buyurur,
Gəlibən hey daşıyır darğıya koxa kəsəyən.

***

[1]Kəsəyən yuvasının girişi.

## BABA BƏY ŞAKİR

Azərbaycan ədəbiyyatında ictimai satiranın formalaşması və ərsəyə gəlməsində xüsusi xidməti olan Baba bəy Məhəmmədəli bəy oğlu Cavanşir 1778-ci ildə Şuşada anadan olmuş və 1845-ci ildə orada da vəfat etmişdir. Onun babası Fəzləli bəy Pənahəli xan Cavanşirin böyük qardaşı idi. Lakin xan nəslindən olmasina baxmayaraq onun güzəranı o qədər də xoş keçməmiş, ehtiyac içərisində yaşamışdır. O, müasiri və qohumu Qasım bəy Zakirlə yaxın dost və sirdaş olmuşdur. Onların yaxınlığının əsas səbəbi xarakterlərinin oxşarlığı, hər ikisinin mərd, qorxmaz və sözübütöv olmalarından ibarət idi. Bu səbəbdən əksər dönəmlərdə onların düşmənləri, tənqid hədəfləri də eyni olmuşdur. Zakirin Baba bəyin vəfatı münasibətilə yazdığı maddeyi-tarixi bu dostluğun bariz nümunəsi hesab etmək olar.

Baba bəy Şakirin əlimizdə olan əsərləri təsdiq edir ki, o həm lirik və həm də satirik üslubda yazan istedadlı şair olmuşdur. Əfsuslar olsun ki, bir çox müasirləri kimi onun şeirləri də tam şəkildə gəlib bizə çatmamışdır. Burada təqdim olunan nümunələr şairin 1985-ci ildə nəşr edilmiş “Seçilmiş əsərləri”ndən (Tərtib edəni Fərhad Yəhyayev), AMEA ƏYİ-nin arxivində mühafizə olunan F-2, s.v.418 şifrli əlyazmasından, B-1369/7062 şifrli cüngdən və M.Müctəhidzadənin 1910-cu ildə əski əlifba ilə İstanbulda nəşr etdirdiyi “Riyazül-aşiqin” əsərindən götürülmüşdür.

### Qoşmalar

Şamü səhər qan süzüldü didəmdən,
Razi-dilim pərizada yetmədi.
Gah yalvardım, gah döşəndim payinə,
Kar guşinə nalə, səda yetmədi.

Tora saldı canan könül quşumu,
Aldadıban sərdən aldı huşumu.
Qatdı fələk qovğalarla başımı,
Rəhmə gəlib yar imdada yetmədi.

O gözləri şəhla, qaməti bəstə,
Anlamaz, nə çəkir Şakir şikəstə,
Didari şövqündən düşübdü xəstə,
Ömür keçib, bir murada yetmədi.

***

Qaradır üzümüz haqq dərgahında,
Kef üstə kef gələr damaq üstünə.
Vilayət məğşuşdu, zülm bihesab,
Bir üz də salarıq yamaq üstünə.

Bu dövranda hünər söhbəti bitdi,
Bərəkət qeyb oldu, kişilik itdi,
Kərəmli kişilər rəhmətə getdi,
Kələf çözələndi yumaq üstünə.

Naiblər mahalı xali tapdılar,
Bəyzadələr kənd-kəsəyi çapdılar,
Daşdan yumşaq nə gördülər, qapdılar,
Qapqara yaxdılar dümağ üstünə.

Çuxam çula dönüb, yırtılıb kürküm,
Keçib boğazıma sürtülmüş börküm.
Insafdan, mürvətdən danışsa hər kim,
Tökülər yüz yerdən çomaq üstünə.

Kimin ki başından aşardı varı,
Tapılmaz evində bir çanaq darı.
Yollanaq Tiflisə, tapaq sərdarı,
Hərəmiz bir yandan cumaq üstünə.

***

Mürği-ruhum təndə durmaz, dövr edər,
Yenə canan düşdü yada, ay mədəd,
Qərib ölkə, baş yastıqda, göz yolda,
Kimim var ki, yetə dada, ay mədəd!

Diyarı-qürbətdə mən bəxtiqarə,
Bir dərdə düşmüşəm, bulunmaz çarə;
Bilsəm, badi-səba yetirər yarə,
Çəkərəm bir qəlbi səda, ay mədəd!

Sübhü şam gözümdən tökərəm qanlar,
Görüb yar, müsahib üzümü danlar...
Hər diyara qəflə işlər, yapanlar,
Gələn yoxdur bu bərbadə, ay mədəd!

Gözdən saldım gözəllərin cəmini,
Yəqubun bağladım dərdü qəmini,
Seyli-əşkim tutdu ruyi-zəmini,
Tapmadım, əyləşəm, ada, ay mədəd!

İzn olmadı, qucam incə belindən,
Öpəm dodağımdan, əməm dilindən.
Mən Şakirəm, bir zalımın əlindən,
Cavan ömrü verdim bada, ay mədəd!

***

## Gəraylı

Nə müddətdi o biilqar
Mənimlə göz-gözə gəlməz.
Boş, bihudə sözdən ötrü,
Yar yarınnan sözə gəlməz.

Eşqinə can verə-verə,
Müştaq idim o dilbərə,
Tor qurmuşam nahaq yerə,
Ahu olub düzə gəlməz.

Az qalıb ki, fitnə-feli,
Şakiri eləyə dəli,
Qapı-qapı gəzər eli,
Yön çevirib bizə gəlməz.

***

## Q.**Zakirə məktub**

Zakira, eşitdim təzə bir xəbər,
Həqiqətdə qoydu məni xeyli mat.
Zahira ki, seçirlərmiş Qalada
Tərəf-tərəf olub bəylər deputat.

Əvvəl söhbət olub aralərində,
Kimi dayaz gəzib, kimi dərində.
Hər kimin yox imiş əqli sərində,
Hərzəguluq edib, danışıb ifrat.

Çağırıb ediblər hamıya xəbər,
Yığılıb bir yerə tamam sərbəsər:
Kimi həfra deyib, kimi xeyri şər,
Aralıqda olub söhbət biisbat.

Görübdülər söhbət çıxmaz otağa,
Yığılıblar, ordan gediblər bağa:
Kim yuxarı deyib, kimi aşağa,
Bu mənzildə muncər tapıb ixtilat.

Sonra baxmayıblar haqqa, insafa
Basıbdırlar sözü lafa, gəzafa.
Ta ki ərz edəndə işi qrafa
Çıxarıb onları otaqdan saldat.

Bir parası mümtaz edib Camalı -
Qədimi adamdır, hər işdən halı.
Bir parası deyib: “Yoxdur kamalı,
Rəhim bəy eləyər həlli-muşkülat”.

Biri deyib: “Var Camalın tədbiri”.
Rəhim bəyi görüb şayəstə biri.
Göndəriblər Rəhim bəyi, Nəsiri,
Get, de naçalnikə, etmə ehtiyat!

Bu əhvalı bilən kimi naçalnik
Oturarmuş, qeyzə gəlib, durub dik.
Deyib vəkillərə: “Sizin bu ellik
Mən bilirəm olacaqdır vinəvat”.

Deyirəm sizlərə söz budur həmin;
Yetişməz bir yerə danışsalar min!
Bundan sonra adam olardan, yəqin
Bir dəxi istəməz müdamül - həyat.

Bir olmadı çünki sözü oların,
Sıxıb batırdılar içinə karın.
Hökmü bizə belə idi sərdarın:
Göndərək bir adam, olmaya bədzat.

Yığılıban o gün tamam oldu çar
Qarabağda olan sahib-ixtiyar
Qarışıblar bir-birinə nə ki var,
Guya ki olubdur ruzi-ərəsat.

Kimisi davanı yetirib minə,
Kimisi qoymayıb bir adam dinə.
Kimisi deyirmiş qaynatasınə:
"Çaşıbdı tədbirin, get, evində yat!"

Həfra vurub tamam büzürgü kuçək:
Kimi yalan deyib, kimisi gerçək.
Naçalnik arada qalmış imiş tək,
O heysü bəhsidə gəlib qubernat.

Çinovniklər işdən olan tək halı,
Deyirlər urusa tamam əhvalı.
Sorub: "Kimdi salan bu qalmaqalı?"
Deyiblər ki, vardır bir neçə qəlat.

Bəzisi laf edib döyüb döşünə,
Bəzisi: "Getmişəm,- deyib-qoşuna!"
Urus görüb danışırlar boşuna,
Dallarınca deyib: yebu vaşı mat!

O sən görən sahib-nişan bəylərin,
Dövləti həddindən aşan bəylərin,
İndi tədbirləri çaşan bəylərin
Əhvalına ağla, olmuşlar əbbat.

Gör hara çəkdilər bu kəşa-kəşi,
Qalmayıbdır vilayətdə bir kişi.
Yetiriblər o gün bir yerə işi,
Gəlib tamaşaya tamam türkü tat.

Muxtəsər ki, düşüb hər biri çəngə
Satıblar kişilər imanı dəngə,
Oluban mustəqrəq əsbabı-cəngə
Kimi qılınc çəkib, kimi minib at.

Hər birindən gəlib bir tövr səda:
Kimi deyib: "Adam kimdi dünyada?"
Kimi laf vurub ki, mənəm bəyzadə,
Olmuşam çinovnik, göstərib isbat.

Yoxdur ehtiyacım bədəyə, bəngə,
Külli-Dağıstanı gətirdim təngə.
O mənəm ki, hər vaxt girəndə cəngə
Qorxumdan cəngələ girərdi həmzat.

Tamam Qaralarda olmuşam məşhur,
Qoymanam ki, qalsın karımda qüsur.
Bir tövr danışır, guya ki budur
Hakimi-Qəndahar, sultanı-Herat.

Gör neçə kişilər keçib əməldən,
Tərəfi-uqbanı salıblar əldən:
Bu qədər davadan, cəngü cədəldən
Heç birinə nəf olmayıb bir manat.

Olmuyub o vədə, necə ki kardan,
Deyə var bu sözdən sizlərə nöqsan
Elə danışırlar hərzəvü  hədyan,
Guya ki kişilər yeyibdir bat-bat.

Qubernat gedəndən sonra Şirvana
Eləyib bir para söhbəti xanə,
Dağılıban girib hərə bir yana,
Qalıb bu mövqedə nizam-ümurat.

Bir deyən olmuyub bu pis əməldir,
Eləməyin, dövlətizə zərərdir!
Cəngəlməkan Zülfəlidən məsəldir;
"Yeydir Qarabağda kişidən övrat".

Sən deyirdin: “Bunlar seçilməzlər ağ!”
“Bir-biriylə-hələ uşaqsan, uşaq-
Qarabağ bəyləri olmaz ittifaq”-
Mən demədim sənə kərratü mərrat?

Qoşuluban arançının köçünə
Gərək indən belə gedək biçinə...
Elə salıbdılar işin içinə
Təmizləməz onu Şəttilə Fərat.

Vilayətdə urus olub ixtiyar,
Eləyib bir bina, yoxdu görən kar;
Tamam işlər olub cahilə bazar,
Heyif  bu vilayət, heyhatü heyhat!

Birisi var, min söz danışır cana,
Özünü bərabər tutmuyur xana,
Bir tövr çərmənib girib meydana,
Guya qarpışmağa gəlibdi Nabat.

İş muhəvvəl olub oğul-uşağa,
Getməsin xəyalın özgə sayağa;
Uca, şanlı bəylər düşüb torpağa,
Olubdu dənilər alidərəcat.

Çünki Allah alıb ağlın bunların,
Salıb batırıblar içinə karın.
Xəsm olsun canına mərdimazarın
Yasini-hələta, sureyi-bərat.

Olub kari-aləm bir özgə sayaq,
Dolanıb qərinə, olub baş-ayaq;
Qırqovulplova eyləyir damaq,
O kəslər ki tapmayırdı içalat.

İndilər görünən bir özgə kardır:
Hər bəni-adamın bir fikri vardır.
Hər kim ki muzidir, mərdimazardır,
Görüm, puça çıxsın, tapmasın nicat.

Mulki-Qarabağda tapmayıb çörək
Gəzincə arada misalı-dəllək,
Dəli şeytan deyir: "Sən də Daşdı tək
Bir göyçək gəlin tap, ərindən boşat!"

Qılıncının dəstəsindən qapgınan,
Axtar bir iş özün üçün tapgınan,
Qurd Zaman tək vilayəti çapgınan,
Sən də ver hər zaman Tiflisə qəzat.

Mən özüm övladı-Pənah aliyəm,
Keçən qəziyyədən yeksər haliyəm.
Tamam aləm bilir Sarıcaliyəm:
Hə kürdəm, nə ləzgi, nə türkəm, nə tat

Külli Qarabağa olub mehriban
Götürdükdə dövlət elədi ehsan,
Bizlərə düşəndə xani-alişan
İşıqlı dünyanı elədi zülmat.

Uyubdular bir yalançı hərziyə,
Çalır hər yetəni dönüb gürzüyə;
Onun üçün başmaqçıya, dərziyə
Dəxil düşər bəylər əlində sovqat.

Bir neçə evliyə olub ixtiyar,
Onu da xəbərdar edib xəznədar;
Əvvəl-axır dörd biməsrəf evim var,
Onu da söhbətə salıbdı palat.

Bu əyyamın yoxsulu da, bəyi də
Qoyublar deyildir bu bir qayidə.
Belə hədyan sözdən nədir fayidə?
Axır sözdə gərək olsun həsənat.

Yəqin olsun sənə, mən ölüm, nəmək,
Süfrə səninkidir, nə lazım demək?
Bu sözlərin qiymətidir bir qəpək,
Məbadə durasan, alan olsa, sat!

Az qalıbdır, çıxsın əflakə nalə,
Rəiyyətmi dözər bu alhaalə?!
Edənlər artırıb elə həvalə
Çaparxana qızıl pulu təhmilat.

Gərək - o söhbəti, qeylü qalı mən
Bilməmişdim, indi oldum halı mən-
Yazıban müfəssəl bu əhvalı mən
Göndərim Pitərə gedəndə qərat.

Yoxdur ərzə yetib eləyən divan,
Oğru vilayəti elədi viran;
Çıxır əldən qalan yekə Lənbəran,
Çapılıbdı yeksər Hindarxü Boyat.

Kişilər var idi xan əyyamında,
Əyləşmişdi hər kəs öz məqamında;
Beş yüz nəf olurdu hər kəlamında,
Handa idi onda belə həşarat?.

O cümlədən biri Molla Kəlbalı,
Düzyüyən Xənməmməd hər işdən halı,
Əfşar Mirzə Təqi, Şeyx Dunyamalı
Məsləhət görərdi daimul-övqat.

Giryədir sənəti daim məhzunun,
Badiyədir mənzilgahı Məcnunun.
Belədir adəti bu dəhri-dunun:
Kimidə toy olur, kimidə xeyrat.

Çünki təvil süxən olur dərdi-sər,
Hər kim ki oxuyur, eləsin əzbər;
Ondan ötrü bunu yazdım muxtəsər,
Sonra məlum olur baği mühimmat.

Şakira, sal əldən bu ixtilatı,
Cihazla bəiri, yəhərlə atı;
Gəldi əcəl peyki, götür sovqatı,
Həngami-səfərdir, axtarma həyat.

***

**Divanbəyi Gəncum ağaya**

Gəncum ağa, vialyətin dərdini
Əlbəttə, get, sahibkara ərz elə.
Biz burda qorxudan deyə bilmirik,
Sən utanma, aşikara ərz elə!

Özün divanbəyi, tutduqca dilin
Gərəkdir, deyəsən dərdini elin.
Tutalım, padşaha çatmayır əlin,
Qubernata, ya sərdara ərz elə!

Dağıtdı ölkəni qüttaüttəriq,
Bir ləhzə qovğadan olmuruq fariq;
Bir tərəfdən qanlı, bir yandan sariq
Salıbdır bizləri dara, ərz elə.

Qorxudan malmızı güdə bilmirik,
Bir kəsə şikayət edə bilmirik,
Bu kənddən o kəndə gedə bilmirik,
Elə kəsilibdir ara, ərz elə.

Qoyublar iş üstə hər əqli kəmdən,
Təvəqqe eləyir görən adəmdən.
Qalmışıq mustəqrəq, dəryayi-qəmdən
Çıxaran yox bir kənara, ərz elə.

İndi xəlq içində əcəb nizam var,
Hesab tərk olunub aləm-aşikar;
Oğru mal sahibin edir günahkar
Yetişəndə murovlara, ərz elə!

Soyurlar adamı, yoxdur yasağı;
Geyinib müstəqrəq, minib qısrağı
Qapının ağzında günorta çağı
Çəkiliblər bir kənara, ərz elə.

Olub düşməni-can həqiqi dostlar,
Ehtiyatən hərə bir yabı bəslər.
O sən görən mallı, dövlətli kəslər
Möhtac olub bir dinara, ərz elə.

Sanma, bular ölkə fikrinə qalır;
Gəbə, ceçim yığır, məğariç alır.
Gələn tək mahala yetəni çalır,
Dönübdür murovlar mara, ərz elə.

Olub iş sahibi hər rexi-yava,
Gədəyə-güdəyə veriblər hava;
Tərk olmaz mərəkə, kəsilməz dava,
Düşmüşük, yanırıq nara, ərz elə.

Qorxuram naçalnik düşə böhtana,
Çünki xəlqi-aləm yetibdi cana.
Baş götürüb gedək hərə bir yana,
Son qoymasa karü bara, ərz elə.

Gəl, sənə göstərim yerin işlərin-
Dərin dəryalardan dərin işlərin:
Demək olmaz yüzdən birin işlərin,
Bildiyindən sən bir para ərz elə.

Qoynunda  burnotu, əlində çəlik
Danışsın mərdanə koxa və məlik:
-Ya bizləri tamam tutsun naçalnik,
Ya eləsin dərdə çarə, ərz elə.

Nə oğru, nə xain, nə hiyləgərik,
Ha belə vətənin tərkin edərik,
Ellik ilə baş götürüb gedərik
Hər birimiz bir diyara, ərz elə.

Şuşulu yerimi aldı zor ilən,
Çıxmadı nə qədər ərzə verdim mən.
Qarabağı necə eləsin vətən
Mənim kimi günüqara, ərz elə?

Kəkilini yenə yana darama,
Danışdıqca duz çiləndi yarama...
Hamı indi göz dikibdi harama
Bəd əmələ vara-vara, ərz elə!

Müxtəsər ki, çıxıb ölkənin ...ti,
Sübhədək qovurub yeyiblər əti.
Qarabağın olan malı, dövləti
Çəkildi Şirvana, Cara, ərz elə!

# BABA BƏY ŞAKİRİN YENİ TAPILAN ŞEİRLƏRİ

## Böyük bəyə

Ey Böyük bəy, eşitdik ki, Səlah bəy
Bizə bazi-vilaqayın göndərmiş,
Qarğa-sağsağana  mehtər, qatırçı
Tulluyub, çıxardıb zayın göndərmiş.

Deyib Car quşudur tutmağı cantək,
Kefə  baxsın bu il kişilər xantək,
Hinqami-şikarə Əmiraslantək,
Bilirmiş olduğun xayın göndərmiş.

Yavaş apar, təpindirmə, ay gədə,
Qanad-quyruğuna düşməsin zədə,
Dönə-dönə tapşururmuş Məhmədə,
Guya bizə yedək dayın göndərmiş.

Bizi salmış nahaq dərdü sərə bax,
Təriqi-dostluğa bixəbərə bax,
Öz quşun gizləyib, hiyləgərə bax,
Alıb Dadaş bəyin payın göndərmiş.

On-on beş gün evi doldu ətilən,
Kefləndi, söz dedi zərafətilən
O gün Qasım bəyə yüz minnətilən
Sən verən cürənin tayın göndərmiş.

***

## Kərbəlayi Səfiyə

Pirlikdən bir neçə söz söyləyim.
Asta Səfi, bən səni həcv eyləyim.

Misli-sümük yüzündə yalın düm ağ.
Dişlərin ki, çoxdan olubdur ovrağ

Ağzın oxşar qarıların amına
Köhnə xərabənin uçuq damına.

Qəbihdir sataşmaq keçən uluya.
Həmçeşmindir, sataş qədim Quluya.

Hər kimsə axtarıb tapsa tayını
Sən də çağır gəlsin Xulxunsayını.

Söhbəti-üqba eyləsin, guş qıl,
Ləzzəti-dünyanı fəramuş qıl.

Sən elənin soyulduğun deyincə,
Soyuluban qoyulduğun deyincə,

Dünən gecə dəvasını desənə?
İndi şeşdang həvasını desənə?

Qıcca cəddə ki, vurdu Cəfərin atını
....... təmam düşmənlər övratını.

Gər ağa yanında əgsə alığı,
Kim əlindən alar o culfalığı.

Yenə gedər dəzgah açar, bez toxur,
Yəqin məcmıu culfalardan tez toxur.

Əgər anınla da keçməsə maşı,
Ayaq üstə gəzmək istəsə xaşı,

Dəllak olsa olmaz hər yetən kimi,
Dəsturu əlində bir kətən kimi,

Həcamət qoyar azarlının .....
Çıxardar rizqini salmaz çətinə.

***

## Müxəmməslər

Ey məh, sənə manənd deyikli canan ələ düşməz,
Yüz zib mələk, şəmsi-dirəxşan ələ düşməz,
Ləlin kimi bir ləli-Bədəxşan ələ düşməz,
Çeşmin kimi bir qarəti-iman ələ düşməz,
Əlqissə, bu tədbirilə insan ələ düşməz.

Bu dövrdə həmta sana bir kəs başa gəlməz,
Rəna qəddinə xələti-ətlas başa gəlməz,
Ovsafına təxmisü müxəmməs başa gəlməz,
Ayatü qəzəl, birlə müsəddəs başa gəlməz,
Tərifini bir şairi-xoşxan ələ düşməz.

Qəvvasi-cəhan bir belə gövhər bula bilməz,
Seyr etsə bu dünyanı sərasər, bula bilməz,
Məhbubi-cəfacuy sitəmgər bula bilməz,
Xurşid üzünü sən kimi ənvər bula bilməz,
Sidrin kimi sərlövheyi-Quran ələ düşməz.

Rüxsarına qibləm, məhi-ənvər desəm, olmaz,
Ağzın sədəfin hoqqeyi-gövhər desəm, olmaz,
“Lam”ü “yey”ini, “əyn”i yeksər desəm, olmaz,
Yəni Əli məşuqi, dilavər desəm, olmaz,
Bu hüsnilə bir qüdrəti-yəzdan ələ düşməz.

Şakir necə cəhd etsə bu ovsafə yetişməz,
Nadan oxuyub sureyi-ihqafə yetişməz,
Məyus könül sahibi-iltafə yetişməz,
Qəmzən necə xunrizdi, insafə yetişməz,
Hüsn əhlində bir sən kimi qılman ələ düşməz.

***

Yüz dilbəri-ziba ola, könlüm səni istər,
Yüz zülfü səmənsa ola, könlüm səni istər.
Yüz Şirinü Leyla ola, könlüm səni istər,
Yüz misli-Züleyxa ola, könlüm səni istər.
Yüz afəti-dünya ola, könlüm səni istər.

Yüz qiz görən bəndə düşər zülf ilə xalə,
Yüz türfə nigarü sənəmü hurimisalə,
Yüz sibzənəx, ləbləri mey, ağzı piyalə,
Yüz zülfü bənəfşə, gözü nərgis, rüxi lalə,
Yüz gərdəni mina ola, könlüm səni istər.

Yüz aşiqin canın alan afəti-dünya,
Yüz qız məlahətdə ola huridən əla,
Yüz gözləri nərgis, rüxi alü güli-rəna,
Yüz kəlməsi dilmürdələri eyliyə əhya,
Yüz nitqi Məsiha ola, könlüm səni istər.

Yüz xalı həbəş, kiprigi ox, zülfü pərişan,
Yüz qəmzəsi cəllad, vəla qarətgəri-iman,
Yüz qaşları mehrab ola, yüz mehri-dirəxşan,
Yüz baği-behişt, yüz verə, yüz hurivü qılman,
Yüz mehri-dilara ola, könlüm səni istər.

Yüz sərvi-səhi ola baxdıqca qiyamət,
Yüz kani-səxa, mədəni-lütfü kəramət,
Yüz çeşmeyi-kövsər, dəxi yüz tutiyi-cənnət,
Yüz Şakiri-biçarə edərmi ona rəğbət?
Yüz baği-cinan, mənzili-mava ola, könlüm səni istər.

# CƏFƏRQULU XAN NƏVA

Cəfərqulu xan Məhəmmədhəsən ağa oğlu Nəva təqribən 1780-ci ildə Şuşa şəhərində anadan olmuş və orada mükəmməl saray təhsili almışdır. Onun atası Məhəmmədhəsən ağa İbrahimxəlil xanın sevimli övladı və vəliəhdi idi. Lakin o, 1805-ci ildə vəfat etdiyi üçün xan üçüncü oğlu Mehdiqulu xanı vəliəhd təyin etdi. Bu hadisə yetkinlik yaşlarında olan Cəfərqulu ağaya ciddi təsir etdi və babasının ölümündən sonra uzun müddət əmisi Mehdiqulu xanla hakimiyyət uğrunda mübarizə apardı. Bunun nəticəsi olaraq o tutulub əvvəlcə Simbirski, sonra isə Sankt-Peterburqa sürgün edildi və 1929-cu ildə vətənə qayıdıb firavan bir həyat sürdü. Qarabağın ən böyük mülkədarlarından olan Cəfərqulu xanın mahallarda yüzə yaxın oba və kəndi var idi.

Sürgündə olarkən rus dilini öyrənən Cəfərqulu xan vətənə açıq fikirli ziyalı kimi qayıtmışdı. Mirzə Fətəli Axundzadənin Qarabağda dostluq və əməkdaşlıq etdiyi şəxslərdən biri də Cəfərqulu xan Nəva idi. O, “Arif”, “Xan”, “Nəva” təxəllüsləri ilə şeirlər yazmışdır. Lakin onun şeirlərinin çox az bir hissəsi gəlib bizə çatmışdır.

Cəfərqulu xan Nəva 1867-ci ildə vəfat etmiş və digər əcdadları kimi Ağdamda yerləşən “İmarət” adlı xan ailəsi qəbristanlığında dəfn olunmuşdur.

Aşağıdakı şeir örnəkləri AMEA ƏYİ-də saxlanan əlyazmalardan götürülmüşdür.

## M.F.Axundzadəyə cavab məktubu

Yazmışdınız, Mirzə, bir neçə əfrad,
Mollalardan etmişdiniz şikayət.
Guya sizin əlifbaya etina
Etməyib deyirlər: bizə nə hacət.

Siz ixtira etdiyiniz əlif-bey[1]
Vacibdir deyilsin sizə zeyü hey[2]
Çün Şişənin yeri olubdur quzey,
Eyləməz qarına heç gün kifayət.

Onunçün kuçəsi don olur daim,
Küçə xəlqi danışmazlar mülaim,
Sözlərinin üstə olmazlar qaim,
Hər gündə söylərlər qeyri hekayət.

Tutmaq dürüst deyil heç sizə iyrad,
İnsafən sən qayrubsan yaxşı zad,
Çox çətin iş etdin özündən icad,
Bavər et, mən eyləmirəm zərafət.

Nə qədər qəlləvu[3]dəllə[4] olsa kəlam,
Onu tərif edər cümlə xasü am,
Bizdən mollalara olunsa peyğam,
Görək ki, yazarlar cəvab nə babət.

Var isə onlarda gər üzri- məqbul,
Eybi yox, yazsunlar qoy gödək ya tul.
Bu şərt ilə qayırmasınlar isul,
Pəsənd olsa hamı edək itaət.

Müxtəsərdir siz qayıran əlif-bey,
Necəki ulduzlar içində cüdey[5],
Deməlidursizə faxır xələt gey,
Necə ki, etsinlər sizlə ədavət.

---

[1]Əlif-bey-Mirzə Fətəlinin yeni əlifbası
[2]Zey-hey-zəhi, nə xoş, nə gözəl.
[3]Qəllə-az,
[4]Dəllə-çox mənanı ifadə edən
[5]Cüdey-dəmir qazıq ulduzu.

Danmasalar əgər fəthi-Əlini[1]
Bəgənərlər belə ləfzi- cəlini[2],
Hamı diyər amənna[3] ləfzi- bəlini,
Heç kəs üçün olmaz hərgiz məlamət.

Oxuyanda uşaq tez düşər başə,
Gəl, gil, gül üstə düşməz səvaşə,
Ehtiyacı olmaz gözə, nə qaşə,
Rəvan oxur dərsin. çəkməz xəcalət.

Dünən ifrat gəzdik dərədə, tovda,
Heç qüdrət qalmadı ləşgərdə, lovda,
Həmin bir qırqovul tutmuşduq ovda,
Onu da göndərdi sizə Hidayət[4].

***

**M.F. Axundzadəyə ikinci məktubu**

Ay Mirzə, doğrusu deyirəm yenə,
Üç-dörd gündən bəri nə gəlib sənə?

Hiç deməssiz vardır bir sahibi-azar,
Soruşmaq lazımdır hər şamü nəhar.

Neyşün biz salmışıq Mərizi gözdən?
Gözdən düşmək gözətləməz o bizdən.

Gündə soruşmasaq, soruşaq beşdə,
Unutmalı olsaq unudaq qişdə.

---

[1]Fəthi-Əli-Cəfərqulu xan Mirzə Fətəlinin yeni əlifba çıxardığına görə onu fateh hesab edir.
[2]Cəli-aydın, bəlli, əyan.
[3]Amənna-ərəbcə inandıq
[4]Hidayət-Cəfərqulu xanın oğlunun adıdır.

İndi ki, yay fəsli hava yaxşıdır,
Bu həva məxluqə həqqin bəxşidir.

Əgərçi dörd-beş gün keçər çox isti,
Bu isti xəlq üçün yəqinəm pisti.

Qəza ilən hərgiz dalaşmaq olmaz,
Məsəldir deyiblər tökülən dolmaz.

İstədim ki, yazam bir dirü diraz,
Vəfa eyləmədi dəmağım bir az.

Deyirlər var bir çox əcəb oxuyan,
Göyçəcək övrətdir sakini-Şirvan.

Amma gəlib indi Qarabağdadur.
Müştəriyi-təmam solü sağdadur.

Qoymazlar ləvəndi gəlsin Qəliyə,
Qorxurlar ki, burda düşə təliyə.

Nahaq şöhrət edib bizim adımız,
Hiç düşməyir yadımıza yadımız.

Gərək gedib inandırmaq oları,
Bəlkə meyl etsinlər Şişəyə sarı.

Biz də bir azacıq aparaq ləzzət,
Az ləzzətin özün bilək qənimət.

***

## Qasım bəy Zakirə

İlahi, qismətin, Qasım, görüm daim əzab olsun.
Yaxınraq çox iraq səndən günah ilə səvab olsun,

Dizaq mülkündə olan xəlqin xeyli zəmmindən,
Öylə söz yazmadın, yazmaq ona müşkül cavab olsun.

Olublar gərçi Cəbrailli bu dəm çar bayıllı,
Keçən əyyamı bir sal yadına, qanın sərab olsun,

Əliallahidən bədtər bilirsən vardır adəm,
Mülağat eyləmək müşküldü, yüz əhli-kitab olsun.

Demə mədhini Şişə əhlinin, mən tanıram yaxşı,
Bu babi xəlqinə həddi nədir onlar ki, bab olsun.

Uşaqlartək alıb ömr eyləməz idin, oynardın əldə,
Sənin üçün yoxdu fərqi, şahbaz və ya qürub olsun,

Bilin kim, oxudubsuz xeyli rəhmət Kufə əhlinə,
Sizi görməkliyə hiç dil olur onda şitab olsun?!

Maralyanlı Pəri məşhurdur, amma əmin bil sən,
Bir adəm tapa bilməm ki, ona nayibü mətab olsun?

Aparmaz xındırıstanlıların xızdırın*heç kəs,
Səninçün yoxdu qəm, yüz min aradə inqilab olsun,

Pozulsun bəzminiz sınsın əlində saqin, sağər,
Arasında səninlə piri-deyrin şəkkərü ab olsun.

---

*Nəsrani dilində donuz deməkdir

## Aşıq Pəriyə

Sən ey Pəri, məlik pərvərdəsisən
Həmə vəqt degərdik biz çakər ona.
Nədən ötrü bizdən kənar gəzirsən.
Nə tabe olubsan sərasər ona.

Nə xoş göftarı var, nə xoş sadədir,
Bu dərdim hamıdan bir ziyadədir,
Doğrudur, dibaçə məlikzadədir,
Bəs nədən deyirlər zülmkar ona.

Geyinibsən yaşılını, alını,
Nə çəkirsən qovğasını, qalını?
Büzürg xidmətində gördük halını,
Səmadan gələcək səbəbkar ona.

Əzəl başdan Mirzəcandır ustadın,
Cəmi-Dizaqidə söylənir adın.
Nə səbəbdən sizin bala Fərhadın
Gah xüxən deyirlər, gah püsər ona?

Arifəm, bu yerdə yarı görəndə,
Mən nə deyim bu düxtəri görəndə?
Əql itirdim sən əğyarı görəndə,
Neçin göstəribsən etibar ona?

***

## Aşıq Pəriyə ikinci məktub

Aşıq Pəri, kağız sənə yetişkəc,
Durmuyuban gərək bura gələsən,
Bir tavus quşutək, ya mürği-tuti,
Gəzəcəksən yəqin əldən ələ sən.

Lənət gəlsin Fərhadın imanına,
Salıb Şirin kimi səni yanına,
Salacaqsan pu muşəngin canına
Görəcəksən bişübhə vəlvələ sən.

Dəymək üçün zülfə əymə şanəni,
Yola apar görəndə divanəni.
Səpibsən üzünə xaldan danəni,
Qurubsan zülfidən damü tələ sən.

Pəşminə saymırsan paşanı, xanı,
Eyləyirsən şahlar kimi divanı.
Sən Qədirdə olan neyü surnanı
Görməyibsən, görsən məgər gələrsən.

***

## Üçüncü məktub

Aşıqlığın lafı amma dürüstdür,
Çəkərin yox Süleymandan, ey Pəri,
Əgər görsən bala Allahverdini,
Keçərsən baş ilə candan, ey Pəri.

Bilirəm halını, ey şuxi-tənnaz.
Səni sevən çoxdur, ey mədəni-naz.
Qabağında durub söhbəti-yay, yaz
Vəqtdir çıxmaq gülüstandan, ey Pəri.

Günki bunlar bir sünnətsiz tərsadır,
Hər bir işdə rəşiddir, həm zibadır.
Görən deyər, aya bu nə qovğadır?
Səda gəlir hər bir yandan, ey Pəri

Ehtiyat lazımdır hər bir insanə,
Dutmaya böylə iş, batmaya qanə,
Qədr ilə Qədirlə girmə meydanə,
Həzər eylə bu meydandan, ey Pəri.

***

## Şuşa qazisi Mirzə Əbülqasıma

Matəmi böylə tutarmış məgər adəm, qazi,
Edə lənət ona bəs sahibi-matəm, qazi.

Sən necə zamin olurdun, kişi, dava olmaz,
Bu sözü rus yanında dediniz həm, qazi.

Siz məgər halını öz əhlinizin bilməzsiz,
Zərrəcə bəd əməlindən eləməz qəm, qazi.

Özgə davada olan kəslər alır simü zəri,
Qırdırır şişəlini müftü müsəlləm qazi.

Zahirən qələlinin qətlə gedərdi nisfi,
Olmasaydı aralıqda yenə Rüstəm, qazi.

Daima vəz eləyir xalqa ki, ehsan eləyin,
Özü heç dışqara verməz ola gər nəm qazi.

Daş daş üstə belə Şişədə durmaz hərgiz,
Bəzi işlərdə əgər olmasa ələm, qazi.

Adını molla qoyan xalqa deməz rast yolu?
Onların dərdi edibdir qədimi xəm, qazi.

Unudurlar hamısı tarı, peyəmbər əmrin,
Gər aralıqda ola söhbəti-dirhəm, qazi.

Bir para vaxt danışmaq bizə lazımdır, leyk
Bir para vaxtda yegdir əbhəm, qazi.

Demişəm mən sənə heç vəqt inanma xalqa,
Bəzi övqat eşit pəndimi kəm-kəm, qazi.

Bundan artıq nə yazım dərdi-dili, mövlana,
Deyərəm baqi sözümü səni görsəm, qazi.
***

## Əli bəy Fuladova

Gözüm bu şəxsdən su içməz, ağzım yemək kəsməz,
Bu şəxsin dövlətindən yeməyə ağzım çörək kəsməz.

Kəsildi meşə sərdən biz görən kürəklik ağacı,
Dəxi bundan böylə hər kim gedə, yaxşı kürək kəsməz,

Qırıb yollar qırğına nəni yetməz edən adəm,
Yenə doldurmaq üçün yolların xarü xəsək kəsməz.

Ola bir kimsə aqil, etməz əsla etdiyin minnət,
Bu bir rəmzdir, onun heyf kim, əqli-xərək kəsməz.

Kəsərəm bir də qoysan minnət o qəssabtək dəstini,
Kəsi kəs dəstini kəsməkdə bilsə incimək, kəsməz.

Əmimin olsa insafı dəxi bundan belə hərgiz,
Sənin ağzın ilə lütfün məndən, ey köpək, kəsməz.
***

## Mirzə Adıgözəl bəyə

Şübhə yox oynadasan cümləsini bir söz ilə,
Var çün al Xəlildə həmaqət, Mirzə.

...Adıdır gözəl və əmma özüdür bədnəzər
Mənbəi-fitnəvü aşibü şərarət Mirzə.

Ürəfa bəhsin edər Hindilə Rumü İran,
Salma bu Şişəyə sən bəhsü xilafət, Mirzə.

Sidq lafın nə rəvadır sənə vurmaq, zalım,
Səntək adəmdə görən varmı sədaqət, Mirzə?!

Xeyrilə şərdə bu şərtilə tutmam adını,
Qoyasan ər oturam evdə fəraǧat, Mirzə.

***

## Nəzər aǧaya

Sənsən İran padşahının oǧlunu
Qırx səkkiz gün çöldə alladan, Nəzər,
Qulluǧuna Yermolofun yanına
Hiylәkarlıq ilə tulladan Nəzər.

Çoxlara dəgibdi xeyrin, nə şərin,
Kimyadır əlhəqq feyzi-nəzərin.
Bir yalqız bud kimi sənin hünərin
Düşmənin Tiflisdən tovladan Nəzər.

Deyin görək Nəzər acizdi nədə,
Amma indi yükü yoxdur dərədə.
Şahzadəni basdıruban Gəncədə
Qoşununu təmam tulladan Nəzər.

Çox xamları urdurubdur tuşağa,
Baxan döyül hərgiz Yoğunqurşağa,
Təklə hacıların basıb aşağa,
Dalına-dalına düzlədən Nəzər.

El içində divan-dərə qurdurub,
Ərzəçinin ərzin yaxşı sordurub,
Palana layiqə palan urdurub,
Çula layiqini çulladan Nəzər.

Axtarırlar səni əhli-vilayət,
Səbəb budur olmuşdular fəraqət,
Budur sözüm: məndən sənə əmanət.
Həzər etməlidir molladan Nəzər.

Sənin qədrin hərgiz bilən olmadı,
Töhmət qübarını silən olmadı,
Tökülən stəkan neçin dolmadı,
Çörəgi çayında bolladan Nəzər.

Bu səhmü səlabət ki vardı səndə,
Həqqüçünə yoxdur bir Əhriməndə.
Kişilərin bir təqsiri düşəndə,
Boşadıb arvadın durladan Nəzər.

Qızılbaşa dedi yalan sözünü,
Xətaya salmışdı kişi özünü.
Şahzadənin elçisinin gözünü
Qələyə gələndə bağladan Nəzər.

***

## QASIM BƏY ZAKİR

Qasım bəy Əli bəy oğlu Zakir klassik şair, Azərbaycan ədəbiyyatında ictimai satiranın banisi, aşıq poeziyasının varisi və davamçısı, milli realizmin ilk görkəmli nümayəndəsidir. Şairin zəngin poetik irsi, yaratdığı sənət əsərləri həmişə gündəmdə olmuş, öz təsir gücünü, bədii təravətini, hissi-emosional qüdrətini heç zaman itirməmiş, nəsildən nəslə ötürülərək yeni vüsət tapmışdır.

Qasım bəy Zakir Qarabağ xanlığının əsasını qoyan əsilli-nəcabətli Qarabağ əmirlərinin nəsildəndir. O, 1784-cü ildə Ağdam şəhərinin yaxınlığında yerləşən Yedditəpə ərazisindəki Sarıcalı kəndində anadan olmuş, ilk təhsilini də orada aldıqdan sonra Şuşa şəhərinə köçərək özlərinə məxsus evlərində yaşamış və burada təhsilini davam etdirərək fars-ərəb dillərini mükəmməl öyrənmişdir.

Xan nəslindən olmasına baxmayaraq şairin mübarizələrlə dolu həyatı o qədər də xoş keçməmişdir. Bir tərəfədən ictimai haqsızlıqlara dözə bilməyərək onu törədənləri kəskin tənqid etməsi, digər tərəfdən isə qardaşı oğlu Behbud bəyin haqq işi uğrunda mübarizəyə qoşularaq qaçaq düşməsi şairin ictimai mövqeyinə təsirsiz qalmamış, hətta, ömrünün ixtiyar çağında üzərinə atılan şər və böhtanın qurbanı olaraq üç ay müddətinə göz dustağı kimi Bakı şəhərinə sürgün edilmiş, lakin başda Mirzə Fətəli Axundzadə olmaqla yaxın dostlarının qayğı və köməyi sayəsində zindandan xilas ola bilmişdi.

Q.Zakir 1857-ci ildə Şuşa şəhərində vəfat etmiş və orada Mirzə Həsən qəbirstanlığında dəfn edilmişdir. 1983-ci ildə şairin məzarı üstündə onun büstü qoyulmuşdur. Lakin mənfur erməni vandalları işğal zamanı xalqımızın digər maddi-mədəniyyət abidələri kimi, onun qəbirüstü abidəsini də yerlə yeksan etmişlər.

Şairin yaradıcılığından seçmələr onun 1964-cü ildə çap olunmuş "Əsərləri"ndən, Raqub Kərimovun "Qasım bəy Zakir və müasirləri" (2013) adlı monoqrafiyasından və AMEA ƏYİ-nin

arxivində saxlanan əlyazmalardan götürülmüşdür.

## Qəzəllər

Gərçi tutub aləmi şurişü qövğayi-eşq,
Yoxdu cahanda vəli mən kimi rüsvayi-eşq.

Canü dilü əqlü huş cümlə müsəlləm ona,
İndi nədir bilməzəm daxi təmənnayi-eşq.

Xuni-dili dişrəyə mərdümi-çeşmim tökər
Kim, gərək ari ola mənzilü məvayi-eşq.

Dur yola düş, ey təbib, çarə mənim dərdimə
Ləli-ləbi-dilbəri yazmış ətibbayi-eşq.

Vaizi-əfsanəgu dün məni neyrəng ilə
İstər idi döndərib eyləyə tərsayi-eşq.

İş mana qalsaydı gər, keçmiş idim badədən,
Tale edib yarlıq, qoymadı danayi-eşq.

Dərgəhi-piri-muğan- məlcəyi-əmnü əman,
Xanəgahi-meyfüruş, bəzmi-dilarayi-eşq.

Zahidi- sahilnişin, bəhri- bəladən saqın,
Kamə çəkər Yunisi mahiyi-dəryayi-eşq.

Sal təni-napakinə xirqeyi-sədparəni,
Hər qədə layiq dögül xələti-zibayi-eşq.

Qeyslə həmdərs idim, qaldı o "Vəlleyl"də,
Naqis imiş, olmadı vaqifi-mənayi-eşq.

Badiyeyi-hicrdə Zakiri-gümgəştəyə,
Oldu əcəb rahbər mürşidü mövlayi-eşq.

***

Dün hökm qıldı qətlimə ol şəh itab ilə,
Şad eylədi gədasını bu xoş cavab ilə.

Olsun qara üzü görəyim qanlı qəmzənin,
Öldürmədi məni, yenə qoydu əzab ilə.

Zülfisiyahlər ğəmini şam ta səhər,
Ömri-dirazdır çəkirəm piçü tab ilə.

Ol gül üzardə ərəqin xoş səfası var,
Türfə budur ki, saziş edər atəş ab ilə.

Öldürməsən nə süd mana bərqi-tiğdən,
Mümkün degil ki, sir ola təşnə sərab ilə.

Gündüz üzün ğəmi, gecə zülfün kəşakəşi,
Asayişim nə xürd ilə hasil, nə xab ilə.

Zakir o şux nərgisi-məstin xərabıdır,
Ha böylə sərxoş olmaq olurmu şərab ilə.

***

Nola gər saxlar isəm təndə dilü canı əziz,
Bir pərinindir, onunçun tutaram anı əziz.

Qılmışam nəzr onu mən ol səri-ku itlərinə,
Rəsmi ayindir, əzizin olu qurbanı əziz.

Əşkimi, çöhreyi-zərdimi görüb qədr etməz,
Mən eşitmişdim edər simü zər insanı əziz.

Atəşi-eşqi-dərun ilə ərindi axır,
Saxlar idim neçə əyyam idi peykanı əziz.

Naqisəm, alsam əgər bir kələfi-rismanə,
Misri-dildə sata ol Yusifi-Kənanı Əziz.

Mana nisbətdi siyəhbəxtü pərişanlıqda,
Vəchi oldur tutaram zülfi-pərişanı əziz.

Zakiri-xəstədilə rəhm qıl, ey sərvi-rəvan,
Novcavanlar tutar, adətdi ki, piranı əziz.

***

Yox bu cahanda dilbəri-ziyba sənin kimi,
Firdovsdə məgər ola hura sənin kimi.

Aşubi-dəhr, fitneyi-dövran, bəlayi-əsr,
Çeşmi-zəmanə görməyib əsla sənin kimi.

Şamü səhər dərində fəğan eylər əhli-dərd,
Ey şux, varmı talibi-qovğa sənin kimi?

Yüz nəqdi-canı bir oxa alsan əcəb degil,
Aləmdə kimdi mahiri-sövda sənin kimi.

Abi-həyat çeşmeyi-ləli-ləbindədir,
Olmaz bəqayi-Xizrü Məsiha sənin kimi.

Başdan əyağa pərtövi-ənvarsən, Kəlim
Haşa ki, göstərə yədi-beyza, sənin kimi.

Bir Yusif adlı Misrdə, derlər ki, sabiqa
Xəlq eyləyibdi xaliqül-əşya sənin kimi.

Bangi-dəhəl gəlir xoş iraqdan, inanmazam,
Növi-bəşərdə hüsn ola haşa sənin kimi.

Kuyində xəstə Zakirə bir yer binası qıl,
Yoxdur behiştdə mənzilü məva sənin kimi.
***

## Qoşmalar

Qadir Allah səbəb salıb arayə,
Sevdiyim, ixtilat qatmaq çağıdı.
Dur qolboyun olaq, fürsət var ikən,
Nə qəmə, qüssəyə batmaq çağıdı?

Götür qoy bir səmtə bəzəyin sərin,
Qorxuram dağıla zərü zivərin.
Başın qullabəsin, belin kəmərin
Hər birin bir yana atmaq çağıdı.

Uz bürüməz yar yarını görəndə,
Bu xasiyyət nədir bilməzəm səndə?
Biganələr kimi oturma gendə,
Gəl sarmaşaq, alıb-satmaq çağıdı.

Qul xətasız olmaz, ey çeşmi xumar!
Öldürsən də sonra ixtiyarın var.
Bu gündən sabaha yoxdur etibar,
Soyun, gecə keçdi, yatmaq çağıdı.

Canım qurban qaşlarının tağına,
Pərvanə tək dolan solu sağına.
Zakir, dön başına, düş ayağına,
Nə danışıb söz uzatmaq çağıdı?!
***

A ləbləri badə, ağzı piyalə!
Bir söz desəm olma bidəmaq, sana.
Yetişibsən, indən belə yaraşmaz
Yadlar ilə deyib-danışmaq sana.

Əcəb bihəyadır çərxi-kəcrəftar,
Hər ayda bir hilal eylər aşikar;
Şəksiz sənin ilə ədavəti var,
Göstərir düşəndə qaş-qabaq sana,

Mədənisən felin, nazü ğəmzənin,
Bərabərin yoxdu aləmdə sənin;
Təhrik eyləməsə səba, qönçənin
Ağzı nədir aça dil-dodaq sana?!

Cəvahir qolbaqlar bəyaz biləyi
Gahi qucar, gahi eylər hənəyi,
Behiştin hurisi, göyün mələyi
Yetişməz, yüz çala əl-ayaq, sana.

Zakirəm, eylədin əqlimi zayil,
Olmaz belə surət, belə şəmayil;
Elə mən deyiləm hüsnünə mayil,
Göz dikibdir tamam Qarabağ sana.

***

Kilki-qüdrət ilə katibi-qəza,
Maşallah, əcəb gözü qaş çəkib!
Xəttü xalə verib xeyli nəzakət,
Siyəh zülfü hamısından baş çəkib.

Gərdənin, qamətin qiyaməti var,
Hərami ğəmzənin yüz afəti var,
Həqdi, tər buxağın lətafəti var,
Amma ruxi-alı çox qumaş çəkib.

Tərhi bir özgədir incə miyanın,
O mərmər sinənin, bəyaz püstanın,
Ədən dəryasında dürci-dəhanın
İçində dürləri xoş təraş çəkib.

Məşuqun işidir cəng ilə cədəl,
Bilir rəsmi- rahı, eyləməz əməl,
Çəkəndə aşiqi nəqqaşi-əzəl,
Dilində ah, gözlərində yaş çəkib.

Ol zalimü bədxu, şuxü sitəmkar
Zakirin halından deyil xəbərdar.
Eşq əhlini edən dərdə giriftar,
Heyf ki, xubları bağrı daş çəkib.
***

## Gəraylılar

Nə faidə, ildə bir yol
Olur lazım sizə qurban.
Mən istərəm sana gündə
Olam tazə-təzə qurban.

Əqlü huşu, din- imanı
Etmişdim qaşın qurbanı;
Dur öldür, sevdiyim, canı
Gətirmişəm gözə qurban

Eşq əhli cüstücuyində
Dolanır dövri-ruyində,
Yatarlar səri-kuyində,
Tökülübdür düzə qurban.

Deyin sərvi-güləndamə:
Öldürsün, yetişim kamə;
Müşküldür gələn bayramə
Acü susuz dözə qurban.

Siyəh zülfün kəmənd eylə,
Zakiri payibən eylə;
Etibar yoxdu, bənd eylə,
Qoyma açıq gəzə qurban.

***

Hüsnün sultanı gözlərə
Tamam xanü paşa qurban.
Şəbnəm kimi gül üzündə
Qətrə-qətrə yaşa qurban.

Olmuşam dərdə həvalə,
Çəkirəm sübhdən nalə;
Əqlü huşum –zülfü xalə.
Mən özüm yay qaşa qurban.

Götür tiğini dəstinə,
Dilü can sədqə şəstinə,
İki nərgisi-məstinə
Gətirmişəm qoşa qurban.

Bir aşiq bəsdir qurbana,
Batma munca nahaq qana;
Yatar dərində yan-yana,
Veribdir baş-başa qurban.

Qətl eylə Zakiri-zari,
Yoxdur özgə tələbkari,
Ondan qeyri, səni Tari,
Kəsmə, həddən aşa qurban.

***

Bənzər meyxanədə sərxoş
İki tərsayə gözlərin.
Dəxi sürmə nə hacətdir,
Can alır sayə gözlərin.

Kaman qaşın peyvəstdir,
Oxları dilnişəstdir,
Guya hinduyi-məstdir
Giribdi yayə gözlərin.

Zülfün könüllər məskəni,
Pabəst eylər hər görəni;
Məcnun tək, aqibət, məni
Salır səhrayə gözlərin.

Neyləmişəm o xunxarə,
Müttəsil baxar əğyarə.
Bir dəm eyləməz nəzzarə,
Məni-rüsvayə gözlərin.

Bir tərəfdən artırır ğəm,
Bir tərəfdən edir mərhəm,
Həm öldürür Zakiri, həm
Qaçır hərayə gözlərin.

***

Keçdi nöbəti-zimistan,
Yenə fəsli-bahar oldu.
Əndəlibi-binəvanın
Sənəti ahü zar oldu.

Yasəmənü gülü lalə,
Bir çəməndə qurub halə;
Ərğüvan tutub piyalə,
Nərgis içib xumar oldu.

Əmr olundu, abi-niysan
Cansızlara bəxş etdi can.
Yenə təzələndi dövran,
Nə gözəl rüzigar oldu!

Səbzpuş olub çəmənlər,
Qaldıdı  hər şükufə sər.
Oyan, ey bəxti-bixəbər,
Yatan hamı bidar oldu.

Əlac oldu hər bimarə,
Tapıldı dərdinə çarə.
Elə, həsrət qalan yarə
Zakiri-dilfikar oldu.

***

Günəş pərtövəfkənliyi
Ruxi-ziybadən öyrənmiş.
Tuti şəkkərşikənliyi
Ləbi-guyadən öyrənmiş.

Zülfün könüllər pənahı,
Qaşlarındır qibləgahı;
Ahular tərzi-nigahı
Çeşmi-şəhladən öyrənmiş.

Sərkeşliyə olub mötad,
Üftadəsin eyləməz yad;
Bu şivəni sərvi-azad
Qədi-rənadən öyrənmiş.

Düşdükcə yadıma tellər,
Sızıldaram uzun illər;
Ahu əfğanı bülbüllər
Dili-şeydadən öyrənmiş.

Zakir tək mərdü mərdanə,
Can verir vəsli-cananə;
Oda yanmağı pərvanə
Məni-rüsvadən öyrənmiş.
***

**Müxəmməs**

Çıx xanədən, ey sərvi-səhi, can sana qurban!
Əzm eylə gulustanə, gülüstan sana qurban!
Nərgislər açıb dideyi-giryan, sana qurban!
Fərşi-rəhin olmuş güli-xəndan, sana qurban!
Düzmüş yoluna lölöi-mərcan, sana qurban!

Yadi-ruxü zülfünlə olub leylü nəharım,
Nə səbrü sükunum, nə səbatım, nə qərarım.
Məndən sora gər eyləsən seyr məzarım,
Basma qədəmin od tutar, ey tazə nigarım,
Atəşkədədir sineyi-suzan, sana qurban!

Eşq əhlinə ölmək səri-kuyində deyil qəm,
Məqsudum olur hasil əgər mən dəxi görsəm,
Nəfi budur aşiqliyin, ey qibleyi-aləm!
Çox rənc, muşəxxəsdi, çəkər can verən adəm,
Olmaqdı nəhayət, sudan asan sana qurban!

Sən işvədə qarətgəri-əqlü dilü cansan,
Sən nazdə iqlimi-tənə hökmi rəvansan,
Sən hüsndə şahənşəhi-xubani-cahansan,
Məcmu gər aləm ola viran, hamansan.
Yuz qeysəru yüz xosrovu xaqan sana qurban!

Əl çək, dolanım başına, bu tərzi-ədadən,
Tut mehr təriqini, usan cövrü cəfadən,
Qorxum budu, yeksər qalasan xeyrü duadən,
Ağzım qurusun, ahi-səhərgahi-gədadən,
Nagəh yetişə hüsnunə nöqsan, sana qurban!

Layiqdimi hər bisərü pa kuyinə dolsun?
Çöldə yolacaq bir-birinin yalını, yolsun;
Çıxsın canı, ha getsinü gəlsin ki, yorulsun,
Çək tiğini, vur boynunu, ey şux, qoy olsun,
Bu Zakiri-xoştəbü suxəndan sana qurban!

***

**Qasim bəy Zakirin yeni tapilan şeirləri**

Bəyazi-hüsnündə, sevdigim, bənzər
Baş-başa çatılmış yayə qaşların.
Badi-səba əymiş gül budağıtək
Salıb üzzarına sayə qaşların.

Ləbin meyi-nabə nəzakət eylər,
Hüsnün günəş ilə ədavət eylər,
Gözlərin nərgisə şəmamət eylər,
Şikəst vurur yengi ayə qaşların.

Tək yaradıb səni xaliqül-əşya,
Şəhdi-müsəffadır cismin sərapa.
Dilin, dişin, bir də gözlərin, əmma
Tək gəlibdi bu dünyaya qaşların.

Düşmüşəm çöllərə əlli yaşında.
Gəzirəm səhranın dağü daşında.
Hilalı-no kimi hər ay başında
Salır məni bir sevdayə qaşların.

Gələ gör Zakirin yaman çağıdı.
Dərdi-möhnət əqlü huşun dağıdı.
Gisulərin əyri qılınc bağıdı,
İki tiği-giranmayə - qaşların.

***

De görüm ki, neyləmişəm mən sənə,
Bu nə qaşdı, bu nə qabaq sevdigim?
Rəqib ilə xəlvət nə danışırdın,
Bana baxa-baxa alçaq[1], sevdigim?

Əzəlki adətə bənzəməz halın
Hicrdən bədtərdir zövqi-vüsalın.
Bu gün neçə gündür, fikrü xəyalın
Görünür bir özgə siyaq, sevdigim.

Bivəfalıq zən əhlinin işidi.
Dedigindən dönməz o kim kişidi.
Asta danış, qonum-qonşu eşidi,
Məbada, olalar oyaq, sevdiğim.

Filankəsin yoxdu həmdəmi, demə,
Çağırsam əllisi girər qoynuma.
Tay-tuş arasında düşüb boynuma,
Neçə ildir quru-qısnaq, sevdigim.

Müddətdi Zakiri salıbsan işə;
Sanasan od düşüb bir qom qəmişə.
Yar, yar ilə gərək elə danışa,
Nə diş bilə, nə də dodaq, sevdigim.

***

Müshəfi-hüsnündə, ey süni-xuda,
Bənzər iki "bismillah"ə qaşların.

---

[1] Alçaq-xəlvət-xəlvət

Günəş camalından xəcalət çəkər,
Şikəst vurar iki mahə qaşların.

Müddətdir könlümü əlimdən alıb,
Buraxmaz, gözlərim yolunda qalıb,
Gəlib-gedən söylər aparıb salıb
Tərfi-zənaxdanda çahə, qaşların.

Xəlayiq içində niku nam idim,
Bir kəsə nə çəkər, nə qulam idim,
Öz boyuma Rüstəm idim, Sam idim,
Gətdi məni "eyvallah"ə qaşların.

Ev yıxandı, can alandı dörd yanı,
Xalü xətti, hüsnü, nuki-müjganı.
Çalar-capar bəyi, xanı, paşanı,
Baxmaz əzəmətə, cahə qaşların.

Şikəstə Zakirə xəyanət eylər,
Utanmaz-qızarmaz ədavət eylər,
Piranəsərlikdə dəlalət eylər
Sənan kimi əyri rahə qaşların.
***

## Hüseyn bəyi həcv

Bir acı xiyarca mana iş görmədin əsla,
Dursun gözünə yük-yük o qavun, köpək oğlu!

Dörd yük sarı buğda keçən il vurdu qatırçın,
Yolda üyünüb getdi sizə un, köpək oğlu!

Dünya işi əql ilə deyil, talei-meymun
Çəkmiş nə yerə gör səni, meymun köpək oğlu!

Yeddi il gəzə ariz, əli qoynunda məəttəl,
Mülkün yeyə özgə, budu zağun[1], köpək oğlu!

Hər yerdə olur cümlə zinazadəyə hörmət,
Bər əks düşüb adətü qanun, köpək oğlu!

Xəyyat təbim rişteyi nəzmilə sərapa,
Tikdi qədinə[2] rəxti-hümayun, köpək oğlu!

Şeirin demə mövzun degil, aludeyi-dəhrəm,
Dilşad gərəkdir deyə mövzun, köpək oğlu!

Əfv eylə ki əşrar bəsi müxtəsər oldu,
Kəmyab idi bu bəhridə məzmun, köpək oğlu!

***

---

[1] “Zakon” (qanun) deməkdir.
[2] “Qəddinə” sözünün təhrif olunmuş formasıdır.

## MİRZƏCAN BƏY MƏDƏTOV

Mirzəcan Mədətov XVIII əsrin sonlarında Qarabağın Çanaxçı kəndində anadan olmuşdur. Milliyyətcə erməni olmasına baxmayaraq o, "Azərbaycan xalqının həm şifahi, həm klassik ədəbiyyatı ilə yaxından maraqlanmış və Azərbaycan şairlərinin şeirlərindən fərqlənməyən əsərlər yaratmağa müvəffəq olmuşdur" (Feyzulla Qasımzadə). Mirzəcanın azərbaycanlılara olan rəğbətini Firidun bəy Köçərli də xüsusi olaraq vurğulayır: "Mirzəcan bəy əgərçi milliyyət cəhətcə erməni idi, vəli əxlaqü adatca müsəlmanlardan seçilməzdi. Öz qövmündən artıq müsəlmanları dost tutardı". (s.335)

Uzun illər Tiflisdə Qafqazın baş hakimi dəftərxanasında Şərq dilləri mütərcimi vəzifəsində çalışan Mirzəcan Mədətov Vaqif şeirinin pərəstişkarı olmuş, sevgi tərənnüm edən qoşma və müxəmməslərini onun təsiri ilə qələmə almışdır. Bu rəğbətin nəticəsi olaraq o, 1828-ci ildə İrandan Qarabağa gəlmiş Mirzə Yusif Nersesov Qarabağiyə "Vaqifin şeirlərini toplamağı məsləhət görmüş və bu işdə ona kömək etmişdir". Nəticədə, 1856-cı ildə Molla Pənah Vaqifin və bəzi müasirlərinin ilk mətbu əsərləri "Məcmueyi-Vaqif və müasirini-digər" əsərində işıq üzü görmüşdür.

Şair təxminən 1835-ci ildə vəfat etmişdir. Aşağıdakı şeir nümunələri Mirzə Yusif Qarabağinin "Məcmueyi-Vaqif və müasirinin digər (nəşrə hazırlayan f.ü.e.d. Əkrəm Bağırov, ön sözün müəllifi Əli Məmmədbağır oğludur) əsərindən götürülmüşdür.

### Müxəmməs

Ey bivəfa yar, səni necə salım yadə mən,
Qoymadın bir şad olum bu fəna dünyadə mən,
Eyb degildir sənə, gəlmişəm fəryadə mən,
Səndən qeyri yox hakim, kimə gedim dadə mən,
Dadrəsim yox bənim, qalmışam aradə mən.

Kim oldu səndən qeyri dərdimə mayə dildar,
Rəhm ilə guş etmədin bu ahü vayə, dildar,
Bəsdir, dəxi salma sən dərdü bəlayə, dildar,
Şahi-xuban eyləməz zülm gədayə, dildar,
Söylə günahım nədir, eşqində amadə mən.

Tərk eylə cövrün, zalim, bəndəyə imdad elə,
Bu viranə könlümü lütf ilə abad elə,
Gəl eylə insaf, bəni qüssədən azad elə,
Allaha da xoş gələr, aşiqini şad elə,
Bircə nəzər sal bana, bəndə adəmzadə mən.

Söyləmə, zahid, bənə dilə alıb cənnəti,
Eşqi olan çəkməz hiç, bilkin anın minnəti,
Kəbədən artıq sayar yar kuyinin hörməti,
Çoxca bilir Mirzəcan lotuluğun ləzzəti,
Saqi, gətir sağəri, qoy, içəlim badə mən.

***

## Qoşmalar

Çəkdigim cəfadən, görən, bəladən,
Xəbər verən o dildarə tapılmaz.
Pərişan halımı, ahü zarımı,
Bircə deyən o qəmxarə tapılmaz.

Nə canda taqət var, nə təndə rahət,
Qoymayır bu fələk olum fərağət,
Dərd məni öldürür saətbəsaət,
Bu dərdlərə məgər çarə tapılmaz?

O anda ah çəkər, mən munda fəryad,
Kim var ki, eyləyə bizlərə imdad,

Yarəb, bu məmləkət olaydı bərbad,
Gələn andan bu diyarə tapılmaz.

Yarın dərdi çoxdur Mirzəcanında,
Bir kimsə yox anın bəndüvanında,
Hər kəsin sevgili yarı yanında,
Bənim kibi hiç avarə tapılmaz.

***

Girdabi-möhnətdə qərq olan canım,
Yarəb, ola bir kənarə yetərmi?
Bu seyli-bəladən, tufani-qəmdən,
Xilas olub, o dildarə yetərmi?

Qəm ləşkəri bənə olub həvalə,
İstəyir qürbətdə canımı alə,
Çəkdigim əfqanlar, etdigim nalə,
Bu diyardan o diyarə yetərmi?

Çünki belə hicran düşmüş arayə,
Kim var ki, yetişsin munda hərayə,
Ümid yox qasidə, badi-səbayə,
Bir ah çəksəm anda yarə yetərmi?

Necə dözsün canım bu sitəmlərə,
Munca möhnətlərə, munca qəmlərə,
Yarımın kuyində siz həmdəmlərə,
Bir de görüm, bu biçarə yetərmi?

Fələk bəni belə salmış avarə,
Könül müştaq, göz müntəzir didarə,
Mirzəcanı, məgər o gülüzarə,
Sənin kibi bəxti-qarə yetərmi?

***

Bir belə əyyamda, belə zamanda,
Qəmgin könlüm necə mundə şad olsun?
Munca zülmü sitəm, munca siyasət,
Bəs degilmi yar da məndən yad olsun?

Nə bir qəmxar, nə bir dusti-yeganə,
Təmami- aşina oldu biganə,
Saldın axır, fələk, bəni zindanə,
Qoymadın qüssədən can azad olsun.

Olmasın o qəmgin, mən çəkim cəfa,
Unutmaq, aşiqi görməsin rəva,
Gəlməsə deyərlər ona bivəfa,
İstərəm özünə yaxşı ad olsun.

Külli aləm düşmən olub canıma,
Tapıb fürsət, düşmən batıb qanıma,
Deyin, dostlar, yarım gəlsin yanıma.
Bəlkə görmək ilə bir imdad olsun.

Fələyin ədli yox, dünya da viran,
Dəxi gəlməz həyatıma bir güman,
Nahəqq bəndə düşüb fəqir Mirzəcan,
Səbəbkarın evi qoy abad olsun.

***

Dağıdır huşumu, alır canımı,
Hər baxanda o məstanə gözlərin.
Çəkibdir üstümə xəncəri-xunriz,
Batacaqdır məgər qanə gözlərin?

Bilirəm, bilibdir qəmin izzətin,
Qoy çəkməsin heç şadlığın minnətin,
Çünki bilmiş ağlamağın ləzzətin,
Qoy ağlasın yanə-yanə gözlərin.

Bulunmaz mənimçün bir yaxşı həmdəm,
Ərzimi yetirə yarə dəmadəm,
Bircə baxa bənə, gözdən yaş tökəm,
Bəlkə ola dərdim qanə gözlərin.

Axırda eylərsən sən bəni Sənan,
Dönərəm dinimdən verəsən fərman,
Bilmirsən edəcək canını qurban,
Baxsa əgər Mirzəcana gözlərin.
***

**Bənövşə ilə dərdi-hal**

Sən boynu burulu varıb yanına,
Söylə dərdi-dilim yarə, bənövşə!
Bir gördü axırda qıldım sərnigün,
Ərz elə sən o xunxara, bənövşə!

Aparsalar səni yar otağına,
Qafil olma, bax sən solü sağına,
Yüz sürtüb zülfünə, də qulağına,
Salmasın aşiqi narə, bənövşə!

Seyr eylə, yüzündə baxgilən hər su,
Məskən sal tənində, söylə mubəmu,
Görsən ki, cananım olmayır bədxu,
Bir xələl qat o əğyarə, bənövşə!

Neyləsin bən kimi fəqiri-əndəlib,
Sən bənövşə olub, şol gülə həbib,
Əgər sən də bənə olasan rəqib,
Görüm günün keçsin qarə, bənövşə!

Bundan artıq yoxdur sənə bir cavab,
Layiq deyil etmək aşiqə əzab,
İstərsən edəsən dünyada savab,
Eylə Mirzəcana çarə, bənövşə!

***

## Gəraylılar

Sən təki cahil əlindən,
Gəlmişəm əmanə, dilbər!
Canə saldın eşq atəşin,
Qoydun yanə-yanə, dilbər!

Belə idi çərxi-zəman,
Səni sevdim mən bigüman,
Mən ərməni, sən müsəlman,
Gətirdin imanə, dilbər!

Sənin eşqin canım alır,
Həsrəti könlümdə qalır,
Bənim ahım qovqa salır,
Məcmu Şirvanə, dilbər!

Kiprigin hər biri oxdur,
Yarası canımda çoxdur,
Cahilsən, heç ağlın yoxdur,
Yar ol Mirzəcan, dilbər!

***

Kim var mən tək bu dünyada,
Eşq oduna yanə yalqız.
Yar sitəmi, fələk cövri,
Bənim kimi canə yalqız.

Zülm etməkdən yar usanmaz,
Yatıbdır bəxtim oyanmaz,
Bən olmasam daş dayanmaz,
Külli Gürcüstanə yalqız.

Demiş eşqin cəfası var,
Hər kəs bilsə səfası var,
Yarın hər nə bəlası var,
Verin Mirzəcana yalqız.

***

Necə dözsün bu dərdlərə,
Bənim bu biçarə canım!
Vətənindən, yar yanından,
Olubdur avarə canım.

Əbəs yerdən çəkmə aman,
Sağlığına gəlməz güman,
Nə təbib var, nə də dərman,
Sən təki bimarə canım.

Yox vəfa hərgiz həmdəmdə,
Günüm pis keçəcək qəmdə,
Tamam el söhbətü dəmdə,
Sən oldun biganə canım.

Mirzəcan, eyləmə həvəs,
Bu dünayadan təməin kəs,
Qoymazlar çəkəsən nəfəs,
Dönübsən divarə canım.

***

Sən təki cahil əlindən,
Gəlmişəm əmanə, dilbər!
Canə saldın eşq atəşin,
Qoydun yanə-yanə, dilbər!

Belə idi çərxi-zəman,
Səni sevdim mən bigüman,
Mən ərməni, sən müsəlman,
Gətirdin imanə, dilbər!

Sənin eşqin canım alır,
Həsrəti könlümdə qalır,
Bənim ahım qovqa salır,
Məcmu Şirvanə, dilbər!

Kiprigin hər biri oxdur,
Yarası canımda çoxdur,
Cahilsən, heç ağlın yoxdur,
Yar ol Mirzəcan, dilbər!

***

## MOLLA ZEYNALABDİN SAĞƏRİ QARABAĞİ

Molla Zeynalabdin ibn Molla Sadıq Sağəri Qarabaği 1791-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şair haqqında dövrün bir sıra mənbələrində, o cümlədən, Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab", Məhəmməd ağa Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirələrində, Cavad Heyətin "Azərbaycan ədəbiyyatına bir baxış" adlı əsərində və Seyid Əzim Şirvaninin "Təzkirə"sində məlumat verilir. Şairi şəxsən tanıyan Mir Möhsün Nəvvab onun "ucaboylu, xoş görkəmli, xoşsifət, göygöz bir şəxs" olduğunu, mollalıq və zövzəxanlıq etdiyini, musiqi elmində məharət və səriştəşi olmaqla yaxşı səsi və avazı da olduğunu qeyd edir. Müstəhidzadə isə onun əsl adının Axund Molla Zeynalabdin olduğunu, erkən yaşlarında Qarabağın tanınmış alimlərindən olan atası Axund Molla Sadıqdan dərs aldığını və hicri 1230-cu ildən ömrünün sonuna qədər müdərrislik etdiyini, şeir yazmasını, farsca və türkcə iki divanı olduğunu yazır.

Sağəri 1854-cü ildə Şuşa şəhərində vəfat etmişdir. Onun "Həyat və məmat" adlı türkcə divanı 2006-ci ildə tədqiqatçı alim Gülər Əmirəhmədova tərəfindən nəşr edilmişdir. Buradakı şeir nümunələri həmin divandan götürülmüşdür.

### Qəzəllər

Səd heyf, bilmədüm ki, cəhanda vəfa nədir,
Zülmati-hicr ara, nə bilim mən, səfa nədir?

Zulfü rüxün xəyali məni heyrətə salub,
Bilməm bu dəhr içində sefidü qara nədir?

Mötad olubdu cismi-zəifim cəfasına,
Aludə olmuşam ona, bilməm cəfa nədir?

Eşqin məni salıbdu əcəb dərdə, ey gözəl,
Eşqin mərizinə de, təbibim, dəva nədir?

Bülbül əgər degil gülə aşiq, nə nalədir?
Gər onda eşq yoxdur, bu şurü nəva nədir?

Yoxsa salub niqabını yüzdən nigarımız?
Heyrətdə qalmışam ki, bu nurü ziya nədir?

Kəştim qəriqi-bəhri-məhəbbət olub belə,
Bu bəhr içində Sağəriyə naxuda nədir?

***

Ey könül, uyma bu dünyayə ki, möhnətxanədir,
Hər kişi kim uysa dünyayə, yəqin, divanədir.

Bir könül kim möhnəti-eşqlə məmur olmaya,
Padşahsız mülkdür, viranədir, viranədir.

Aşiqi-vəhdət təmənna eyləməzlər kəsrəti,
Bu cəhan Həqq aşiqinə bil ki, zindanxanədir.

Nəşeyi-eşqi nə bilsin cahilü divanələr?
Yandıran eşq atəşinə balü pər pərvanədir.

Rindlər baxsun külahimə, nə zahidlər mənim,
Əksəri-əlfazımız zahirdə çün rindanədir.

Tiri-qəmzəndən həzər qılmaz könül, pərvası yox,
Gör təriqi-eşqdə könlim necə mərdanədir!

Xəlqə eyləllər ibadət, Həqqdən qafildir,
Mən necə qail olum zahidlərə: fərzanədir?

Sağəri vəhdət meyindən məstdir, məzur dut,
Küfrimə hökm eyləmə, zahid, demə məstanədir.

***

Ta atəşi-eşqin bu dili-canə düşübdür,
Dil parələnüb hər biri bir yanə düşübdür.

Çin mülkini hindulər alub qarət edübdür,
Ya küfr gəlüb səfheyi-imanə düşübdür,

Könlüm quşı pərvaz edüb künci-qəfəsdən,
Bildüm ki, gedüb zülfi-pərişanə düşübdür.

Bihdanədi, ya danədi mürği-dilə, ya xal,
Marutsifər çahi-zənəxdanə düşübdür.

Nə danədi, nə xali-siyəh dövri-rüxündə,
Göz mərdümimidi çöhreyi-cananə düşübdür.

Min dil cəm olub dami-səri-zülfünə bişək,
Yalquz demə kim, bu dili-divanə düşübdür.

Ləli sözini ağzına alma, həzər eylə!
Hər kəs ki alub ağzına, bil, qanə düşübdür.

Duzəx oduna Sağəri yanmaz, bu yəqindir,
Hicran gecəsi atəşi-suzanə düşübdür.

***

Bu xali-siyəhdir, ləbi-cananə düşübdür,
Ya kim qara qul çöhreyi-heyvanə düşübdür?

Bu gövhəri-dəndandı dürci-dəhən içrə,
Ya qətreyi-şəbnəm güli-xəndanə düşübdür?

Zülfüni edüb ahi-dili-xəlqi pərişan,
Yoxsa səri-zülfə güzəri-şanə düşübdür?

Könlüm quşidür zülfi-pərişanda, yoxsa
Zənciri-səri-zülfünə divanə düşübdür?

Bu mərdüməki-didədü, ya əhli-həbəşdür?
Ya xali-siyəh çahi-zənəxdanə düşübdür?

Əzbəs ki urub tiri-müjən sinəmə, ey gül,
Biçarə könül çak olub, qanə düşübdür?

Eşq atəşinə yanmaqı canan bəncə bilməz,
Ey Sağəri, ahin odı imkanə düşübdür.

***

Aşiyani-səri-zülfündə dutub xanə könül,
Qıldı aşüftə məni şanə, dönüb qanə könül.

Xatirim zülf kimi oldı pərişan ki, çəkər
Gəh səba qüssəsi, gahi ələmi-şanə könül.

Zülməti-zülf ara oldı könül sərgərdan,
Cəhd qıldı nə qədər, çıxmadı bir yanə könül.

Günimi qarə edüb silsileyi-türrələri,
Verməsin kimsə dəxi zülfi-pərişanə könül!

Titrəşür həlqeyi-zülfində, dəgir bir-birinə,
Hər zəman zülfi-pərişanə dəgər şanə, könül!

Şanə, məşşatə, urub zülfə pərişan etmə,
Olmasın silsileyi-zülfdə divanə könül!

Küfri-zülfində könül kafər olub dutdı vətən,
Nə qədər cəhd elədüm gəlmədi imanə könül.

Sağəri, müxtəsər et zülf sözüni, tul etmə,
Bəhsi-barikdi, bilməz onı divanə könül.

***

Vermə könül o zülfi-pərişanə, Sağəri!
Əqrəb evində müşkil olur xanə, Sağəri!

Ol türrə içrə vermədi təmkin bu könlümə,
Gahi sabah, gah sitəmi-şanə, Sağəri!

Əyyami-vəsl qədrini çün bilmədün, könül!
Yan həsrətilə atəşi-hicranə, Sağəri.

Çak etdi matəmində giribanını, göz aç,
Bir sal nəzər o çaki-giribanə, Sağəri!

Zənciri-zülfə düşməzdi mürği-dil, vəli,
Saldı kəməndi-zülfinə bir danə, Sağəri!

Ey padişah, lütf qılub eylə bir nəzər,
Gör, sağərimdə badə dönüb qanə, Sağəri!

***

## Müxəmməslər

Hər zəman kim nəzərim ol büti-rənayə duşər,
Olı divanə könül eşqdə, pərvayə düşər,
Əqrəbi-zülfdən ay çöhrəsinə sayə düşər,
Tərsə bax, çöhrəsini dur edər, ayə düşər,
Atəşi-eşqə düşən eşqdə qovğayə düşər.

Bəs ki könlüm quşi hicranda qılub naləvü ah,
Ruzgarım olmuş zülfi-siyəh kimi siyah,
Atəşi-suzi-fəraqın bədənim qıldı təbah,
Taqətim yoxdu yanam hicrdə, Allaha pənah!
Nə qədər cəhd edərəm vəslinə, fərdayə düşər.

Həzər et, urmagilən zülfünə hər dəm şanə,
Rəhm elə könlümə, etmə sən onı divanə,
Tabei-küfr olub yetdi könül imanə,
Arizi-şəminə olmuş bu könül pərvanə,
Yandurur balü pərin, kimsə ki sevdayə düşər.

Göz qalub yolda, nigarım məni yad eyləmədi,
Atəşi-hicr ara könlümi şad eyləmədi,
Məni odlarə salub, həlli-murad eyləmədi,
Od dutub yandı könül, bir kəsə dad eyləmədi,
Dad qılmaq bu təriqətdə fürumayə düşər.

Ey könül, bəsdi dəxi, naleyi-əfğan etmə!
Məni qanlarə salub qədi-dilü can etmə!
Zülf tək sən məni aləmdə pərişan etmə!
Paybəndi-ələmi-atəşi-hicran etmə!
Sağəri, nalə səsi günbədi-xəzrayə düşər.

***

Bir mələksima məni-hüsnünə heyran eylədi,
Paybəndi-atəşi-suzani-hicran eylədi,
Bilmərəm bu çərxi-gərdun necə dövran eylədi,
Ayırub səndən məni qəsdi-dilü can eylədi,
Zülfi-pürçin kimi könlüm pərişan eylədi.

Vəsl evində, neyləyim, peyvəstə yarım olmadı,
Əhdü peymanında sabit ol nigarım olmadı,
Səndən ayru, dilbərim, hərgiz qərarım olmadı,

Zülməti-hicran ara hərgiz nəharım olmadı,
Qismətim ruzi-əzəldən künci-hicran eylədi.

Sənsiz, ey gülrüx, cəhanda hiç ləzzət görmədüm,
Vəsldən qeyri, nigarım, yaxşı nemət görmədüm,
Könlümi fikrü xəyalından fərağət görmədüm,
Atəşi-hicranda bir dəm istirahət görmədüm,
Sinəmi dağ eyləyüb cismimi suzan eylədi.

Arizi tək dilbərün aləmdə bir gülzar yox,
Şahidani-dəhrara bir böylə xoşrəftar yox,
Yar çox dutdum cəhanda, bir belə dildar yox,
Hüsnü xülqündə onun sən bilmə bir söz var-yox!
Eyb oldur kim, nigar əğyarı mehman eylədi.

Taqətim taq oldı hicranında, ey əbrukəman!
Daməni-vəsl gedüb əldən yaman oldı, yaman!
Atəşi-hicran ara canın verür bir natəvan,
Rəhm elə, kafər, vüsalınla əlin dut, əlaman!
Atəşi-eşqin məni hicranda büryan eylədi.

Atəşi-hicran olubdur səndən ayru bəstərim,
Aşiqi saldun nəzərdən, dilbəri-məhpeykərim!
Nalədən qeyri fəraqında tapılmaz yavərim,
Olmadı bir kimsənə rahi-vüsalə rəhbərim,
Göz yaşımı hicrdə bir bəhri-ümman eylədi.

Dilbərim, gəl rəhm qıl, qılma bana cövrü cəfa!
Aşiqin könlüni sındırmaq cəfadır – çox xəta!
Göstərübsən aşiqə, məşuq, bəzi mehrü vəfa!
Sağəri biçarədir, görmə ona zülm rəva,
Qalmadı bir zülm aləmdə, nümayan eylədi.

***

## Müəşşər-tərcibənd

Bikəsü biçareəm hicran evində, dilkəbab,
Ənbəri-zülfin kimi aşüftə, əhvalım xərab,
Didə giryan, sinə suzan, dərd bihəddü hesab,
Suzi-hicranında hərgiz görməyübdür didə xab,
Ol qədər hicran odunda çəkmişəm dərdü əzab,
Afitabi-çöhrədən, lütf eylə, bir dəm al niqab,
Əbri-zülf içrə nihan etmə yüzin, ey afitab,
Atəşi-hicranda saldun könlümə çox iztirab,
Gəl, məni azad qıl hicran qəmindən, et səvab,
Şərhi-hal etdüm nigarə, vermədi əsla cəvab,

Qətlim içün eylədüm bir tifli-nadan intixabi,
Atəşi-hicranə yandum, ey əcəl, eylə şitab!

Yandurur cismləvü canım atəşi-hicran hənuz,
Qalmışam zülmati-hicranında sərgərdan hənuz,
Şəmi-suzandır qəmi-eşqində cismü can hənuz,
Hicr evində didələrdən cari olmuş qan hənuz,
Dərdimizə olmayubdur vəsldən dərman hənuz,
Sirri-eşqin saxlaram mən sinədə pünhan hənuz,
Rəhm qılmaz aşiqə ol afəti-dövran hənuz,
Mərdümi-didəm fəraqında sənin giryan hənuz,
Gəlmədi kaşanəmə ol Yusifi-Kənan hənuz,
Müşkili-hicranı olmaz, neyləyim, asan hənuz,

Qətlim içün eylədüm bir tifli-nadan intixabi,
Atəşi-hicranə yandum, ey əcəl, eylə şitab!

Könlümün hicran odında səxt ahü zarı var,
Aşiqi-biçarənin dildari-dilazarı var,
Xarsız kim gördi bir gül, hər gülün bir xarı var,
Heyf kim, hər aşiqin məşuqinin əğyarı var,

Səndə, ey gülrüx, əgərçi arizi-gülnarı var,
Hicr odunda aşiqin də ahü atəşbarı var,
Hansı aşiqdir sənin tək nazənin dildarı var? –
Sərvqədd, mahtələtü ləhceyi-göftarı var,
Baməlahət, sərvqamət, məh kimi rüxsarı var,
Necə meyl eylər könül qılmanə, sən tək yarı var?

Qətlim içün eylədüm bir tifli-nadan intixab,
Atəşi-hicranə yandum, ey əcəl, eylə şitab!

Hər vüsalın axırı aləmdə kim, hicran olur,
Atəşi-hicranda aşiq daima suzan olur.
Böylə bilmə, yanmaqa hicran odı asan olur,
Sənsiz, ey həmdəm, belə bilmə ki, məndə can olur,
Eşq dərdini çəkən aləmdə sərgərdan olur,
Görsə zahid çöhrəni, mən tək sana heyran olur,
Göz yaşımdan gəl gör, ey gül, damənim əlvan olur,
Qətrə-qətrə cəm olub çeşmim yaşı ümman olur,
Tərk qılıma eşqi, ey dil, kim, sana üsyan olur,
Hicr dərdinə vüsalın şərbəti dərman olur,

Qətlim içün eylədüm bir tifli-nadan intixab,
Atəşi-hicranə yandum, ey əcəl, eylə şitab!

Neyləyim, canan olubdur aşiqindən bədgüman,
Xanəmi viran edüb, gəlməz dəxi namehriban,
Qəddimi hicran evində xəm qılub etdi kəman,
Vəqtdür, bir qıl mədəd, biçareəm, ey asiman,
Rəhm qıl, ey çərxi-dun, aldırma canım, əlaman,
Qılmadı təsir ona qıldum bəsi ahü fəğan,
Göz tökər qanlu yaşın, könlüm olub bir ləxtə qan,
Dərdimi şərh etməgə yoxdur, nedim, məndə zəban,
Dilbəri-məhtələtim qıldı yüzin məndən nihan,
Etmək olmaz sirri-eşqi, neylim, xəlqə əyan,

Qətlim içün eylədüm bir tifli-nadan intixab,
Atəşi-hicranə yandum, ey əcəl, eylə şitab!

Həqq çün yoxdan vücudimi mənim var eylədi,
Atəşi-eşqə mənim könlüm giriftar eylədi,
Dideyi-məstin məni eşqində bimar eylədi,
Etmədi zülmü sitəm gərdun bana, yar eylədi,
Eşqdə çox zülmlər həqqimdə dildar eylədi,
Bilmərəm bu çərxi-gərdun necə rəftar eylədi? –
Mehriban yarımı mən bədbəxtə əğyar eylədi,
Canım aldı, hər zaman qeyrlə göftar eylədi,
Döndərib yüz, qaçdı məndən dilbərim, ar eylədi,
Sinəmi məcruh edüb, əğyarı timar eylədi,

Qətlim içün eylədüm bir tifli-nadan intixab,
Atəşi-hicranə yandum, ey əcəl, eylə şitab!

Atəşi-hicran alubduir ixtiyarım, Sağəri!
Qərq olubdur bəhri-xunə cismi-zarım, Sağəri!
Harda qaldı, gəlmədi ol gülüzarım, Sağəri!
Yarsız olmaz mənim səbrü qərarım, Sağəri!
Yar olub əğyarə dildarü nigarım, Sağəri!
Atəşi-hicranə saldı, getdi yarım, Sağəri,
Gülşənim oldı xəzan, getdi baharım, Sağəri!
Zülf tək qarə olubdur ruzgarım, Sağəri!
Oldı müşkil hicr evində karü barım, Sağəri!
Atəşi-hicranə yandı nəngü arım, Sağəri!

Qətlim içün eylədüm bir tifli-nadan intixab,
Atəşi-hicranə yandum, ey əcəl, eylə şitab!

.***

## Rübailər

Ta eylədi qönçə ləli-cananilə bəhs,
Andandı dönüb qanə, qılub canilə bəhs;
Əfsürdə olub badi-xəzandan qönçə,
Çün biədəb etdi güli-xəndanilə bəhs.

Könlüm bu cəhanda olmadı hərgiz şad,
Qətlimə olub cəm bu gün əhli-fəsad;
Bir bəndeyi-acizəm, sana yüz dutdum,
Ya canımı al, ya ki, bana qıl imdad.

Sud eyləməz aşiqinə zəncirü kəmənd,
Dildar vüsalıdı bana faidəmənd;
Tərk eyləməz eşqi aşiqi-divanə,
Gər xəlqi-cəhan versə bana yüz min pənd.

Hər kəs ki fəraq odunda suzan olmaz,
Vəslə yetişib vasili-canan olmaz;
Hər kəs ki keçər canü dilindən, bişəkk,
Cananə yetər, hiç peşiman olmaz.

Ta eylədüm ol zülfi-pərişanə həvəs,
Eşqində onun eyləmədüm canə həvəs;
Mən maili-vəsldim, o kafər, neylim,
Mən eylədi vəsli, qıldı hicranə həvəs.

***

## SEYİD MİR HƏMZƏ ƏFƏNDİ NİGARİ

XIX əsr Azərbaycan ədəbiyyatında təriqət şeirinin görkəmli nümayəndələrindən olan Şeyx Mir Həmzə Nigari 1797-ci ildə Qarabağ mahalının Cijimli kəndində nəcabətli seyidlər ailəsində anadan olmuşdur. İlk təhsilini Qaraqaşlı Mahmud Əfəndinin və şəkili şikəst Abdulla Əfəndinin yanında aldıqdan sonra elmə olan marağı sayəsində təhsilini Kürdəmirli nəqşibəndi şeyxi İsmayıl Əfəndinin yanında davam etdirmişdir. Mir Həmzənin nəqşibəndi təriqətilə bağlanmasında İsmayıl Əfəndinin mühüm rolu olmuşdur. 1840-cu ildə Həc ziyarəti və Amasiya səfərindən sonra doğma kəndlərinə qayıdan Mir Həmzə orada müəllimlik etmiş və Qarabağ mahalında böyük şöhrət qazanmışdır.

1851-ci ildə rusların təqibindən yaxa qurtarmaq üçün o da digər nəqşibəndi təriqətinə mənsub dindaşları kimi vətənini tərk edərək Ərzuruma, oradan da İstambula getmiş və orada təriqət başçısı kimi məşhur olmuşdur. Onun artmaqda olan nüfuz və şöhrəti bəzi bədxahları narahat etmiş, dövlət və millət əleyhinə fəaliyyət göstərməkdə, eləcə də üsyan hazırlamaqda günahlandırılaraq 1885-ci ildə ailəsi ilə birlikdə Samsuna sürgün edilmiş, oradan isə Harput şəhərinə köçürülmüşdür. Həmin ilin oktyabr ayında Mir Həmzə vəfat etmiş, vəsiyyətinə görə cənazəsi Amasiya şəhərinə aparılmış və oradakı Şirvan camesində dəfn olunmuşdur. O, özündən sonra zəngin irs qoyub getmişdir. Şairin "Divan"ı 2010-cu ildə filologiya üzrə elmlər doktoru Nəzakət Məmmədli tərəfindən transfoneliterasiya, ön söz, qeyd və izahlarla tərtib edilərək nəfis şəkildə nəşr etdirilmişdir. Buradakı şeir nümunələri həmin kitabdan götürülmüşdür.

### Qəzəllər

Yadi-rüxsarin ilə dideyi-tər qan ağlar,
Fikri-didarın ilə aşiqi-suzan ağlar.

Bəzmi-rindanə düşər şurişi-qovğa, qülqül
Vəqt kim, vəsfin ilə mütrübi- xoşxan ağlar.

Saçulur xuni-cigər, dideyi-giryanımdan,
Həsrəti-ləlin ilə kim, dili-büryan ağlar.

Şövqi-rüxsarın ilə atəşə yanmış könlüm,
Tutuşub daği-cigərsuz ilə hər an ağlar.

Yol itirmiş məgər ol qafileyi-mənzili-yar
Naliş eylər ki dura qafilə, sarban ağlar.

Bixəbərsən neçün üftadələrin halindən
Yetür, ey Rüstəmi-kindar ki, Bican ağlar.

Vermədi bu, məgər ol zülfi-girehgiri-nigar
Tutuşub Miri Nigariyi-qəzəlxan ağlar.

Kərbəla atəşi eyvah, cigərgahimdən
Baş verüb, dil[1] yaxılur, sinə yanar, can ağlar.

***

Hər zaman eynimə kim, mənzili-canan görünür,
San Cəməm kim, gözümə mülki-Süleyman görünür.

Öylədir seyli- sirişkim gözə Qülzümi gəlür,
Bəhri seylabə verir, qətrəsi tufan görünür.

Alışub nari-dərunim, tutuşub nayi-dilim,
Şərəri çərxə çıxub, kövkəbi-rəxşan görünür.

Bilmərəm kim nə əlamət, nə kəramətdir kim,
Ey gözüm, hər nəzərin cövhəri bin can görünür.

[1]Bu söz səhvən “ld” getmişdi.

Vəh nə tərsabeçəsən, qəmzəylə bir gəz, sanma,
Baxdığın kimsədə nə küfrü nə iman görünür.

Sehrmi, fitnəmi ya möcüzəmi, başqamı yar,
Kəsdigin kimsədə nə yarə, nə bir qan görünür.

Rəhi-sevdadə məgər, Mir Nigari, bana
Can verübdür sənəma, böylə ki, xəndan görünür.

***

Çox istədigim canımı, cananım üçündür
Cananımı çox istədigim canım üçündür.

Ah eylədigim ahunun ənbər nəfəsindən
Ləlin sifəti ağladığım qanım üçündür.

Xunin cigərim qəmzeyi-bürranın əlindən
Şuridə gözün dideyi-giryanım üçündür.

Xunxar gözün nizeyi-müjganı cəm etdi,
Bildim bu tədarük dili-viranım üçündür.

Fəryadı-səhər, naleyi-şam, ahi-cigərsuz,
Qan ağladığım bir güli-xəndanım üçündür.

Canım yaxılur atəşi-hicranilə, əmma,
Həsrət odu bu külbeyi-əhzanım üçündür.

Cəm oldu tamaşayə, Nigari, qamu aləm
Gördüm ki, bənim naleyi-suzanım üçündür.

***

Əzmi-səfər etmiş yola, dil ki ava çıxmış,
Av etməgə bir ahuvəşi, ol qova çıxmış.

Gül istər ikən xarə yetişdim, gözəl ahu,
Xahişgər ikən uğruma çirkin dəvə çıxmış.

Gah ağladır ol, güldürür ol, gah istehza
Eylər bəni, bu rəsmilə, yarım sova çıxmış.

Mülki-əbü cədd, xaneyi-madərinə qürbət
Dil mənzili-didarinə çıxmış, evə çıxmış.

Ey Miri Nigari, elə sannam səni ol şux
Seyd eyləyəcək, işvə ilə ava çıxmış.

***

## Tərcibənd

Nə əcəb dövlət imiş seyri-şikari-Qarabağ,
Nə gözəl nemət imiş söhbəti-yari-Qarabağ.
Rəşki-müşk-ənbər imiş buyi-qubari-Qarabağ
Abi-heyvan imiş ənharü pünari-Qarabağ.
Kövsərü Tuba imiş çayi-çinari-Qarabağ
Aləmi-cənnət imiş dari-diyari-Qarabağ.
İmdi bildim nə imiş vəsfi-həzari-Qarabağ!
Yeridir kim çəkərəm ahü zari-Qarabağ.
Dağlayubdur bəni bir laləüzari-Qarabağ
Yandırıbdır bəni bir nari-nigari-Qarabağ.

Ah, aşüftəligim zülfi-səmənsayə deyin,
Vah, sərgəştəligim kakili-Leylayə deyin.
Bu güniqarəligim mehrsiz ol ayə deyin,
Kari-tərsalığım ol zülfi-çəlipayə deyin.
Dərdi-biçarəligim ləli-Məsihayə deyin,
Sirri-pünhanımı ol ağzı müəmmayə deyin.
Dərdimi-dilbəri-şirini-dilarayə deyin,
Ərz edin, möhnətimi cümlə şəhənşayə deyin,
Suzişi-könlümü ol qönçeyi-həmrayə deyin.

Necə ah eyləməyim bülbüli-şeydayə deyin,
Dağlayubdur bəni bir laləüzari-Qarabağ,
Yandırubdur bəni bir nari-nigari-Qarabağ.

Gəlin, ey əhli-könül, artub azarım, eşidin,
Yox rəvacı, kəsilüb beyü bazarım, eşidin.
Pozulub rövnəqi-gülzari-baharım, eşidin,
Qalmayıbdır, tükənib leylü naharım, eşidin.
Cəm olun bir yerə, azari-həzarım, eşidin,
İrişüb vəqti, qazın dari-məzarım, eşidin.
Yaxılub səbr, yanub nayi-qərarım, eşidin,
Alışub suzişilə mayeyi-varım, eşidin.
Dağılın kim tutuşub nari-mənarım, eşidin,
Yedidir ərşə çıxarsa ahü zarım, eşidin,
Dağlayıbdur bəni bir laləüzari-Qarabağ
Yandırubdur bəni bir nari-nigari-Qarabağ.

Düşmədi kuyinə bir kərrə güzarım gecələr,
Sormadı halımı bir mahüzarım gecələr.
Bir bana yan(ma)dı kim, gəlmədi yarım gecələr,
Ol səbəbdən alışur cani-fikarım gecələr.
Yaxılur atəşi-dil, artır azarım gecələr
Çəkilür nöh fələkə zarü həzarım gecələr.
Dağılur hər tərəfə atəşi-zarım gecələr
Yandı pərvanə kibi odllara varım gecələr.
Şəm tək narilə düşdü səri-karım gecələr
Bəs necə yanmaya bu könli-mənarım gecələr,
Dağlayıbdur bəni bir laləüzari-Qarabağ
Yandırıbdır bəni bir nari-nigari-Qarabağ.

İltifat eyləmədi mehrsiz ol ay bana
Alçmadı pərdəni şol dilbəri-hərcay bana.
Atmadı tirini peyvəstə qaşı yay bana,
Arizin açmadı ol qönçeyi-həmray bana,

Qılmadı mehrü vəfa mahi-dilaray bana,
Salmadı sayəsin ol mehri-hümasay bana,
Hiç meyl eyləmədi bəççeyi-Ənqay bana,
Qəti-sər eyləmədi neyləyim ah-vay bana,
Müxtəsər, eylədi çox zülm şahənşay bana
Kim olur nari-məhəbbətdə ki bir tay bana?
Dağlayıbdur bəni bir laləüzari-Qarabağ
Yandırıbdur bəni bir nari-nigari-Qarabağ.

Yandı canım gecələr, gəlmədi ol mah neçün?
Almadı pərdəni şol mehri-səhərgah neçün?
Neyləyim olmadı bir dəm bana həmrah, neçün?
Eylədi çah yerim, mahi-fələkcah neçün?
Sormadı hali-pərişanımı gah- gah neçün?
Yandım atəşlərə, ol olmadı agah neçün?
Baxmadı bir mana, bin söylədim “Allah, neçün”?
İltifat etmədi eyvah, şəhənşah neçün?
Yetmədi dadimə, ah eylədim, eyvah, neçün?
Söyləmin siz bana kim ərşi yaxar ah, neçün?
Dağlayıbdur bəni bir laləüzari- Qarabağ,
Yandırıbdur bəni bir nari-nigari-Qarabağ.

Dari-mehr üzrə gərək qəsdi-şirin can edəyim,
Dili sərdarə çəküb şövqilə qurban edəyim.
Cigəri parələyüb bağrı qızıl qan edəyim
Dəmbədəm əşk töküb xuni-dil əfşan edəyim.
Canı atəşkədeyi-eşqdə suzan edəyim,
Yandırub xaneyi-variyyəti viran edəyim
Gecələr ta besəhər dəmbədəm əfğan edəyim
Güli-məqsud açıla, dərdimə dərman edəyim
Ey Nigari, nə qədər sirrimi pünhan edəyim?
Yandı canım, anı bu nəzmilə şayan edəyim:
Dağlayıbdur bəni bir laləüzari-Qarabağ
Yandırubdur bəni bir nari-nigari-Qarabağ.

## Qoşmalar

Zəbt eylər dünyanı, alur sərapa
İskəndərlik eylər cəhanə zülfün.
Çakər eylər Hindü Həbəş şahini
Hökm eylər Xətayə, xaqanə zülfün.

Fürsət verməz, Cəmşid Cəmi xar eylər,
Əfridun əlindən ahü zar eylər,
Təxtini Zöhhakın tarümar eylər,
Fərman eylər şahi-maranə zülfün.

Bənd eylər Bəhramı, atar meydanə,
Göz açdırmaz Təhamtənü Dəstanə,
Bir zərrə bəxş edüb şahi-mərdanə,
Əlbörzi-hünərdən mərdanə zülfün.

Tən eylər kakilin müşki-Xətayə,
Töhmət eylər buyi-güli-həmrayə,
Ta ki bir telini verür həvayə,
Verme əlin dəsti-Səlmanə zülfün.

Şanətək bağrını yarar, şan eylər,
Arturur dərdini, firavan eylər,
Əqlin Nigarinin pərişan eylər,
Töküləndə çin-çin bir yanə zülfün.

***

Bülbültək oyandım bir səhər nagah
Gördüm uğramışam bir gülüzarə.
Alışdım dəmbədəm yaxıldım, eyvah,
Tutuşdum bənd-bənd nari-həzarə.

Gördülər bəni kim halı pərişan,
Cəm oldu Əflatun, Ərəstu, Loqman,

Nəbzimə əl vurdu bir-bir təbiban,
Dedilər dərman yox buna, nə çarə.

Fələki sərgəştə eyləmiş ünüm
Ərşi-müəlladə oynar tütünüm
Uçubdur sitarəm, batıbdır günüm,
Nə çarə eyləyim bən günüqarə?

Zəhrabini çəkdim zülfi-şahmarın,
Fitnəsinə düşdüm çeşmi-səhharın.
Vəqti ki, uğradım darinə yarın,
Həllac tək ol dəm çəkildim darə.

Ey Seyyid Nigari, ey aşiqi-zar,
Ey əsiri-sevda, dərdə giriftar.
Bilmədinmi, eylər səni tarimar
Bəs neşün uğradın kuyi-nigarə?

***

Eşqin kanı Qarabağdır məkanım,
Bülbüli-şeydayəm, cənnət yerimdir.
Əvvəl başdan Qaraqaşlı bustanım,
İmdi gülüstanım Qara pirimdir.

Sinəmə çəkilən qara dağımdır
Yandıran aləmi gör nə çağımdır!
Qara bağrım qanlu Qarabağımdır
Gözlərimdən axan yaşi-tərimdir.

Yadigarım olsun əhli-sövdayə,
Göftari-dərdimi eyləsin mayə,
Şamü səhər ahim, ünüm biğayə
Dərgəhi-dildarə bərgü bərimdir.

Lütfi-ilahinin nəzərgahiyəm,
Ərbabi-sövdanın qibləgahıyam,
Mülki-məlamətin padişahiyəm,
Xaki-payi-dilbər taci-sərimdir.

Tükənməzmi dərdin, yoxmu bir çarə?
Yaxılursan şamü-səhər odlarə.
Səbr eylə biçarə, ey günü qarə,
Ey Seyyid Nigari, Mövla kərimdir.

***

Neyləyim, ey yaran, bir laləüzar
Tarimar eylədi arü varımı.
Bir ləbləri gülnar, adı Şahnigar,
Kəsdi taqətimi, ixtiyarımı.

Kəsilüb taqətim, qalmayub aram,
Nə çarə eyləyim bir kəbki-xuram
Açıbdur sinəmi, görünür yaram,
Seyr eylin yaramı, dilfikarımı.

Bülbül oldum imdi bir gülüzarə,
Baxmazam əğyarə, baxmazam xarə,
Gər müştərim olsa bin mahiparə,
Açdırmazam çeşmi-gühərbarımı.

Qarabağdan irağ degil maralım,
Səhrayi-qınağda oynar qəzalım.
Qaraqaşlı elində Şirin misallım,
Şamü səhər çəkər intizarımı.

Artubdur möhnətim, artubdur narım,
Atəşi-həsrətlə yaxılmış varım.
Ey Seyyid Nigari, kəsilməz zarım
Görməyincə ruyi-Gülnigarımı

***

Bir qönçeyi-gülün tarimarıyam,
Görüm abad olsun ol Qarabağı.
Bir gözəl kəbkin giriftarıyam,
Şənlik olsun dağı, bağı, ovlağı.

Gözlərimdən hər dəm qan-yaş tökülür,
Sərvtək qamətim yay tək bükülür,
Sinəmə çal-çarpaz dağlar çəkilür
Yadıma düşdükcə Çilgəz yaylağı.

Xubları huridir, mələkmənzərdir,
Sözləri şirindir, şəhdü şəkkərdir.
Cənnətül-məvadır, hövzi-Kövsərdir
Qaraqaş yaylağı, Həmzə bulağı.

Kuhi-sövda üzrə eylərəm fəryad,
İmdadıma gəlməz sakini-övtad.
Dəmbədəm bin tişə əgər bin Fərhad
Çalsalar, əksilməz sinəmin dağı.

Nəsli-İsmailsən, əsli-ərəbsən,
Ali-Məhəmmədsən, alinəsəbsən.
Müntəxəbsən, silsileyi-zəhəbsən,
Ey Seyyid Nigari, ey Qarabaği.

***

## Gəraylılar

Aşiq oldum yenə tazə
Bir növcəvanə, cəvanə.
Qanı bir əhli-dil, yazə
Ərzim canana, canana.

Qəm əlindən gəldim dadə,
Dərdimdir həddən ziyadə,
Yalvarıram, vermə badə
Zülfün səlmanə, səlmanə

Cüda düşdüm ellərindən,
Kəsmədim göz yollarından.
Zülfi-Leyli əllərindən
Gəzirəm divanə, divanə.

Bilməzəm kim ol kərəmkar
Əvf edərmi, günahım var.
Yalvarıram mar təki zar
Hər dəm yalmanə, yalmanə.

Qurdum ülfətin binasın,
Yıxdım dünyanın əsasın,
Nigari, eşqin səhrasın
Gəzdim mərdanə, mərdanə.

***

Əqlimi, ey güli-xəndan,
Atdın həvayə, həvayə
Eylədim bülbültək əfğan
Düşdüm ah-vayə, ah-vayə.

Qeyri-zülfündə, ey mahım,
Ərşə yetişübdür ahım.
Mürəxxəs et, padişahım,
Bəni bir ayə, bir ayə.

Ləlindir ömrüm səfası,
Ağzındır dərdim şəfası.
Ey sənəm, zülfün həvası
Əldə sərmayə, sərmayə.

Bənd-bənd gəldim xüruşə,
Zövqi yetirdim Süruşə.
Mail oldum coşə-coşə
Ləbi həmrayə, həmrayə.

Dərsin almış rahibərdən,
Müshəfi-ruyi-dilbərdən
Nigari hər dəm əzbərdən
Oxur bin ayə, bin ayə

***

Gəzərkən uğradım nagah
Qaşı kəmanə, kəmanə.
Bəni sər ta qədəm, billah,
Düzdi peykanə, peykanə.

Gözlərimdən axar al qan,
Cigərgahım dolu peykan.
Bağrım başın qaşı kaman
Etdi nişanə, nişanə.

Cigərimdir parə-parə,
Yürəgimdir yarə-yarə.
Səba, yalvarə-yalvarə
Söylə cananə, cananə.

Ərz etdim əhli-səfayə,
Dərdimi ol bivəfayə
Dedi: "Get!"-bən binəvayə
Piri-muğanə, muğanə".

Öpdüm muğanın dəstini,
Çəkdim badeyi-məstini.
Içdim meyi-ələstini
Cigərgahım qanə-qanə.

Nigariyi-xubzəbanı
Gördüm fəsühülbəyanı.
Söylədim dərdi-Leylanı
Yazdı divanə, divanə.

***

Gülüstani-üzarında
Sünbüllər, güllər açılmış.
Bənöfşə, səbzəzarında
Güllər, kakillər açılmış

Nazın, ey nazənin çoxdur,
Məstlikdən gözün toxdur.
Sərxoşsan, xəbərin yoxdur
Belindən şallar açılmış.

Ey sənəm, məstəm gözündən
Doymazam şirin sözündən.
Kəsməzəm gözüm yüzündən
Güllər, sünbüllər açılmış.

Qurbanam süzgün boyuna,
Heyranam gözəl xuyuna,
Gedüb-gəlmədən kuyinə
Cününə yollar açılmış.

Ey gözəlliyin gülzarı,
Ey xubluğun laləzarı,
Ey Həmzənin Şahnigarı,
Vəsfində dillər açılmış

***

Görməzəm kim ərz eyləyim
Yarə dərdimi, dərdimi
Görsə bilər, nə söyləyim
Rüxi-zərdimi, zərdimi.

Gün vermədi bana rəqib
Kuyindən olsun binəsib!
Görgəcin əl çəkdi təbib
Ahi-sərdimi,sərdimi.

Nə eylər bana, yar eylər,
Zülfünü zərnigar eylər.
Gör nə gövhər nisar eylər
Gözüm mərdümi, mərdümi.

Görün bana yar neylədi,
Neylədi, gözəl eylədi.
Dərində gördü, söylədi:
"Kəlbi-dərdimi, dərdimi".

Göftarını qənd eyləmiş,
Tarini kəmənd eyləmiş,
Nigari, dərbənd eyləmiş
Bihədd mərdümi, mərdümi.

***

Səbəbsiz aşiq, ey yaran,
Çəkərmi cövri-hicranı?
Qəfəsdə olmasa bülbül
Tərk edərmi gülüstanı?

Bəni söylətmə, ey canan,
Bağ cəfasın çəkən bağban,
Çəkərsə azari-hicran
Unutmaz bağü bustanı.

Avçı gəzər, avın izlər,
Bülbül gülüstanı gözlər.
Tərpətmə yaramı, sızlar
Dindirmə bən binəvanı.

Qəzadandır çün bu sövda,
Olmaz qəza ilə qovğa.
Ey əzizim, bənəm guya
Bu vəqtin piri-Kənanı.

Sığındım eşqi-nigarə,
Yalvardım Pərvərdigarə,
Ərzə verdim Kirdigarə
İstədim dərdə dərmani.
***

## Müstəzad

Ey ləli müsəffa, rüxi ziba, gözü şəhla,
lütf eyləyə Mövla,
Ovsafini nəzm eyləyə təb eyləyə inşa
nitqim ola guya.
Ta ruzi-əzəl böylədir, ey aşiqi-dilxun,
hər vəqt bulunsun
Olsun Qarabağ içrə ki, bir bülbüli-şeyda
vasif güli-həmra.
Cövlan elə, ey sərvi-dilara, qədi bala,
ey dilbəri-əla,
Məhv eylə qamu zülməti, ey mahi-mücəlla,
vey mehri-müzəyya.
Ey rəşki-dövran, mayeyi-can, bir həvəs eylə
bir dəm nəfəs eylə
Tərsaləri söylətmə, elə Məryəmi ehya
ey baisi-əya
Ərbabi-dilə, ey ləbi şəhdabü şəkərab,
ey şərbəti-nayab,
Ləlindən axıt şəhdi-şəfa, çeşmeyi-əhla,
qəndabi-müsəffa.

Göftarə şəkərbarə gəl, ey sözləri nayab,
İmran ola bitab.
Meydani-süxəndən elə bir möcuzə inha
aciz ola Musa.
Sal fitnəyə səhraləri, eylə girftar,
ey kakili şahmar,
Heyran ola sahir, dəxi Harun, əxi-Musa,
ey kamili-əla!
Kəşf eylə rüxün, ta görünə bir büti-rəngin
bir dilbəri-şirin.
Heyran ola, ey məh, sana Yüsiflə Züleyxa,
ey sərvəri-ziba.
Çəkmişmi ləbin badəsin, aya, dili-Fərhad
eylər hələ fəryad,
Qəbr içrə salur zəlzələ, ey dilbəri-ziba,
ey yari-dilara.
Kimdir ola yeksan sana, ey sərvəri-şahan
canım sana qurban.
Kim var cəhan içrə səlatin sana, əmma,
irməz biri əsla.
Ülfətdə bənəm, hüsndə sən, ey şəhi-xuban,
olmaz biri, əqran.
Həm nazü niyazda ikimiz, yox bizə həmta
olmaz biri, qəta.
Dəmdir çıxasan bir ahdən , ey məh, sana bin can
qurban ola hər an.
Dutdum sana yüz eylə qəbul, ey şəhi-əla
vey məqsədi-əqsa,
Rəf eylə niqabını bütün, ey məhi-taban,
vey mehri-dirəxşan.
Candadeyi-didarə gərək seyrü təmaşa,
ey mətləbi-əla,
Salma bəni səhrayə, aman, etmə, avarə,
et dərdimə çarə.

Beyt içrə qərar eyləmə, ey ahuyi-rəna,
tut daməni-səhra,
Gördü dili-divanə səni, oldu həvayi,
tərk etdi sərayi.
Bənd et anı zəncir ilə, ey zülfi çəlipa,
ta olmaya rüsva.
Rüsvayi-cəhan eylədim, ey-yari-dilara
vey Leyliyi-hərca,
Durma, yürü çapuk anı kim etdin rüsva,
gəl eylə tamaşa.
Qılma bəni həsrətlə fəna, sinəsi pürxun,
ey arizi gülgun.
Sun ləli-ləbin şirin-şirin içəyim ta
vey şəhdü-şəkərfa.
Qıl vəslinə məqrun bəni, ey qaşi kəmaneyn,
qürbiyyəti-qövseyn.
Peyvəstə kəman qaşı kibi mülhəqi-hüsna
lütf ilə o ədna.
Dutgil Qarabağ içrə sən, ey Mir Nigari,
çək dərdi-həzari.
Qılgil həvəs, ol güli-həmra, oxu şeyda,
seyr elə hər ca.
***

# HAMİD QARABAĞİ

Molla Xanqulu Günoğlan oğlu Hamid təxminən XIX əsrin əvvəllərində Ağdam qəzasının Şıxlar Qərvənd kəndində anadan olmuşdur. O, gənclik illərində təhsilini davam etdirmək üçün Təbriz şəhərinə getmiş, molla ünvanını qazandıqdan sonra vətənə qayıdaraq ömrünün axırına kimi doğma kəndində yaşamış və orada da dəfn olunmuşdur. Şairliklə yanaşı təbabətə də yaxşı bələd olan Molla Xanqulu əhalinin sevimlisi "məhbubül-qülub" olduğu üçün el arasında ona "Baba" deyə müraciət olunurmuş. Aşağıdakı şeir örnəkləri AMEA ƏYİ-nin arxivində saxlanılan əlyazmalardan götürülmüşdür.

## Qəzəllər

Vəsfi-rüxsarın yazıb təfsir qıldım ibtida,
İbtidayi-ömrdən ta kim olunca intəha.

Intəha qıldı rüxün mən binəvanın ömrünü,
Munca cövr ilə könül rüxsarın eylər iqtifa.

İqtifayi-dil olubdur dövləti-didarımız,
Ol səbəbdən sübhü şam eylər dərində iltica.

İltica eylər qəmər görcək cəmalın tərhini
Hüsnünə eylər kəvakib iqtida.

İqtida eylər dəmadəm Hamidi leylü nəhar
Çünki gördüm qaşların mehrabı olmuş müqtəda.

***

Görüb rüxsarını yarın güli-həmrayə bənzətdim,
Bu vəchilən özüm bülbüli-şeydayə bənzətdim.

Mən ol kakili pərişanın ki, sərgərdaniyəm, billah,
Düşübdür başıma bir eşq, anı sevdaya bənzətdim.

Mənim ol lalərüxsarım çəkibdir sinəmə dağı,
Anınçün Qeystək düşdüm kuhü səhraya bənzətdim.

Mən ol şuxi-kəmanəbruyə qurban olsam eyb olmaz,
Fəraqından anınçün qəddimi bir yayə bənzətdim.

Şikəstə Hamidəm bəxtim qəradır ruzi-əzəldən,
Səbəb bu: - zülfünü yarın şəbi-yeldayə bənzətdim.

***

Pür şamü səhər, leylü nəharım qəmindir bais,
Tərəhhüm eyləməz saqi bizə bir dəm, nədir bais?

Açılmaz babi-meyxanə, bəni qəm eylədi yəğma,
Olur həm daği-hicranın bizə həmdəm, nədir bais?

Müqəvvəs taği-əbrulər, dü çeşmi-nərgisi-məstan,
Dəhanın kövsəri-rizvan, ləbin zəmzəm, nədir bais?

Cəmalın şöləsin görcək qılıbdır könüllər təhqiq
Ki, tərki-rövzeyi-xüldi-bərini Adəm, nədir bais?

Xədəngi-novki-müjganın keçibdir canü cismimdən
Qılırsan Hamidə yarəni hər dəm, nədir bais?

***

Aldı cam genə bir tazə cəvan, dadi-bidad
Oldu həmrah mana ahü fəqan, dadi-bidad.

Urulub zənciri-tədbir bu gün, ey saqi,
Görməmiş sərvi-çəmən bağı-cəhan dadi-bidad.

Sibi-qəbqəbədə müəlləqdir ol abi-həyat,
Neyləyim, rəhgüzəri çahi-nihan, dadi-bidad.

Mana bir badə verin eşqilə, Allahı sevən,
Müjdə gəlmiş – gəlir ol səvi-rəvan, dadi-bidad.

Düşdü bir qəlqəleyi-mürğ gülüstana bu gün,
Hamida, əsdi bu gün badi-xəzan, dadi-bidad.

***

Məst olub vəhşi kimi gözləri hər yanə gəzər,
Həsrəti- Leyli çəkib Məcnuni-divanə gəzər.

Şövqi-ləbü zövqi-dəhanı eylədi sərgəştə məni,
Cüğdmanənd könül axəri viranə gəzər.

Tənə qılmaq mana kim gərdişi-dövran edərəm,
Dərdmənd adətidir dərdinə dərmanə gəzər.

Mənim aşüftəligim laleyi-rüxsardədir,
Kim ki sərrafi-dür olsa, belə dürdanə gəzər.

Vaiza, urma ləgədlər bizə sud etməz kim,
Dəlqi-pəşminə geyib Hamidi meyxanə gəzər.

***

Bülbüli-şeyda neyçün seyri-gülüstan eyləməz,
Mövsimi-fəsli-bahar təhsili-dövran eyləməz.

Böylə məhvəşdən nə hasil, gül kibi bibəhrədir,
Müshəfi-rüxsardə təlimi-Quran eyləməz.

Eşq üslubun götür pərvanədən, ey əndəlib,
Tapşurur cananə canın, hərgiz əfqan eyləməz.

Ey büti-tərsa, nədir hər dəm bu nazi-püritab,
Eylə zülm eylər gözün hökm, Süleyman eyləməz.

Hamidi qılmış fəda canın canan dərgahına,
Hansı aşiq canını canana qurban eyləməz.

***

Cahanda gömədim hərgiz sənintək mehriban sərxoş,
Dəhanın qönçeyi-xəndan, qədin sərvi-rəvan sərxoş.

Mübarək saəti gör kim dutubdur pərdeyi-ismət,
Çəkibdir şaneyi-zərrin, tökübdür giysuvan sərxoş.

Cəmalın rövzədir əz zövzeyi-xüldi-bərin təhqiq
Olub qumru, səri-kuyində bülbüli-nəğməxan sərxoş.

Dutubdur həzrəti-hüsnün ədalət padşahlardan,
Səri-kuyində bülbüllər urarlar ərğəvan sərxoş.

Yəqin ruzi-əzəldən ta dutubdur daməni-himmət,
Unutma Hamidi xaki-dərindir əlaman sərxoş.

***

Gəl-gəl ey yari-vəfadar, cəmalın görəlim,
Nöqteyi-nuki-qələm daneyi-xalın görəlim.

Talibi-eydi-vüsaləm bu gün, ey badəfüruş,
Çək niqabın türfə əbri-hilalın görəlim.

Müntəzirdir dili-divaneyi-qəmxar bu gün,
Bağı-mələkü mələkut içrə vüsalın görəlim.

Lacərəm, həsrəti-güftari-ləzizin çəkirəm,
Qıl təkəllüm, sənəma, ləhcə, məqalın görəlim.

İntizari-qəddin Hamidi öldürdü, yeri.
Douheyi-gülşənə gir, cahü cəlalın görəlim.
***
Sallanıb yüz naz ilən bu nazlı yarımdı gələn,
Saqiyi-məsti-meyü çeşmi xumarımdı gələn.

Qönçə rüxsar, cəhanmənzər, dilxəstə mən,
Xabü nuşin şəbü ruz qərarımdı gələn.

Müntəziri-rahi-vüsaləm səri-kuyində müdam,
Qönçeyi-sürxdəhənü laləüzarımdı gələn.

Sübhdəm yüz sorubən kuyinə gəldim, dilbər,
Demədin rəhm qılıb zarü nizarımdı gələn.

Hamida, həmdü sənalar qıla gör sübhanə,
Baisi-naleyi-fəryad ilə zarımdı gələn.
***
Ey qəddi sərvi-rəvan, zülfü siyah,
Halı aşüftəyə sən eylə nigah.

Cüstücuyində idim ruzbəruz,
Nəzri-can eyləmişəm rahbərah.

Qabili-tövbə degil badəpərəst,
Gərçi tövbə verəsən mahbəmah.

Verdi fətvayi meyə piri-muğan,
Saqi, bir badə gətir, bismillah.

Demə kim, Hamidi divanə imiş,
Məstü məxmurəm, ey badəpənah.
***

O ləbaləb dəri-meyxanələr öldürdü məni,
Çəngü sazü dəfü divanələr öldürdü məni.

Dövr edər şamü səhər fanus müqənnə tərəfin
Şəmi-rüxsardə pərvanələr öldürdü məni.

Cami-gülrəngü müsəffa çu dürdaneyi-tər,
Məcməi-müğbeçeyi-kaşanələr öldürdü məni.

Gör necə buseyi-yar ilə düşüb təqsirim,
Yar əfv eylədi, biganələr öldürdü məni.

Hamida, qıl nəsəb, gəzmə xərabati-cahan.
Aqibət, gərdişi-divanələr öldürdü məni.

***

## AŞIQ PƏRİ

XIX əsrin birinci yarısında yaşayıb-yaradanAşıq Pəri müasirləri arasında böyük şöhrət qazanmışdır. Onun şeirləri hələ sağlığında dillər əzbəri olmuşdur. Şairin ölümündən bir qədər sonra tərtib olunmuş təzkirə və məcmuələrədə, Mirzə Yusif Qarabağinin 1856-ci ildə nəşr etdirdiyi "Məcmueyi-əşari-Vaqif və müasirini-digər" əsərində, Adolf Berjenin 1867-ci ildə Leypsiqdə nəşr etdirdiyi "Məcmueyi-əşari-şüərayi-Azərbaycan" kitabında Aşıq Pərinin şeirlərindən nümunələrverilmişdir. Adolf Berjenin qeyd etdiyimiz əsərində Pəri haqqında verdiyi : "1829-cu ilin axırlarında Araz çayı sahillərində uzanan Maralyan kəndində 18 yaşında bir qız zühur etdi. Eşildilməmiş bir gözəlliyə malik olan bu qızın adı Aşıq Pəri idi"- məlumatından onun təxminən 1810-1811-ci illərdə Qarabağın Maralyan kəndində anadan olduğu müəyyənləşir. Şairənin ölüm tarixi haqqında da dəqiq məlumat yöxdur. Onun təxminən 1839-1840-cı illərdə vəfat etdiyi güman edilir. Aşıq Pəri xalq şeiri üslubunda yazıb yaratmışdır. Şairin bədii irsinin cüzi bir hissəsi gəlib bizə çatmışdır.

Aşıq Pəri haqqında Firudun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" ( I cild 1978) kitabında, Əliabbas Muznib "Aşıq Pəri və müasirləri" (1928) əsərində, Əzizə Cəfərzadə "Azərbaycanın aşıq və şair qadınları" (1991) kitabında məlumat vermişlər. Buradakı şeir nümunələri həmin əsərlərdən götürülmüşdür.

### Qoşmalar

Mürşidi-kamildən dərsimi aldım,
Can götürüb bu meydana gəlmişəm.
Mürği-səməndərin aşinasıyam,
Od tutuban yana-yana gəlmişəm.

Müxtəsər, nə deyim naşısan, naşı!
Tutubdur yaxanı eşqin ataşı,

Bu tariflər zənanə nə yaraşı,
Həq bilir ki, mən mərdanə gəlmişəm.

Pünhanıda bir azarım var mənim,
Gözlər yolda intizarım var mənim,
O kəlməndən xiridarım var mənim,
Sən sərrafsan, mən də kana gəlmişəm.

Zənbur olar şanda, belə məkanda,
Çox ariflər manda gənci-pünhanda,
Bülbül-abadanda, bayqu-viranda,
Əndəlibən, gülüstana gəlmişəm.

Pərizadə əl götürməz canından,
Dərsin alıb sahibkamal yanından,
Külli-işin mərifətin kanından
Bəzm içində mən fəğana gəlmişəm.

***

Eşitmişdik, qulluğuna yetişdik[1],
Gördük ki, düşmüsən dildən-dilə sən.
Unutmayıb müsəlmanlıq şərtini,
Matəm tutub bir insafa gələsən.

Bu işdə Qədirin[2]vardır rayı,
Yetən kəslər ona deyib sevdayı.
Aralığa düşüb məhərrəm ayı,
Layiq deyil onda deyib- güləsən.

Yaxşı yetər imamı fəryadına,
Belə işin ləzzəti nə, dadı nə,
Adam bildik biz də gəldik adına,
Adamlığı qanmayıbsan hələ sən.

---

[1]Bu mənzumə şair Cəfərqulu xan Nəvaya müraciətlə yazılmışdır.
[2]Cəfərqulu xanın xidmətçisi

Ey Pəri, təcil et sualında sən,
Nöqsan yetiribsən kamalında sən.
İmdi zurna çalmaq xəyalındasan,
Onu görək axirətdə çalasan.

***

Şayəstədir, ey mürşidi-kamilim[1]
Dostlar arasında etibar ola .
Şair olan ustadından dərs ala,
Ziddi cinsü rədiflə pərgar ola.

Sən ki, bizə namə yazdın ibtida,
Canı dost yolunda eylədim fəda.
Ovsafi-aləmdə yektadır, yekta
Mələk hicranında bərqərar ola.

Cəvabı- xəttindən olmuşam xoşhal,
Ərz eyləyim qulluğuna vəsfi-hal,
Şənilə şövkətin olsun bizaval,
Gərək xidmətində xidmətkar ola.

Pəri idim eşq içində aşikar,
Aralıqda yaxşı olur səbəbkar.
Bu cəng meydanında eylərəm şikar,
Əgər Məhəmməd tək səd həzar ola.

***

Katiblərin şahı dəftər içində[2]
Qələm ilə nazik əllər oynaşır.
Fitnəli, fellisən, nazü qəmzəli
Dəhanında şirin dillər oynaşır.

---

[1]Məhəmməd bəy Aşiqə yazılmışdır.
[2]Şair Mirzə Həsən Mirzaya .

Dad elərəm, haray naşı əlindən,
Yandı cigər eşq ataşı əlindən,
Mən nə deyim gözüm yaşı əlindən,
Üzüşür sonalar, göllər oynaşır.

Adam var dolanır məkrin içində,
Adam var dolanır zikrin içində,
Sənin kamalında, fikrin içində
Əcayıb, qərayıb hallar oynaşır.

Pəriyəm, xəlq ara olmuşam bacı,
Kimsənin kimsəyə yox ehtiyacı,
Bəlxü Buxaranın, Hindin xəracı
Zənəxdanda siyəh xallar oynaşır.

***

Nə yatmısan ləhaf bəstər içində[1],
Bimarmısan, nədir bəs halın sənin?
Eşqin mərizinin mən təbibiyəm,
Bəyan eylə mənə əhvalın sənin.

İsmi- şərifiniz dada yetişsin,
Mətləb alıb hər murada yetişsin,
Xalıq özü bir imdada yetişsin,
Hifzində saxlasın zavalın sənin.

Bar ilahım gülzarına qıymasın,
Xəstə olan bimarına qıymasın,
Şirin-şirin güftarına qıymasın,
Bağışlasın qaşı hilalın sənin.

Bir məsəldir: bağban olan bar çəkər,
Əndəlibin həm meyli gülzar çəkər,

---

[1]Mirzə Həsən Mirzaya

Allahına bəndə ahuzar çəkər,
Qəm çəkmə kamildir kamalın sənin.

Mən Pəriyəm, eşqə zaram, neyləyim,
Dərdi-dildən xəbərdaram, neyləyim,
Burdan ora intizaram, neyləyim,
Şəfalansın nuri-visalın sənin.

***

Mirzəcan ağadan-dəsti səxadan
Tiflis ölkəsindən bir nişan gəlib.
Ənam edib gəlib nəhəng üstünə,
Ecazı möcüzat xoşnişan gəlib.

Görən bəh-bəh dedi şövkətü şana,
Biz də mayıl olduq qaşı kamana,
Alov-alov şölə salub hər yana,
Sanasan ki, ləli-Bədəxşan gəlib.

Nami Cardur yıldız kimi səgridi,
Yeddi cıraq Car tərəfin bürüdü,
Görməyinə qız-gəlinlər yeridi,
Neçə-neçə zülfü pərişan gəlib.

Ehtiyat görüldü, şamlar alındı,
Toylar tutuluban, şənlik olundu.
Pak namaz qılındı, süfrə salındı,
Car tərəfin kəndi məcmuynan gəlib.

Mən Pəriyəm dərd-pünhanın içində,
Xal dolanır zənəxdanın içində,
Sən bilirsən kəlisanın içində
Ömrünə duaçı yüz min can gəlib.

***

Canaqçı mülkündən səfər elədik,
Mənə qənim oldu yollar, ağlaram.
Şəcər gəldi urdu şikar eylədik,
Tökər didələrim sellər, ağlaram.

Nagahanda böylə düşdüm dərdə mən,
Necə çəkim eşq üzünə pərdə mən?
Gözü yaşlı gəldim Tağaverdə mən,
Pərişan  olubdur tellər, ağlaram.

Bir şahandaz şahbazım gedibdür,
Kəsilüdür ixtiyarım, gedibdür
Köksü dağlı bir tavarım gedibdür
Quruyub lal olub dillər, ağlaram.

Bir Pəri dil aramında qan ağlar,
Çəkilib sinəmə dügünlü dağlar,
Ölübdür bülbülüm, lal olub bağlar,
Saralıb-sovulub güllər, ağlaram[1].

***

## Gəraylılar

Zalım Şəcər dad əlindən,
Sən ha nahaq qan eylədin.
Zülmilə könlüm şəhrini
Gör neçə viran eylədin.

Saymadın sultanı, xanı,
Eyləyibsən nahaq qanı,
Badam kimi növcavanı,
Yer ilə yeksan eylədin.

---

[1]Bu və sonra gələn şerləri Aşıq Pəri çox sevdiyi Badamın vəfatı münasibəti ilə söyləmişdir.

Necə qıydın gülzarına,
Pünhan keçən iqrarına,
Saldın yollar kənarına,
Dörd yanı al qan eylədin?

Pərinin dərdi tuğandı,
Sakin yeri Maralyandı.
Gülüm qonçasında yandı,
Bülbüllər əfqan eylədi.

***

Nə müddətdir bu qəflətdən
Oyanmırsan, qara baxtım.
Çəkdirdiyin əziyyətdən,
Usanmırsan qara baxtım.

Atmısan ümmanı-qəmə,
Gülünc etmisən aləmə,
Məni dərdə salıb, yenə
Dayanmırsan, qara baxtım.

Axıtdın sel tək qanımı,
Üzmüsən cavan canımı,
Almısan adü sanımı,
Utanmırsan qara baxtım?

Yaşayıram zəhmət ilə,
Çətinliklə, zillət ilə.
Sən Pəriylə hörmət ilə,
Dolanmırsan, qara baxtım.

***

Məni dilə salan qonşu,
Görüm üzün qara olsun.
Danışıbsan yalan, qonşu,
Görüm üzün qara olsun.

Ömrün boyu gülməyəsən,
Şad-şirinlik bilməyəsən,
Ac olasan, ölməyəsən
Görüm üzün qara olsun.

Yalan deyilsin aduva,
Allah yetməsun daduva,
Lənət olsun ustaduva,
Görüm üzün qara olsun.

Evdə qalıb zay olasan,
Qarılara tay olasan,
Əzrayıla pay olasan,
Görüm üzün qara olsun.

Kimsə baxmasun sözünə,
Onda vurasan dizivə.
Görən tüpürsün üzünə,
Görüm üzün qara olsun[1]

***

Uzaq yoldan gələn yarım,
Yoluna qurban olduğum,
Bircə danış tuti dillim:
Dilinə qurban olduğum.

Səni doğubdu mərd ana,
Can sənə qurban mərdana,
Gəl sarıl bəyaz gərdana
Qoluna qurban olduğum.

---

[1]Çunki şerin əvvəlində belə bir qeyd vardır: " Qonşusu Aşıq Pərinin adına böhtan deyir, Aşıq Pəri bu sözü ona qoşur". Bax: фP-609, vərəq-10.

Pəriyəm, gəl xoş danışaq,
Könlünü alım barışaq,
Dur bəri gəl qucaqlaşaq,
Belinə qurban olduğum.

***

Nə durmusan, pirsiz aşıq,
Qayıt, mən də sənə döndüm.
Al sualım, ver cavabım
Münkirü nəkirə döndüm.

Sən mənim halım bilməzsən,
Halı-zar edə bilməzsən.
Zərnigar edə bilməzsən,
Qalibi-Xeybərə döndüm.

Pərizadənəm, anaram,
Keçən günlərim sanaram,
Gecə sübhədək yanaram,
Çəkil ki, məşələ döndüm.

***

## Deyişmələr

**C.Nəva**

Sən ey Pəri, məlik pərvərdəsisən,
Həmişə deyərdik biz çakər ona.
Nədən ötrü bizdən kənar gəzərsən.
Nə mane olubsan sərasər ona.

**Aşıq Pəri**

Nə şayistə bu sözləri danışmaq
Büsyardır mərdi-xidmətkar ona.
Saymırdı sultanı, xanı, paşanı
Nə şah bir söz deyər, nə sərdar ona.

**C.Nəva**

Nə xoş güftarı var, nə xoş sadədir,
Bu dərdim hamıdan min ziyadədir.
Doğrudur, dibaçə məlikzadədir,
Bəs nədən deyirlər zülmkar ona?

**Aşıq Pəri**

Xanzadəsən mən tanıram sözündən,
Əyri demə, doğru söylə düzündən.
Zalımlıqda xəbərin yox özündən
Hər yerdə deyərlər rəhbər ona.

**C.Nəva**

Əzəl başdan Mirzəcandır ustadın,
Cəmi viranədə deyilir adın
Nə səbəbdən sizin bala Fərhadın
Gah xoxək deyirlər, gah püsər ona.

**Aşıq Pəri**

Mirzə Qədir sənin ustadi-xərin
Zişt danışmaqda yox bərabərin.
XoxəkAbdulladan yoxdur xəbərin.
Demə bundan sonra sən püsər ona.

**C.Nəva**

Arifəm bu yerdə yarı görəndə
Mən nə deyim bu düxtəri görəndə.
Əql itirdim sən əğyarı görəndə
Neçin gösdəribsən etibar ona.

**Aşıq Pəri**

Dağam gül yanında xarı görəndə,
Tərlan oylağında sarı görəndə.
Sən kimi eşq əhlin karı görəndə
Pəriyəm, duaçı aşikar ona.

***

**Mirzəcan**

Mən ki öldüm həsrətindən, ey Pəri,
Canım alıb o məstana gözlərin.
Yanında qəmzəsi, işvəsi, nazı,
Hərdəm baxıb afətana gözlərin.

**Aşıq Pəri**

Hər nə ki danışsan əfsanədəndir,
Batacaqdır məkri-qanə gözlərin,
Sən mənə rəqibsən, həmi naməhrəm,
Sataşmasın zanəxdana gözlərin.

**Mirzəcan**

İstəmənəm səg rəqibin ülfətin,
Çox çəkirəm sənin çünki möhnətin.
Çünki bilmiş ağlamağın ləzzətin,
Qoy ağlasın yana-yana gözlərin.

**Aşıq Pəri**

Təbib olan yara bağlamağ ilə,
Eşq oduna cigər dağlamaq ilə,
Kim vayə çatdırıb ağlamaq ilə
Bica yerə doydu cana gözlərin.

**Mirzəcan**

Əqlimi itirib zayil olmuşam,
Dərində başlayıb sayıl olmuşam,
Aləm bilir sənə mayıl degiləm.
Od salıbdır Maralyana gözlərin.

**Aşıq Pəri**

Eşqin məstliyindən ayıl degiləm,
Hər nə ki danışsan qayıl degiləm,

Leylisifət sənə mayıl degiləm,
Məcnun kimi nə divana gözlərin.

**Mirzəcan**

Həsrətin çəkirəm intizar ilə,
Yetər mətlubinə çatan yar ilə.
Bülbülün davası düşüb xar ilə,
Bənzər indi gülüstana gözlərin.

**Aşıq Pəri**

Taleyim düşübdü xub əğyar ilə,
Sənin keçsin işin ahü zar ilə,
Qaydasıdır qönçə yatar xar ilə,
Bülbül kimi bu məstana gözlərin.

**Mirzəcan**

Gör sənə nə dedim, ay qaşı kaman,
Dönərəm dinimdən, verəsən fərman.
Edəcək yolunda canını qurban,
Baxsa əgər Mirzəcana gözlərin.

**Aşıq Pəri**

Canım eşq oduna yaxan degiləm,
Müjganın sinəmə taxan degiləm.
Pəriyəm, mən sənə baxan degiləm.
Dolanmasın bu samana gözlərin.

***

**Məhəmməd bəy Aşiq**

Qarşıda Pəri yeri,
Dizaqda Pəri yeri.
Haçan olar, biz evdə
Saldıq zəri yeri?

**Aşıq Pəri**

Qəlyanın səri yeri,
Eşqin əsəri, yeri,
Ağlına dua yazdır,
Olma sərsəri, yeri!

**Məhəmməd bəy Aşıq**

Yeri, sərsəri, yeri,
Anla sirr, səri yeri,
Sərvim, qoynuna girsəm
Ollam sərsəri yeri.

**Aşıq Pəri**

Aşığam Maralyana
Od düşüb Maralyana.
Necəsən bir ah çəkim,
Dağlarda maral yana.

**Məhəmməd bəy Aşıq**

Qarşıda sənə Pəri.
Dostunu sına, Pəri!
Könlüm bir dilək dilər
Qoyma ki, sına, Pəri!

Qarşıda sənə Pəri,
Zülfünü sana Pəri,
Məzəmmət etmə məni
Aşiqəm sənə, Pəri!

Qarşıda uzaq Pəri,
Gül üzdə uzaq Pəri.
Qoynun cənnət bağlıdır,
Aşiqdən uzaq Pəri.

# MİRZƏ SADIQ PİRAN

Mirzə Sadıq İmanxan oğlu Piran 1811-ci ildə Şuşada anadan olmuş, ilk təhsilini də orada-mədrəsədə almışdır. Xüsusi istedada malik olan Mirzə Sadiq əksər klassiklərin, xüsusilə də Firdovsi və Füzulinin şeirlərinin çoxunu əzbər bilirmiş. Gözəl nitq və şeir demək qabiliyyəti, məlahətli səsi olan şair klassiklərin seçmə şeirlərini axşam məclislərində xüsusi zövq ilə oxuyarmış. Gəncliyində el şənliklərində xanəndəlik də edərmiş.

Mirzə Sadıq şeirlərini "Sadiq" və "Piran" təxəllüsləri ilə yazmışdır. O, Qarabağda fəaliyyət göstərən hər iki ədəbi məclisin üzvü olmuşdur. Lakin daha çox Natəvanın başçılıq etdiyi "Məclisi-üns"də iştirak etmişdir. Həm də bu məclisin ağsaqqalı hesab olunan Mirzə Sadıq cənc şairlərin təxəllüs seçimində onlara yardımçı olmuş və onların təsdiqini rəsmi qaydada həyata keçirmişdir. Xurşidbanuya "Natəvan" təxəllüsü götürməsini də o təklif etmişdir.

Mirzə Sadıq Piran 1893-cü ilin yanvar ayında Şuşada vəfat etmiş və Mirzə Həsən qəbristanlığında dəfn olunmuşdur.

Buradakı şeir örnəkləri "Təzkireyi-Nəvvab" və AMEA ƏYİ-nin arxivində saxlanılan əlyazmalarından götürülmüşdür.

## Qəzəllər

Qəmi-deydən oldu fariq, yenə çıxdı yaza zülfün,
Salacaqdı mən həzini qəmü dərdi-naza zülfün.

Ona tövri-ruyin, ey məh, yenə dəşti-Yəmən olmuş,
Kim ilən təkəllüm eylər ki, gəlib niyaza zülfün?

Alıb əldən ixtiyarım, dəxi qalmayıb qərarım,
Nə səbəb görəndə könlüm salır ehtizaza zülfün?

Hanı, sağ olaydı Mahmud, eşidib görəydi bir dəm
Ki, necə şikəst vermiş sənin ol Ayaza zülfün.

Nə səbəb qara bulud tək geyinib qara libasa,
Nədən eyləməz tərəhhüm mən-dilnəvaza zülfün?

Niyə tərki-mehr qılmış, dəxi axtarıb aramır
Ki, həqiqət əhlin atmış, qoşulub məcaza zülfün.

Ləbin abi-çahi-Zəmzəm, ruyin oldu Kəbeyi-dil
Ki, siyahgun ərəbtək yol açıb Hicaza zülfün.

Dəxi tiri-qəmzən atma, saqın, eylə bir tərəhhüm,
Nə qədr cəfalar etdi məni-pakibaza zülfün!

Niyə bir tərəhhüm etməz Sadığa o xəttü xalın?
Vəli çox sitəmlər eylər ona taza-taza zülfün.

***

Edir həm qəmzədə məqtul yüz canı qara gözlər,
Salıbdır mərdum icrə, gör nə qovğanı qara gözlər.

Sanasan şahi-hindudur, girib yayə kəmin etmiş,
Atar üşşaqə bir-bir tiri-müjganı qara gözlər.

Edən dəm qəsdi-can ol iki türki-şuxü sərməstin,
Biri xəncər çəkər, ol biri pünhanı qara gözlər.

Kəməndi-zülfünü həm tiği-əbrusun çəkib hər dəm,
Salır hər ləhzə dil mülkünə talanı qara gözlər.

İki kafərdi, ya kim, hər biri bir tiği-xunəfşan,
Çəkib, qətl eyləyirlər bir müsəlmanı qara gözlər.

Sənin eşqində, ey şux, eyləyir virdi-zəban Sadiq,
Olum ol qəmzeyi-xunriz qurbanı, qara gözlər!

***

Könül, dil vermə eşqə kim, bəladır,
İşi daim qəmü rəncü ənadır.

Təcəlla eylədikdə atəşi-hüsn
Vücudi-aşiqi-miskin fənadır.

Deyil baziçə, rahi-eşqdir bu,
Nə rahi-işrətü eyşü səfadır.

Bu işdə dövləti-Qarun gərəkdir,
Tühidəstə bu iş narəvadır.

Vəzifə əhli-fəqrə eşq bulmaz,
Bu yerdə şahlar miskin gədadır.

Əgər Cəmşiddir, ya kim, Sekəndər,
Şəhi-eşqin əlində binəvadır.

Gözəllər əhdinə çox etmə bavər,
Oların işləri daim cəfadır.

Bu yolda mən də çox yortdum, yügürdüm
Ki, gördüm axırı bimüntəhadır.

Bəli, gər aşiqi-Sadiq tapılsa,
Ona, əlbəttə, aşiqlik səzadır.

***

Səri-zülfün tutub yeksər, mənə dil mürği ram olmaz,
Yüz il şərh eyləsəm bu qissəni, axır tamam olmaz.

Təriqi-eşqə ta girdim, bulub keyfiyyəti-halın,
Fənadan qeyri- üşşaqa bu yolda hiç kam olmaz.

Vətən tutdun səri-kuyində, yarın itləri içrə,
Təfaxür qıl, könül, kim, bundan ali bir məqam olmaz.

Gətir, saqi, qədəh kim, xassə fəsli-gülsitan yetmiş,
Təğafül etmə, əhdi-gül keçər, əldə müdam olmaz.

Halal etdim, tökülsə qanım, ol sərvi-rəvan töksün,
Bəli, hər qan kim, ol sərvi-rəvan töksə, haram olmaz.

Ayaq çək, ey könül, əğyar bəzmindən kənar olgil
Ki, dildar olmayan məhfildə hərgiz bir nizam olmaz.

Məni rüsvayi-aləm etdi sövdayi-səri-zülfün,
Zəhi rüsvaylığı kim, onda nə nəngü nə nam olmaz.

***

## MİR MEHDİ XƏZANİ

XIX əsr Azərbaycan ədəbi və elmi fikrində yeri olan Mir Mehdi Mir Haşım oğlu Xəzani 1811-ci ildə Zəngəzur mahalının Məmərli kəndində anadan olmuş, ilk təhsilini böyük qardaşı Mir Cəfərdən, sonra isə Zəngəzur mahalının adlı-sanlı ziyalısı Molla Zülfüqardan almışdır. Erkən yaşlarında atasını və özündən böyük ikinci qardaşını itirən Mir Mehdi ailənin maddi vəziyyəti ilə əlaqədar olaraq 1830-cu ildəFüzuli rayonunun Şıxımlı kəndinə, 1831-ci ildə isə Gəncəyə köçüb orada pedaqoji fəaliyyətlə məşğul olmuş və rus dilini də öyrənmişdir. Yenidən Şıxımlıya qayıdan Mir Mehdi pedaqoji fəaliyyətini orada davam etdirmiş və el arasında pedaqoq kimi böyük nüfuz qazanmışdır. 1859-cu ildə Qarabağın ən böyük kəndlərindən olan Tuğ kəndinin ağsaqqallarının dəvətini qəbul edən Mir Mehdi oraya köçüb rus dilində yeni tipli məktəb açaraq ömrünün axırına kimi orada müəllimlik fəaliyyətini dqavam etdirmimişdr. Şair1893-cü ildə vəfat etmiş və Tuğ kəndində dəfn olunmuşdur.

Mir Mehdi Xəzaninin “Qarabağnamələr” silsiləsindən olan “Kitabi-tarixi-Qarabağ” adlı tarixi əsəri də ona böyük şöhrət gətirmişdir. Şairin 1980-ci illərdə tapılmış cüngündə, eləcə də AMEA ƏYİ-nin arxivində mühafizə olunan müxtəlif əlyazmalardan toplanmış şeirləri 2014-cü ildə nəşr olunaraq ədəbi ictimaiyyətə təqdim edilmişdir (Raqub Kərimov. Mir Mehdi Xəzaninin həyat və yaradıcılığı. Əsərləri. Bakı, 2014). Buradakı şeir nümunələri həmin əsərdən götürülmüşdür.

### Qəzəllər

Mənim bu zar olan könlüm sevib, bir yarə aşiqdir,
Necə pərvaneyi-bidil yanar odlarə aşiqdir.

O zülfündən pərişanəm, ona peyvəstə heyranəm,
Demin təşbihi-Sənanəm o da zünnarə aşiqdir.

Könül varlıq zamanından keçibdir malü canından,
Sənin ol xoş dəhanından çıxan göftarə aşiqdir.

Demin Məcnun olub rüsva, tutubdur daməni-səhra,
Həmişə zikr edər Leyla, qərəz, didarə aşiqdir.

Mən qılmın Züleyxanı, salıb gər Misrə qovğanı,
Sevib ol mahi-Kənanı, ona həmvarə aşiqdir.

Xəzani xəstəvü cahil, sevib bir yari -səngindil
Misali-rövnəqi-bülbül o, gülrüxsarə aşiqdir.

***

Alıbdır şanədən siğəl, düşüb rüxsarə giysulər,
Müşəvvəş eylər əhvalım mənim həmvarə giysulər.

Əcayib hüsnü surətdir, səvadi-kilki-qüdrətdir,
Bu həm bir qeyri sənətdir, ağ üzdə qarə giysulər.

Düşüb üzdən zənəxdanə, yanında xal iki danə
Salıbdır rəxnə imanə, dönüb küffarə giysular.

Şəbi-dəycuri-yeldatək, deməm kim, küfrü tərsatək
Məni Məcnuni-şeydatək qılıb avarə giysulər.

Xəzani könlü sədparə, məgər gəlməzmi ehzarə
Ki, iki nəli rüxsarə qoyubdur narə giysulər.

***

Alıbdır ləlin ətrafın məgər zülfi-dütadır bu?
Edər ya gənci-pünhanı siyanət, əjdahadır bu.

Baxanlar zülfi-pürçinə kim, salır rəxnələr dinə
Deyirlər hansı miskinə görən dami-bəladır bu?

Kuyini məskən eylərsən, könül, rizvanı neylərsən?
Zülfünə çin söylərsən, demə küfrü xətadır bu.

Ləbin təlü gühər kanı, verir əmvatə əhyanı,
Görənlər neylər İsanı, əcəb möcüznümadır bu.

Xəzani, mən əzəl, əzhər mələkdir derdim ol dilbər,
Görənlər imdi söylərlər nüzul etmiş bəladır bu.

***

## Qoşma

Bir şuxi-dildarə aşiq olalı,
Leylü nəhar işim əfğan olubdur.
Gecə-gündüz ağlamaqdan hicrində
Didələrim bəhri-ümman olubdur.

Bu künci-firqətdə halım bilən yox,
Ağlayanda əşki-çeşmim silən yox,
Ol yarın kuyinə gedib-gələn yox,
Taki deyə dərdim tüğyan olubdur.

Keçib şamım, tar olubdur məhfilim,
Pozulub gülzarım, gülməz bülbülüm,
Ol Yusifin fərağında mənzilim
Yəqub təki beytüləhzən olubdur.

Cananım, eşqində keçmişəm candan,
Həm malü mülkdən, həm xanımandan,
Bu şikəstə cismim nari-hicrandan
Yanıb pərvanətək suzan olubdur.

Bir tiri-müjganə aşiqəm, vəli
Eyb olmaz desələr olubdur dəli.

O qaşı hilaldan ayrı düşəli
Əlif təki qəddim kəman olubdur.

Ta görəndən bəri zülfi-reyhanı,
Bağlamışam ona dinü imanı,
İntəha, deyəllər miskin Xəzani
Sevibdir zünnarı, Sənan olubdur.

***

## Gəraylılar

Çox aşiq yetdi canana,
Elə sərgərdan mən oldum.
Hamı kəs oldu xatircəm,
Genə pərişan mən oldum.

Şəmə yetişdi pərvanə,
Bülbül dəxi gülüstanə.
Hanı mənimtək divanə,
Bisərü saman mən oldum.

Məcnun görmüşdü Leylanı,
Vamiq üzari-Əzranı,
Bir dəm cəmali-cananı
Görməyib, nalan mən oldum.

Mən kimi yoxdur avarə,
Zülf ucundan günü qarə,
Ey Xəzani, yalavlarə
Yandıran hicran mən oldum.

***

Mən sənin dərdi-eşqindən
Yetmişəm cana, ey dilbər.
Əlif qəddim fərağından,
Dönüb kəmana, ey dilbər.

Eşqimin yox intəhası,
Xubların olmaz vəfası,
Məni zülfün təmənnası
Edib divanə, ey dilbər.

Xəyalım göftü guyində,
Çəkərəm nalə kuyində.
Dil mürği səri-muyində
Tutub xananə, ey dilbər.

Sən ki, bilibsən əhvalım,
Nə vaxtadək belə qalım?
Munca zülmü hansı zalım
Edər cananə, ey dilbər?

Görgülən miskin Xəzani
Tərk edib eli, obanı.
Eşq odunda yanar canı,
Gəl qoyma yana, ey dilbər.

***

## Bayatılar

Oleydi tayca malın,
Soltanca, bayca malın.
Aya göz necə baxsın,
Görməsə ay camalın.

Aşiqəm gecə mən də,
Dərd məndə, gecə məndə.
Tiflin tək ağlar aşiq
Ləbindən gec əməndə.

Aşiqəm yarə mən də,
Sızıldar yarə məndə.
Ölər olsam dirilləm
Ləbindən, yar, əməndə.

Yanan çıraq piysüzdür,
Rəqib, üzün pis yüzdür.
Aşiq der bu fənada
Yaxşı birdir, pis yüzdür.

Mən aşiq qar qalandı,
Qar yağdı, qar qalandı,
Qarğalar laçın oldu.
Laçınlar qarğalandı.

Bostan əkdim xiyarsız,
Gəlib dərmədim yarsız.
Yatdım yuxuda gördüm,
Oyandım ixtiyarsız.

## Müxəmməslər

Zikr-fikrimdir, əzizim, hər zaman adın sənin,
Cümlədən artıq məlahət içrə irşadın sənin,
Gördü sərv, oldu xəcl, ol qəddi-şümşadın sənin,
Aləmi heyran edib hüsnü-xudadadın sənin,
Əzbərimdir, müxtəsər, leylü nəhar adın sənin.

Ta qədəm basmış könül bəzmi-vücuda, ey nigar,
Yox görüb aləm ara bir sən kimi vala təbar,
Arizuyi-vəslə daim qılır ah ilə zar,
Göz tikib dərgahına xatir qəmin, can intizar,
Lütf qıl axər nə olmuş cövr mötadın sənin.

Ey qəddi sərv, ruxi gül, zülfü ənbər nazənin,
Simtənü nazik bədən, xurşidruyü məhcəbin,
Yoxdurur xubani-aləmdə sənin tək behtərin,
Barəkallah, ol münəvvər, mərhaba, səd afərin
Kim, çəkib ruzi-əzəldən kilki-icadın sənin.

Ey xətin sünbülü reyhan, rüxün şəmsü qəmər,
Dişlərin dürrü gövhər, ləli-ləbin şəhdü şəkər,
Bağrımı dəlmiş müjən, ləlin qılıb xuni-cigər,
Həm edər qəmzən cəfa onlardan artıq, müxtəsər,
Öldürür bir gün məni ol çeşmi-cəlladın sənin.

Hurivəşlər içrə, cana, vacibül-əkramsan,
Həm çirağі-rövşani-bəzmi-xasü amsan,
Şux güləndamü həm ərbabi-niknamsan,
Ey Xəzani, beylə kim, məsti-meyi-gülfamsan,
Eşqdən təlim edibdir dərs ustadın sənin.

### Dünyanı məzəmmət haqqında

Ey dil, xiyal eylə ki, yaxşı-yaman hanı?
Sal bir nəzər cahanə, gör əhli-cahan hanı?
Yarü rəfiq getdi hamı, bir qalan hanı?
Bunda həmişə rəxti-iqamət salan hanı?
Bax gör əcəl yetəndə canın qurtaran hanı?

Gəlmiş cahanə gör necə sahibcəmallar,
Siminüzarü gülruxü hurimisallar,
Hanı o xoş məqal, o əhli-kamallar,
Vardır könüldə gərçi qəmi-mülkü mallar,
Çoxdur xəyalın, ölümdən aman hanı?

Əvvəl bu fani mənzilə Adəm gəlib-gedib,
Çox ənbiya, rəsuli-mükərrəm gəlib-gedib,

Şahani-ruzigar dəmadəm gəlib-gedib,
Bizdən səvayı gör neçə aləm gəlib-gedib,
Amma ki, çoxdu şüğl itirib-axtaran hanı?

Söylə bu çərxə: - Adəmü Həvvanı neylədin?
Nuhu, Xəlilü Musavü İsanı neylədin?
Yəqubi-zarı, Yusifi-Kənanı neylədin?
Ey bivəfa, əsasi-Süleymanı neylədin?
Ol şövkətü cəlalü büsati-rəvan hanı?

Söylə, nə oldu hadisi-Cəmşidü Keyqubad?
Zöhhakü Ərdəşir, Firiduni-əhli-dad?
Cənnət binası qoydu o Şəddadi-bədnihad,
Axırda namurad gedib, bulmadı murad.
Bir namdır, qalıbdır olardan nişan hanı?

Çox pəhləvan cahanda urub küsü təbili-cəng,
Bəhramü Qəhrəmanü Gərşasibi-nəhəng,
Gudərzi Givü Zal, Fəramərz, həm Pişəng,
Rüstəm ki, tab etməz ona bəbrü həm pələng,
Ol şiri-namdır Cahan pəhləvan hanı?

***

## Müstəzad

Bir badə ilə rəf elə bu dərdi-nihanı,
Ey saqi, rəvanı!
Məhv eylə könüldən qəmü asibi-cəhanı,
Övzai-zəmanı.
Müddətdi ki, bu bəzmi-fəna rəşki-rüxündən
Əfsürdə olubdur.
Billah, meyi-gülgunilə doldur piyalani,
Məsrur elə canı.

Mütrüb, dəxi durmaq nə rəvadır belə, sən də,
Dur çapükü çalak.
Bir nəğmeyi-rəngin elə saz ilə nəvanı,
Rəşk eylə səmanı.
Yaran, nə edim, qalmışam aşüftə vü müztər,
Tədbiridə aciz.
Sevmiş genə dil bir büti-xurşidliqanı,
Bir tazə cəvanı.
Bu bağı-cəhan içrə dönüb fəsli-xəzanə,
Gülzari-şəriət.
Bilməm nə olub bülbülə, yox şurü fəğanı,
Bəs naləsi hanı?
Hərçənd ki, taətdə varam mən dili-məhzun
Qayətdə müqəssir.
Layiqdi mənə gər verəsən zəcrü cəzanı,
Ya lütfü ətanı.
Allahı sevər, ey məhru, şux nigarım,
Ey mədəni-əltaf!
Az eylə bu firqətdə mənə cövrü cəfanı,
Bu rəncü bəlanı.
Bimar tənim hicrin ilə canə yetişmiş,
Yox səbrü qərarı.
Vəslinlə, təbiba, mənə lütf eylə şəfanı,
Ey əhli-məani.
Daim bunu istər bulaşa xakü qübarə
Ol səhni-dərdində.
Qorxum budu bu həsrət ilə tapşıra canı,
Biçarə Xəzani.
***

# ŞƏHİD QARABAĞİ

Mirzə Əbülhəsən Kərbəlayi Kazım oğlu Şəhid Qarabağı təqribən 1815-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Gənclik illərində sənətkar kimi fəaliyyət göstərən Əbülhəsən sonralar təhsilini davam etdirərək müəyyən nailiyyətlər əldə edib, əvvəlcə Cavanşir mahalının qazisi, sonra isə Gəncənin şəriət məclisinin üzvü olur. Şairlik istedadı olan Əbülhəsən şeirlərini "Şəhid" təxəllüsü ilə yazmışdır. O, 1880-ci ildə vəfat etmişdir. Aşağıdakı şeir örnəkləri Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab", Müctəhidzadənin "Riyazül-aşiqin" əsərindən və AMEA ƏYİ-nin arxivində saxlanan B-2681/4306 şifrli cüngdən götürülmüşdür.

## Qəzəllər

Çox təşnəyəm ol qaməti-rənayə, yavaş get,
Min  həsrətəm ol hüsni-dilarayə, yavaş get.

Qıldın məni-biçarəni aşüfteyi-zülfün,
Saldın bir uzun şur ilə qovğayə, yavaş get.

Ey badi-səba, türreyi-yarə güzər etsən,
Bir tul sözüm var dili-şeydayə, yavaş get.

Ahulara mənus qılıb nərgisi-məstin,
Salmış məni Məcnun kimi səhrayə, yavaş get.

Dur, bir baxım ol qəmzeyi-cəlladə, verim can,
Axir yetişəm bircə təmənnayə, yavaş get.

Əbruyi-xəmin tiğ çəkib qətli-Şəhidə,
Saldın dili-aşüftəni qövqayə, yavaş get.

***

Hücumi-əşk edər hərdəm ciyərdən parələr peyda,
Ki, tarac olsa gülşəni-cuybar eylər əsər peyda.

Könül bu çaki-sinəmdən üzün görkəc fəqan eylər
Ki, gül görkəc olur mürği-qəfəsdən nalələr peyda.

Sınıq könlümü dərhəm eyləmə, ey səngdil, vəhm et,
Vuran dəm bir-birə eylər sınıq şişə şərər peyda.

Qəmi-zülfündə miskin könlümə etməzmi asayiş,
Şəbi-qəm içrə bimarə məgər olmaz səhər peyda?

Könül eylər nəzarə məh üzündə həlqeyi-zülfə,
Həzər qılmazmı ki, Əqrəbdə olmuşdur qəmər peyda?

Vüfuri-giryədən hicranara həmçeşmi-Yəqubəm,
Məgər ol Yusifi-sanidən olmaz bir xəbər peyda?

Yenə girmiş Şəhidi-eşq Harut ilə Mizanə,
Edər çahi-zənəxdan içrə səhər ayini-hünər peyda.

***

Va həsrəta ki, tərki-vəfa qıldı yarlər,
Əfqan ki, keçdi həsrət ilə ruzgarlər.

Dərda ki, yarsız qəmi-hicr aldı canımı,
Qaldı könüldə məhşərə çox intizarlər.

Ərbabi-eşqdən sora aləmdə kaş kim,
Meyli-rəqib qılmayalar gülüzarlər.

Tarac olaydı qönçəvü gül ol zamanda kim,
Bülbül xəmüş olub alə gülzarı xarlər.

Sevdayi-zülfü xəttini başdan çıxartmazam,
Gər başim içrə məskən edə murü marlər.

Dərda ki, gül eşitmədi bülbül nəvalərin,
Yetdi xəzanə gülşəni, soldu baharlər.

Ömrü əziz saxla, Şəhid, olsa bəxt yar,
Əyyami-vəslə lazım olur çox nisarlər.

Əfqan, Şəhid, naləni canan eşitmədi,
Tutdu cahanı eylədiyin ahü zarlər.

***

Xoşam dövri-ləbində gər həmişə zardır könlüm
Ki, camü badə təzvici olan bimardır könlüm.

Könül mülkün edib yəğma zülfün, qarət xətin,
Elə viranə kim, mavayi-murü mardır könlüm.

Uzun olduqca şəb bimarlər rənci olur əfzun,
Onuncun ol xəmi-gisudə daim zardır könlüm.

Saqın, ey rahəti-can, getmə könlümdən şəbi-hicran
Ki, bir tüğyan edən dəryayi-atəşbardır könlüm.

Xumari-nərgisi-məstin təmənnasın salıb başə,
Uyub ahulərə peyvəstə Məcnunvardır könlüm.

Könüllə məcməi- zülfə güzər qılsan, səni Tarı,
Səba, qılma pərişan kim, mənim həm vardır könlüm,

Xəmi-zülfün xəyalıdır ki, çıxmaz heç könlümdən,
Ayini-viranələrtək xaneyi-şəhmardır könlüm.

Şəhida, gərçi vardır gövhəri-nəzmi-dilavizim,
Zərü simim ki, yox, əmsal içində xardır könlüm.

***

## Müstəzad

Urma dəxi ol zülfi-pərişaninə şanə,
Salma məni qanə.
Sərhəlqeyi-zənciri mənə eyləmə xanə,
Qəsd etmə bu canə.
Qoyma çıxa rüxsarinə ol zülfi-siyahi,
Ta tutmaya mahi
Kim, ay tutulan dəm düşər aşub cəhanə,
Ey dürri-yeganə.
Qaşınla edər bəxti-fələk mahi-növ ilə,
Bir qissədi rövşən.
Bəhsi-kəc ilə qəddimi döndərdi kəmanə,
Ol piri-zəmanə.
Ətrafi-cəbinində ikən həlqeyi-kakil,
Düşdüm işə qafil.
Ol gün ki, qəmər etmiş idi Əqrəbi xanə,
Düşdüm bu qiranə.
Mehrabi-qaşın səcdəsi olmuş mənə adət,
Xoşdur bu ibadət.
Məqsud qaşın səcdəsi, mehrab bəhanə,
Gər meyl edəm anə.
Səhni-çəmənə bir güzər et, eylə nəzarə,
Ol zadeyi-xarə.
Gör bülbüli-miskini salıbdır nə fəqanə,
Söylər nə təranə.
Ol qəmzeyi-xunriz Şəhidinə nə hacət
Asayişü rahət.
Yəğmagəri-hindu oxuna olsa nişanə,
Xoşdur dilü canə.

***

## Hekayət

Dəyirmançı bir qoca
Minmiş idi eşşəyə.
Oğlu da arxasınca
Gedirdilər meşəyə.
Hava isti, yol uzaq,
Lap tərləmişdi uşaq.
Gülüb yoldan keçənlər
Dedilər: bax bunlara-
Bu insafsız bəxtəvər
Özü minmiş ulağa,
Belə isti havada
Oğul gedir piyada.
Harda görülmüş, ata
Özü minsin ulağa,
Belə isti havada
Oğul getsin piyada.
Endi ulaqdan qoca,
Oğul mindi eşşəyə.
Atası arxasınca
Üz qoydular meşəyə.
İstiləşirdi hava,
Yorğalayırdı qoca.
Güldü yoldan keçənlər:
-Bax insafsız oğlana,
Qoca kişi tökür tər,
Özü minmiş heyvana.
Belə isti havada
Qoca gedir piyada.
Qoca dedi oğluna:
Rahatlıq ver heyvana.
Oğlan endi eşşəkdən.
Ata-oğul yan-yana

Elə isti havada
Gedirdilər piyada.
Güldü yoldan keçənlər:
-Baxın qoca axmağa.
Oğlu, özü tökür tər,
Minməyirlər ulağa,
Belə isti havada
Sürünürlər piyada.
Qoca mindi eşşəyə,
Dönüb dedi oğluna:
-Tez ol çataq meşəyə
Gəl, sən də min heyvana.
Atıldı mindi oğlan,
Yorğalayırdı heyvan.
Güldü yoldan keçənlər:
Yollar bütün dağ-dərə,
Heyvan batıb qan-tərə.
Baxın iki axmağa,
Minib yazıq ulağa.
Hava isti, yük ağır,
Bax, heyvandan tər yağır.
Qocaq dedi oğluna:
Diqqət verməyək buna,
Hər deyilən düz olmaz
Yol söhbət-sözsüz olmaz.

***

## MƏŞƏDİ ƏLİMƏDƏD QAZİ OĞLU QURTLAR

Məşədi Əlimədəd təqribən 1818-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Sabit bir peşə sahibi olmayan Məşədi Əlimədəd cavanlığında yasavulluq etmiş, şadlıq məclislərində tənbur çalmaq, bədahətən şeir, meyxana deməklə güzəranını keçirmiş, ömrünün axırlarında isə dərviş olub küçə və bazarlarda öz şeirlərini oxuyarmış. Şeirlərini "Mədəd" imzası ilə yazmışdır. O, təqribən 1878-ci ildə Şuşada vəfat etmişdir.

Buradakı şeir nümunələri Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" əsərindən götürülmüşdür.

### Qoşmalar

Yenə ziyafətdir xublar evində,
Mahvəşlər bir yığnağa düşübdür.
Eyham edər, bir-birinə naz edər,
Qaş-gözləri oynamağa düşübdür.

Şirinlər söhbəti, hekayətləri,
Var işvəsi, nazü nəzakətləri,
Vacibdir Kəbətək ziyarətləri,
Əlim yetmir, min iraqə düşübdür.

Əlvan olub gül hənadən əlləri,
Qucmalıdır gərdənləri, belləri,
Sona çığasıtək sərdən telləri
Əfşan olub, gül yanağə düşübdür.

Gözəllərin padşahı, sərvəri,
Fələyin istəkli mahi-ənvəri,
Mədəd sevib bir Leylivəş dilbəri,
Məcnunsifət dağdan dağə düşübdür.

Vəsfin edim boyun qonaqlarının,
Ağ gül kimi bədən, buxaqlarının,
Həsrətindən şəkər dodaqlarının
Lalə dağə, qönçə bağə düşübdür.

***

Sevgili sultanım, istəkli xanım,
Yadlarınan aşinalıq eyləmə.
Dön başına könül sevən aşiqin,
Hər nakəsə ilticalıq eyləmə.

Qoynun içi qızıl gülün çəməni,
Dodaqların ləl, mərcani-Yəməni,
Aşiqinəm, hər dəm yada sal məni,
Vəfalı yar, bivəfalıq eyləmə.

Nə müddətdir həsrətini çəkərəm,
Gözlərimdən qanlı yaşlar tökərəm,
Vəfalı qulunam, sənə nökərəm,
Padşahım, gəl gədalıq eyləmə.

Hüsnün düşüb Dağıstanə, Dərbəndə,
Dodaqların bənzər nabata, qəndə.
Bir busə lütf eylə mən dərdiməndə,
Ağrın alım, nakəsalıq eyləmə.

***

## Müxəmməslər

Nə xoşdur bir güləndamın başın almaq qucaq üstə,
Müsəlsəl zülfünə etmək tamaşa gül yanaq üstə,
Etmək şirin təkəllüm hər dəm, bir xoş səyaq üstə,
Öpüb məstanə çeşmindən, qoymaq dodaq dodaq üstə,
Verər çox nəşə damağə qoşa gəzmək ayaq üstə.

Götürüb tellərin hər dəm ruyindən kənar etmək,
Heyrət gözüylə baxıb, camalına güzar etmək,
İçirdib badeyi-gülgun, qılıb məstü xumar etmək,
Açılsa sinədən bəndi necə olur namus, ar etmək,
Görüncə iki şamamə yetişmiş tazə tağ üstə.

Edib yüz nazilə əfşan, açıb geysulərin ölçmək,
Gəhi işvə, gəhi qəmzə, gəhi vəqt oynayıb gülmək,
Gəhi öpmək, gəhi qucmaq, gəhi dəm oynayıb gülmək,
Durub min şövqilə baği-vüsalından gülün dərmək,
Üz üz üstə, qolu boynunda ola yatmaq damağ üstə.

Girib səhni-gülüstanə dolanmaq nazilən bağı,
Tutub nazik əlin gəzmək gəhi solu, gəhi sağı,
Görəndə ağlaya yüz qan ləbində qönçə yaprağı,
Urubdur bənzi-zəncirə siyəh xal əhli-üşşaqı,
Qurib dəstə, çəkib ləşkər getmək şəhri-Əraq üstə.

Çəkib bir künci-pünhanə, edəsən eyş ilə işrət,
Yanınca mütribi-xoşhal edə şamü səhər söhbət,
Sevəsən bir gülüzarı, görəsən dünyada ləzzət,
Mədədi öldürür, yaran, belə dərdü belə möhnət,
Görübdür bivəfa gülün bu gün bu xarı zağ üstə.

***

Mail oldum yenə bir mahcəbin tərsayə,
Bədəni bərgi-səmənü simvəşi-rənayə,
Ləbləri rəxnə salıb tazə güli-həmrayə,
Uğradım Qeys kimi bir betərin sövdayə,
Etdi Məcnunsifət, saldı məni səhrayə.

Gəlməyib ruyi-zəminə belə bir şux ziba,
Üzünün şəşəəsindən götürib nur ziya,
Yazılıb səfheyi-ruxsarına “lahövlə vəla”,

Görsə gər bu şəkili alimü şeyxü üləma,
Əl çəkib ali-əbadən, yapışar İsayə.

Gəlməyib ruyi-zəminə belə ziba, mütləq,
Baxıban qəmzələrinə çəkib ustadi-sədəq,
Görməmiş ləli-ləbin, açmadı gül al vərəq,
Gör nə təsvir çəkib kilki-qəza, qüdrəti-həq,
Göstərib mehri-ruxun, saldı şəfəq dünyayə,

Görməyib çeşmi-zəmanə belə şirin hərəkat,[i]
Lalərəng, fitnə firəng, dilbəri-pakizəsifat,
Mədədəm, Xızrsifət, yoxdu mənə rahi-nicat,
Saldı ümmanə məni, qərq elədi dəryayə.

***

## HƏSƏN LƏLƏ

Həsən Lələ Hüseynqulu oğlu təxminən 1820-cı ildə Şuşada anadan olmuşdur. Heç bir təhsil almasa da, bədahətən şeir deməkdə mahir imiş. Güzəranını şadlıq məclislərində dəf çalmaq, bədahətən şeir deməklə keçirirmiş.

Şeir nümunələri "Təzkireyi-Nəvvab"dan götürülmüşdür.

### Mürəbbe

Gözüm genə bir gözləri məstanə düşübdür,
Məst olmağının şöhrəti dəstanə düşübdür.
Zahidlərə bax, məscidü mehrabə üz urmuş,
Mən rindi-xərabəm, mənə meyxanə düşübdür.

Mən aşiq idim, şövqü onun var idi məndə,
Öz aşiqinin gərdənini saldı kəməndə.
Ağ üzdə qara haşimi xalları görəndə,
Sərraf gözüm ləli-Bədəxşanə düşübdür.

Qurbanın olum, saqi, məni salma nəzərdən,
Müşkildi doyam sən kimi rənayi-gözəldən.
Pərvanə oda yanmağı adətdi əzəldən,
Pərvanə canım atəşi-hicranə düşübdür.

Vəh-vəh, nə əcəb zib veribdir bədəninə,
Əsla belə şux gəlməyibdir ruyi-zəminə.
Olmaz belə qamət, belə gərdən, belə sinə,
Guya ki, mələk rövzeyi-rizvanə düşübdür.

***

## Qəzəl

Könül bu Şişə şəhrində belə müəzzəm ağa sevmiş,
Bu dərdli sinəyə, billah, dəva sevmiş, şəfa sevmiş.

Dütübdür aləmi sadən,[1]məni məst eyləyib badən,
Nə hasil beylə sevdadən, şəhənşahi gəda sevmiş.

Səlam olsun cəmalinə, cəmali-ba kəmalinə.
Xoşa ol kimsə halinə, Əliyyəl-Mürtəza sevmiş.

Gətir biqəş olan badə, dutum qüvvət mən üftadə
Nə dərdi var bu dünyadə,Məhəmməd Mustafa sevmiş.

Mənim zənnimdən əlasən, əcəb Nəvvabi-valasən.
Qamu əşxasə övlasən, Həsən miri-hüda sevmiş.

***

[1] Sədan.

## MİRZƏ İSMAYIL MƏHZUN

Molla İsmayıl Məşədi Qasım oğlu Məhzun təqribən 1820-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Mədrəsə təhsili almış, gəncliyində sərraclıq və əttarlıqla məşğul olmuş, sonra isə mollalıq etmişdir. Ömrünün axırına kimi həm də müdərrisliklə məşğul olaraq mədrəsələrdə dərs demişdir. Bununla yanaşı o el arasında şair kimi də tanınmışdır. İsmayıl şeirlərini "Məhzun" təxəllüsü ilə yazmışdır. Bu şeirlərin bir qismi avtoqraf nüsxə ilə "Təzkireyi-Nəvvab"da gəlib bizə çatmışdır.

Nümunə üçün verilmiş şeir örnəkləri "Təzkireyi-Nəvvab" və "Riyazül-aşiqin" əsərlərindən götürülmüşdür.

### Qəzəllər

Sərgəştəlikdə zülfi-pərişanə yetmişəm,
Zülfün havası ilə, pəri, şana yetmişəm.

Biqürb bir əsiri-muhəqqər gəda ikən,
Qurbi-dərində şani-Süleymana yetmişəm.

Təvafi-dərin səfasını sə'y ilə tapmışam,
Guya hərimi-Kə'beyi-ürfana yetmişəm.

Zülmati-küfri-zülfdə görcək camalını,
Kuffar içində küfrdən imana yetmişəm.

Gülzarı-hüsnün üzrə o gül arizin görüb,
Rövşən dil ilə rövzeyi-rizvana yetmişəm.

Dürdür dişin, sədəf dəhənin, lə'l ləblərin,
Gövhər havası ilə gəzib, kana yetmişəm.

Şəhdi- ləbin çəkidəsinə rah bulmuşam.
Ma’i-müini-çeşmeyi-heyvana yetmişəm.

Beytül-hüzəndə məskən edən, dərdü qəm çəkən,
Yə’qubvar Yusifi-Kən’ana yetmişəm.

Şamü səhər ki, mo’təkifəm kuyi-yardə,
Xüldi- bərinü hurivü qılmana yetmişəm.

Tə’ni-rəqib, cövri-fələk, möhnəti-fəraq
Taq eyləyibdi taqətimi, cana yetmişəm.

Məhzunü xar sanma məni künci-fəraqdə,
Eyşü nişatü gənci-firavana yetmişəm.

***

Uzun illər keçər ömrüm səri-zülfün xəyalilə,
Olur sərgəştə daim dil həvayi-xəttü xal ilə.

Şəbi-hicran yanar canım, çıxar əflakə əfğanım,
Tökər qan çeşmi-giryanım təmənnayi-vüsal ilə.

Qaşın taqi hilalasa, üzün mahi-münəvvərdir,
Təəccübdür məhi-taban ola peyda hilal ilə.

Zəhi səhhardır çeşmin, üzari-al ilə hər dəm,
Firib ilə edər yəğma, vəli imanı al ilə.

Məgər ol xublar şahı çıxıb əzmi-şikar ilə,
Hərasından könül mürği qalıb aşüftəhal ilə?

Çəkib əl taği-əbrudən, gəzər mehrabı zahidlər,
Təmənnayi-behişt eylər belə cürmü vəbal ilə.

Vüsalın iştiyaqında pərişanhalü Məhzunəm,
Nə xabü xur, nə aramım, keçər halım bu hal ilə.

***

Yenə fəsli-bahar olmuş məgər badi-bahar oynar?
Dəyər hər ləhzə gül üzdə pərişan zülfə, tar oynar.

Töküb simin üzar uzrə xəməndərxəm siyəh zülfü,
Sanasan piçü tabilə gəzər gənc üstə mar oynar.

Səhər ki, sürməsa gözlər nigahı-şuxilə bənzər,
Çıxıb gülzarı-Çin üzrə bir ahuyi-tatar oynar.

Üzündə xali-mişkini tutubdur kişvəri-hüsnü,
Səriri-hüsndə daim olubdur şəhriyar, oynar.

Behiştü hur vəslindən səfavü zövqü əfzəldir,
O dəm ki, yar yar ilə edib busi-kənar, oynar.

Həmişə əhli-hal ilə fələk dövrü müxalifdir,
Çəkər rəncü təəb bülbül, gülün dövründə xar oynar.

Görüm şad olmasın, ya rəb, rəqibi-bədsiyər daim,
Görə uşşaqlar halın, gülər, leylü nahar, oynar.

Əya, Məhzuni-dilxəstə, nədir güftari-sərbəstə,
Yarın qoynunda limudur və ya sibü ənar oynar?

***

Nə xoşdur söhbəti yarın bahar əyyamı bağ ilə,
Nə çarə kim, ələ gəlməz əgər gəzsən çirağ ilə.

Müsəffa cami-gülguni tuta sərgərm, məstanə,
Lətafətlə edə peyman, tuta dəstim əyağ ilə.

Könül murği olub pünhan siyəh zülfün arasında,
Bəsi müşkil olur peyda onu etmək soraq ilə.

Gəzər sərgəştə, uşaqın tökər gözdən ciyər qanın,
Rəvadırmı rəqib axır gəzə kuyin damağ ilə?

Cəfayi-tə'ni-əğyara neçə tab eyləyim axır,
Dili-Məhzunə hər saət çəkər min dağ, dağ ilə.

***

Nə xoşdur seyri-gülşən, mövsümi-gül növbahar ilə,
Dolanmaq səhni-gülzarı gül üzlü bir nigar ilə.

Gəzib səhni-gülüstanı, tapıb bir gənci-pünhanı,
Ola güftari-pünhani nigari-gülüzar ilə

Qucub nazik belin hər dəm, əmib şəhdi- ləbi-ləlin
Gəhi nazü itab ilə, gəhi busi-kənar ilə.

Nə xoş saətdir ol saət, necə fərxəndə taledir.
Ola əğyardan xali vüsali-yar yar ilə.

Döyüldür sərvi-azadə, məgər kim, nəxli-tubadır,
Ənarü sibü limudən olub məmlöv bar ilə.

Yenə könlüm quşu titrər, qalıb xovfü həras ilə,
Məgər ol xublar şahı çıxıb əzmi-şikar ilə?

Siyəh zülfün arasında gəzər sərgəştə daim dil,
Bulunmaz rahi-asayiş belə tarik-tar ilə.

Tutubdur əbr tək zülfü sərasər mah rüxsarı,
Səni tari, səba, bari onu bir tarümar eylə.

Sirişki-alilə hər dəm çıxar əflakə əfğanı,
Görə biçarə bülbüllər gülü gülşəndə xar ilə.

Səba, səndən sora halım, əgər, yari-dilaramım,
Sölə zarü nizar olmuş həmişə əşkbar ilə.

Dikib göz rəhgüzar üstə, olubdu bəs ki, pabəstə,
Sənə Məhzuni-dilxəstə həmişə can nisar ilə.

***

Dərdi-eşqin rahəti-ruhi-rəvanımdır mənim,
Rahəti-ruhi-rəvanım mehribanımdır mənim.

Çak qılmış köksümü qəmzən xədəngi tazədən,
Qanə dönmüş göz yaşım, köksüm nişanımdır mənim.

Şuri-eşq, naleyi-dil, ahi-əyyami-fəraq,
Bir büsat açmış mənə, eyşi- nihanımdır mənim.

Eşq sevdasından, ey naseh, məni mən eyləmə
Kim, mənafidir bu əql ilə ziyanımdır mənim.

Varisi-Fərhadü Məcnun, Vamiqi-şeyda mənəm,
Eşq səhrası, cünun mülki məkanımdır mənim.

Həsrətindən gülrüxun mən neçə fəryad etməyim,
Bülbüli-şurideəm, qəm gülüstanımdır mənim.

Türreyi-şəbrəngi salmış arizi-gülguninə,
Məh qərini-Əqrəb olmuşdur,qiranımdır mənim.

Bəhri-qəm tüğyan edib, düşdüm bəla girdabına,
Qərq edər axər məni bu bəhr, əyanımdır mənim.

Hüsni-gülzarı ara lal eyliyən bülbülləri,
Bülbüli-nalan mənəm, Məhzun, fəqanımdır mənim.

***

Dəymə, şanə, zülfünə, pozma könül cəm'iyyətin
Kim, füzun eylər pərişanlıq könüllər möhnətin.

Tari-zülfündən könül, əl çəkmə,istərsən nicat,
Çahi-möhnətdən qutarsa, qurtarar "Həblül-mətin".

Eşq həvasın başə saldım, dərdi-hicrin canıma,
Mən xilas oldum, behəmdullah ki, çəkməm zəhmətin.

Ey könül, gəl edəyim şamü səhər eyşü tərəb,
Bəxt yar oldu ki, qeyrin çəkmədik biz minnətin.

Canda şövqi-vəsli-yarım, sərdə şuri-eşqi-yar,
Dildə zövqi-ixtilatı dilbəri-məhtəl'ətin.

Ahi-həsrət çəkmək ilə qanə döndü könlümüz,
Ey gözüm, qan ağla kim, biz bulmadıq bir ləzzətin.

Cövri əfzundur bizə, əğyarə həm kəm iltifat,
Danmaq olmaz dilbərin, əlhəqq ki, həqqi-ne'mətin.

Oldu Məhzun eşqilə divanə Məcnundan füzun,
Şuri-şəhraşub ilə sındırdı Məcnun şöhrətin.

***

# MƏHƏMMƏDƏLİ BƏY MƏXFİ

Məhəmmədəli bəy Məşədi Əsədulla bəy oğlu Vəlizadə Məxfi Qarabağda məşhur olan Bayram xan Baharlının nəticəsi, Mirzə Vəli Vidadinin nəvəsidir. Mirzə Vəli Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin böyük etimad göstərdiyi yaxın silahdaşlarından idi. Mənbələrdə onun adı "Qarabağın düşünən beyinlərindən biri" kimi qeyd olunur. Məxfirin atası Məşədi Əsədulla bəy Vəlizadə Ağdam rayonunun Baharlı kəndində yaşamışdır. Məhəmmədəli bəy 1821-ci ildə Şuşa şəhərində dünyaya gəlmiş və ilk təhsilini də orada yeni tipli məktəbdə almışdır. Fitri istedada malik bu gəncin fars və rus dillərini mükəmməl öyrənə bilməsi onun sonrakı taleyində mühüm rol oynamışdır. Xüsusilə, rus dilini mükəmməl bilməsi sayəsində o, Şuşa, Şamaxı, Tiflis və İrəvan şəhərlərində mühüm dövlət vəzifələrində çalışmışdır. Harada işləməsindən asılı olmayaraq dövrün mütərəqqi ruhlu şəxsləri, xüsusilə Həsən bəy Zərdabi ilə yaxın dostluq əlaqəsində olmuş və onun təsis etdiyi "Əkinçi" qəzetində aktual mövzulu məqalələrlə çıxış etmişdir. Əfsuslar olsun ki, digər müasirləri kimi onun da əsərlərinin əksəriyyəti itib-batmışdır.

Məhəmmədəli bəy "Məclisi-üns"ün fəal üzvlərindən idi. O, 1892-ci ildə Şuşa şəhərində vəfat etmişdir. Şairin qəzəlləri 2001-ci ildə toplanaraq nəşr edilmişdir. (M.Məxfi, Qəzəllər, B-2001, Şuşa nəş., 213 s. (əski əlifbadan ransfoneliterasiya, edərək ön sözlə nəşrə hazırlayan Raqub Kərimovdur). Aşağıdakı şeir örnəkləri həmin kitabdan götürülmüşdür.

***

## Qəzəllər

Hər kəsin ki, can üçün bir mehriban cananı yox,
Öylə bilsin cismi var, amma içində canı yox.

Bir könül kim xalidir aləmdə zövqi-eşqdən,
Bir xərabə mülkə bənzər kim, onun soltanı yox.

Ləblərin bir abi-heyvandır, xəttin zülmət ona,
Böylə zülmət içrə Xızrın çeşmeyi-heyvanı yox.

Hər ay olduqda mudəvvər, var bir nöqsanı, leyk,
Bədrlənmiş aydır ol arizin, nöqsanı yox.

Zülfünə eşq əhli iman verməgin zahid əgər
Küfr söylərsə, nola ol kafərin imanı yox.

Hər qəm olsa dəhrdə derlər ki, bir payanı var.
Gör nə qəmdir dərdi-hicrin kim, onun payanı yox,

Yar cövrü təndə mehman olsa xoşdur könlümə,
Tarü mar olsun o evlər kim anın mehmanı yox.

Hər vüsalın aqibət aləmdə bir hicranı var,
Talibəm mən ol vüsala kim, anın hicranı yox.

Dərdimin tədbirini sordum Fəlatundan, dedi:
-Məxfi, dərdin eşq dərdidir, anın dərmanı yox.

***

Qəza munşiləri ol qamətin şümşad yazmışlar,
İki çeşmin dili-uşşaq üçün cəllad yazmışlar.

Səri-zülfündə könlüm çəkməz əsla xaniman dərdin,
Bəli, divanəni hər qeydidən azad yazmışlar.

Cəfayi-yarı çəkdikcə könül xoşnud olur, zira
Cəfayı-yardan üşşaq könlünü şad yazmışlar.

Salıb deyin dəşt ilə dağa məni bir şuxi- Şirinvəş.
Məni-divanənin adın bu gün Fərhad yazmışlar.

Səri-kuyində, ey gül, naleyi-zarımdan incimə
Ki, qismət bülbüli- zarə həmin fəryad yazmışlar.

Hucumi-ləşgəri-qəmdən demə virandır könül,
Əzəl gündən bu bərbad olmuşu bərbad yazmışlar.

Ənisi-dərdü qəm, Məxfi, vüsalın hiç bulmazmı,
Qəmi-hicrinə bu biçarəni mö'tad yazmışlar.

***

Əcəb məxmurdur məstanə gözlər,
İçibdir qaliba, peymanə, gözlər.

Baxanda hər tərəf, hər yanə gözlər,
Yüz afətlər salır dövranə gözlər.

Dəxi qətlim üçün xəncər nə hacət,
İşarə eyləsin müjganə gözlər.

Dutubdur aləmi seyli-sirişkim,
Dönübdür guya tufanə gözlər.

Genə can almaq istərmi nigarım?
Çıxıb yüz naz ilə cövlanə gözlər.

Əgər qanımı qəmzən tökmüyübdür,
Nədən bəs qərq olubdur qanə gözlər?

Şikayət etməzəm mujganlarından,
Ura min ox əgər bir canə gözlər.

Durub can qəsdində qorxum budur kim,
Bulaşsın qanıma şahanə gözlər.

Tökən qanımı, Məxfi, qəmzələrdir,
Düşüb nahaq yerə böhtanə gözlər.

***

Hansı ahugözlünün çeşmin kimi xumarı var?
Hansı xummarın gözüntək mərdümi-xunxarı var?!

Həlqə-həlqə arizin üzrə tökülmüş hər tərəf,
Hansı gəncin həlqeyi-zülfün kimi şəhmarı var?

Sərvə nə nisbət qəddin, qəddin qiyamətdir sənin,
Hansı sərvin qamətintək şiveyi-rəftarı var?

Tutilər şirinsüxənlikdə yetişməzlər sənə,
Hansı tutinin böylə xoş ləhcəvü göftarı var?

Ləblərin təğrirə gəldikdə tökər qəndü nabat,
Hansı şuxun, ləblərintək lə'li-şəkkərbarı var?

Ayü gün kimdir ola axər, muqabil hüsnünə,
Hansı mahın, arizintək şö'leyi-ənvarı var?

Naleyi-zarımdan aləm təngə gəlmiş sərbəsər,
Hansı bimarın səntək, Məxfi, ahu zarı var?

***

Xəlq olub ruzi-əzəldən böylə məstanə bu göz,
Aşiqin qanın içib, yoxsa ki, peymanə bu göz?

Can verən dəmdə dedim yar yüzün barı görüm,
Çıxdı can həsrət ilə baxmadı cananə bu göz.

Düşübən çöllərə xu tutmuşam ahuyla mən,
Aqibət qıldı məni gör neçə divanə bu göz.

Məstü məxmur olub bəs ki, gəzərdi sərxoş.
Mən bilirdim salacaqdır məni bir qanə bu göz.

Rəsmdir, qan eyləyən kimsənə, eylər pünhan,
Aşiqin qanın içər göz görə, mərdanə bu göz.

Görməsə yar yüzin hər göz açan dəmdə gözüm,
Axıdıb seyli-sirişkim tökər xummarə bu göz.

Qaşları yayı tutub, kiprigi ox, qəmzə xəndəng,
Qətlimə, Məxfi, çəkib ləşgəri-şahanə bu göz.

***

Heyranam səndəki ol nərgisi-şəhlayə, Bikəm,
Valehəm səndəki ol qaməti-rə'naya, Bikəm.

Salacaqdır o iki çeşmi-xumarın bilirəm,
Aqibət gör məni ahu kimi səhraya, Bikəm.

Bi'əti-zülfünü divanə könül qıldı qəbul,
Saldın axər bu qaragünlünü qovqaya, Bikəm.

Yüsifin eşqinə, əlhəqq, o Züleyxa düşdü,
Salmısan aləmi sən yeksərə sevdaya, Bikəm.

Görə gər Qeys belə hüsnü məlahətdə səni,
Ölüncə baxsa əgər canibi-Leylaya, Bikəm.

Nə münasib ki, yüzün bərgi-gülə nisbət edim,
Arizin tə'nə urar hər güli-həmraya, Bikəm.

Səni hər kəs görə divanə olur, sanma gələ,
Sən kimi böylə gözəl bir də bu dünyaya, Bikəm.

Tünd olub keçmə, dönüm başına, gördükdə məni,
Bir nəzər qıl, sən Allah, məni-rüsvaya, Bikəm.

Məxfi aləmdə özün şaha bərabər tutmaz,
Salsa ol sərvqəddin başına bir sayə, Bikəm.

***

Həmişə eyşü işrət bəzminə mö'tad olan könlüm,
Olubdur dərdü qəm tapdağı şimdi, şad olan könlüm.

Nədir bilməm səbəb, yarəb, qəmü dərdə əsir olmuş,
Qəmü möhnətdən aləmdə müdam azad olan könlüm.

Əcəb xu dutmuş indi ol siyah dərdi-hicran ilə.
Cahanda dərdü möhnətdən kənarü yad olan könlüm.

Qəmü möhnət yükün şəb ta səhər, ey çərx, çəkməkdən.
Əgilmiş, yayə dönmüş aqibət, şümşad olan könlüm,

Könül tə'miri uçun qəm sipahın cəm edib şahım,
Ümidim yox, ola abad bu bərbad olan könlüm.

Hücumi-ləşgəri-qəmdən bir imdad eylə, soltanım,
Dağılmış, tarümar olmuş mənim abad olan könlüm.

Dəxi yoxdur sükunü səbr məndə atəşi-qəmdən,
Əridi mumtək, Məxfi, əcəb fulad olan könlüm.

***

Urma ol həlqeyi-gisuna, Pəri, şanə bu gün
Ki, salır könlümü ol şanə pərişanə bu gün.

Bağladım könlümü ol zülfi-pərişanə bu gün,
Düşdü zəncirə əcəb yerdə bu divanə bu gün.

Qorxuram dəstinə almış o pəri şanə bu gün,
Salacaqdır dili-biçarəni bir qanə bu gün.

Arizindən götür ol zülfünü bir yanə bu gün,
Görə ta zahidi-kafər, gələ imanə bu gün.

Mujəvü qəmzəvü göz qəsd eyləyib canə bu gün.
Canıma minnətdir əgər oxlana mərdanə bu gün.

Eylədi ləşgəri-qəm könlümü viranə bu gün,
Deyin, imdad eləsin, ol şəhi-xubana, bu gün.

Mən kimi cür'əti varmı yana pərvanə bu gün,
Yanıram atəşi-hicranına pərvanə bu gün.

Tökmə rüxsarına zülfü, çək anı yanə bu gün,
Qorxuram kim, olar odlara düşüb yanə bu gün.

Söylədi, Məxfi, mənə mürşidi-meyxanə bu gün,
Fürsəti fövt eyləmə, iç neçə peymanə bu gün.

***

## KƏRBƏLAYİ QULU YUSİF

Kərbəlayi Qulu təxminin 1822-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Əsas məşğuliyyəti dülgərlik olan Kərbəlayi Qulu müasirləri arasında şair kimi də məşhur idi. Onun xüsusilə həcv deməkdə böyük məharəti var idi. Şeirlərini "Yüsifi" və"Xarrat Qulu" təxəllüsləti ilə yazırdı. Şair 1882-ci ildə vəfat etmişdir. Aşağıdakı şeir örnəkləri "Təzkireyi-Nəvvab","Riyazül-aşiqin" və "Poetik məclislər" kitabından götürülmüşdür.

### Qəzəl

Hər nakəsə veribdi xuda pul ağını,
Ancaq rəva görübdü mənə qəm qalağını.

Atlar təvilə içrə qalıb ac, arpasız,
Bu sirri bilməzəm, nə çox istər ulağını?

Hər kəs dəvabdır ələfiyyatı çox görüb,
Çəksin təməh dişini və yumsun dodağını.

Qismət mənə olubdu qəmim, həm də göz yaşım,
Fərman verib bu növ ilə vermək səyaqını.

Hər kəs cahanda mal yığıban xərc qılmasa,
Layiqdi mənzil eyləyə neyran bucağını.

Çünki görüb səlah xudavəndi-zülcəlal.
Heyvani-bizəbanə bu dünya yatağını.

Yorğun edibdi Yusifini kəsbkarlıq.
Hər dəm çəkər bu çərx ona min növ dağını.

***

**Mirzə Mehdi Naciyə**

Çöp uzatmaz arının deşiyinə bir əhməq,
Çünki niştər kimi var nişi onun, niş uranəst.

Təməhi-xələt ilə özünü saldın tələyə,
Bəli, quyruq görə tülkü tələ içrə düşənəst.

Mehdiya, məhdi-təfəkkürdə idi tifli-xəyal,
Oyadıbsan yuxudan, eylə yəqin yatmayanəst.

Dəxi bundan sora tab eyləgilən, kör ki, sənin
Həcvinə rağib olanlar nə qədər əhli-fənəst.

Yusifi, Asivü Növrəs, biri Mahmud, Fəna,
Biri Salar, biri Sadiqi-gürgi-kühənəst.

Dəxi Agahü Qara, Nazimü Məhzun, Şəhid,
Fənni-əşardə hər birisi bir Əhrimənəst.

Katibü Aşiqü Məxfiyyü Həkimü Müznib,
Azərü Sabitü Hicriyyü Vəfara hünərəst.

Şüəra əllərinə düşdü əcəb dəstaviz,
Etməyincə səni rüsvayi-cahan əl çəkənəst?

Ol xəbərdar yəqin “Beyti-xəmuşan” əhli
Hər biri həcv yazıb qulluğuna göndərənəst.

Şiri-dərrəndələrin saxlamışam zəncirin,
Yoxsa rubah şikar etməyə cümlə gedənəst.

Müntəzirdir şüəra Gəncəara ta görələr,
Bəyü xanzadə nə günə sənə tənbeh edənəst.

## İsgəndər bəy Rüstəmbəyova

Ya İsgəndəri-nüsrət, qərini-nikəncam.
Hezar şükür yetişdi təmamə mahi-siyam.

Fitrə, xümsə tapıb zəf ruzeyi-əyyamı,
Nə əql vardı bəndə, nə huş, nə aram.

Xiyali-qorxu ətfaldan könül məhzun,
Nə əxzi-paki-həlal, nə iktisabi-həram.

Edərdi hali təğyir kəsaləti-qəlyan.
Xiyali-tibxi-sühurü qəm, tədarüki-şam.

Salıbdı rəhni-xəyalatı kəndimi qeydə,
Müqəyyidəm, oları kim nə növilə alam.

Olubdur hər ikisi vəchi-fitrəyə mərhun
Əlavə zərf yoxumdu müyəssər olsa təam.

Olan nüqud zürufi siyamə sərf etdik,
Vəleyk töhi qazqan ilə qalıb bir cam.

Nifayi-Hatifi-qeybi yetib bək-ənbarı:
Qəm etmə, Yusifi, eylər bu fikrinə əncam.

Həmişə dostların şadü düşmənin qəmin
Müdam dildə budur ol Xudadan istidam.

## MİRZƏ HÜSEYN SALAR

Mirzə Hüseyn Məmmədağa oğlu Salar Şuşada anadan olmuş və təhsilini də orada almışdır. Fars, ərəb və rus dillərini mükəmməl bilən Mirzə Hüseyn istedadlı şair və savadlı mirzə kimi müasirləri arasında tanınmışdır.Bu qabiliyyətinə görə ilk ”Qarabağnamə” müəllifi Mirzə Adıgözəl bəy onu əməkdaşlığa cəlb etmişdir. Salar Adıgözəl bəyin diqtə etdiklərini mirzə kimi qələmə almış və sırası gəldikcə təsvir olunan əhvalatları daha oxunaqlı təsvir etmək üçün onlara uyğun olaraq özünə məxsus şeir nümunələri də vermişdir.

Şair haqqında dövrün mənbələri az da olsa məlumat vermişlər. O,“Məclisi-framuşan”ın üzvlərindən olmuş, şeirlərini klassik üslubda “Salar” və “Hüseyn” təxəllüsləri ilə yazmışdşr.

Mirzə Hüseyn 1878-ci ildə Şuşa şəhərində vəba xəstəliyindən vəfat etmişdir. Aşağıdakı şeir nümunələri “Təzkireyi-Nəvvab”, “Riyazül-aşiqin” və AMEA ƏYİ-də saxlanılan mənbələrdən götürülmüşdür.

### Qəzəllər

Ləbin sormağa ağzından, könül, yarın cavab istər,
Əcəb aşuftə qafildir ki, yox yerdən xitab istər.

Əl vurma zülfünə, şanə, dolaşma ol pərişanə,
Belə zəncirəfşanə əsir olmağa tab istər.

Xalın sirrin məni-muztər sorardım, söylədi ləblər,
Bunu təfsir qılsam gər, bu nüktə min kitab istər.

Ümidim vardı ol həmdəm edə zəxmi-dilə mərhəm,
Necə ki, qazidən hər dəm vəkil tez-tez cavab istər.

Hüseynin qanın ol dilbər içib canə salıb əxgər,
Bəli, mey nuş edən kəslər, bu adətdir, kabab istər.

***

Mari-siyahi-zülfün edib xanə könlümü,
Qıldı məhəlli-gənc bu viranə könlümü.

Tiri-bəlayə etdi hədəf aqibət məni,
Ya Rəb ki, seydvəş görüm oxlanə könlümü.

Qəmzən çəkib xədəng, qaşın tir ilə kəman,
Qanlı kimi çəkər hər bir yanə könlümü.

Qoyma ki, şanə dil uzada tari-zülfünə.
Allaha bax, batırmagilən qanə könlümü.

Xalın həvasilə könül qondu zülfünə,
Axır, əsiri-dam elədi danə könlümü.

Hər sübhdəm əsiri-dilxəstə eləyir,
Gahi nəsimi-sübh, gəhi şanə könlümü.

Salarını qoyub qəmi-hicranda mübtəla,
Rəhm eyləməz, edər yenə viranə könlümü.

## Məhəmməd bəy Aşiqə cavab məktubu

Yetişdi, Aşiqa, əşari –mövzunun bu rusvayə,
Humayi-bəxt saldı başıma guya mənim sayə.

Bu nə əyyami-piridir, yenə nə guştigiridir,
Burax bu şüğli, ey piran, mənim tək bari-bürnayə.

Dolaşma şanə tək sən çox o gisuyi-pərişanə,
İlişsə payinə bir tük, gedər başın bu sevdayə.

Bükülmüş qədd ilə ol sərv baş çəkməz kənarından,
Xədəngi-cansitan müşkül girər böylə pozuq yayə.

Gərək dərd əhli dərdin əhli-dərdə eyləsin hali,
Giriftarəm sənin tək mən də bir sərvi-dilarayə.

Bir ay üzlü, qara gözlü, şəkər sözlü, sözü duzlu,
Beli incə, ağzı qönçə, ləbi şəhdi-musəffayə.

Ləbi kövsər, dili şəkkər, üzü gülbərgi-tərdən tər,
Xəti hindu, gözü cadu, salıb yüz şur dünyayə.

Götürsə gün camalından bulud kimi qara zülfün,
Sərasimə Züleyxatək çıxar Yusif təmaşayə.

Dodağilə yanağın küfrdür bənzətmək ol yarın,
Ləbi-ecazi-İsayə, yədi-beyzayi-Musayə.

Qiyam eylər qiyamət qaməti-mövzunu baş çəksə,
Niqab açsa, verər xiclət üzü cənnətdə hurayə.

Nə pəstan, nari-pəstan, bəlkə bənzər qübbeyi-nurə,
Sinayi-sinədə böylə buraxmış ərşi-əlayə.

Belə məhbubi-bihəmtayə can nəqdin nisar eylə,
Qəribə pürbəhayə sərfdir əmri-giranmayə.

Eşitməz naləmi o səngdil şuxə gücim çatmaz,
Qənaət eylərəm mən də sənintək ah ilə vayə,

Məgər məşuqin aşiq qaşların oxşadı, ey aşiq,
Yeni ayə və ya yayə əgər göydən yenə ayə.

Dodağından sorardım ağzının mən var-yox sirrin,
Bu nazik nüktəni sorma, düşər qan,- dedi ortayə.

Mənim vardı yenə vasil vüsala olmaq ümmidim,
Yetərsənmi, səni də bilməzəm axır bu təmənnayə?
***

## Saqqal haqqında

Əkbəra, gürgi-fələk gör mənə nə al elədi,
Ağ toyuq ağzıma verdi, məni çaqqal elədi.

Çənəmə bağladı bir çənkə tükü, hər tükünü
Birin ağ, biri sarı, həm birini çal elədi.

Zülfü xali-siyəh, çahi-zənəxdanı mənə,
Keçi quyruğu, qoyun qığı, siyəhçal elədi.

Birə, bit yığnağı, sirkə yuvası, ...şələsi,
Boynuma bağladı, axır məni hammal elədi.

Nuri-imanə bədəl hikmıti-küfrüm oldu,
Ağarıb, sanma ki, rüsva məni saqqal elədi.

Ağ üzərlik gülünə döndü bu murdar, yetər
Paçasın qaldırıb hər səg ona ənzal elədi.

Bir-iki həftə buraxsam, tökülür altıma,
Bunu day kimi qəza quyruq ilə yal elədi.

Ay, gün sanma şəfəq göydə ki, ahım şərəri
Xirməni noh fələyi odladı, tonqal elədi.

Ah kim, qəflətilə getdi cavanlıq əldən,
Qocalıq əydi əlif qamətimi, dal elədi.

Dişimi tökdü, ağardıb başım, ordum batırıb,
Büzdü dodaqlarımı, ağzımı mazqal elədi.

Rəşə saldı canıma, boynumu incəltdi mənim,
Aləti-məzhəkeyi-firqeyi-ətfal elədi.

Döyül əncüm ki, mənim başıma yağdırmaq üçün
Dolu daşla ətəyin çərxi-bədəfal elədi.

Eyləsəm hər gözələ dərdi-dil izhardır:
Əbləhin ağlına bax, qeysəvanı yal elədi.

...ala-bula,................................çal içinə,
Saqqalın  tarixini xamə bu minval elədi.

***

## Növhə

Bu ruhi-mücəssəm ki, məhi-ənvarə bənzər,
Kimdir ki, camalı ilə peyğəmbərə bənzər?

Asari-şücaətdir əyan nasiyəsindən,
Bu şibli-əsəd şiri-həqi-davərə bənzər,

Çəkmiş iki başlı qılıc ol iki qaşından,
Səffeyndə dəva eləyən Heydərə bənzər.

Nur ayəsinin nüktəvü həm zəmməvü fəthi,
Ol haşimu xalü xəti çun ənbərə bənzər.

Qılman nəçidir ola qulami ki, bu şahə.
Yusif qulağı həlqəli bir çakərə bənzər.

Dəf etmək üçün bədnəzərin afəti-çeşmin,
Xalları sipərdanə, rüxi məcmərə bənzər.

Gül rəngi ətəşdən sararıb, qönçə dodağı
Pəjmürdə, gülabı çəkilən güllərə bənzər.

Gül çöhrəsinin şəşəəsi turi-Sinaya,
Musayi-Kəlimi aparan əxgərə bənzər.

Rəhmət ələmin qaməti-mövzuni ucaltmış
Gör Kərbübəla mərəkəsi məhşərə bənzər.

Yox, yox qədi tuba, üzüdür rövzeyi-rizvan,
Məxtumi-rəhiq ağzı, ləbi-kövsərə bənzər.

Zülfi-siyəhi guşeyi-əbruyi-xəmində,
Heydər qılıcına yapışan şəhpərə bənzər.

Bu nalə ilə növhə edən sübhü məsadə,
Salar, şəkkərtəbi-süxəngöstərə bənzər.

***

# MİRZƏ HƏSƏN QARABAĞİ

Həsən Əli oğlu Yüzbaşov 1824-cü ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini Şuşada alan Həsən hələ gənc yaşlarında dövrü üçün vacib hesab edilən ərəb-fars dillərini öyrənmiş, klassik poeziyanın qayda-qanunlarına mükəmməl şəkildə bələd olmuşdur. Gəncliyində xırda alverlə məşğul olan Mirzə Həsənin həyatı o qədər də fərəhli keçməmişdir. Yaşadığı maddi sıxıntıya baxmayaraq o, ruhən zəngin bir şəxs olmuş, müasirləri arasında böyük ədəbiyyat həvəskarı, gözəl məsnəvi ustası kimi tanınmışdır. Yaradıcılığının aparıcı xəttini məhəbbət lirikası təşkil etsə də, onda Zakiranə satirik üslub, dövrün ictimai mənzərəsinə öz prizmasından baxmaq məharəti güclü olmuşdur. Bu xüsusiyyətlərinə görə o, "Məclisi-üns"ün mötəbər üzvlərindən biri kimi tanınmışdır.

Mirzə Həsən Yüzbaşov 1904-cü ilin fevralında 80 yaşında vətəni Şuşada vəfat etmiş və orada dəfn olunmuşdur.

Şairin "Divan"ı əsasında onun "Seçilmiş əsərləri" 1973-cü və 2000-ci illərdə iki dəfə nəşr edilmişdir (Tərtib edəni və nəşrə hazırlayanı Nəsrəddin Qarayevdir). Burada verilən şeir nümunələri həmin əsərdən seçilmişdir.

## Qəzəllər

Gözlərin mayil olubdur yenə xunxarlığa,
Bəli, sərxoş olu amadə sitəmkarlığa.

Küfri-zülfün dinü imanıma çox şaiq olub,
Bilirəm ki, salacaq rəxnə bu dindarlığa.

Yoxdu hicranına könlümdə dəxi tabü təvan,
Hə belə talib olubsan bu dilazarlığa?

Qamətinlə nə rəva sərv bərabər ola kim,
Xeyli müşküldü o gəlsin belə rəftarlığa.

Gül, cəmalınla əgər bəhs gəlibsə, nə əcəb,
O səbəb salmış özün gülşən ara xarlığa.

Etməzəm şikvə gözündən nə qədər qılsa cəfa,
Məst olan mail olar çünki cəfakarlığa.

Fələyin mahın edib mehri-rüxün sərgəştə,
Gah verir nur ona, gah salır tarlığa.

Olma divanə, o zülfi-xəmə meyl etmə, Həsən,
Əqlin olsun, özünü salma o şahmarlığa.

***

Könül, çox qılma nalə, etmə fəryad,
Fələyin gərdişindən eyləmə dad.

Nişatı qüssədir, eyşi mərarət,
Olubdur zülm ilə bu deyr bünyad.

Sevər qəm könlümü, könlüm bəlanı,
Bəlavü qəmdən olmazam bir dəm azad.

Bəli, bir ləhzə Şirin etmədi kam,
Dağıtdı gərci dağlar zari-Fərhad.

Əzəl məşşatəsi tözmüş cəmalın,
Əyandır arizindən süni-ustad.

Nə mümkündür gözündən can qurtarmaq,
O türki-məstdir, qəmzəndi cəllad.

Necə dad etməsin müjgan oxundan,
Könül bir parça qan, onlardı fulad,

Fənadır axiri, yoxdur bəqasi,
Bu dünyadan, Həsən, kim oldu dilşad?

***

Kimdir bu mələkzadə, pəriçöhreyi-dilbənd?
Hər ləhzədə min can alı gər qılsa şəkərxənd.

Yüz kərrə dedim: - Səbhəyə meyl eyləmə, zahid,
Qılma özünü rişteyi-dünya ilə pabənd.

Nəxli-dili-möhnətzadənin meyvəsi qəmdir,
Çün dəsti-qəza etmiş onu ah ilə peyvənd.

Meyl etmə, könül, silsileyi-zülfünə yarın,
Zəncirə özün bağlamaz, əlbəttə, xirədmənd.

Sərgəştə gəzər mah fələki-çərxdə daim,
Vəchi budur, olmuş məhi-rüxsarına həsbənd.

Ey şuxi-pəriçöhrə, nə zibadı cəmalın!
Görçək üzünü könlüm olur xürrəmü xürsənd.

Eşqində Həsən xəstədi, yox özgə əlacı,
Ancaq dəhənin şərbəti olmuş ona gülqənd.

***

İtmişdi dili-qəmzədə viranələr içrə,
Səd şükr ki, tapdım onu meyxanələr içrə.

Yarəb, yenə əl silsileyi-zülfə kim urdu,
Aşub düşübdür yenə divanələr içrə?!

Tari-səri-zülfünmüdü kim, şanə üzübdür,
Ya rişteyi-candır dolaşıb şanələr içrə?

Əfsaneyi-Fərhad ilə Qeys oldu fəramuş,
Yazıldı çü halım mənim əfsanələr içrə.

Zahid, səni tarı, məni öz halına qoygil,
Gəzdirmə məni məcidü bütxanələr içrə.

Çoxdandı könül mail olubdur meyi-nabə,
Yar əksi düşüb bəs ki, o peymanələr içrə.

Müddətdi Həsən xəstədi bu gülxəni-qəmdə,
Saqi, noolu çəksən onu məstanələr içrə.

***

Şövqi-mehri-arizin cismim ara candan əziz,
Şövqi-şəhdi-ləlin, ey məh, abi-heyvandan əziz.

Mahi-rüxsarın ziyası mehri-ənvərdən münir,
Xəlqə ağzın qönçəsi gülbərgi-xəndandan əziz.

Yadi-gülzari-rüxün Firdovsi-əladan gözəl,
Gülşəni-ruyin səfası bağı-rizvandan əziz.

Ey nigarım, bir zəman gülzari-küyin-görməyi,
Haq bilir kim, var mənə seyri-gülüstandan əziz.

Cilveyi-rüxsari-alın bərgi-güldən dilpəzir,
Nikhəti-zülfün gülüstan içrə reyhandan əziz.

Nalədən əl çəkməzəm hicrində yarın, ey könül,
Yoxdu bir dərman qəmi-hicranə əfqandan əziz.

Gər Həsən canın verib vəslin dilər, bir vəchi var,
Yadi-vəslin çün ona var, ey gözüm, candan əziz.

***

## Xurşidbanu Natəvana

Ey "Məhfili-üns" afitabı,
Vey mehrü məhəbbətin səhabı.

Vəsfindi səhifeyi-mətalib,
Vəslindi bu məhfilin kitabı.

Arami-dili-fikar sənsən,
Səndəndi bu könlüm iztirabı.

Sən qayib olalı göz evindən,
Göz mərdümü oldu qan hübabı.

Ey məsdəri-fəzlü elmü danış,
Səndəndi kəmal iqtisabı.

Zülfün kimi müstəməndü məhzun,
Ey xəstə könül təvanü tabı.

Sərməsti-meyi-məlal oldum,
Dildən məni saldı qəm şərabı.

Dil mülkünü ləşkəri-qəm aldı,
Qan tutdu bu kişvəri-xərabı.

Yox səbrü qərar canım içrə,
Arami-dilim, dilim xitabı.

Vəslinlə bu bəzmi rövşən eylə,
Ey "Məhfili-üns" afitabi.

***

## Müxəmməs

Dad əlindən sənin, ey kibri-sitəmgər qocalıq,
Yoxdu bir sən kimi bədfelü bədəxtər, qocalıq.
Sənə bənzər hanı bir mürtədü kafər, qocalıq?
Eylədin mərdüm ara sən məni müztər, qocalıq,
Hər qəmü dərdü bəladən mənə bədtər qocalıq,

Yarü yoldaşımı məndən nə ki, var, yad etdin,
Kimə aləmdə,görüm, zərrəcə imdad etdin?
Möhnətü rəncü bəladən kimi azad etdin?
Kimi xoşnud qılıb, sən kimi dilşad etdin?
Kimə bir yaxşılıq etdin, mənə göstər, qocalıq?

Nə qocalıqdı bu bilməm, mənə verməz fürsət?
Qəmü ənduhü bəladən ola canım rahət,
Buna olsun görüm, ey bari-xuda, səd lənət!
O zamandan ki, məni-zar ilə tutmuş ülfət,
Eyləyibdir günümü şamə bərabər qocalıq

Getdi əyyami-cavanlıq, dəxi məqdur olmaz,
Dağılıb xaneyi-dil, bir də o məmur olmaz,
Qocalıq bir kəsə kim, əl tapa, məsrur olmaz,
Bir duru loxmadan özgə mənə mənzur olmaz,
Onu da zəhri-həlahil mənə eylər qocalıq.

Bəli, aləmdə mənim də xətü xalım var idi,
Danışan vəqti əcəb türfə məqalım var idi,
Özümə nisbət olan əqlü kəmalım var idi,
Xəlq ara yaxşı-yaman cahü cəlalım var idi.
….. bu dəbdəbənin içinə yeksər qocalıq.

Bu yaman halətə ol kün ki, tənim oldu düçar,
Olmuşam hər mərəzü möhnətü ənduh ilə yar,
Gəh tənim rəşə tapar, gəh sinəmi ziğ tutar,
Edərəm hər gecə ta sübhə kimi naləvü zar,
Oxudur "həmdi" mənə tərsinə əzbər qocalıq,

Günümü qarə qılıbdır bu günüqarə mənim,
Nə ki, aləmdə mərəz var ona məskəndi tənim,
Bir mərəzxanədi guya bu təni-pürmühənim,
Gəh guruldar qulağım, gah sızıldar bədənim,
Başıma gətdi mənim şurişi-məhşər qocalıq.

Içdiyim bir duru çaydır, yediyim bir duru aş,
Qeyri-mümkündü yemək gər çörəyim olsa lavaş,
Vay o gündən ki, lavaşım da dəxi olmaya yaş,
İşim ol gün olacaqdır öz əyalımla savaş,
Aqibət, təngə gəlir ol günü həmsər, qocalıq.

Qüvveyi-hafizəmi aldı əlimdən nə ki, var,
Gözümün nurun alıb, qıldı onu tirəvü tar,
Sərv tək qamətimi əydi, məni eylədi xar,
Necə zalım ola,var zülmünə bir həddü qərar,
Zülmün eylər mənə hər dəmdə mükərrər qocalıq

Oldular yarü rəfiqim hamısı məndən uzaq,
Danışan vəqti gülür söhbətimə oğul-uşaq.
Yediyim bir duru aşdır , qabı bir köhnə çanaq,
Gər günüm keçsə mənim bir neçə müddət bu səyaq,
Kim mənə rəğbət edib dərdini söylər, qocalıq?

***

## “Oğluma nəsihət”dən bir parça

Ey canı-pədər, əziz fərzənd,
Vey nuri-bəsər, məhi-xirədmənd.
Ey neyyəri-bəxtimin şüası,
Ayineyi-qəlbimin səfası.
İqbalıma vəslətindi bais,
Ənduhimə firqətindi bais.
Sən baği-həyatımın gülüsən,
Gülzari- ümid bülbülüsən.
Sən mayeyi-behcəti-pedərsən,
Sən nəxli-dilimdə xoş səmərsən.
İstərsən əgər olam sərəfraz,
Əflakə səninlə ta edəm naz,
Ənduhü qəmü bəladən azad.
Qıl könlümü şad, eylə xürsənd,
Ver guş mənə, eşitgilən pənd.
Nuş eylə bu pəndi-sudməndi,
Ol cümlə cahanın ərcüməndi.
Pənd ilə olar kişi müəzzəm,
Aləmdə olar əzizü əkrəm.
Fərzanə odur, gözüm, cahanda,
Hər bir sözə guş edən zamanda.
Huş ilə o pəndi nuş etsin,
Sidq ilə onun dalınca getsin.
Xasə, ona validi verə pənd,
Ta öz vələdin edə hünərmənd.
Yad eylə bunu ki, nəfi çoxdur,
Bilmərrə sənə ziyanı yoxdur.
Bu nüktəni eyləmə fəramuş.
Ta izzətə ol cahanda həmduş.
Olsan bu nəsihətə səzavar,
Dövlət sənə daima olar yar.

Əqlissə, gözüm, gözümdəki nur,
Olma özünə cahanda məğrur,
Kibr ilə vücudunu bəzətmə,
Heç bir kəs ilə qürur etmə.
Aqil də olarmı kibrə mail?
Xəlq içrə özün edərmi zail?
Fərzanə olan edərmi nəxvət?
Divanə qılır bu şüğlü sənət.
Üftadəliyi müdam kəsb et,
Üftadələrin yolun tutub get.
Kibr ilə olan edər özün xar,
Ondan uzaq ol, yamandı, zinhar!
Hər kimdə ola qürurü nəxvət,
Peyvəstə çəkər bəlayi-töhmət.
Əhli-hükəma edibdi məlum,
Bu nüktəni hər vərəqdə mərqum:
Hər kimsə ki, oldu kibrə rağib,
Divanəliyə olubdu talib.
Kibr ilə olan olubdu mənkub,
Dünyada özün edibdi məğzub.
Məndən bu nəsihəti sən et guş,
Sal hifzinə, etmə fəramüş.
Bu fərdi həmişə əzbər eylə,
Daim oxuyub mükərrər eylə:
“Kibr eyləmə xəlqə, olma məğrur,
Kibr ilə cahanda olma məşhur”.

***

# HƏSƏN QARA HADİ QARABAĞİ

Həsən bəy Rzaqulu bəy oğlu Hadi 1826-cı ildə Şuşa şəhərində anadan olmuş, ilk təhsilini də orada almışdır. Əsasən ticarətlə məşğul olan Həsən bəy “Hadi”və “Həsən Qara” təxəllüsləri ilə şeir də yazmışdır. İfrat dərəcədə dindar olan şair “Əkinçi” qəzetinin təsisçisi Həsən bəy Zərdabini tənqid etmiş və onun satirik üslubda yazdığı şeirə Seyid Əzim Şirvani həcvlə cavab vermişdir. Daha sonra münasibətləri düzəlmiş, hətta Həsən bəy Zərdabi Hadinin şeirlərini “Əkinçi” qəzetində dərc etmişdir.

Həsən Qara Hadinin yaradıcılığında klassik və satirik üslublarda yazdığı şeirlər əsas yer tutur. “Təzkireyi-Nəvvab”a avtoqraf xətti ilə şeir verən şairlərdən biri də Hadi olmuşdur. O, 1900-cu ildə Şuşa şəhərində vəfat etmişdir.

Burada verilən şeir nümunələri “Təzkireyi-Nəvvab” əsərindən və AMEA ƏYİ-nun arxivində saxlanılan əlyazmalardan götürülmüşdür.

## Qəzəllər

Şəbi-zülmati-zülfündə fəğanü ahü zarım var,
Vüsali-sübhi-ruyin feyzinə çox intizarım var.

Kəsilmiş taqətü tabü təvanım, tarı şahiddir,
Nə yol bullam vüsalə, hicrə nə səbrü qərarım var.

Nigara, məhcəbina, qəddi-sərvin iştiyaqında,
Edən hər ləhzə cari çeşmə çeşmi-əşkbarım var.

Səndə birəhmlik bunca nədəndir, bilməzəm, zalım,
Gətirməzsən xəyala kim, mənim bir dilfikarım var.

Hüzurunda, əzizim, zərrəcən hərçənd qədrim yox,
Vəli qəmlər yanında şaxəsəm, çox etibarım var.

Ləbin zikri füsuntək dəmbədəm virdi-zəbanımdır,
Nə qəm, zülfün kimi hərçənd yüz min şahmarım var.

Sənin əqdi-sürəyyatək cəbinində ərəq mənzum,
Mənim də xab görməz dideyi-əncümşümarım var.

Görüb əhqər məni, çəkmə ayaq möhnətsarayımdan,
Əlimdə nəqdi-can tək xaki-payinçün nisarım var.

Açar müjgan oxu, Hadi, xəyalımdan neçə rövzən.
Xəyali görməyə vəh-vəh, nə bəxti-huşiyarım var!

***

Bəli, təsvirim ol gün kim, fələk nəqqaşı çəkmişlər,
Bəlavü möhnətü dərdü qəmin yoldaşı çəkmişlər.

Nə divanxanədir hüsnün kim, ol dari-hükumətdə,
Gözü hökm eyləyən hakim, müjə fərraşə çəkmişlər.

Çəkəndə qəmzənin nəqşin qəza surətgəri, billah,
Təmamən məkrü təzvirü fününun başı çəkmişlər.

Yazanda qətli-üşşaqa rəqəm divani-fitrətdən,
Mənim fərmani-qətlimdə qilıc tək qaşı çəkmişlər.

Yüzün çünki hərami məskənidir dilrübalıqda,
Budur vəchi, ona həmdəm neçə övbaşı çəkmişlər.

Gözü qaş, müjə, qəmzə, o xalü xət məazallah!
Olub həmsirr bir yerdə, onun sirdaşı çəkmişlər.

Rəqibi çəkdilər ustadi-bəzmi-vəsl üçün məhrəm,
Məni hər bir qəmə ustad, vəslə naşı çəkmişlər.

Olanda qisməti-Fərhad kuyi-Kəbeyi-Şirin,
O gün Məcnunü Leylaya vətən dağü daşı çəkmişlər.

Çəkiblər əhsəni-təqvimidə əfradi-insanı,
Nədən bədməst, kəmtale məni-külbaşı çəkmişlər?!

Zənəxdanü ləbə həsrət qalan Hadi, sənə ancaq,
Ciyər qanı qəza olmuş, səmər göz yaşı çəkmişlər.

***

Sevdayi-zülfə ruzi-əzəl intihab ilə
Düşdü könül, əlaqəsi yox xurdü xab ilə.

Çox pənd verdim, üzmədi əl tari-zülfdən,
Çəksin cəzanı həşrə kimi piçü tab ilə.

Qəmzən olur həramilərə hər zaman yataq,
Aqil gəzər bu mərhələdə ictinab ilə.

Qaşın kaman, qövsi-quzeh, ya hilaldır?
Peyvəst olubdur bir-birə yüz inqilab ilə.

Bildim səbəb nədir ki, ciyərxab olub gözün,
Sərməstlər həris bulurmuş kabab ilə.

Gördüm üzündə zülfü, olub heyrətim füzun,
Yelda düşübdü bir yerə çün aftab ilə.

Yadi-ləbinlə xəlq çəkər başa badəni,
Yoxsa kimin olurdu rücui şərab ilə?

Göstər qıyami-qaməti, həşri-qiyaməti
Eylə bəyan xəlqə sualü cavab ilə.

Biçarələr bulub o zaman kami-vəslini,
Nakamlar bərabər ola kamyab ilə.

Hadi, qaraya batsın onun qarə gözləri,
Öldürübdü qövli bədməsti bu əzab ilə.

***

Sən kimi xosrovi-şirinləbi-xuban olmaz,
Dahənin şəkkəri tək çeşmeyi-heyvan olmaz.

Hüsn Misrində Züleyxa sənə tuş olsa, deyər:
“Bu məlahətdə, əzizim, məhi-Kənan olmaz”.

Rəvişi qəddini əzbəs ki, görüb sərvi-çəmən,
Oldu pabəstə, budur vəchi, xuraman olmaz.

Görsə gülşəndə, təbəssüm eləyər qönçə ləbin,
Həşrədək lal qalır, xürrəmü xəndan olmaz.

Arizində nə əcəb güllər açılmış bu zaman?
Gəzəsən yer üzünü, böylə gülüstan olmaz.

Çeşmi-cəlladına kafər desələr, qeyz eləmə,
Rəhmsiz kimsənə, adətdi, müsəlman olmaz.

Daneyi-xalına meyl eyləyən ol qafillər,
Belə, fikr eylədilər, çahi-zənəxdan olmaz.

Düşdü başıma mənim zülfün uzun sevdası,
O, başımdan çıxa, haşa, ona dərman olmaz.

Gördü bazarda, könül oldu bu sevdayə düçar,
Belə sevdada necə sud olu, nöqsan olmaz?

Hicri-ləlində gözümdən tökülən qan-yaşa,
Rəhm qılmaq, gözəlim, küfr deyil, qan olmaz.

Hər təbibə yetişib, dərdimi qıldım izhar,
Dedi: "Biçarə, sənin dərdinə dərman olmaz".

Hadiya, muri-mühəqqər kimi ərz et halın,
Yer üzündə belə şövkətli Süleyman olmaz.

***

Könül nə zülfünə bel bağlayaydı, xürrəm olaydı,
Nə cövri-şanə çəkəydi, nə zarü dərhəm olaydı.

Nə hərgiz elmi-müəmma olaydı aləmdə,
Nə nöqteyi-dəhənin böylə sirri-mübhəm olaydı.

Nə gözlərinə olaydı qəza ciyər qanı,
Nə kirpiyin ona xəncərmisal həmdəm olaydı.

Nə tiri-qəmzəyə talib olaydı suzan dil,
Nə ah şölə çəkəydi, nə didə pürnəm olaydı.

Nə arizini ərəq bus edəydi mərhəm tək,
Nə gül üzündə, görüm, həşr olunca şəbnəm olaydı.

Nə ömrü nəhydən eraz edəydi bir aşiq,
Nə rövzə içrə o bietibar Adəm olaydı.

Nə xubrulər adı bivəfalıqda məşhur,
Nə əhli-eşq məcazi hərimə məhrəm olaydı.

Olaydı xəlqi-cahan cümlə qüssədən azad,
Tamam dərdi-zəmanə mənə müsəlləm olaydı.

Nə, Hadi, vəsl sənə üz verəydi aləmdə,
Nə ol rəqibi-siyəhdil hərifi-aləm olaydı.

***

Hər bir könüldə üns ola zülfi-siyah ilə,
Dövran ona həmişə gərək keçməsin ah ilə.

Zənciri-zülfə bənd olan üşşaqi-zar üçün,
Aşüftəlik müdam keçər salü mah ilə.

Saldım xəyala zülfü könüldə, bu türfə kim,
Şahmarı bağrıma basaram intihab ilə.

Sübhü məsada zülfü rüxün zikri əzbərim,
Yox qeyr işim cahanda səvabü günah ilə.

Sultani-eşqi gör kim, ona qeydi-zülfdə,
Kəmtər gəda bərabər olur padşah ilə.

Qəmzən səbəbdi qətlimə, ya şahmar zülf?
Qaldım bu əmri-müşkülara iştibah ilə.

Bədnam qədimə zülfün adın, gözdən et həzər,
Çox evləri xarab eləyib kəc nigah ilə.

Tapdın kəməndi-zülfdə, Hadi, səadəti,
Ol həbsdə keçir gününü izzü cah ilə.

***

## Xurşidbanu bəyimə

Səriri-səltənətxaneyi-hökmran, ölmə,
Şükuhi-əhli-hərəm, izzi-xanədan, ölmə.

Neçə sənubərü sərvin başın kəsib getmə,
Olan behişti-cahan içrə bağban, ölmə.

Məhəbbət aləmini seyr edər də mürği-dili,
Vəfa nihalın edən yengi aşiyan, ölmə.

Əzizə, möhtərəmə, kamilə, həmidəsifat,
Rümuzi-nəzmdə bimislü nüktədan, ölmə.

Həqiqət əhlinə sənsən ziyayi-bədri-cahan,
Dürri-yeganəvü xurşidi-banuvan, ölmə.

Behişt əhlinə yetməz zavali-dəhri-dəni,
Güli-riyazi-irəm, huriyi-cinan, ölmə.

Sədayi-şövkətü şənin tutubdur afaqı,
Xəzinə gövhərisən, rəşki-xosrovan, ölmə.

Xəlil zürriyyəsi cümlə xasü amə pənah,
Məlazü mülcai-əyanü əşrəfan, ölmə.

Ölüm məqamı deyil, rəhm qıl cavanlığına,
Cavandılar, gözü yaşlı qoyub, cavan, ölmə.

Şikəstəxatirü bitablar təvanası,
Şikəstəxatir olub indi Natəvan, ölmə.

Hüzuri-feyzini dərk etməyən həzin Hadi,
Bu qeybət içrə deyir heyfsən, aman, ölmə!

***

Dolanır qatilim məxfi göz ilə qaş arasında,
Olur qan, şübhəsiz, şəksiz, buların faş arasında.

İşarə eyləyir qəmzən səfi-müjganına hər dəm:
Tökün qanın, edin pünhan iki yoldaş arasında.

Urarlar zəxmi zəxm üstən mənə navəklərin hər yan,
Belə kafərlərin qaldım məni-külbaş arasında.

Xəyali-xalilə rüxsarda nərd oynayan könlüm,
Uduzdu mayeyi-səbrin əcəb qəllaş arasında.

Hesab etdi məqami-əmn bu könlüm, könlünə girdi,
Çıxa bilməz o kəslərtək ki, qaldı daş arasında.

Çəkə bilməz müsəvvirlər uzun illər qaşın tərhin,
Nə müddətdi kəşakəşdi neçə nəqqaş arasında.

Gülüm gülrüxlər ilə əzmi-seyri-gülsitan etmiş,
Məni-biçarə onlarin olaydım kaş arasında.

Şüai-mehri-ruyin tabına tab etməyən Hadi,
Qalıb viranələr küncündəki xəffaş arasında.

***

Qədi-mövzunun edər sərvi-xuramanı xəcil,
Pərtövi-mehri-rüxün mehri-dirəxşanı xəcil.

Zülfi-mişkini-müsəlsəl girehin açsa səba,
Nükhəti eylər onun ənbəri-saranı xəcil.

Nərgisin nərgisini nərgisin etmiş bimar,
Nuki-xunrizi- müjən xəncəri-bürranı xəcil.

Dəhənin həsrəti süsəntək edib qönçəni lal,
Şərbəti-ləli-ləbin şəhdi-müsəffanı xəcil.

Hər təkəllümdə edərsən neçə əmvat əhya,
Belə ecaz edər, əlbəttə, Məsihanı xəcil.

Xəlq, derlər ki, təfaxür çox edər Yusifinə,
Bas qədəm Misrə bu dəm, eylə Züleyxanı xəcil.

Gəzmə əğyar ilə, insaf qıl, ey mayeyi-naz,
Etmə bədgulərara Hadiyi-nalanı xəcil.

***

Bir sərvqədü qönçələbü xubru məni,
Heyran edib camalına bigüftgu məni.

Əbruvü çeşmü qəmzə sərasər edib hücum,
Xunrizlər salıbdı araya qəmu məni.

Divanə etdi ol pəri səhranəvərd ikən,
Zənciri-zülfə çəkdi, çəkə kubəku məni.

Pabəndiyəm, fərar edə bilməm o zülfdən,
Şahmarvar çalsa əgər mubəmu məni.

Cəhd eylədim ki, eşq qəmin eyləyim nihan,
Əşki-rəvanım eylədi biabru məni.

Bir mumiyan vəslini çox etdim arizu,
İncəltdi mu təki bu məhal arizu məni.

Məhv olmuşam xəyali-dəhaniylə, öylə kim,
Min nüktədan tapmaz, edə cüstücu məni.

Müjgan sanı yaramı ona eylərəm sübut,
Çeşmi-xumar ilə edələr rubəru məni.

Qoymaz hərimi-vəslə tapan bəlkə bir təriq,
Hadi, rəqibi-səngdilü ziştxu məni.

***

Hər kəs ki, məst gözlərə bir dəm nigah edər,
Başın salır bəlalara, ömrün təbah edər.

Zənciri-zülfə bənd olu xal istəyən könül,
Mən tək üzünü tirə onun dudi-ah edər.

Tutmaz əli qubar kimi vəsl damənin,
Hərçənd özün ayağa salıb, xaki-rah edər.

Peyvəstə aşiqə budur eşqin nəticəsi,
Rəngini kəhrüba, bədənin misli-kah edər.

Etməz əzab kimsəyə bir kimsə cürmsüz,
Kafər gözündü, qəsdi-dili-bigünah edər.

Sultani-eşq olmuş əcəb ixtiyari-küll,
Şahi gədavü gədanı əgər etsə, şah edər.

***

Cəfayi-xar ilə bülbül gülü gülzardan keçməz,
Urar hərçənd yara yar, yara yardan keçməz.

Tökər əbrulərin gərçi görəndə xuni-üşşaqı,
Tərəhhüm eyləməz bir kimsəyə, ol didardan keçməz.

Gözün hər əmrə iqdam eyləsə, bir kəs deyil mane,
Görən nazik məzacın xatiri-bimardan keçməz.

Bəlaya çün deyib aşiq bəla, ruzi-əzəl, axir,
Yetə yüz min bəla hərgiz keçən iqrardan keçməz.

Çəmən sərvindən əl çəkmiş, deyil pabənd ona könlüm,
Ləbin zikrin edər əfsun, dəmi-şahmardan keçməz.

Görə əbrulərin taqın müsəlsəl zülf ilə zahid,
Sücud eylər kəlisa tağına, zünnardan keçməz.

Düşə hər aşiqin başına sevdayi-səri-zülfün,
Əgər başı cidaya keçsə, ol bazardan keçməz.

Vəfa rəsmin unutma, Hadiya, gör kim, necə Mənsur,
“Ənəlhəq”kəlməsin yaddan çıxarmaz, dardan keçməz.

***

# MOLLA ABBAS CAVANŞİR

Cavanşir nəslindən olan Axund Molla Abbas təxminən 1840-cı ildə Qarabağın Sarıcalı kəndində anadan olmuş, ilk təhsilini Şuşada almış, ərəb və fars dillərini mükəmməl öyrənmiş, riyaziyyat elminin mahir bilicisi olmuşdur. Təhsilini Kürdüstan şəhərində davam etdirən Molla Abbas 1867-ci ildə Şuşa şəhərinə gəlib tədrislə məşğul olmuş, astronomiya və riyaziyyat elmlərinə dair kitab yazmış, bir sıra elmləri, o cümlədən rəml, üsturlab və nücum elmini Mir Möhsün Nəvvaba o öyrətmişdir. Şair ömrünün son günlərini Kürdüstanda yaşamış və 1894-cü ildə orada vəfat etmişdi. Şeirlərini "Abbas" və "Cavanşir" təxəllüsləri ilə yazmışdır. Aşağıdakı şeir örnəkləri "Təzkireyi-Nəvvab"dan götürülmüşdür.

## Qəzəllər

Tərfi-rüxsarə nə xoş zülfi-xəmin pirayə,
Guyiya, əbri-siyəh hələ urubdur ayə.

Çıxma gün qarşısına, ruyinə düşdükdə günəş,
Üzünə zəxm urar zülf salanda sayə.

Səndə bu qədər həlavət ki, sərapa görünür,
Səni, güya, əmizib şirü şəkərdən dayə.

Gər biləydim bu qədər hicr cəfasın çəkirəm,
Mən ədəm içrə bəsi sabiq idim ünqayə.

Gər vəfa görsə idi əhli-zamandan Məcnun,
Mürqü vəhşilər ilə düşməz idi səhrayə.

Görməmiş qeyri-cəfavü sitəmü qürbətü qəm,
Bilməzəm kim, neçün Abbas gəlib dünyayə.

***

Rüxün səthində xətti-hüsnü kim, lövhə qələm yazmış,
Cəbinim lövhi üzrə ol zaman eşqi rəqəm yazmış.

Qədindir bir əlif kim, rast çəkmiş xameyi-qüdrət,
Ayırmış ol əlifdən lami-zülfün, necə xəm yazmış.

Qələm sirri-dəhanə məndən ələmdir ki, mən deyərdim,
Onu bir nükteyi-mövhum, ya  gördüm ki, kəm yazmış.

Sürurü qəm ki, yazdı katibi-qüdrət bu məxluqə,
Süruri aləmə, tənha mənə tumari-qəm yazmış.

Nə qəm, gər ixtisar ilə məni zikr eyləsə zahid
Ki, arif dəftəri-üşşaqə bəxtim möhtərəm yazmış.

Əgər, Abbas, şerində rəkakət bulsa şairlər,
De kim, məbhut idim mən, bunları sərxüd qələm yazmış.

***

Gül deyil mətlubimiz gülşəndə çün tutduq vətən,
Bəlkə gül rüxsarımız yadilə yad etdik çəmən.

Sərv çün öz qamətin bənzətdi qəddi-yarıma,
Sərzənişlə başını pakub edir zağü zəğən.

Şöleyi-nari-tənim kim, yandırıp hər kisvəti,
İstərəm cildi-Səməndərdən tikəm bir pirəhən.

Girəm, belə halını sordum qəmu əhvaldin,
Kim təni üzrə toxur öldükdən əqdəm bir kəfən.

Mən kimi bir guşədə qəm çəkməyə tab etməyib,
Qaçdı Məcnun kuhü səhrayə cəfayi-yardən.

Gər ümidi-vəsl ola mən bir səri-müjgan ilə,
Dəlləm ol dağı ki, fuladla dəlmiş Kuhkən.

Şöleyi-ahım mənə rövşən qılır hər külbəni,
Hacətim yox şəmilə rövşən qılam kaşanə mən.

Çün mənə qürbət vətəndir, izzətimdir bu vətən,
Hər zaman Abbasə olmuş əhli-qürbət həmsüxən.

***

Necə dildayəm mən, bu dilim dildardən doymaz,
Əcayib didədir bu didə kim, didardən doymaz.

Səba məndən füzun ol cədi-zülfə mübtəladır kim,
Həmişə oynadır, ol turreyi-tərrardən doymaz.

Dəmadəm qut edər öz ləlinin şəhdin şirinim,
Zəhi tutizəbandır, şəhdi-şəkkərbardən doymaz.

Nə tabi-qürbətəm, nə izzətim vardır məqamımda,
Mənim haqqımda gərdun bunca kəc rəftardən doymaz.

Edibdir mürği-nəfsin danəsin təsbihdən zahid,
Bu mürğə danə yüz danə nə, yüz xərvardən doymaz.

Kələmtək başını pürpiç edib əmmamədən daim,
Bu nazik boynunu gör kim, bu bari-ardən doymaz.

Edib üşşaq inkarın şüar ol cahili-nakəs,
Doyub Abbas ondan, ol məgər inkardən doymaz?

***

Nuşdarudur bu dövran, cami-möhnətdir məgər?
Saqiya, qəm badəsi üşşaqə qismətdir məgər?

Xabi -rahət eşqdə bidarlıqdır sübhədək,
Rahəti- əhli-cəfa bu xabi-qəflətdir məgər?

Qəm gələndə könlümün viranına nifrət qılır,
Bu ənisim mənzili çox təngü zülmətdir məgər?

Mürği-vəhşidən mənim başımda var cəmiyyətim,
Hakimi- mülki-cünun biizzü həşmətdir məgər?

Nəbzimi tutduqda dərmanımda acizdir təbib,
Bu mərəz kim məndə vardır, ziddi-hikmətdir məgər?

Dil şəfasıyçün dilər daim ləbin cüllabını,
Müzmin olmuş dərdinin dərmanı şərbətdir məgər?

Ol səfayi- gərdəni-minaya düşdü gözlərim,
Səy edib can qılmışam qurban, mürüvvətdir məgər?

Hər baxan Abbasdan özgə ruyinə, sanma ağlayır,
Gün görən gözdən axan yaş əçki-həsrətdir məgər?

***

Dəvami-ləzzəti-candır ki, canandan cəfa görsün,
Nə vəslilə bulub arami-eşqə intəha görsün.

Çəkibdir nəqşi-Çin mişki-Xəta ilə rüxə zülfü,
Gözüm baxsın nigarə gər dilər Çinü Xəta görsün.

Könül çox çədi-zülfündə baxır hər həlqədən ruyə,
Bəli, məhbus olan istər deşiklərdən ziya görsün.

Deyil qadir görə bir kəcnəzər xurşid rüxsarın,
Hə, yara, dideyi xəffaşə kim, kəmsi-züha görsün.

Özün möhkəm qılır dil hər səhərgəh piçi-zülfündə,
Məbada kim, pərişanlıq səba zülfə rəva görsün.

Gözüm mərdümləri dəryayi- əşkim içrə qərq olmaz,
Nə qəm, ınsani-bəhrilər ki, yüz mövcü bəla görsün.

Şüruti eşqdəndir cövrə, ey Abbas, səbr etmək
Kim, etmiş eşq şərtin yardən aşiq vəfa görsün.

***

# XURŞİDBANU NATƏVAN

Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvan 1832-ci il avqust ayının 15-də Şuşa şəhərində anadan olmuşdur. Ailənin yeganə övladı olan Natəvan xalq arasında "Xan qızı", "Dürri-yekta" kimi də məşhur olmuşdur. Mükəmməl saray təhsili alan Xurşidbanu dövrünün tanınmış alimlərindən Şərq poetika sənətinin incəliklərini öyrənmiş, Füzuli şeirlərinin vurğunu olmuş, onun ədəbiyyatımız tarixində yaratdığı və sonrakı nəslə miras qoyub getdiyi ənənələri layiqincə davam etdirmişdir. O, firavan, qayğılarla əhatə olunmuş bir mühitdə yaşasa da, həyatı o qədər də fərəhli keçməmişdir. Həyatının ən fərəhli çağında – 13 yaşında sevimli atasını itirən, 17-18 yaşlarında uğursuz ailə həyatına imza atan, düşdüyü psixoloji mühit, depressiya girdabında boğulan və bunların nəticəsində səhhətində böyük problemlər yaranan şairə şeirlərində ənənəvi aşiq və məşuq surətlərindən fərqli olaraq tamamilə yeni bir insan - özünün prototipi olan "dərdli, kədərli ana obrazı" yaratmışdır. Xeyirxah, insanpərvər, nəcib əməlləri ilə təkcə vətəni Qarabağda deyil, ətraf regionlarda, ümumilikdə bütün Qafqazda və hətta onun hüdurlarından kənarda da adı ehtiramla yad edilən Xan qızı "Məclisi-üns" ədəbi birliyinə başçılıq etdiyi müddətdə ədəbi ictimaiyyəti ətrafına toplayaraq böyük bir məktəb yaratmiş və bununla da Qarabağ ədəbi mühitinə yeni nəfəs, yeni ruh gətirmişdir.

Natəvan 1897-ci il oktyabr ayının 1-də Şuşada vəfat etmiş və Ağdamda, "İmarət" deyilən xan ailəsi qəbristanlığında dəfn olunmuşur.

Xurşidbanu Natəvanin əsərləri bir neçə dəfə çap olunmuşdur. Burada verilən nümunələr onun yazıcı publisist Mustafa Çəmənlinin 2012-ci ildə tərtib və nəşr etdirdiyi "Xurşidbanu Natəvan. Necin gəlməz" kitabından götürülmüşdür.

## Qəzəllər

Şuri-eşqin başıma axırı sövda gətirir,
Bu müşəxxəsdi ki, eşq aşiqə qovğa gətirir.

Tari-zülfündü məni böylə giriftar eləyib,
Nə gələ başıma, ol zülfi-mütərra gətirir.

Gül üzün görmək əgər mümkün olaydı bir dəm,
Hər zaman görmək onu nuri-mücəlla gətirir.

Qaşü göz, novki-müjə fitnə üçün cəm olmuş,
Ox atıb, tiğ çəkib, hər biri dəva gətirir.

Könlümü qarət edir öylə ki, tari-zülfün,
Rumə, sanki həbəş ləşgəri-yəğma gətirir.

Naqənin varmı şüuru bula aşiq kuyin,
Onu Məcnunə tərəf cəzbeyi-Leyla gətirir.

Yusifin sanma, dübarə görə Yəqub üzün,
Mehr bazarına gər getsə, Züleyxa gətirir.

Yusifi Misrdə gər aldı Züleyxa nəqdin,
Nəqdi-can, aşiq olan, əldə mühəyya gətirir.

Sidqi-qəlb ilə nisar etmiş idin can nəqdin,
Natəvan, müjdə bu gün, qətlinə fərma gətirir.

***

Olmuşam dəhri-bəla içrə bu gün divanə mən,
Varmadım meyxanəyə, sındırmadım peymanə mən.

Əhdlərdən keçmədim, peymanları sındırmadım,
Lacərəm, bimehrlər tək olmuşam əfsanə mən.

Tərki-gülzar etmişəm bülbül kimi mən, ey rəqib!
Aqibət bir guşə içrə gəlmişəm əfğanə mən.

Eşqi-rüxsarında bir dəm vəsl ilə şad olmadım,
Hər tərəf seyr eylədim, düşdüm əcəb hicranə mən.

Qəm yükün çəkməkdən, ey dil, bir dəm azad olmadım,
Hərçi cəhd etdim, nə hasil, yetmədim cananə mən.

Duş gördüm kim, gəlibsən külbeyi-ehzanıma,
Ol zaman nəzr eylədim canü dilim qurbanə mən.

Görməyim dişvardır, billah, səni mən, ey rəqib!
Zülfə bağlı, qoy gedim axır düşüm zindanə mən.

Dövrü dönmüş dövr dövran etmədi kamimcə, ah!
Düşmənimdir, bilməzəm kim, netmişəm dövranə mən?

Yoxü varımdan qalan ancaq mənim bir can idi,
Natəvan, dəxi nedim, sərf eyləyim mehmanə mən.

***

Könül qanın gözümdən navüki-qəmzən rəvan eylər,
Məsəldir mərdüm içrə məst olan, əlbəttə, qan eylər.

Xətadır, gər, desəm ol nərgisi-məstin xəta etməz,
Yəqinimdir, əgər, qan etmiş olsa, qan eylər.

Əgər, qaşü gözün xişm eyləsə, ey mahi-no bir dəm,
Könüldə fitnələr peyda olur, hər dəm fəqan eylər.

Nəhani baxmağından iztirabi-könlüm əfzundur,
Nə cadudur ki, hər dəm kəşf əsrarı-nəhan eylər.

Uçub mürği-dilim, qonmuş səri-zülfi-pərişanə,
Bəla sərmənzilində, gör, nə qafil aşiyan eylər?

Üzün dövründə zülfün küfrə bənzər, tutmuş imanı,
Hərami xeylini kim böylə gəncə pasiban eylər?

Səba zülfün nəsimin gər, aparsa vadiyi-Çinə,
Xütən səhrasını müşkin edib, ənbərfişan eylər.

Rəqibi görməsin bir nəşə, ya rəb, cami-işrətdən
Ki, məndən bixəbər ol şuxi məstü sərgiran eylər.

Əgər, qəhr aləminə gəlmiş olsa ol məhi-təban,
Nə etsə, canə minnət, çünki yari-mehriban eylər.

Deyirlər dərdi-eşqin adəm öldürməz, dürüstdür bu,
Və lakin ömr eylər, mən kimi zarü Natəvan eylər.

***

Yenə ya rəb, nə qəmgindir mənim bu şad olan könlüm,
Rümuzi-eşqdən agah olub, ustad olan könlüm.

Görübdür yari əğyarə olubdur məhvi-nəzzarə,
Edibdir sinəsin parə, mənim abad olan könlüm.

Niyə peymanədən keçdin, niyə zəncirdən qaçdın?
Nədəndir çöllərə düşdün, mənim bərbad olan könlüm?

Fəraqin ruzi-məhşərdir, sərasər möhnəti-qəmdir,
O zülfün kimi dərhəmdir, mənim azad olan könlüm.

Baxın bu Natəvan zarə, günü bəxtim kimi qarə,
Gəzər Məcnun tək avarə, mənim naşad olan könlüm.

***

Mənə bədtərdi düzəxdən, əzizim, gülsitan sənsiz!
Olur hər sünbili-süsən gözümdə bir tikan sənsiz!

Vəfasız dəhri-dun içrə əgər şəkkər qəzam olsa,
Olur zəhri-həlahil, tutiyi-şirinzəban sənsiz!

Səbəb nə oldu ki, məndən mehr kəsdin, mehriban bülbül!
Olub qumri kimi ku-ku yenə virdi-zəban sənsiz!

Xoş ol günlər ki, vəslindən edərdim kami-dil hasil,
Olunca mübtəla hicrə, çıxaydı kaş can sənsiz!

Əlif tək sərv qəddin, can içində getdi, qəmxarim!
Necə aram tutsun, bilməzəm, cism içrə can sənsiz?

Həsari-könlümə səngi-məlamət çərxdən yetdi,
Ribati-köhnədir, məddi-nəzərdə xaniman sənsiz.

Çıxar sübhü məsa əflakə dudi-şöleyi-ahim,
Zəbani-halimə giryan olur kərrubiyan, sənsiz!

Nəzər qıl, qönçeyi-lalə misalı bir-biri üstən
Çəkilmiş sinəmə, gör kim, necə daği-nəhan sənsiz!

***

Qoyubdur intizarında, neçin gəlməz, neçin gəlməz?
Həmişə ahü zarında, neçin gəlməz, neçin gəlməz?

Üzüldüm karivanımdan, əl üzdüm xanimanımdan,
Fələk incir fəğanımdan, neçin gəlməz, neçin gəlməz?

Gedibdir qafiləsalar, olubdur gözlərim xunbar,
Nə bir yarü, nə bir qəmxar, neçin gəlməz, neçin gəlməz?

Könüldə ahü zarım var, nə səbrü nə qərarım var,
Deməz bir dilfikarım var, neçin gəlməz, neçin gəlməz?

O zülfi-nərgisi-məstə könül çoxdandı pabəstə,
Məni hicran edib xəstə, neçin gəlməz, neçin gəlməz?

Səri-kuyin gəzər könlüm, güli-ruyin sevər könlüm,
Vüsalın çün dilər könlüm, neçin gəlməz, neçin gəlməz?

Alıbdır canımı hicran, olubdur gözlərim giryan,
O məhvəş, nazənin canan, neçin gəlməz, neçin gəlməz?

Mənə hicran məşəqqətdir, fərağin dərdü möhnətdir,
Nigarım xeyli müddətdir neçin gəlməz, neçin gəlməz?

Əzizim, göz yaşım qandır, işim fəryadü əfqandır,
O yarım harda mehmandır, neçin gəlməz, neçin gəlməz?

Yanar canım fərağından, tutar könlüm sorağından
Ki, çıxsın yar otağından, neçin gəlməz, neçin gəlməz?

Əlimdə ixtiyarım yox, gedib səbrü qərarım yox,
Yanımda gülüzarım yox, neçin gəlməz, neçin gəlməz?

Səba, ol məhliqa dilbər, alıbdır canımı yeksər,
Könül ancaq onu istər, neçin gəlməz, neçin gəlməz?

Yetibdir ərş üzə dadım, tutub dünyanı fəryadım,
Mənim ol sərvi-azadım neçin gəlməz, neçin gəlməz?

Qalıbdır Natəvan nalan, gecə-gündüz olar giryan,
Onun yox dərdinə dərman, neçin gəlməz, neçin gəlməz?

***

Bilən bu dərdimi yoxdur bu halətdə, bu halətdə
Tutubdur könlümü möhnət bu firqətdə, bu firqətdə.

Neçün əhvalımı bilməz o mahi-mehriban, ya rəb?!
Nədən heç dadıma yetməz bu müddətdə, bu müddətdə?

Gedibdir taqətim dizdən, tükənmiş nur həm gözdən,
Neçün ülfət kəsib bizdən bu qürbətdə, bu qürbətdə.

Deyin yari-vəfadarə, o çox uymasın əğyarə,
Kərəm qılsın məni-zarə bu xiffətdə, bu xiffətdə.

Ataram sərü səmanı, dağıdaram bu viranı,
Yolunda qoymuşam canı bu töhmətdə, bu töhmətdə.

Gözümdə intizarım var, dilimdə iztirabım var,
Rəqiblər yar, mən əğyar bu qəflətdə, bu qəflətdə.

Vətəndən ayrılıb getdim, eşq rəhində seyr etdim,
Hicrində mən cana yetdim bu həsrətdə, bu həsrətdə.

Məni qoydu fərağında, həmişə ahü zarında,
Ömrümün axır çağında bu üsrətdə, bu üsrətdə.

Dolandım hicr dağında, əyildim qəm otağında,
Xəyal hüsnün sorağında bu saətdə, bu saətdə.

Xəyalım yar ilə getmiş, dilim hicr ilə odlanmış.
Cəsəd, həm Natəvan qalmiş bu zillətdə, bu zillətdə.

***

## Növhə

Söylə Hüseynə, ey səba, Kərbübəlaya gəlməsün,
Gəlsə, düşər bu dəştidə dərdü bəlayə, gəlməsün.

Söyləginən gətirməsün Kufəyə nazlı Əkbəri,
Zülm ilə qanına batar türreyi-müşki-ənbəri.
Bəlkə Firəngətək arar cümleyi-ali-heydəri,
Zibhi-əzim üçün bu gün kuhi-Minayə gəlməsün.

Söylə gətirmə Qasimi, qatili eyləyir şitab,
Toyda olur yəqin onun qanına əlləri xizab.
Görmə rəva ki, Şümri-dun din evin eyləsin xərab,
Rəhm eyləsün o Zeynəbi-bəxti qərayə, gəlməsün.

Gəlməyə yoxdu fürsətim, qan ilə namə yazmışam,
Öldürəcəkdi Müslümü Kufədə firqəyi-zülam.
Qardaşının uzun qolu görmə rəva ola qələm,
Bacıları ayaqyalın, dəşti-bəlayə gəlməsün.

Yetsə əgər xəbər sənə öldü bu Müslimi-əqil,
İbni-Ziyad nəşimi gərçi edibdü çox zəlil,
Qüslü hənut olmadı, oldu qənarədə qətil,
İstəmirəm, əyalını qoyma, əzayə gəlməsün.

Badi-xəzan əsər sənin qönçəsifət əyalına,
Rəhm eylə, yavərim Hüseyn, Qasimi-xoşməqalına.
Canı təsəddüq eylədim Əkbərimə, cəmalına,
Sağ ola ol imam Hüseyn, qəm üsarəyə gəlməsün.

Söylə əmoğluma məni-bikəsi eyləsin həlal,
Ərzimi birbəbir elə, Ali-əbayə şərhi-hal.
İki açılmış gülüm Kufədə zari-dilməlal,
Qaldılar Əkbər ilə ol Qasim, hərayə gəlməsün.

Həsrətəm ol cəmalına, ah çəkim bu sinədən,
Kufədə vardu qatilin, gəlmə həzin Mədinədən,
Qoyma yetim Xədicəni ayrı ola Səkinədən,
Başına əl çək, ağlayıb şuri-nəvayə gəlməsün.

Söylə onun anasına başını qarə bağlasın,
İki baladən ayrılıb, kövni-məkanı dağlasın,
Tutsa əza, Xədicədən söylə ki, gizli ağlasın,
Bəlkə yetimliyin tozu mahi-liqayə gəlməsün.

Fatimənin kənizi, bu qissəni eylə kim, tamam,
Bir-birə dəydi mərdü zən, şurə gəlibdü xassüam.
Növhə edər bu Natəvan, ruzü şəb ağlayar müdam,
Tapmasa bir dəri-nicat, dari-bəqayə gəlməsün.

***

## MİRZƏ MƏHƏMMƏD KATİB

Həm klassik və həm də aşıq şeiri üslubunda şeirlər yazan istedadlı şair və gözəl xəttat Mirzə Məhəmməd Məşədi Bayram oğlu Katib1833-cü ildə Şuşanın Çuxur məhləsində anadan olmuş və ilk təhsilini də orada almışdır. Təbiətcə son dərəcə mehriban və səmimi olan şairin çoxlu sayda dostları olmuşdur. Onların sırasında böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə ilə dostluğu xüsusi önəm təşkil edir. Axundzadə Şuşada ezamiyyətdə olarkən Katibin əsərləri ilə tanış olmuş, hətta onu Tiflisdə təşkil edəcəyi "Məclisi-xas"a da dəvət etmişdir.O həmçinin Katibdən əsərlərini toplayıb nəşr etdirmək üçün ona göndərməsini də xahiş etmişdir. Lakin Katib tufanlı bir gündə Kür çayını keçən zaman içərisində şeir dəftəri olan xurcunu suya düşüb axdığı üçün Axundzadəyə verdiyi vədi yerinə yetirə bilməmiş və ona bir neçə şeir göndərməklə kifayətlənmişdir. Şair 1888-ci ildə Şuşada vəfat etmişdir.

"Məclisi-fərəmuşan"ın fəal üzvlərindən olan Mirzə Məhəmməd Katibin də əsərlərinin az bir qismi gəlib bizə çatmışdır. Şairin əsərləri 2004-cü ildə nəşr olunmuşdur (Mirzə Məhəmməd Katib. Şeirlər.B.2004.Tərtib edən və nəşrə hazırlayan Samirə Gəncəli.) Buradakı şeirlər həmin kitabdan götürülmüşdür.

### Qəzəllər

Zülfi-kəcəbru düşübdür mahi-taban üstünə,
Ya ki kafir tiğ çəkmiş əhli-iman üstünə.

Könlümü yıxmış sərasər ləşkəri-möhnət hənuz,
Gündə yüz kəz üz qoyar bir böylə viran üstünə.

Cismi-zarım əşk seylabında sərgərdan gəzər,
Çün xəsü xaşak düşmüş bəhri-ümman üstünə.

Aşiqi bülbül kimi əfqana mötad eylədin,
Üzdə xalın zağ tək düşmüş gülüstan üstünə.

Vədəyi-vəsl eyləmiş dilbər, peşiman olmaya,
Müstəhəqqəm, nola İsa gəlsə, peyman üstünə.

Hər tərəfdən zülm qıldın, ey fələk, yetər bəla,
Bunca yağdırdın bu Katibtək pərişan üstünə.

***

Mahdır bu, ya mələk, ya huri-zibadır, nədir?
Pərtövi-hüsni günəştək aləmaradır, nədir?

Zülfdür, ya aşiqi-divanəyə zəncirdir,
Şövqdür bu, ya mənim başımda sevdadır, nədir?

Nöqteyi-mövhumdur, ya çeşmeyi-abi-həyat,
Ya dəhəndir mimvəş, ya sirri-ixfadır, nədir?

Qəmzədir, ya fitnədir, ya can alan cəlladır,
Ya ki üşşaq əhlinin qətlinə imadır, nədir?

Bu necə göz yaşıdır, qərq eyləyibdir aləmi,
Gül üzündən ayrı cuş etmiş bu dəryadır, nədir?

Dindirib lütfiylə eşq əhlini ehya eyləmiş,
Bu, nə xoş məhbubdur, sani Məsihadır, nədir?

Şövqi-zülfin, ey pəri, aləmdə rüsva eylədi
Katibi hər kim görər, der kim, bu şeydadır, nədir?

***

Heç aşiq naümidi-vəsli-canan olmasın,
Aşiqə dünyada canan olmasa, can olmasın.

Eyləmiş əzmi-şikar ol şahbazi-izzü naz,
Könlümü seyd etməyə, yarəb, peşiman olmasın.

Bivəfa, əğyara vəsl etdin, dəxi bundan belə,
Ləli-nabın həsrətindən bağrımız qan olmasın.

Çıxma ovca, zülfünü göstərmə iman əhlinə,
Görmə bu küfri rəva əsla müsəlman olmasın.

Göz yaşım seylaba döndü, yıxdı xanimanımı,
Olsa hər mənzildə su, olmaz ki viran olmasın.

Kim ki təhrik eylədi, saldın nəzərdən Katibi,
Namurad olsun, görüm, dərdinə dərman olmasın.

***

Zülfünə göz dikmişəm, dünya gözümə tardır,
Bu qara gündə işim hər ləhzə ahu-zardır.

Rəhm yoxdur səndə bu qıldan asılmış könlümə,
Bu ilan çalmış o zülfün kimi tarü mardır.

Ömrüm olunca yetərsən dost ancaq sən mənə,
Gərçi bəxtimdən, həmişə düşmənim bisyardır.

Pərdəli sözdən nə hasil, bir açıq danış görüm,
Dərdimə dərman eylə, qorx, ahım atəşbardır.

Mərdi-mərdanə gərəkdir istəyəni istəmək,
Səg rəqibdən qorxmayan kəs aqilü huşyardır.

Çox zamandır dərdimi könlümdə pünhan eylədim,
Ürəyim şişdi həqiqət məsləhət izhardır.

Bir nəvaziş eyləsən xəlvətdə, eyni-lütfdür,
Katibəm, ərz eylərəm hər qədr dərdim vardır.

***

Ey mələkmənzər, könül zülfi- pərişanındadır,
Bəndivanın öylə bil, canım sənin yanındadır.

Vəsli-ruyin ləzzəti cənnətdən artıqdır mənə,
Nari-duzəx zəhməti əyyami-hicranındadır.

Şövqi-zülfün gərdənimdə gərçi bir zəncirdir,
Şöleyi-ahım olub, zəncirə damanındadır.

Leyli fəxr eylər ki, bir Məcnunu saldım çöllərə,
Yox sənin fəxrin ki, yüz Məcnun biyabanındadır.

Bu gözəllikdə sənə bir nöqs tapsam naqisəm,
Olsa hər nöqsün, həqiqət, əhdü peymanındadır.

Vaizi-divanə söylər bir qiyamət şiddətin,
Yüz qiyamət şiddəti sərvi-xuramanındadır.

Gərçi cadular işi məkrü fəsadü cəngdir,
Hər fəsadü fitnə olsa, çeşmi-məstanındır.

Dilbərin ayineyi-hüsnündə olmaz bir kədər,
Sufi bulsa bir kədər, əlbəttə, imanındadır.

Surətin eşqindən oldum surəti-divar tək,
Katibin bu surət ilə eşq fərmanındadır.

***

## Qoşmalar

Sevdiyim, məndən üz döndərmisən,
Nə demişəm qəlbin mükəddər olsun.
Şöleyi-ahımdan könül sarayın
Oda yansın, mənə bərabər olsun.

Gecə-gündüz sənsən fikrim, xəyalım,
Nə olur bəzmində, səndən kam alım.
İnsafın yox, mürvətin yox, a zalım,
Səbr eləmək məndə nə qədər olsun?

Aşiq deyil camalına uymayan,
Nədən doyar didarından doymayan?
Sevdiyim qapına məni qoymayan
Görüm mənim kimi dərbədər olsun.

Qurban olum dilinə, dodağına,
Baş əgərəm qaşlarının tağına.
Hansı gecə baxsam tər buxağına,
İstəmərəm o gecə səhər olsun.

Katibəm, uymuşam bir bivəfaya,
Ömrümü vermişəm badi-fənaya.
Görən, bu dünyada mən binəvaya
Kim qarqadı yarın sitəmkər olsun.

***

Eşqin saldı məni dərdü bəlayə,
Qəsd eylədi şirin canə, sevdiyim.
Qan dəryası cuşə gəlib gözümdən,
Ahim yetər asimanə, sevdiyim.

Qadiri-ləmyəzəl olsun pənahın,
Candan eylər məni o şux nigahın.

Həlqeyi-zülfündə xali-siyahın,
Olub mürği-dilə danə, sevdigim.

Sinəmə kipriyin xəncəri-karı,
Rəhm eylə, incitmə aşiqi-zarı.
Qarabəxt eyləmə bu dilfkarı,
Vurma siyah zülfə şanə, sevdigim.

Sənsiz istəmərəm dövləti, malı,
Dövlət odur görüm o gül cəmalı.
Ətri-zülfün aldı əqlü xəyalı,
Saldı məni biyabanə, sevdigim.

Aşiq oldum sənin kimi əyarə,
Bimürvətə, biiqrarə, xunxarə.
Dəxi di gəl eylə Katibə çarə,
Çox gətirdin imtahanə, sevdigim.

***

Bahar fəsli bağ seyrinə çıxanda
Sərvi- xuramanə verməнəm səni.
Bülbülüm, mən sənin gül cəmalına,
Qönçeyi-xəndanə verməнəm, səni.

Bazari-hüsnüdə durmusan yenə,
Gireh-gireh zülfün düşüb gərdənə.
Müştərindi yüz min Əziz kimsənə,
Yusifi-Kənanə verməнəm səni.

Təneyi-əğyarə qail olmuşam,
Eşqə düşüb əqli zail olmuşam.
Gülşəni-hüsnünə mayil olmuşam,
Rövzeyi-rizvanə verməнəm səni.

Xumar gözlərinin olmaz misalı,
Baş əgər qaşına çərxin hilalı,
Kim görübdür belə cahü cəlalı?
Yüz min Süleymanə verımənəm səni.

Katibi incitmə, naməhrəm degil,
Səndən uzaqlaşsa, bir adəm degil.
Səri-kuyin firdövsdən kəm degil,
Hurivü qılmanə verımənəm səni.

***

Xumar-xumar hər tərəfə baxanda
Bais olur nahaq qana gözlərin.
Qəmzəyi-bədməstə aşiq olmuşam,
Rəxnə salır din-imana gözlərin.

Rüxsarında olan nöqteyi-xalın
Bir nöqtədir, onsuz olmaz camalın.
Nə xəta eylədi, Xəta maralın.
Saldı belə biyabana gözlərin.

Ləşgər kimi kirpiklərin cabəca,
Səf çəkib, qətlimə durub mühəyya.
Özün cəllad, qaşların kafirasa,
Rəhm eyləməz müsəlmana gözlərin.

Yarimadım yarımdan, yoldaşımdan,
Qərqə verrəm, səni bu göz yaşımdan.
Əzəl aldın ağlü huşu başımdan,
İndi qəsd eyləyir cana gözlərin.

Katibin əhvalı yasa dönübdür,
Kirpiklərin bir almasa dönübdür,
Qaşın gözə iltimasa dönübdür,
Rəhm eyləməz natəvana gözlərin.

***

Hicran xəstəsiyəm, canım üzüldü,
Bu günümdə canan gəlməz, gəlməsin.
Mən  ki qan ağlaram saatbasaat,
Çəkərəm əlaman, gəlməz, gəlməsin.

Xarab olsun bu gərdişi-zəmanə,
Ömrümün gülşəni döndü xəzanə.
Həsrət qaldım zülfi-ənbərəfşanə,
Olamaz pərişan, gəlməz, gəlməsin.

Ah çəkməkdən bağrım başı söküldü,
Çeşmim yaşı dəryalara töküldü.
Yollara baxmaqdan qəddim büküldü,
O qaşları kaman, gəlməz, gəlməsin.

Fələk atdı məni qəm diyarına,
Nə deyim namərdin etibarına.
Sözə baxıb, əğyar olan yarına,
Yadlara mehriban, gəlməz, gəlməsin.

Katibəm, yar məni saldı nəzərdən,
Bir namə yazaram xuni-ciğərdən.
Göndərrəm kuyinə badi-səhərdən,
Eyləyər ərmağan, gəlməz, gəlməsin.

## Mirzə Fətəliyə

Ey sərvərim, əhvalımı soruşsan,
Gecə-gündüz işim ahü zardır,
Könlüm qana döndü bu zəmanədə,
Ol səbəbdən belə biqərardır.

Dərdü qəmdən qəddim yayə dönübdür,
Rəngim sarı kəhrəbayə dönübdür.
Vücudum bir müqəvvayə dönübdür,
Görən deyər “surəti-divardır”

Oxşatmışdın məni əhli-xəvasə,
Tiflisdə çağırdın “Məclisi-xas”ə,
Xəyalat istədin məndən xülasə,
Cənabın əşarə xiridardır.

Təsnif eyləmişdim bir yaxşı kitab,
Havanın barişi etdi inqilab,
Bir seylabə düşdüm, oldu misli-ab,
Yoxsa ki, iqrarım o iqrardır.

Genə yazdım qafiyədən, qəzəldən,
Billəm meylin həcvə çoxdur əzəldən,
Böylə həcvü hədyanı düzəldən
Yəqin bil, hamıdan nabekardır.

Şair güzərandan fariğbal gərək,
Həmişə xoşdamaq, xoşəhval gərək,
Bəd keçməyə ona mahü sal gərək,
Bigüzəran şair olan xardır.

Şairlərin piri-süxəndanısan,
Ariflərin sərvəri, sultanısan,
Aşiqlərin dərdinin dərmanısan,
Eşq sözü səndən aşikardır.

Sənin kimi hanı mədəni-kamal,
Bir süxənvər, məclisara əhli-hal,
Ey danayi-xirədməndü xoşməqal,
Məclisinə düşən kamkardır.

Yazdığın hekayət hikmətdir tamam,
Olur ki, eşidə dərk edə əvam,
Xəlayiqə ola misli-iltizam,
Hər nə desən xəlqə, səzavardır.

Çoxdan qalıb bizim millət geridə,
Qor gərəkdir qəlp gümüşü əridə,
Gərçi yoxdur əridən zərgəri də,
Millətimiz məxluqi-biardır.

Bu yerdə arifi bir para qanmaz,
Məzəmmət etməkdən bircə usanmaz,
Kamalını görən məgər utanmaz,
Sakit olmaz, onda nə azardır.

Dünya yoldaşıdır hər millət mənə,
Yaxşı yoldaş əhli-kamaldır yenə,
Ariflərə irad tutan kimsənə,
Mərifətdən necə bərxudardır?!

Arif ki, qabili-izzü cah ola,
Təriqəsi səvab, ya günah ola,
Kişinin ki, şövqü padşah ola,
Bu işlərdə sahibi-ixtiyardır.

Taci-sərim, salma nəzərdən məni,
Arifliyi bəndə səndən öyrəni,
Ölməyibən bir də görsəydim səni!
Çünki gözüm həsrəti-didardır.

Məxdümzadə eşitdim etmiş səfər,
O səfərdə olsun onu müzəffər,
Könül sayəsindən necə əl çəkər?
Çünki kamalına ümidvardır.

Nəxli-şirin verməz acı səməri,
Hər şey öz əslindən əsər göstəri,
Arif kəsin olu arif pesəri,
Yəqin elə, bu söz əslkardır.

Gərək bundan belə, ey kani-kərəm,
Hər söz olsa yazıb, sizə göndərəm,
Axundovlar cümləsinə çakərəm
Mənzurumuz nə söz, nə əşardır.

İstəsəniz birin xeyrə yetirmək,
Hər fəqiri topraqidən götürmək,
Ya birinin ismü rəsmin itirmək,
Sizin əlinizdə nə düşvardır?

Bir iş olsa gəlləm can üzə-üzə,
Olmasa da genə müxlisəm sizə,
Kitabətin yetişməyin yaz bizə,
Yazmasan müxlisin intizardır.

Arif bu yerlərdə gərək düşməyə,
Əhli-hal yox, ona bir dərdin deyə,
Tarı bilir sizin kimi kimsəyə,
Katib bir bəndeyi-cannisardır.

***

# MİR MÖHSÜN NƏVVAB

XIX əsr Azərbaycan elmi-ədəbi-mədəni mühitinin yetirdiyi Mir Möhsün ibn Mir Əhməd Ağamirzadə Qarabaği 1833-cü ildə Şuşa şəhərində Qarabağın tanınmış seyidlərindən olan Mir Fəsih ağanın ocağında dünyaya gəlmişdir. Yeddi yaşında elm öyrənməyə böyük maraq göstərən Mir Möhsün tezliklə ərəb və fars dillərini mükəmməl öyrənmiş, fitri istedadı sayəsində dövrün dəbdə olan kimya, nücum, poetika, tarix, musiqi və s. elmlərinə yiyələnmişdir. Yüksək təşkilatçılıq qabiliyyəti olanh Nəvvab əsrin 70-ci illərində Şuşada "Məclisi fəramuşan" ("Unudulmuşlar məclisi") adlı ədəbi məclisi təşkil etmiş və ömrünün axırına kimi onu uğurla idarə etmişdir. 20-dən çox orijinal əsərin müəllifi olan bu ensiklopedik zəka sahibi həm alim, həm dəyərli pedaqoq və həm də şair kimi müasirlərinin dərin hörmətini qazanmış, adı həmişə xalq arasında ehtiramla yad edilmişdir. Şair 1919-cu ildə Şuşada 86 yaşında vəfat etmişdir. Onun zəngin ədəbi irsinin bir qismi, o cümlədən divanı da nəşr olunmuşdur. (Mir Möhsün Nəvvab. Divan. "Şuşa" nəşriyyatı, B.1999. Təkrar nəşri: "Şərq-Qərb" nəşriyyatı, B.2006. Transfonoliterasiya və tərcümə edərək ön sözlə nəşrə hazırlayanlar: Əli Məmmədbağıroğlu,Arif Ramazanov, Raqub Kərimov). Şeir örnəkləri həmin əsərdən götürülmüşdür.

## Qəzəllər

Keçdi ahü zarilə günüm, oldu qara sənsiz,
Nə lazımdır mənə olsa əgər bu masiva sənsiz.

Yanar eşq atəşinə sineyi-suzan hər ləhzə,
Yetə gər rövzeyi-rizvandan abü həva sənsiz.

Günüzlər biqərarəm, əşkbarəm hicri-ruyində,
Olur niran kimi bəstər mənə leyl-əddüca sənsiz.

Gədalıq rütbəsi xoşdur sənin dərgahi-pakində,
Müti olsa əgər, mən neylərəm, şahü gəda sənsiz.

Əgər Cəmşid olam, yara, və ya İskəndərü Dara,
Degil lazım mənə ayineyi-giytinüma sənsiz.

Cəhənnəm yadi-vəslinlə mənə firdövsi-əladır,
Haram olsun, behiştə gər edəm seyrü səfa sənsiz.

Əlim yetsə əgər ki, Xızrvəş ol abi-heyvanə,
Yəqin et, içmənəm bir cürə mən abi-bəqa sənsiz.

Təvafi-kuyi-pakin olmasa Nəvvabə gər qismət,
Mənayi-eşqdə neylər dəxi səyü səfa sənsiz.

***

Tapdı çün badi-səbadan tabi-ənbərbar zülf,
Aşiyani-mürği-ruhim etdi tarü mar zülf.

Oldu gülzari-behişt ədnində çün bağiban,
Tapdı yarın gülüzarında çü istiqrar zülf.

Rövzeyi-rizvan içində həlqələndi hər tərəf,
Adəmü Həvvanı içva eyləyən şəhmar zülf.

Şəbnəmi-rüxsaridən sirab olur hər ləhzədə,
Tellənir hər dəmdə çün gülzarda əzhar zülf.

İqtiran etdi çü bürci-səd içində şəmslən,
Ta əbəd düşməz vəbalə bəxt dər dəri- tar zülf.

Ənfəsü afaq ol dəmdə edərlər inqilab
Kim, müşəvvəşlig üzünə eyləyə əşar zülf.

Hər kəsi gördü, müqəyyəd eylədi tərsasifət,
Şeyx Sənan kimi saldı boynuna zünnar zülf.

Saldı qeydi-daminə Nəvvabı insaf etməyib,
Sirri-eşqin eylədi aləmlərə işhar zülf.

***

Əzəl günü, ey məh, sənə dildar mən oldum,
Axirdə yenə həsrəti-didar mən oldum.

Gül qönçəsitək bağrımı qan eylədi qəmzən,
Bülbül kimi əfğanə giriftar mən oldum.

Hicr atəşinə canı yanan çoxdu cahanda,
Amma qamusundan da günü tar mən oldum.

Saldın nəzərindən məni, ey Leyliyi-dövran,
Məcnun kimi vəhşilər ilə yar mən oldum.

Fərhadsifət tişeyi-qəm saldı ayaqdan,
Şirin ləbin həsrəti xünbar mən oldum.

Sən mülki-bədən içrə yəqin qütbsən, ey mah,
Başına dolanmaqlığa pərgar mən oldum.

Əğyar olub Kəbeyi-küyində müəzzəm, mükərrəm,
Hicrində, vəli xarü diləfkar mən oldum.

Nəvvabı çəkib dari-qəmə bir büti-rəna,
Mənsur kimi dəhrdə əşhar mən oldum.

***

Fəraqi-yar edib qəlbimi fikar, ölürəm,
Urubdu hicri-rüxü cismi-canə nar, ölürəm.

Vüsalə talibdim əldə nəqdi-canimlən,
Fərağı canım alıb, etdi xarü zar, ölürəm.

Həzar hiylə ilə dam vəsl üçün qurdum,
Xütən qəzali kimi eylədi fərar, ölürəm.

Bu növ dərdi-qəmə, ey xuda, nə çarə edim,
Kəsibdi sayəni sərdən o gülüzar, ölürəm.

Səvad türrələri eyləyib günümü siyah,
Şərarə cana salıb atəşin üzar, ölürəm.

Düşəndə yadıma şirin ləbin şəkkərdəhəni,
O mahi-mehr camalında zülfi-tar, ölürəm.

Xəzan olanda tökər barü bərgini əşcar,
Mənim xəzanıma bax kim, olub bahar, ölürəm.

Edibdi Qeys kimi dəhr içində Nəvvabı,
Olubdu məskən ona dəştü kühsar, ölürəm.

***

Ömrüm qutardı dərdü qəmü ahü zarilən,
Səbrim tükəndi hicri-rüxi-mahi-yarilən.

Gülzari-hüsnə heyf ki, bir etmədim nigah,
Bir ləhzə söhbət eyləmədim gülüzarilən.

Ahu nigahı ilə edib könlümü şikar,
Yarəb, nə eyləyim belə şahin şikarilən.

Şami-fəraqinlə keçər günlərim qara,
Sövdayi-zülfünilə, gecəm şahmarilən.

Bülbül kimi o gül yüzünə həsrət olmuşam,
Allah rizası, qoyma öləm intizarilən.

Yüz min xəyalü ləşkəri-hicrani-bikəran,
Biçarə bir nəfər neyləsin səd həzarilən.

Sayə kimi ayağına baş qoymuşam bu gün,
Olma riza qalam belə mən inkisarilən.

Nəvvabi-zar ahü fəğanilə ruzü şəb,
Gözlər yolun bu dideyi-əncümşümarilən.

***

## Təcnis

Eylə ruyindən o zülfi-siyahi yanə bu gün,
Salgilən şəşəyi-hüsnünü hər yanə bu gün.
Açgilən bircə o məh tələti məstanə bu gün,
Ta ziya bəxş ola şəmi-şəbistanə bu gün.
Şəmi-ruyinə mənəm sevgili pərvanə bu gün,
Aşiqi-suxtəyəm yanmağa pərvanə bu gün.
O büllurun ələ aldın genə peymanə bu gün,
Düşəcək rəxnə yəqin əhdilə peymanə bu gün.
Döndərib gözlərini mey genə al qanə bu gün,
Salacaq aşiqi-biçarəni al qanə bu gün.

Gözlərim yaşı dönübdür genə ümmanə bu gün,
Nə düşər yadıma şahid, nə də peymanə bu gün,
Ahü naləm yetişir xərgəhi-Keyvanə bu gün,
Yox əsər yarıma kim, bir çıxa eyvanə bu gün.
Zülfi-mişkinə məgər yar çəkib şanə bu gün
Ki, düşüb ətir iyi kuhü biyabanə bu gün?
Eylə Nəvvabını bir yad, çıxart yanə bu gün,
Od tuta ta ki, rəqibin dili bir yanə bu gün.

***

## Rübai

Görmədim bir ləhzə mən azadə olsun könlümü,
Qüssəvü dərdü aləmdən sadə olsun könlümü,
Gəşteyi-heyrət içində qalmışam Nəvvab tək,
Haliya, qərq olmağa amadə olsun könlümü.

***

## Millətin birləşməsi haqqında

Ayılın, millət, xabi-qəflətdən,
Qurtarın, qardaş, bu cəhalətdən.

Cümlə millətlər tapdılar rifət,
Saldılar ələ şənilə şövkət,
Cümləsi edər bizlərə töhmət,
Ayılın, millət, xabi-qəflətdən,
Qurtarın, qardaş, bu cəhalətdən.

Ey müsəlmanlar, amandır, aman,
Gülzari-dini etməyin xəzan,
Dərdimiz qalıb cümlə bidərman,
Ayılın, millət, xabi-qəflətdən,
Qurtarın, qardaş, bu cəhalətdən.

Əl çəkin bir dəm iftiraqdan,
Yapışın yeksər ittihaddan,
Qurtarın, qardaş, ehtiraqdan,
Ayılın, millət, xabi-qəflətdən,
Əl çəkin bir dəm bu cəhalətdən.

Millətlər hamı ittifaq alıb,
Aləm əhlinə vəlvələ salıb,
Bizim əhlimiz mat olub, qalıb,
Ayılın, qardaş, xabi-qəflətdən,
Əl çəkin bir dəm bu cəhalətdən.

Bu nə şurişdir, bu nə qovğadır,
Bu nə büğzü kin kim, hüveydadır,
Bu nə bəhsdir, qövli-bicadır,
Ayılın, qardaş, xabi-qəflətdən,
Əl çəkin bir dəm bu cəhalətdən.

İttifaq edib eyləyin səvab,
İftiraq etməyin manəndi-dəvab,
Doğru yoldur kim, göstərir Nəvvab,
Ayılın, qardaş, xabi-qəflətdən,
Əl çəkin bir dəm bu cəhalətdən.

***

## Öz xeyrini fikirləşənlərə

Yaran, nə eyləyək, işimiz ah-zar olub,
Haqq tovsəninə zülmlə batil süvar olub,
Nadan əzizü alim, rəbbani xar olub,
Mənsur kimi mənzilimiz payidar olub,
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

Gah  mürşid ad qoyar özünə, gah müqtədar,
Dini-mübinə rəxnə salıb, eylər iftixar,
Təsbihü teyləsan götürüb eylər inkisar,
Hər kəs əlinə düşsə onu fənnlə soyar,
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

Gah sufi məzhəbinə verir sidqlə rəvac,
Gah dəhri, gahi şeyxiliyə eylər ibtihac,
Gahi üsüli, gahi Kərimxanə ehtiyac,
İslam dininə salır hər biri evicac,
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

Halvanın eşqinə gahi dolma, gahi tərək,
Min hiylə ilə tor quruban eyləyir kələk,
Doymaz qarınları necə ki doymayır nəhəng,
Hər nə danışsalar hamısı hiyləvü cəfəngƏ
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

Gahi deyir atamdı, babam əfzəli-cahan,
Olmuş mürid onlara həm pir, həm cavan,
Onlardan özgə yoxdu dəxi mürşidi-zaman,
Yox məndən özgəsi, dəxi dünyada bigüman,
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

Hər nə danışsalar hamısı lafdır yəqin,
Xudrəyü xudpəsəndü kəlməbazü pürzi kin,
Avarə qoydu milləti bu rəxnəsazi-din,
Təfriqə ümmət içrə salıb etdilər qəmin,
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

Harda qalıbdı alimi-rəbbanilər, hanı?
Gün kimi rövşən eyləyə ta cümlə dünyanı,
Rövnəq verə şəriətə o elmlər kanı,
Nur ilə zülməti, əzizim, axtarıb tanı,
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

Nəvvab ərzi-hal edir şam, həm səba,
Hifz eylə bunların şərə - şurindən, ey xuda,
Eylə hidayət onları, ya mövt, ya rica,
Bu ümməti-Məhəmmədiyə lütf qıl, əta,
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

***

## Şuşa qalasında baş vermiş erməni-müsəlman münaqişəsi haqqında

Müsəlmana ermənilər durdu sataşmağa,
Qarınca tək Qalada qatışıb qaynaşmağa,
Qırallığın yolların üzlərinə aşmağa,
Başlarına böyüklük ciqqəsini saşmağa.

Köçərlini ermənilər əzəlcə yandırdılar,
Xəlfəli qapısında evlərə od qoydular,
Neçə müsəlmanları şəhid edib soydular,
İlan kimi hər birin başladılar saşmağa.

Görən vaxta bu zülmü ermənidən müsəlman,
Difayə hazır olub cümləsi pirü cavan,
Nərə çəkib hər biri manəndi-şiri-jiyan,
Əllərində tüfənglər başladı atışmağa.

Hər səngərdə var idi bir müdəbbir pəhləvan,
O Rüstəmi-Zaltək hər biri şiri-jiyan,
Xalqı tərğib edirdi, mərdliyə hər zaman,
Namərdlik edənlər möhtac olur yaşmağa.

Bir neçə yüz o dəmdə çöldən gəlib atdılar,
Bir gecə rahat olub yeyib, içib yatdılar,
Ermənilər panbığın səhərəcən atdılar,
Dükanına, evinə durdular daraşmağa.

Qətl-qarət etdilər hər gələni, gedəni,
Bellərində tapança, əllərində suzəni,
Dayanmadı qabaqda bircə nəfər erməni,
Üz qoydular evlərə bir parası qaşmağa.

Evlərə, dükanlara od qoydular müsəlman,
Yalo çıxdı səmaya, bir yel qalxdı nagahan,
Yandı evdə, dükanda əksəri pirü cavan,
Sudxana, divanxana başladı alışmağa.

Ermənilərin yarısı od tutuban alışdı,
Şöləsi yanğıların Kərkicahana düşdü,
Övrət, uşaq bir-birə çığrışıban qarışdı,
Dedilər İsa gərək bu dügünü aşmağa.

Cəhənnəmin oduna bu dünyada yandılar,
İslamın həqiqətin böyük-kiçik qandılar,
Müsəlman igidlərin şirü pələng sandılar,
Aciz olub başladı yalvarıb yapışmağa.

Övrət, uşaq, cüməlsi başlarını yoldular,
Ağacda yarpaq kimi titrəyib həm soldular,
Bir parası qaçıban kazarmaya doldular,
Xovf, rəca içində başladı ağlaşmağa.

Davanın üç günündə kəlisanı aldılar,
Əzan deyib şad olub, naqusları çaldılar,
Bir günilə, bir gecə kəlisada qaldılar,
Başladılar erməni millәti çalışmağa.

Havayı neçə güllə gəldi o dəm nagahan,
Şahmar bəy şəhadət tapdı, o nazlı cavan,
Köçdü dünya evindən, mənzili oldu cinan,
Hurü qılmanlar ilə başladı danışmağa.

Az qalmışdı erməni bilmərrə olsun tamam,
Övrət, uşaq, cümləsi üz qoydular xassü amm,
Daşaltına qaçmağa Şahinidən çün himam,
Tədbir etdi böyüklər barışıb qarışmağa.

Bu dəmdə rus qoşunu muziklərin çaldılar,
Papaqları ağacda havaya qalxızdılar,
Çala-çala gəldilər, məscidə çün çatdılar,
Çalışdılar hər biri sülh yolun aşmağa.

Bir böyük xaç əlində xəlfə oldu nümayan,
Yeddi aman baydağı, dövri-bərində əyan,
Neçə böyük erməni cümləsi zarü nəvan,
Boynu kəndirli gəlib keşişlər barışmağa.

Müsəlmanın əyanı dedilər ki, barışaq,
Bu davadan nə gəlir, yaxşı odur qarışaq,
Həmdəm olaq, yar olaq, hörmətlə danışaq,
Lazım deyil bir kəsə bu sülhdən qaşmağa.

Bu vaxtda nagahan cəm oldular cavanlar,
Dedilər ki, necə olsun nahaq tökülən qanlar,
İsa kimi əzası mismarlı pak canlar,
Vacib olub bizlərə ölüncə çalışmağa.

Aqibətbin olmayıb bir-birini yağladı,
Bu bimövqe barışmaq aləmləri dağladı,
Şad olmayan şəxslər qeyzə gəlib ağladı,
Qeyrətü namusdan az qaldı odlaşmağa.

Müsəlmana təəssüb vacibdi, Nəvvabi-zar,
Böylə fərman veribdir o rəsuli-tacidar,
Həmiyyəti olanı hifz eyləsin Kirdgar,
Qeyrətsiz əşxasla izn yox danışmağa.

# İBRAHİM BƏY AZƏR

İbrahim bəy Əli bəy oğlu Fuladov Qasım bəy Zakirin qız nəvəsi, Abdulla bəy Asimin böyük qardaşıdır. O, 1835-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Mehdiqulu xanın himayəsində böyüyən İbrahim bəy mükəmməl saray təhsili almış, fars və rus dillərini gözəl bilmişdir. Bununla əlaqədar olaraq bir müddət rus məhkəməsində vəkillik etmişdir. Genetik olaraq şairlik istedadına malik olan İbrahim "Azər" təxəllüsü ilə fars və Azərbaycan dillərində şeir yazmışdır. Şeirlərinin az bir hissəsi gəlib bizə çatmışdır. "Məclisi-fəramuşan"ın fəal üzvlərindən olmuşdur.

İbrahim bəy Azər 1885-ci ildə Şuşada vəfat etmişdir. Aşağıdakı şeir nümunələri Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" (II cild), Nəsrəddin Qarayevin tərtib etdiyi "Poetik məclislər" kitablarından və AMEA ƏYİ-nin arxivində mühafizə olunan əlyazmalarından götürülmüşdür.

***

## Qəzəllər

Ahu kimi baxanda o məstanə gözlərin,
Baxdıqca eyləyir məni divanə gözlərin.

Fərhad kimi mən kimiyə dağ çapdırır
Şirin baxışlı xosrovi-xubanə gözlərin.

Hər dəm ki, istəsə baxa bir kəc nigah ilə,
Yüz min könül yıxar yenə cananə gözlərin.

Zənciri-eşqini salıban boynuma mənim,
Bak etməyib çəkər məni hər yanə gözlərin.

Eşqin edibdir Azəri-dilxəstənü çünun,
Məcnunsifət salıbdı biyabanə gözlərin

***

Arizin göstər gülə gülşəndə həmralənməsin,
Qəddi-rəna qarşısında sərv balalənməsin.

Zülfi-mişkini-müsəlsəllə xəcil qıl sünbülü,
Çeşmi- məstin nərgisə göstər ki, şəhlalənməsin.

Mahi-nov kimdir günəş rüxsarın ilə bəhs edə,
Bir kəsinti dırnağınla hic qürralənməsin.

Çün könül məhbusdur zülfündə, gəl bir rəhm qıl,
Vurma əl zəncirə zindan əhli qövğalənməsin.

Gər sənin eşqində Azər olsa rüsva, eybi yox,
Kuhkən Şirindən ötrü necə rüsvalənməsin?!

***

Nə qəddir bu, nə qamətdir, sərapa şux rənadır,
Və yainki qiyamətdir ki, aləm içrə bərpadır.

Tənabi-zülfü göz cəlladı tutmuş yüz kəşakəşlə,
Çəkirlər dara mən divanəni, bir xoş təmaşadır.

Ərəqdir arizində, yoxsa şəbnəmdir gülə düşmüş.
Düzülmüş ya ki, məh ətrafına iqdi-sürəyyadır?

Dəhanın nöqteyi-mövhumdur, ya qönçədir, bilməm,
Bunu kəşf eyləmək olmaz ki, bir müşkül müəmmadır.

Deyirlər ildə bir yol gün Əsəd bürcünə nəql eylər,
Bu nə xurşiddir daim Əsəd bürcündə paydadır?!

Sevib Əzranı Vamiq, Leylini Məcnun, olub rüsva,
Sənin eşqində dilbər, Azəri-divanə rüsvadır.

***

Məgər, ey bivəfa, heç yar olanlar yarı sormazlar?
Əsiri- möhnəti-qürbət olan bimarı sormazlar?

Məgər qayib olan yarı xəyala bir gətirməzlər?
Məgər gözdən düşüb yaddan çıxan əfkarı sormazlar?

Qəmi-zülfü ruxunla gecə-gündüzüm keçir yeksan,
Məgər, ey əhdü peymansız, belə qəmxarı sormazlar?

Səba, izhar qıl ol qönçələb yarə bu peyğamım,
Nolub rəsmi-vəfa kim, əndəlibi-zarı sormazlar?

Təəccüb kim əzəl katiblərindən bu vəfa əhli
Neçün yoxdur vəfa bütlərdə, bu əsrarı sormazlar?

Xəyali-nərgisi-məstü qəmi-zülfi-siyahınla
Gecələr sübhədək fəryad edən bimarı sormazlar?

Nə çox izhari-hal eylərsən, ey Azər, bu adətdir
Kim, istiğnalı soltanlar gədayi-xarı sormazlar!

***

# HACI ABBAS AGƏH

Hacı Abbas Hacı Məhərrəm oğlu Agəh təxminən 1836-cı ildə Şuşada anadan olmuş və orada da mədrəsə təhsili almışdır. Qarabağda ilk ədəbi məclis onunevində təşkil edilərək fəaliyyətə başlamış, bir qədər sonra Xurşidbanu Natəvanın sarayında rəsmi şəkildə "Məclisi-üns" adı ilə məşhur olmuşdur.

Əsas məşğuliyyəti sahibkarlıq olan Hacı Abbas şeirə də ciddi maraq göstərmiş, "Agəh" təxəllüsü ilə fars və Azərbaycan dillərində klassik üslubda şeirlər yazmış və"Məclisi -üns"ün fəal üzvlərindən olmuşdur. Ağəh 1892-ci ildə vəfat etmişdir. Aşağıdakı şeir nümunələri AMEA ƏYİ-nin arxivində saxlanılan cünglərdən götürülmüşdür.

## Qəzəllər

Arizin görmək ilə tərki-dilü can etdim,
Bağrımı ləblərinin şövqü ilə qan etdim.

Tərki-can eyləyibən hüsnünə mayil oldum,
Qəmü dərdini könül şəhrinə mehman etdim.

Küfri-zülfün buraxıb dil, yüzünə mayil olub,
Şükrlillah kim, onu tazə müsəlman etdim.

Vəsli-ruxsarını bu xəstə könül istər ikən,
Növki-müjganını dil dərdinə dərman etdim.

Yetməyə ol xəti-rüxsarın üçün gərdi-rəhin,
Didədən əşk səri-kuyinə əfşan etdim.

Müxtəsər olmadı, ünvanı mütəvvəl yazdım,
Zülfünün şərhini sərdəftəri-divan etdim.

Küfri-zülfünlə tutub üns könül, müddətdir,
Ol səbəb tərki-rəhi-din ilə iman etdim.

Görəli gün kimi rüxsarını min izzət ilə,
Gətirib mehrini dil mülkünə soltan etdim.

Agəhi tərk eləyib qeyr ilə tutdun ülfət,
Bivəfa yar, səninlə belə peyman etdim?

***

Əla, ey hüsnünə dünyadə çox məğrur olan yarım,
Cahanda aşiqi-dilxəstəyə mənzur olan yarım.

Nə baisdir ki, xurşid camalın aşikar etməz,
Bu çeşmi- xunfişandan dayima məstur olan yarım.

Məni məstü xərab etmiş gözün oğrun nigah ilə
Şərabi- nabdan nərgisləri məxmur olan yarım.

Qədəm basmaz könlün məmurəsi, hübbün səza qılmaz,
Neçün ol qeyrəti qılman rəsən hur olan yarım?

Vəfadan əl çəkib tərki-cəfa etməz neyçün, yarəb,
Cahanda bivəfalıq rəsminə muzdur olan yarım?

Cəfavü cövri-aşiqdən usanmaz ol pəripeykər,
Tökər hər ləhzədə qanım dili məsrur olan yarım.

Nə görmüş Agəhi-bicarədə bilməm, bu aləmdə
Çəkib əl aşiqindən qeyrlərlə cur olan yarım.

***

Əfşan edəndə arizi-gülnarə tellərin,
Eylər cahanda aşiqi avərə tellərin.

Titrər könül görəndə, edər seyr nazilə
Rüxsarın üzrə əqrəbi- şərarə tellərin

Divanə könlümü yenə zəncirə çəkdirib
Giysuyi-tabdarı necün qarə tellərin?

Əqrəbmisal dövri-ruxi eyləmiş zənn,
Yakin niş urar görəndə dili-zarə tellərin.

Məşşatə, qoyma qət edə, can riştəsin kəsələr,
Zinət verib düzəndə rüxsarə tellərin.

Müddətdi vəslindən məni məhrum eyləmiş,
Qeydi-dildarilə dili-əğyarə tellərin.
***

## SEYİD ƏZİMƏ

Cənab Seyyid, əgərçi sənə ol şux ram oldu,
Mübahat eyləmə, vəhşi əsiri-bəndi-dam oldu.

Hərifan içdilər "Beyti-xəmuşan"da meyi-nabın,
Sizə etdikləri ancaq həvalə dürdi-cam oldu.

O bir xatəm kimi keçmişdi əngüşti-Süleymanə,
O xatəmlə Süleyman həşməti aləmdə tam oldu.

Bu nə adətdi səndə bülhəvəs aşiq kimi hərdəm,
Sənə mehri-Səfa gahi həlalü gəh həram oldu.

Təməttö tapmamış kuyi-Səfadə bir gün ömründə,
Edib səyi-əbəs vəhşi yatağında məqam oldu.

Məhəmməd türbətindən əl çəkibsən, bari insaf et
Ki, axir səcdəgahın görgülən səngi-ruxam oldu.

Çəkilmiş Şişədə ətri-güli-ruxsarı Agah ol,
Füsürdə gül vüsali-bülbülə axir nə kam oldu.

***

## MİRZƏ ƏLƏSGƏR NÖVRƏS

Mirzə Ələsgər Növrəs 1836-cı ildə Şuşada anadan olmuş, ilk təhsilini də orada – üç sinifli İslam mədrəsəsində almışdır. O, ərəb-fars dillərini və şərq poetikasının incəliklərini məşhur alim-müdərris Əbülqasim Qazidən öyrənmiş, rus dilini isə Xankəndi hərbi məktəbində öyrənmişdir. Təhsilini hərbi məktəbdə başa vurduqdan sonra bir müddət yunker kimi fəaliyyət göstərən Ələsgər daha sonra şəhər məmurluğunda tərcüməçi-hüquqşünas vəzifələrində çalışmışdır.

Qarabağda ilk ədəbi məclis yaratmaq təşəbbüsündə olan dörd şəxsdən biri də Növrəs olmuşdur. O, Şuşada fəaliyyət göstərən hər iki məclisin fəal iştirakçısı olmuşdur.

Mirzə Ələsgər Növrəs 1912-ci ildə 76 yaşında Şuşada vəfat etmiş və Mirzə Həsən qəbristanlığında, Zakirin qəbrinin yaxınlığında dəfn olunmuşdur.

Şairin şeirləri nəticəsi Növrəs Növrəsli tərəfindən toplanaraq nəşr edilmişdir: (Mirzə Ələsgər Növrəs. Şeirlər. B., Yazıçı, 1985. Tərtib edərək ön sözlə nəşrə hazırlayanlar: Şamil Cəmşidov və Növrəs Növrəsli). Buradakı şeir nümunələri həmin kitabdan götürülmüşdür.

### Qəzəllər

Tutub məskən könül ol türreyi-tərrar arasında,
Vətən, aqil olan kimsə tutarmı mar arasında.

Könül mülkünü seyd etmiş ol çeşmi-siyəhməstin,
Budur vəhmim, düşə qanlar iki xumar arasında.

Siyəh zülfü necə saziş edər bilməm üzarındə,
Təəccübdür ki, əfi mənzil etmiş nar arasında.

Könül cəmiyyəti-zülfün içində tarü mar olmuş,
Belə aşüftəlik ol şanədəndir tar arasında.

Səfi-zülfün xəyaliylə gecə ta sübhədək Növrəs
Əsiri- bəndi-zindandır, qalıb küffar arasında.

***

Zülfün ucunda yetdi könül paybusinə,
Pamal olsa da yetişib arizusinə.

Yüz hiylə ilə necə pərişan könülləri,
Cəm eyləyibdi silsileyi-müşkbusinə.

Qılsın xilas tari könülləri zülfdən,
Əzbəs ki, zülf qeydi bəladır qamusinə.

Qaldı şkənci-zülfdə, pəndim eşitmədi,
Bir kimsə meyl edərmi görün öz ədusinə.

Sövdayi-zülfə düşdü, yüz il sud görmədi,
Divanə könlümün nə deyim abrusinə.

Qıllam sorağ könlümü zülfündə, rəsmdir,
Divanə sahibi düşəcək cüstücusinə.

Növrəs olubdu şöhreyi-afaq, əcəb degil,
Mayildi el həmişə cünun güftügusinə.

***

Baxıban hər tərəfə dilbəri-ziba gördüm,
Üzü gül, türrəsi sünbül, qəddi tuba gördüm.

Zülfə baxdıqca tənim zəf olur mujimisal,
Edəcəkdir məni divanə bu sövda, gördüm.

Bu nə xilqət, bu nə tələt, bu nə surət, ya rəb,
Qüdrəti-kamiləni bunda hüveyda gördüm.

Müflisi-simü zər olsam, nə qəmim dünyadə,
Bu gözəllər bədənin simi-müsəffa gördüm.

Başa gül taci qoyub, əldə tutub çətri-siyəh,
Bu nəzakətlə salıb şəhrdə qovğa gördüm.

Məmələr baş verib sinəsi üzrə limuvər,
Sərv ağacı gətirib bari-sürəyya gördüm.

Guşvarə asılıb hər birinin guşindən,
Rəşgdən göz-göz olub əqdi-sürəyya gördüm.

Mürdələr hal-təkəllümdə edərlər əhya,
Bunlara ruh verib Həzrəti-İsa gördüm.

***

Çəkmişəm hicran günü mən narü neyran zəhmətin,
Bir müsəlman çəkməsin mən kimi hicran zəhmətin.

Aldın arami-dilim sən, taqətim tağ eylədin,
Dəyməyibdir canə, ey hicran, nə çəndan zəhmətin.

Gecələr göz xabə uymaz ahi-dildən sübhədək;
Pasiban bidar olub çəkməzmi sultan zəhmətin?

Vəslə yetcək, can verib pərvanə öz cananınə,
Şad bulsun, görmədi bu şəmi-suzan zəhmətin.

Qeyrilər bilməz nədir eşq əhlini biganələr,
Arifü dana qəbul eylərmi nadan zəhmətin.

Xəstə canınçın dəvadır, Növrəsa, dərdi-fəraq,
Çəkməsə tapmaz şəfa, bimar, dərman zəhmətin.

***

Zülfün kəməndi könlüm üçün dami-xal olur,
Olmaq xilas könlümə əmri-məhal olur.

Vəchi budur ki, aya üzün nisbət etməzəm,
Gəh bədr olur o mahi-fələk, gəh hilal olur.

Yox özgə rəmzi sirri-ləbin sormuşam əzəl,
"Lam"ı misali-ləl bulur, "ba"yi bal olur.

Seyr etmişəm Xətavü Xütən mülkünü təmam,
Bu gözdə, bu baxışda demə kim, maral olur.

Növrəs, o qarə gözlərə dil vermə, səbr qıl,
Gözdən nəticə mərdüm üçün məkrü al olur.

***

**Gəraylı**

Çərxin yaman gərdişindən
Əcəb sərgərdən mən oldum.
Məcnuntək səhrayə düşdüm,
Rüsvay-dövran mən oldum.

Qəm sipahi dəstə-dəstə,
Hücum eylər mən şikəstə.
Qalmışam biçarə, xəstə,
Dərdi bidərman mən oldum.

Pəvanətək şəmə yandım,
Şirin canımdan usandım,
Leylisiz Məcnuna döndüm,
Dillərdə dastan mən oldum.

Sübhü şam işimdi nalə,
Nağəfil gəldim zəvalə,
Fələk saldı bu əhvalə,
Didəsi giryan mən oldum.

Növrəsəm, həsrətəm yarə,
Qönçətək düşdüm kənarə,
Yarı tapşırdım əğyarə,
Dərdə pasban mən oldum.
***

**Müxəmməs**

Şəriət cadəsində hər kəs istər üstvar olmaq,
Gəpək həqq tərəfdarinə dayim cannisar olmaq,
Nədən bitərbiyət qalmaq, zəlili-ruzigar olmaq,
Kifayətdir bu qədri möhnəti-dərdə düçar olmaq,
Ədəm mülki bizə xoşdur, nəinki böylə var olmaq.

Əgər əmri-rəsulə biz edəydik şövq ilə iqdam,
Oluruq qeyrilər içrə cahanda xeyli nikunam,
Dəxi sərçeşmeyi-insaniyyətdən içmədik bir cam,
Oğurluq ilə qətli-nəfsdən bir olmadıq aram,
Qalıb künci-məlamətdə nədəndir dağdar olmaq?

Dönüb iqbal-idbarə dəxi pəndarlıq xoşdur,
Oyanmaq xabi-cəhlətdən, gözüm, bidarlıq xoşdur,
Təriqi-ittiradi seyr qıl, huşyarlıq xoşdur.
Dəmadəm biz müsəlmanə məgər bədkarlıq xoşdur,
Bizə vacibdir axir sahibi-namusü ar olmaq.

Sədayi-qətlü qarət hər tərəfdən tutdu dünyanı,
Axır abi-rəvantək zülmdən biçarələr qanı,
Müqəssir görməzəm bu əmrdə fitvayi-şeytanı,

Müsəlman firqəsi vacib bilir qətli-müsəlmanı,
Bu bir adətdi qüttaüt-təriqə zülmkar olmaq.

Zəvvali-mahi-ömrə firqeyi-rəmmaldır bais,
Olar icad edən təzvirü məkrü aldır bais.
Qoyan xalqı məzəllətdə o bədəfaldir bais,
Cahan aşubinə hər bisəmər iqbaldır bais,
Bu felə etibar etmək, neçün ümmüdvar olmaq?!

Görərsən qarğu başın eyləyib mum ilə sərbəstə,
Yaşıl parçada bağlanmış həmanə bir dua üstə,
Əcinnə həbs edib qarğu içində dəstəbədəstə,
Budur yəni əlaci-dərdi hər divaneyi-xəstə,
Qəribə elmidir, Növrəs, cahanda cindar olmaq.

***

## Müstəzad

Əfsus, səd əfsus keçdi keçən ovqat,
Bir də gələ heyhat.
Ar ola bizə, əcnəbilərdən geri qaldıq,
Çox müttəhim olduq.
Sərmayeyi-elm idi əzəl hikməti-islam,
Kimdir verə əncam?!
Təhsil qılıb elm-sənaye hamı millət,
Qaldı bizə töhmət.
Elmi-əmələ şövq ilə bir talib olan yox,
Hərzə danışan çox.

Qalmış ədəmi-elm bizə sinəsi dağlı,
Qaldıq gözü bağlı.
“Gülsüm nənə” elmindən, əzizim, nə səmər var? –
Baxma ona zinhar.
İqdam elə şövq ilə olan tazə üsulə,

Xoşdur bu məqulə.
Xalq etdi bizi əhsəni-təqvimdə xaliq,
Ol həmdinə şayıq.

Qoyma qala mirati-zəmirində küdurət,
Aç çeşmi-bəsirət.
Ey dost, nədir şamü səhər qeybətü böhtan,
əldən də kəmakən?
Düşmüş canına bir-birinin cümlə müsəlman,
Nahəq, tökülər qan.
Bəsdir belə sirğət, belə talan, belə qarət,
Bir eylə mürüvvət.
İt sənətinə mayil olubdur, hamı oğru,
Bu kəlmədi doğru.
Yeyib, deməz əlbəttə müsəlman malıdır bu,
Üstündən içər su.
Bir kimsə oğurluğa əgər olsa da möhtac,
Axırda qalır ac.
Çoxlar, gecələr yol kəsibən adəmi soydu,
Qülbədə nə qoydu?
Həngami-oğurluqda cavanlar tələf oldu,
Mərgə hədəf oldu.
Bundan sora Növrəs yazar əhvalı-xoş ayəd,
İnşa dili-xürsəd.
***

## Tərcibənd

Hər kimsənin sənin  kimi bir məhliqasi var,
Könlündə tabü taqəti, gözdə ziyasi var,
Hicran bəlası çoxdu, vüsalin səfası var,
Rəhm eylə könlümə qəmi-biintihası var,
İndi əgər ki, səndə gözəllik binası var,
Məğrur olma hüsnünə, axır fənası var,

Günlər o günlər idi mana qəmküsar idin,
Sən bir vəfalı yar, məhəbbətşüar idin.

Gəl, qıl əsiri-zülfdən azad könlümü,
Bir ləhzə şad eylə bu naşad könlümü,
Qılmış xərabə naleyi-fəryad könlümü,
Qəm atəşi əritdi bu fulad könlümü,
Şuri-nəvayə eyləmə mötad könlümü,
Badi-fənayə vermə bu bərbad könlümü,
Günlər o günlər idi, mana qəmküsar idin,
Sən bir vəfalı yar, məhəbbətşüar idin.

Dərd əhi dərdə gərək aşina ola,
Onda fənayi-eşqdə səyi-səfa ola,
Təslim olub bəlayi-cəfayə riza ola,
Mülki-fənadə talibi-rahi-bəqa ola,
Zənciri-zülfi-dilbər üçün mübtəla ola,
Günlər o günlər idi, mana qəmküsar idin,
Sən bir vəfalı yar, məhəbbətşüar idin.

Qoymadı eşq Növrəsi fərzanələr kimi,
Yoxdu edən cəfalari cananələr kimi,
Bağlandı dil o zülfdə divanələr kimi,
Yandım cəmalı şəminə pərvanələr kimi,
Məst eylədi gözün məni məstanələr kimi,
Viranə qılma könlümü viranələr kimi,
Günlər o günlər idi, mana qəmküsar idin,
Sən bir vəfalı yar, məhəbbətşüar idin.

***

## Qış

Açdı külək qapışın, getdi yenə qar qış,
Bərhəm oleydi görüm, kuçeyi-bazar qış...

...Şiddət ilə tünd bad başladı şamü səhər,
Yeksərə iqbalımı eylədi idbar qış.

Olmadı çöl əhlinə Qələyə rahi-güzar,
Hər dərədə bağlayıb yeddi ərəş tar, qış.

Zahir olub qəhdi-ab, hamı deyir ələtəş,
Atı, ulağı qılıb labüdü naçar qış.

Dörd tərəfə neçə gün əsdidi səxti-sazaq,
Başladı yel vızhavız, etdi qulaq kar qış,

Bir toyuğum var idi, heyf başın kəsmədim,
Bir gecədə dondurub, eylədi murdar qış.

Ət işi müşküldü çox, yoxsul olan neyləsin,
Saldı qəmə aləmi haləti-ətvar qış.

Yağ üç əbbasıdır, şor-penir altı şahı,
Bir yumurta üç qəpik, olsun evin var, qış.

Rəsmdi ki, qış çəkər fasiləsin iki ay,
Bu necə yerdi, xuda, günbəgün artar qış!

Eyləmə qəm, ey könül, çövri-qışa, səbr qıl,
Bir gün olur yaz olar, yaş tökər, ağlar qış.

Baqi ola gər həyat axtarasan sayəban,
Çünki gələr fəsli-yaz, məhv olur asar qış.

Növrəsi-miskin, dəxi fikrü xəyal eyləmə,
Bülbül oxur, gül açar, axır alur xar qış.

***

## MİRZƏ İSMAYIL DARUĞƏ

İsmayıl bəy Mirzə Allahqulu oğlu Axundov (Daruğə) təqribən 1837-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Onun Atası Mirzə Allahqulu Oruc oğlu Qarabağın sonuncu hakimi Mehdiqulu xanın şəxsi həkimi olmuşdur.

İsmayıl bəy ilk təhsilini Şuşada almış, fars, ərəb və rus dillərini mükəmməl öyrənmişdir. Buna görə də o hələ erkən yaşlarından dövlət qulluğunda çalışmış və tezliklə Şuşa şəhəri darğası vəzifəsinə qədər ucalmışdır. O, inzibati-siyasi səlahiyyəti olan bu vəzifədə ömrünün axırına qədər çalışmışdır. Şair vəzifəsinə uyğun olaraq "Daruğə" təxəllüsü götürmüşdür. O, "Məclisi-üns"ün fəal üzvlərindən olmuş, klassik üslubda şeirlər yazmışdır. Şairin az sayda şeirləri AMEA ƏYİ-nin arxivində saxlanılan M-237/2991, D-288/7670, B-867/13920, B-1767/5402, B-724/ 3285 şifrli əlyazmalarında gəlib bizə çatmışdır. Şeir nümunələri həmin mənbələrdən götürülmüşdür.

### Qəzəllər

Yüz dərdlər dəvasıdır ol qarə tellərin,
Etməz nədən bu dərdimə bir çarə tellərin.

Aşiqlərin edirdi pərişan halətin,
Hərdəm düşəndə arizi-gülnarə tellərin.

Badi-səba əsəndə gülüstan hüsnünə,
Sinəmdə yarə üzrə vurar yarə tellərin.

Uymuşdu könlüm o zaman bəndə zülfdə,
Rəhm etmədi o zarü giriftarə tellərin.

Miqrazi- naz ilə onu islah etgilən,
Versin cəzayi-aşiqə kəffarə tellərin.

Rəhm eylədin o zalimə, tədib etmədin,
Mənsurvar çəkdi məni darə tellərin.

Daruqə çəkməz əl belə həblülmətindən,
Gər şanə tək edə onu sədparə tellərin.

***

Müjgan oxu ilə sinəmi et parə-parə sən,
Etmə bu kari-xeyrdə heç istixarə sən.

Birəhm olma, aşiqinəm, rəhm qıl mana,
Qıl bir nəzarə, köksümara ahü zarə sən.

Ta sübh olunca dərdü qəmin pasibanıyam,
Rəhm etgilən bu dideyi-əncümşümarə sən.

Gəl alma canımı dedim oğrun nigahilə,
Çox şaiqəm ki, öldürəsən aşikarə sən.

Qurtar məni, o zülfə əsirəm, dedim, dedi:
Get, get ki, yoxdu çarə sənə, bəxtiqarəsən.

Daruğəni səgi-səri-kuyin hesab qıl,
Tanrı rizasına onu salma kənarə sən.

***

Kuyi daşına vurub başımı əlvan etdim,
Canımı şövqilə cananıma qurban etdim.

Zülfünü badi-səba munca pərişan etmiş,
Ahilə cəmiyyəti-xəlqi pərişan etdim.

O mənim eşqimi məşhur elədi aləmdə,
Mən onun dərdi-qəmin sinədə pünhan etdim.

Yetməsin damənini kim dedim əğyarın əli,
Gözlərimi səri-rahində pigəvan etdim.

Aparıb könlümü bilməm hara pünhan etdi,
Tapmadım, şanəsifət zülfünü hər yan etdim.

Bulmadım dərdimə dərman ətibbadə dəxi,
Yoğurub dərdi-qəmin, dərdimə dərman etdim.

Yetmədi dərdimə ol dadrəsim kuyində,
Bunca Daruğəsifət naləvü əfqan etdim.

***

## Yoxsa yox

Gözüm yollarda qaldı kim gəlirmi yar, yoxsa, yox,
Ki bilməm sən gəlincə canım var, yoxsa, yox.

Günahim ruyi-zərdimdir fəraqında sual etgil
Ki, məndən özgə varmı sübhədək bidar, yoxsa, yox

Gecə ta sübhədək əncüm sayir bu çeşmi-giryanım,
Olubdur həmdəmim gör sabiti- səyyar, yoxsa, yox.

Saqın, əğyarə uyma, yox vəfası əhli-dünyanın,
Tutub hicranla dəvamı edim səd bar, yoxsa, yox.

Deyildin bivəfa bunca, sorardın gəh-gəh əhvalım,
Tutub dövrü bərin bilməm yenə əğyar, yoxsa, yox.

Əlində etibarındır sölə məhbublar içrə,
Fərağımda olub Daruğəyi- bazar, yoxsa, yox.

***

## Teatrda

Olmaz olasan həbsdə sən, mən teatrda,
Ey kaş, olam həbsdə mən, sən teatrda.

Bunlar məni təklif elədi, getmədim əsla,
Gördüm düşəsən yadıma birdən teatrda.

Bir "ah" çəkim, od tuta, aləm yana yeksər,
Qan ağlaya əhvalıma düşmən teatrda.

Əzbəski xəyalımda mücəssəmdi cəmalın,
Görməzdi gözüm gül ola xirmən teatrda.

Sənanə de kim Tiflisə gəl, bağlama zünnar,
Eşq elmini Daruğədən öyrən teatrda.

## MƏŞƏDİ MİRZƏ CƏFƏR HACI SEYİD QASIM OĞLU "CƏFƏR"

Məşədi Cəfərin anadan olma tarixi haqqında əlimizdə məlumat olmasa da, onun XIX əsrin ikinci yarısında yaşayıb-yaratdığı faktlarla sübut olunmuşdur. Firidun bəy Köçərli onun barəsində məlumat verərək yazırdı ki, xasiyyətində qəribəlik var idi. Bəzən bu qəribəlik adamı heyrətə salırdı. Peşəsi paltar satmaq idi. "Moskvadan təzə və köhnə paltar alıb Şuşa qalasında xərid-füruş edərdi. Ziyadə xoşsöhbət və baməzə idi. Hər yerdən və hər elmdən *ittilaatı* var idi və ... bir kəs ilə meyli olsaydı ondan canını və malını əsirgəməzdi." Bununla yanaşı F.Köçərli onun öz xətti ilə yazdığı "böyük bir məcmuəsi" olması barədə də məlumat verir. O, şeirlərini klassik üslubda yazmışdı.

Mirzə Cəfər 1902-ci ilin dekabr ayında özünə sui-qəsd edərək öldürmüşdür. Aşağıdakı şeir örnəkləri Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" (II c. B, 1981) kitabından götürülmüşdür.

### Qəzəllər

Ümmandan xövf eyləməz, bəhrində qərqi-abdır,
Təşnə demək olmaz ona, çün eşqdən sirabdır.

Qaşın təriqi-zahidə bir qiblədir Kəbə kimi,
Göstərməyə hacət yolun min məscidə mehrabdır.

Nuri-cəmalın sərbəsər olmuş ümumə rahbər.
Hər mücrimü hər müşrikə simalərin əhbabdır.

Yelda kimi zülfün siyəh, hüsni-cəmalın mehrü məh,
Yerdə özün insansan, göydə üzün məhtabdır.

Şəhdi-ləbin abi-səfa, mürdə dilə ruhi-bəqa,
Təlx gəlü bimar üçün çün kuzeyi-cüllabdır.

Qönçə ləbin ləli-Yəmən mövcud isə yoxdur dəhən,
Çox çüstücü etdim onu, Ənqa kimi nayabdır.

Məhbubi-yari-dilguşa canbəxşdir sübhü məsa,
Sirkəruxin bədmənzəri əhli-dilə mizrabdır.

Qəlbü dilim əhli-dilin hər zülmünə möhkəmdi çox,
Nazikdi pərri- pəşşədən, naəhlə çox bitabdır.

Çəşmi-xumari-dilbərə sübhü məsa qıldım nəzər,
Dəydi gözə kim, guyiya mən tək o da bixabdır.

Cəfər, qiyami-qamətin kim görməsə nadim olur,
Məhşər günü virdi onun “ya leytəni turab”dır.

Qövli-sərihi-Cəfərə mədhin decə, kazib demə,
Cəfər əgər kəzzab isə, sən söyləmə kəzzabdır.

***

Saqi, mənə, allaha bax, dur badeyi-əhmər gətir,
Canü dilə od salmağa bir şöleyi-azər gətir.

Şuri-sərim şurə düşüb, piri-təriqət axtarır,
Mən gümrəhi-eşq olmuşam, bir saliki-rəhbər gətir!

Bir cürə ver sərgərm olum, məxmurü həm dilnərm olum,
Çünki mənəm piri-kühən, meydən mənə kəmtər gətir!

İbriqi-mey al dəstinə, doldur onu, ləbriz elə,
Peymanəvü rətli-giran, həm camü həm sağər gətir!

Xum xumm ola yoxdur qəmim, sərşarlıq xoşdur mənə,
Mehrü məhi yığ başıma, həm xosrovi-xavər gətir!

Ver mey içim, dövr eyləyim nahəqqdən həqqə tərəf,
Yoxdur pərim dövr etməyə, balü pərü şəhpər gətir!

Mey ver mənə pakü həlal, məmzuc ola şadi, məlal,
Bu tinəti pak etməyə bir badeyi-əthər gətir.

Mən Kəbədən əl çəkmişəm, məbəd mənə meyxanədir,
Mən tək hanı həqqi tapan, bir pakdil kafər gətir.

Meyxanədə carub olam, sübhü məsa fəxr eylərəm,
Bu dərgəhə mən tək hanı bir müxlisi-cakər, gətir!

Çox sərddir təbü məzac, mey vergilən tapsın rəvac,
Gər istəsən sərgərm olum, həm udü həm məcmər gətir!

Mən cəfəriqövl olmuşam, dinimdi dini-cəfəri,
Ney Cəfəri kəzb etməyən, yüz kəzb edən Cəfər gətir!

***

Necə mümkündü, ey vaiz, müsəlmanda nizam olsun,
Həmi əhli-kəlam olsun, həmi əhli-səlam olsun.

Necə insafdır şeytan gəlib görsün bizim əhli,
Atıb şənü cəlalini, müsəlmana qulam olsun?!

Əgər hacı yola gəlsə, əgər vaiz desə doğru,
Bəli, lazım tutar onda gərək dünya tamam olsun.

Bular hər bir müsəlmanı edər qarət ələ düşsə,
Belə felü belə tinət görüm, ya rəb, həram olsun!

Məni yar eyləmə, ya rəb, qiyamətdə bular ilə,
Mənə qismət cəhim olsun, ona cənnət məqam olsun!

Mənə, vaiz, qəmiş qoyma, yeri, rişə həna bağla,
Mənə meyxanə yer olsun, sənə mənzil həmam olsun!

Cəfər, ləğvin təvil etmə, gecə keçdi tamam oldu,
Gecə yoxdur bu Məskoda, hekayətin tamam olsun!

***

Səngdil olduğunu mən əzəli bilmişdim,
Vəsfini etmək üçün bu qəzəli bilmişdim.

Əməli-xeyr varındı nə mənə, qeyrilərə,
Səndəki zahir olan xoş əməli bilmişdim.

Dilbərin baxma dilinə, sözünə aldanma,
Başına yağ çəkən çox keçəli bilmişdim.

Cəfəra, yarı burax, söhbət elə ruhani,
Mən səni şair ilən çox məzəli bilmişdim.

Çək ayağın, geri dur, xeyr sənə xeyr deyil,
Xeyrdən sənə tərəf yox məhəli bilmişdim.

Yeri, əhəstə, yeri, alma belə bari-giran,
Eşqə iqdam edəni çox şələli bilmişdim.

Mali-xalis hanı ki, tikdirəlim tazə libas,
Satdığım köhnələri mən bədəli bilmişdim.

Cəfəra, əcz nədir kim, edəsən canana,
Xeyri tək səngdili mən əzəli bilmişdim.

***

## ŞAKİ ABDAL

Molla Xəlil Molla Hüseyn oğlu Şaki Abdal Şuşa şəhərinə tabe olan Kəbirli mahalının Abdal kəndində təxminən 1840-ci ildə anadan olmuşdur. Ərəb və fars dillərini atasından öyrənmiş, Azərbaycan və fars dillərində klassik üslubda şeirlər yazmışdır. Şair 1894-cü ildə vəfat etmişdir. Mənbələrdə şair haqqında az da olsa məlumat verilir. Buradakı şeirlər AMEA ƏYİ-nin arxivində saxlanılan cüng və bəyazlardan götürülmüşdür.

### Qəzəllər

Əgər zənciri-zülfi-yar boynunda kəmənd olsa,
Könül azad olur qəmdən, əgərçi payibənd olsa.

Liyali-vəsli-ruyinlə qəvara eyş hasildir,
Hücumi-qəm əsər qılmaz müsahib dilpəsənd olsa.

Səri-kuyində neytək naləvü ahindən əl çəkməz
Könül gər tiği-firqətlə müqəttə, bənd-bənd olsa.

Bu viran cismimi sultani-qəm təhdid edər daim,
Vəlakin yoxdur pərva hüsn lütfün gər bülənd olsa.

Kəmal əhli qalıbdır vərteyi-heyrətdə sərgərdan,
Çəkər zillət bəli, aləmdə hər kim ərcümənd olsa.

Əsər qılmaz nəsihət cahilə, bu rəsmi-dirindir
Ki, şirin təlx olur kamında hər kim dərdmənd olsa,

Vüsali-söhbəti-əsbabə çox müştaqdır Şaki,
Nolur bir dəm gəda öz sərvərindən sərbülənd olsa.

***

Fələkdən, ey könül, şaki olub, çox etmə əfqanı,
Budur çərxin təqazası ki, yoxdur əhdü peymanı.

Vəfa ummaq bu dünyadan kamali-cəhlə nisbətdir,
Mərizi-dərdi-dünyanın bulunmaz hiç dərmanı.

Bu dünya ənbiyavü övliyaya kim, vəfa etməz,
Gərək xarü zəbun etsin bizimtək zarü nalanı.

Hədisi-"əlbəlaül-lilvəla" bu əmrə şahiddir,
Cəzayi-səbrə vardır neçə ayati-Qur'anı.

Cəmi ənbiyayi masəbəqdən bir təfəkkür qıl,
Xəyal eylə əzəl gündən Səfiyüllahü Həvvanı.

Olar kim, aşiqü mə'şuq idi xüldi-vüsal içrə,
İçirdi onlara saqiyi-dövran cami-hicranı.

Fələk cahü cəlalın gərdişitək vajigun etdi,
Edib təslimi-divi-Əhriman təxti-Süleymanı.

O İbrahimə kim, Xaliq "Xəlilim" hər kitab etdi,
Ona həm şö'ləvər qıldı müqabil nari-suzanı.

Behəmdullah ki, lütfi-həq mükafatı-təvəkküldən,
Şərari-nari-Nəmrudi edib gülzar rızvanı.

Vəfasın görməyib İsa ki, əzmi-asiman-etdi,
Müsəllət eylədi Musa üçün Fir'oni-hamanı.

Fünuni-hər məqamata ki, yol agəh gərək olsun,
Kəlami-müxtəsər xoşdur, nə lazım şərhi-tulanı?

Müəyyəndir, bəli, hər sübhə şam, şama sübh olmaq,
Nə müşküldür ki, təğyir eyləsin təqdiri-yəzdanı.

Bəlavü möhnəti-əyyamə səbr etmək müdavadır,
Təhəmmüldən səva yoxdur bu dərdin özgə dərmanı.

Cəfayi-dəhrdən hər dəm dili-biçarə Şakidir,
Qalıb girdabi-möhnətdə, dəmadəm eylər əfğanı.

***

Ziyad olduqca firqət, ya əxa, meylim vüsal istər,
Sanasın bülbüli-şuridə gülzari-camal istər.

Görüb viran olunmuş mürği-dil mə'mureyi-vəsli,
Açıb balü pərin, pərvaz edib bir nonihal istər.

Hərarət suzəni çəkdikcə könlüm dəşti-firqətdə,
Ləbi-dildardən bir cür'ə şəhdi-zülal istər.

Mənim kim, kəsrəti-ənduhdan, ənbuhi-hicrətdən
Əfuli-əxtəri bəxtim səadətdən vəbal istər.

Məşəqqət atəşidir müştə'əl kanuni-sinəmdə,
Bu suzi-sinədən əhraqi-aləm ehtimal istər.

Əgərçi təb'i-namövzunumuz mövzun deyil, amma
Bu mə'nidən xəbərdar olmağa bir əhli-hal istər.

Könül qurbana çox talibdi Minayi-müvəddətdə,
Sanasan kəbşi-məzbuhi Xəlili-zülcəlal istər.

Xəlilüllah kəbşi-qeybdən çun kamyab oldu,
Xəlilin, həm sənin şahi-lətifül-e'tiqad istər.

Əgər məqdur olunmazsa bu istida həbibimdən,
Fəvaveyla ki, fikrim özgə əş'ari-məqal istər.

Bu şərhi müxtəsər qıl, Şakiya,tul kəlam etmə,
Kəlami-müxtəsər xeyrül-kəlam olmaq kəmal istər.

## Mürəbbelər

Səhər ki, xabdan bidar getdim suyi-bazarə,
Dolanıban gəzirdim hər tərəf avarə-avarə,
Dayanub eylədim nagah bir nigarə nəzzarə,
Göründü gözümə onda bir tərsayi-məhparə.

Oturmuş, zülflərin tökmüş civari-xali-hinduyə,
Gəhi mədd verirdi nazə, gah çeşmi-caduyə,
Qoyanda damına danə nə xəclin var ahuyə,
Səlamət baş aparsın olunmuş bənd bir tarə.

Seyri-tarını görcək san dil ol zəman cak oldu,
Dağıldı əqlü huşim, didə görcək misli-xak oldu.
Düşüb cəmiyyət qəza bulan ləhzə pak oldu,
Çəkib nalə:-dedim, ey mahvəş, varınsa, qıl çarə.

Könül divanəvəş dutdu səri-kuyində bir məskən,
Xəmi-zülfə uyub həmsayə tarı bəsa xətnən,
Xilas olmağa çalışıb nəhayət, bulmadı bir tən,
Canım gəldi əlindən cana, dönmüş bu könlüm zarə.

Edib səcdə, öpüb xalın bəsi ol çeşmi-sərməstin,
Çöküb zanuya dutdum dəstimə mərmərsa dəstin,
Görüb yavuqdan eşqin məşt təsir nişəstin.
Qəsri-tapdan  çəkdim özüm bir qəd kənarə,

Hədisi-əşəyi-ruyin görənlər məsəl edər ayə.
Qoya bilməz xəyal əsla qərari-hüsnə payə,

Düz gər, Lən-tərami etdirər səd bar Musayə,
Ölüb kuyində qalmaqdan səva yoxdu bir çarə.

Tamaşa eylədim, onda ləbi-ləlin, gül ruyin bərağına,
Düzülmüş xali-hindu sərbəsər xəttin qırağına,
Görən ləşgər gedir turi-təcəllanın sorağına?
Xülasə, Bubəşr çəkmiş mülki-türkün qullarə.

Bənim bu naleyi-zarım qılıb təsir ol xanə,
Dili xali-nuşin təğyir edib döndi insanə.
Qədəm basdı ibadətvar kafər suyi-bicanə,
Sual etdi: -nədir halın təbah, axər, günüqarə?

Dəxi layiq degil, Şaki, müzahim hali-şah olmaq,
Nə lazım cakərə etmək xilaf, əndər günah olmaq?
Bəsi israri-eşq ilə genə ruysiyah olmaq,
Həmin bəsdir ki, yetdin aqibət ol şahi-dildarə.
***

## Növhələr

Əhdi-misaqi-əmanət Kərbəla dəştindədir,
Aləmi-ənvardır Musa, yədi-beyza nədir?

Bu cəfalərdən yetişməz qəlbimə girdi-məlal,
Sübh aşuradı hala yetməyib vəqti-zəval,
Ol səbəbdən intizaram ta görüm bəzmi-vüsal,
Bilmənəm həncər nədir, xəncər nədir, ə'da nədir.

Gər çəkəm yüz möhnəti- qəm eyni rahətdir mənə,
Kərbəla dərdü məlalı eyşü işrətdir mənə,
Çəkdiyim dərdi-müsibət zövqü ləzzətdir mənə,
Ləzzəti-cavid xoşdur, ləzzəti-bica nədir?
Haləti-Kərbübəla qovqası şurəngizdir,

Qisseyi-pürqüssə əhvali-məlalamizdir,
Müxtəsər qıl, Şakiya, tufani-məhşərxizdir,
Kim görə bu həşri, bilməz məhşəri-kübra nədir.

***

Ey bəradər, can Hüseyn, bu şivənü qovğa nədir?
Dəmbədəm bu ah, bu fəryadü vaveyla nədir?

Bu kəlami-qəmfəza hərdəm ki, eylərsən bəyan,
Artırır dərdü qəmim, eylər məni çox natəvan,
Çün belə mə'lum olur, yoxdur həyatından güman,
Zeynəbə səndən sora dünyavü mafiha nədir?

Gərçi Zeynəbdir adım, binti-bətuli-əzhərəm,
Xahəri-qəmdidənəm, amma kəniz getmərəm,
Mən də, qardaş, sən kimi müştaqi-əmri-davərəm,
Cilvəgahi-eşqdə ə'la nədir, ədna nədir?

Firqəyi-əşrarda yox e'tibarü e'tiqad,
Göz dikibdir qətlinə zülm ilə bu qövmi-inad,
Heyf kim, vacib deyil övrətlərə cəngü cihad,
Ta olam qurban sənə, hər dəm bu istiğna nədir?

Çün müqərrərdir gərək çəksin cəfa ali-rəsul,
Olmazam hərgiz cəfayi-əşqiyadən dilməlul,
Gərçi çox müşküldü hicranın, vəli qıllam qəbul,
Aşiqi-biçarayə rahət nədir, iza nədir?

Narə vurmaqda özün olmaz həzər pərvanədə,
Sərberəhnə mən dolannam məclisi-biganədə,
Altı ay qallam yolunda guşeyi-viranədə,
Bilmənəm mənzil nədir, məskən nədir, məva nədir.

Çün bu səhrada yetibdir qətlinə fərman sənə,
Heyf kim, mümkün deyil qurban edəm bu can sənə,

Mən də verrəm bu iki tifli bu gün qurban sənə,
Haqqa qurban olmağa suğra nədir, kübra nədir?

Gər çəkim bu dəştdə yüz min qəmü dərdü bəla,
Bimühaba səbr qıllam ta dəmi-ruzi-cəza,
Qanlı əmmamən əlimdə həşrə gəlləm, ya əxa,
Bilmənəm məhşər nədir, kövsər nədir, tuba nədir.

Ərz qıllam, barallah, ku Hüseyn, ku Kərbəla,
Ku Yezidi-bihəya, ku Xulivü Şümri-dəğa,
Məhşərdə bir şur sallam, titrəsin ərşi-xuda,
Bilməsinlər şiə, hövli-məhşəri-kübranədir?

Çun olub bu matəmə zərrati-aləm dilhəzin,
Şakiyi-dilxəstəyəm, ollam əzadarü qəmin,
Eylə düşmüş başimə şövqilə bu şuri-Hüseyn,
Bilmənəm təb’imdə bu imla nədir, inşa nədir.

***

Qoy vurum şanə mən ol zülfi-pərişanə, Əli,
Heyf ola kim, batacaq zülmilə al qanə, Əli

Bürci-hüsn içrə yüzin mehri- dirəxşandı, Əli
Zülməti-zülfündə ruyin məhi-tabandı, Əli,
Necə görsün ki, anan qanına qəltandı Əli,
Şəm sənsən bana, həm mən sana pərvanə, Əli

Gecələr sübhə kimi yatmamışam rahətilən,
Sən kimi sərvi-rəvan bəsləmişəm izzətilən,
Öldürüblər səni əz bəs ki, oğul, zillətilən,
Ağlamaqdan dönəcək göz yaşım ümmanə, Əli.

Neçə il zəhmətini çəkdim, oğul, şamü səhər,
Yetirirkən səni bu həddə dönüb qanə cigər,

Mənim əhvalıma ağlar mələkü cinnü bəşər.
Çün gəlibdir ananın dərdləri tüğyanə, Əli.

Həsrətim qaldı gözümdə mənim, ey sərvi-rəvan.
Toy otağında səni görmədim, ey tazə cəvan.
İndi gördüm ki, dəgib cisminə min tiri-sinan,
Yandırardım özümü atəşi- neyranə, Əli

Fəramu anladılar zülmilə bu şüur sinan.
Çəkdilər Şamə qətarın əsranın o zaman,
Şamın övrətləri daşlar ata gər fənəzənan,
Həm deyillər anana Şamidə divanə, Əli

Sana qurban olacam mən, ey kani-vəfa,
Qoymadı ağlaya Leylan sana Şümri-dəğa.
Növhəgərdir, sana ümiddi ki, ruzi-cəza,
Şafi ol həşrdə sən Şakiyi-nalana, Əli.

***

## MƏŞƏDİ ƏBDÜLHÜSEYN ŞAHİN

Əbdül Hüseynəli oğlu Şahin təxminən 1840-cı ildə Şuşada Hacı Yusifli məhəlləsində anadan olmuş, təlim- tərbiyəsini də orada almışdır. Kiçik yaşlarında atadan yetim qaldığı üçün o, Qarabağda anasının adı ilə "Fatıoğlu Əbdül" kimi daha məşhur olmuşdur. Əsas məşğuliyyəti ticarət olan Məşədi Əbdül ömrünün axırlarına yaxın Petrovski şəhərinə köçmüş və qardaşları ilə orada yaşamışdır. Olduqca hazırcavab, baməzə bir şəxs olan Əbdül ictimaiyyət arasında dərin hörmət qazanmışdır. Şair əvvəlcə "Rəhzən", sonralar isə "Şahin" təxəlüsü ilə yazıb yaratmışdır.

Məşədi Əbdül 1896-cı ildə vəfat etmişdir. Şairə məxsus aşağıdakı şeir nümunələri F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" (II c. B.1981) və Müctəhidzadənin "Riyazül-aşiqin" əsərlərindən götürülmüşdür.

### Qəzəllər

Salıb məni qəmi-eşqin bir elə halə, balam,
Göz ilə görməyəsən, gəlməzəm xəyalə, balam!

Şikayəti-şəbi-hicranı birbəbir edərəm,
Yetişsə bir də əlim dəməni-vüsalə, balam!

Qaşın şəbahəti tiği-Əliyyi-İmrandır,
Üzün Məhəmmədə bənzər, qaşın hilalə, balam!

Siyahpuş olub gizlənibdi zülfündə,
Yəqin kəmində yatıb arizində xalə, balam!

Tamami-xəlq edər Kəbeyi-xudayə sücud,
Əgibdi qibleyi-qaşın məni şimalə, balam!

Yenə xummar gözün ox çəkib kəman tutmuş,
Yəqin veribdir ona ləblərin piyalə, balam!

Olur günah edən mərd davərə Rəhzən,
Sənə məhaldır üsyan gələ xəyalə, balam!

***

Ya rəb, nə oldu bülbülə, gülzarə gəlmədi,
Şaxi-gül üstə gəlməyə göftarə, gəlmədi?!

Ya mümkün olmadı keçə seyli-sirişkimi,
Ya kim, düşüb yüzündə gözü qarə, gəlmədi.

Müjgan oxun o qaşı kaman vurdu sinəmə,
Səyyadə bax ki, seydə vurub yarə, gəlmədi.

Can riştəsi əlimdə bəha tari-zülfünə,
Gözlər gözüm o Yusifi, bazarə gəlmədi.

Hər qədr dəydi səngi-məlamət bu cismimə,
Bir dəm hədisi-eşqini inkarə gəlmədi.

Qəddim kəman olub qaşı tək intizardən,
Bəxtim kimi o türrələri qarə gəlmədi.

Şahin, səbu su üstə sınar, şanə zülfdə,
Yoxsa, çəkildi zülfdə dil darə, gəlmədi?!

***

Bülbüli-dil meyl edib gülzar içində bir gülə,
Tutiyi-can arizumənd oldu bir şirin dilə.

Qönçeyi-ləli-ləbi-cananə meyl eylər könül,
Qanə dönmüş tazədən təng olmaq istər hövsələ

Mahi-gərduni müqabil tutmazam ruxsarına,
Gərçi ürf içrə olur təşbih naqis kamilə.

Bağban gər həşrədək şümşadü ər-ər bəsləsə,
Nəxli-qədditək sənubər daxi gəlməz hasilə.

Mürği-dil bir gülbün üstə aşiyan etmək sevər,
Yalvarır gah bağbana, gahi gülə, gah bülbülə.

Şami-eydi-vəsl üçün yandırmağa cismim nədir,
Min belə xaşakım olsa, yandırıb verrəm yelə.

Cəbrəili-dil gətirmiş kuyinə bu Şahini,
Ta verə qurban Minayi-eşqdə İsmailə.

***

Könül, səyyad imiş, çeşmi-qəzalinə yaxın durma,
Baxanda zəxmdar ahu kimi çox boynunu burma.

Gəzib zülfündə dil ehramə şut eylər, dəlilimsən,
Dolanım başına, qurban kəsilər, çox dolandırma.

Hicab etmə əlin rüxsarına, cismim tutar atəş,
Büluri gün qabağına tutub, haşa ki, yandırma.

Qaçar şahü gəda qarureyi-ahim şərarından,
Amandır, padşahım, qorxuram, qeyr ilə oturma.

Özünə aşiyan tutma səri-zülfi-pərişanı,
Misali-kermi-bile başına, biçarə, tor qurma.

Dedi əğyar qanın içməyə qəsd etmə, ey Şahin,
Çibin qanı həram olmaz, nahaq könlün bulandırma.

***

Dərildim bəzmi-gülzari-nigarımdan alaqlartək,
Saraldım cuybari-əşki-çeşmimdən calaqlartək.

Xədənki-qəmzəsi dəlmiş dili-zari miyanından,
Dolandıqca olur piçidə zülfə tağalağlartək.

Müqabil mehri-ruyindən sənə mümkün deyil durmaq,
Dolan şamü səba zülfündə, ey dil, yapalaqlartək.

Rəqibin tişeyi-zülmilə dərgahından ol yarın
Atıldı təxteyi-cismi-zəifim qamqalaqlartək.

Həvayi-vəslinə bir sadə tiflin pirkən düşdüm,
Qəmi-hicri töküldü üstümə qalaq qalaqlartək.

Ləbi-ləli içər əğyar ilə cami-meyi-gülgun,
Bu möhnətdən dönər qanə könül hər dəm dalaqlartək.

Salıb çahi-zənəxdanına güya, qanlıdır könlüm,
Ayağına vurub zəncir zülfün qandalaqlartək.

Üzülsə can, qoyub əğyar dəsturül-əməl, Şahin,
Ayağ basmaz təbibim başım üstə yatalaqlartək.

***

İsasifət çəkibdi məni darə tellərin,
Bais könüldü, bənzəsə zünnarə tellərin.

Dil şərhələndi şanəsifət, düşdi payinə,
Al dəstinə, onunla, gözəl, darə tellərin.

Verdim inani-könlümü bir nöqtə xalinə,
Saldı şikənci-həlqədə pərgarə tellərin.

Çin əhlidir, xətası var, imanı yandırır,
Eylər sücud atəşi-rüxsarə tellərin.

Gülzari-hüsnünə dağılıbdır bənəfşəvar,
Üftadə könlümü qoyub avarə tellərin.

Dövri-rüxində şəşəəyi-mehr tək bulur,
Gər dudi-ahim eyləməsə qarə tellərin.

Nari-fəraqi Şahinə gördün rəva, vəli
Qarə üzünü qarə qoyub qarə tellərin.

***

Vəzirü şahı qılır eşq xəstə, möhnətdən,
Nə ağıldan buna bir çarə var, nə dövlətdən.

Qəza xədənginə sinəm düşüb dili-büryan,
Nə oldu baisi bilməm ki, keçdi qismətdən.

Sənəmlər eşqi ilə ömr keçdi səndən əzəl,
Keçərmi həqq görəsən aləmi-cəhalətdən?

Hər ay başında məhi-növ qaşınla bəhsə çıxar,
Vəleyk qaş qaralanda batar xəcalətdən.

Cəfaya tab qılıb düşmədim biyabanə,
Səfeh olmasa bir kəs, qaçarmı qismətdən?

Gözündən əşki-rəvan cuybar olub, Şahin,
Nə hasil oldu sənə yari-sərvqamətdən?

***

Eşq divanəsiyəm, zülfün olub zəncirim,
Yoxdur aləmdə bir aqil kim, edə tədbirim.

Dedin öldürrəm əgər kuyimə gəlsən, gəlirəm,
Nə sənin doğru sözün var, nə mənim təzvirim.

Cümlə üşşağına düşnam verib şad etdin,
Salmadın yadə məni-zari, nədir təqsirim?

Qönçəni açdı ləbin, halını sordum, dedi kim,
Döndərib bağrımı qanə, kəsilib təqririm.

Cəm edib tənə daşından özümə ev tikdim,
Ah, Şahin ki, sirişkim pozacaq təmirim.

***

Keçən gecə mənə bir mahparə həmdəm idi
Ki, şəmi-arizi xurşidi-zülməti-qəm idi.

Girəndə məqribi-zülf içrə şəms rüxsarı,
Dedim, qiyamət olur, çünki özgə aləm idi.

Məni-fəqr ilə gəlmişdi saxlasın ehya,
Neçün ki, mahi-mübarək şəbi-müəzzəm idi.

Oxurdum ayəyi-leys, ki misləhu şey.
İnandım onda ki, ənzarda mücəssəm idi,

Nüzuli-sureyi-Quran o gecə olmağına,
Nəzərdə xalü xəti bir dəlili-möhkəm idi.

Xülasə, ol gecə cövşəni-kəbir zülfündən
Açıldı üqdeyi-dil, çünki ismi-əzəm idi.

***

Naz ilə bu nazəninlər şil-küt eylərlər məni,
Öldürüb quş tək dübarə baş-köt eylərlər məni.

Mən nə günə adəməm, ya rəb, bu gəndümgunlər,
Kim, tənuri-eşqdə daim küt eylərlər məni.

Oynaram hər vaxt nərdi-hüsndə bir xal ilə,
Şeşdəri-heyrətdə mat oldum, Lut eylərlər məni.

Nimxənd ilə salırlar üstümə bari-ələm,
Göstərib qərbal ilə su, hut-hut eylərlər məni.

Seyd edərlər ki, məni, Şahin, bu ahu gözlülər,
Bir-birinə gah tazi tək, tut-tut eylərlər məni.

***

Vaiz görüb qabaqda ol sərvqaməti,
Tulani etdi qisseyi-ruzi-qiyaməti.

Faş etdi sirri-eşqimi bu ah dəmbədəm,
Məlumdur ki, dud olur ataş ələməti.

Sordum dodağı açmadı sirri-dəhanini,
Bildim ki, dildədir hamı kəşfi-kəraməti.

İçdim ümidi-əfv ilə mey, vaiz etdi tən,
Bildim bu işlərin olacaq bir nədaməti.

Düşməzdi Qeys çöllərə Leyladan əl çəkib,
Olsaydı mən tək eşqdə gər istiqaməti.

Va xicləta ki, canı neçün yarə vermədim,
Ruzi-vida istədi məndən səlaməti.

Şahin bilir ki, müfti onu səngsar edər,
Səngər qılıb vücuduna səngi-məlaməti.

***

# SƏDİ SANİ QARABAĞİ

XIX əsr Qarabağ ədəbi mühitinin yetirdiyi istedadlı sənətkarlardan biri --Sədi Ocaqqulu oğlu Sani Qarabaği 1841-ci ildə Qarabağın Cinli kəndində dünyaya gəlmiş, ilk təhsilini də orada almışdır. Gənc yaşlarında Türkiyənin Amasiya şəhərinə gedərək orada təriqət başçısı kimi böyük şöhrət qazanmış Şeyx Mir Həmzə Nigarinin yanında təhsilini davam etdirmiş və bir müddətdən sonra vətəni Qarabağa gələrək orada yaşayıb-yaratmışdır. Sədi Sani Qarabağda fəaliyyət göstərən ədəbi məclislərdən heç birinin üzvü olmasa da, orada iştirak edən əksər şairlərlə yaxın dostluq və qarşılıqlı yaradıcılıq əlaqəsində olmuşdur. Türk tədqiqatçı alimi Nevzat Köşoğlunun verdiyi məlumata görə, şair 1879-cu ildə Amasiyada vəfat etmiş və orada da dəfn olunmuşdur.

Şairin divanı üç fərqli nüsxədə günümüzə qədər gəlib çatmışdır və 2014-cü ildə nəşr olunmuşdur (Raqub Kərimov, İlahə Vəliyeva "Sədi Sani Qarabağinin həyat və yaradıcılığı. Əsərləri. B., Elm və təhsil, 2014). Seçilən şeir örnəkləri həmin əsərdən götürülmüşdür.

***

## Qəzəllər

Şəfəqi-gündümü, ya arizi-canandımı bu?
Şəmi-suzandımı, ya mahi-dirəxşəndımı bu?

Dəstə-dəstə tökülən qaməti-xoşrəftarə,
Zülfi-mişkindimi, ya dəsteyi-reyhandımı bu?

Göstərir həşrü qiyamət hərəkatı xəlqə,
Qədi-rənadımı, ya sərvi-xuramandımı bu?

Zülfi-şahmar kəsib üstünü, qoymaz əl uram,
Sibi-zərrindimi, ya künci-zənəxdandımı bu?

Danışanda şəkərin kəlməsi can tazələyir,
Ləbi-gövhərdimi, ya lölöü mərcandımı bu?

Görünür yarın otağı gözə hər dəm, bilməm
Dari-cənnətdimi, ya qəsri-Süleymandımı bu?

Yar ayağında fəda eylədiyin, ey Sədi,
Cani-şirindimi, ya qoç kimi qurbandımı bu?

***

Hər zaman qarşıda ol qaməti-canan dolanır,
San səhər yellər əsib, sərvi-xuraman dolanır.

Titrəşir zəlzələtək rişteyi-əndami-bədən,
Görsə göz yüzdə əgər zülfi-pərişan dolanır.

Bu əbəsdir dedilər kafərə cənnət yoxdur,
Küfr zülfün niyə bəs yüzdə xuraman dolanır?

Qəddi-dildarə gözüm eyləsə hər vəqtə nəzər,
Ruzi-məhşər görünür gözlərimə, can dolanır.

Bükülüb könlüm evi qanə dönər, görsəm əgər,
Sineyi-yardə ol üqdi-giriban dolanır.

Kəsməzəm mən nəzəri çöhreyi-məhvəşlərdən,
Nə qədər hali-həyat üzrə ki, canan dolanır.

Uçar amaci-könül, can sökülər, ey Sədi,
Ceşmi-xummardə hər ləhzə ki, müjgan dolanır.

***

Cami-şərabi-eşqdən məstanəyəm, məstanəyəm,
Carub əlimdə, xadimi-meyxanəyəm, meyxanəyəm.

Mehrabü məscidü Kəbədən fərq etməsəm bütxanəni,
Naseh, nəsihət eyləmə, divanəyəm, divanəyəm.

Yanmaq üçün könlüm dilər hər dəm liyali-vəslini
Kim, bir cəmali-şəm üçün pərvanəyəm, pərvanəyəm.

Miftahi-babi-könlümü hər zahidi-naməhrəmə,
Verməm, kənuzi-eşqə mən kaşanəyəm, kaşanəyəm.

Divaneyi-eşqəm, bəna kimsə nəsihət etməsin,
Yüz nasehi-deyrindən fərzanəyəm, fərzanəyəm.

Saqi, içim, ver sağəri-səbha diyari-eşqdə,
Sirab qıl kim, təşneyi-peymanəyəm, peymanəyəm.

Tərk eylə, Sədi, varını, mali-fənadan kəs təmə,
Şükr eylə həqqə, aşiqi-cananəyəm, cananəyəm.

***

## Qoşma

O süzgün baxışın qəzalə bənzər,
Çəmən üzrə nərgis olmaz gözüntək.
Nadir olur gövhər sədəf içində,
Dürctək ağzından çıxan sözüntək

Qaşların tən edər yengi hilalə,
Cəmalın qəmindən dağlandı lalə.
Bülbültək eşqində çəkərəm nalə,
Bağda bitməz gül yarpağı yüzüntək

Sənintək məhvəşin, bir xoşcəmalın,
Güftarı şəkərtək tutıməqalın,
Görməyib aləmdə Sədi misalın
Gözəl olmaz, gogçək olmaz özüntək
***

## Təcnis

Şəms ilən qəmərin bilməz fərqini,
Bərabər eyləyən ayilən səni.
Əhdim budur, yarı görsə gözlərim,
Bu məst gözdən görə ayilən səni.

Könül səvar oldu xəyal atına,
Katib gərək yaza xəyalatına,
Könül, düşmə zülfün xəyalatına,
Sağın, gəz, çalmasın ay ilən səni.

Cəmalından şölə alıb ayinə,
Sanma Sədi, yar ahidən ayinə.
Bənzədirsən yraı çərxin ayinə,
Həzər et, kəsməsin ayilən səni
***

## Müxəmməs

Eyləmiş bağrımı qan çöhreyi-alı gözəlin,
Dal edib qəddimi əbruyi-hilalı gözəlin,
Dutdu könlüm quşunu daneyi-xalı gözəlin,
Gün kimi gögdə salıb şölə cəmalı gözəlin,
Huşu başında dürüst əqlü kəmalı gözəlin.

Yüzi cənnət gülüdür, qəddi sənubər, nə deyim?
Rəşheyi-şəhdi-ləbin çeşmeyi-Kövsər, nə deyim?
Müxtəsər, şişədir əndamı sərasər, nə deyim?
Qarabağ içrə buna yoxdu bərabər, nə deyim?
Dildə daim dolanır fikrü xəyalı gözəlin.

Eyləsəm bir neçə əşxasilə minnət, görəsən,
Eyləyərmi bizə insafü mürivət, görəsən?
Canibi-bəndəyə eylərmi nəzarət, görəsən?
Səbt edərmi sinəmə zəxmü cərahət, görəsən?
Canə oxdur nəzəri-vəhşi qəzalı, gözəlin.

Alasan zülfün ələ, seyr edəsən şanə kimi,
Verəsən mürği-dilə xali-ləbin danə kimi,
Yanasan atəşi-rüxsarına pərvanə kimi,
Düşəsən Məcnun olub çöllərə divanə kimi,
Gəzə dildə həvəsi-Leylimisali gözəlin.

Sədiya, gör, gözəlin vəsfini yüz dillər oxur,
Bu gülün vəsfini yüz sən kimi bülbüllər oxur,
Sifəti, tellərini susənü sinbüllər oxur,
Baği-cənnətdə sifatın neçə min güllər oxur,
Yer yüzin dutmuş əcəb qönçə dəlalı gözəlin.

***

## Müstəzad

Gör qozlu çayı, zahid, unut baği-behişti,
Rizvani-əzəldir.
Gözdən itirib bir çəməni-cənnəti-həşti
Firdovsa bədəldir.
Kəhrizlərin üstündə olan çeşmeyi-xişti
Ənhari-əsəldir.

İnkar qılıb huriyi-rizvani-behişti
İqlimi gözəldir.

Ziba yerə nisbət görəməm zahidi-zişti,
Qılmana xələldır.

Dünya yüzinin cənnəti gerçək bu çəməndir,
Bir yaxşı nəzər qıl,
Gəz rövzələrin, gör nə əcəb baği-səməndir,
Cənnatə güzər qıl.
Hər şaxi-gilas danəsi bir ləli-Yəməndir,
Gəz, seyri-səmər qıl
Adəmləri çox arifi-əşarü süxəndir,
Ey təb, həzər qıl.
Manəndi –sədəf urmiyələr ağzına müşti,
Nə dürri-əzəldir.

Bağdada münasib deməsin kimsə bu bağı
Mümkündü misalı.
Verməm bir içim suyinə iqlimi-İrağı
Münkirdi zülalı.
Seylabə verər hər çayı, hər çayü bulağı
Olmazmı məhalı.
Məhvəşlərinin qaşları atmiş dərə tağı
Xəm qıldı hilalı.
Bir təhr ilə təhr eylədilər tаği-kınışti
Mənzuri-miləldir.

Avarə düşər mən kimi görsə vətəndən,
Onda olu pabənd,
Giysuləri mişki tökübmahuyi-Xütəndən
Xubları xirədmənd,
Tuti kimi goftarları şerü süxəndən
Xoşnitqü şəkərxənd,

Xoşdur Sıracıq qəryəsi rizvanı-ədəndən ,
Olmaz buna manənd.
Ya bunda qılıb həqq əsəri-Şamü Rəşti,
Ya Çini-çəkəldir
Nola belə xoş gülşənə bülbül ola Sədi,
Olmaz belə ayin.
Pabəsteyi-zənciri-təsəlsül ola Sədi,
Ey Leyli şəlayin,
Sağisifət, əldə qədəhi-mül ola Sədi,
Ey hasidi-bədbin.
Müştaği-təmaşayi-rüxi-gül ola Sədi
Sərmənzili gülbin.
Məcnun kimi azad ola, seyr eyləyə dəşti
Hər müşküli həldir.

***

# FATMA XANIM KƏMİNƏ

Mirzə Fatma Mirzə Bəybaba Əliyarbəyzadə qızı Kəminə 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Onun atası “Fəna” təxəllüsü ilə şeir yazan Mirzə Bəybaba Mirzə Fətəli Axundzadənin Qarabağda dostluq etdiyi dövrünün tanınmış mütərəqqi ruhlu ziyalılarından biri idi. Erkən yaşlarında fitri istedad sahibi kimi tanınan Fatma xanım Kəminə hələ gəncliyində ədəbi ictimaiyyətin dərin hörmətini qazanmış, onun adı dövrün “Təzkireyi-Nəvvab”, “Riyazül-aşiqin”, “Təzkireyi-Ziyayi” kimi mötəbər mənbələrində ehtiramla yad edilmişdir.

Şairənin ailə həyatı uğurlu keçməmiş, dörd il ömür sürdüyü sevimli əri Sadiq bəy vaxtsız vəfat etdikdən sonra ömrünün axırına kimi övladlarını təkbaşına böyütmüş, bir daha ərə getməmişdir. O, 1898-ci ildə Şuşada vəfat etmişdir.

Mənbələr şairənin yaradıcılığı haqqında fərqli məlumat verirlər:

Məhəmməd ağa Müctəhidzadə İsgəndər bəy Rüstəmbəyov onun çoxlu sayda şeirləri, hətta divanı olduğunu və bu divanı özləri şəxsən gördüklərini yazsalar da, Mir Möhsün Nəvvab onun cəmi 300-400, Firidun bəy Köçərli isə 400-500 şeiri olduğunu qeyd edirlər. Əfsuslar olsun ki, sözügedən divan bu günə qədər tapılmamışdır. Şairənin müxtəlif cüng və əlyazmalarında qorunub saxlanılan şeirlərini yazıçı Əzizə Cəfərzadə 1971-ci ildə toplayıb”Gənclik” nəşriyyatında çap etdirmişdir. Buradakı şeirlər AMEA ƏYİ-nin arxivində saxlanılan cünglərdən götürülmüşdür.

## Qəzəllər

Rəhi-eşq içrə mənzurum mənim ol tacdarımdır,
Könül mülkündə sultanım, xüçəstə şəhriyarımdır.

Əgərçi guşeyi-qəmdə şikəstəxatirəm, lakin
Səri-kuyində dövr edən xəyali-biqərarımdır.

Kəməndi-eşqinə bağlı gedib könül, inanmazsan,
Yoluna göz dikən şahid dü çeşmi-əşkbarımdır.

Şikənci-zülfdən könlüm mutəvvəl arizu eylər,
Səri-zülfün kimi bərhəmü pərişan ruzigarımdır.

Sənin əğyar ilə könlün əgərçi şadü xürrəmdir,
Həmişə naləvü əfğan mənim də şüğlü karımdır.

Sənin gər var isə qaməti-mövzun, ruxi-gülgünun,
Mənim də dövlətü cahım bu eşqi-paydarımdır.

Kəminə bivəfa görsə səni, vallahı incinməz,
Səni məndən iraq edən bu bəxti-kəcmədarımdır.
***
Saqiya, mey ver ki, mən meyxanədə küllənmişəm,
Qəm hücumundan qaçıb bir guşədə gizlənmişəm.

Qan olub könlüm mənim bu badeyi-səhba kimi.
Dürdi-meytək şişədə çoxdan qalıb lillənmişəm.

Bir sənubər qamətü gülpeykərü Leyliveşin
Valehü heyraniyəm, Məcnunsifət çöllənmişəm.

Sordum ol limuyi püstanidən niyə pəjmürdəsən?
Səngdillərdən şikayət etdi kim, əllənmişəm.

Hər yetən bir böylə məcruh edibdir sinəmi,
Zəxm zəxm üstən dəyib, çoxdur yaram, illənmişəm.

Ey Kəminə, saqi ər yar olsa, yarə ərz elə,
Saqiya, mey ver ki, mən meyxanədə küllənmişəm.
***

Könül, aldanma, bu çərxi-fələkdə etibar olmaz,
Vəfa bir kimsədə gər olmasa, namusü ar olmaz.

Fərar et zülf damından, gəl uyma daneyi-xalə,
Hidyət övcünə seyr eylə kim, şahin-şikar olmaz.

Mükərrər cövrlər qıldın mənə, ey şüxi-bipərva,
Nədəndir bir usanmazsan, məgər ruzi-şümar olmaz?

Meyi-gülgün ilə saqi edər ləbriz peymanə,
Ləbintək nəşeyi-ruhani verməz, xoşgüvar olmaz.

Görüb peymaneyi-hüsnün, gözüm, könlüm dönüb qanə,
İçən kəs badeyi-eşqini, billah, huşyar olmaz.

Yədi-qüdrət çəkən bu surətin görsə əgər Mani,
Olur bərhəm nigaristanı-Çin, nəqşi-nigar olmaz.

Dəmadəm könlümü qan eyləyir əğyar tə'n ilən,
Cəfayi-xardən bülbül, bəli, güldən kənar olmaz.

Əgər mə'şuqdən aşiq cəfa gördükcə tab etsə,
Vəfasız mahrulərdən ölüncə şərmsar olmaz.

Əgər səbt olmasa lövhi-cəbinində əzəl gündən,
Kəminə, bir bəlayə sən kimi kimsə düçar olmaz.

***

Düşər könlüm, əzizim, qanə sənsiz,
Gələr şamü səhər əfğanə sənsiz.

Səninlə düzəxin narına yannam,
Behiştdə baxmazam qılmanə sənsiz.

Edən abad me’mari-vüsalın
Olubdur hicrdə viranə sənsiz.

Musəddər bəzmi-vəslində olan dil
Neçün hicran çölündə yanə sənsiz?!

Gülüstani-vüsalə həsrət oldum,
Dönüb aləm mənə zindanə sənsiz.

Ənis olmuşdu dil ol şəm’i-qəddə,
Yanar, billah, neçə pərvanə sənsiz.

Nə sənsiz qəm əyağına əl urram,
Nə də nuş eylərəm peymanə sənsiz.

Olur bəhrəm, pərişan qanə dönmüş
Könül, zülfə çəkəndə şanə sənsiz.

Dilimdə zikrimsən, könlümdə fikrim,
İki aləm dəxi əfsanə sənsiz.

Kəminə, ey hərifi-bimürüvvət,
Ola, qorxum budur, divanə sənsiz.

***

Cövri-rəqib, sərzənişi-əhli-ruzigar
Qoymaz qılam bu dərdi-dili yarə aşikar.

İşrətsərayi-könlümü, ey yari-tündxu,
Hər dəm cəfavü qəhr ilə gəl etmə tarmar.

Hicrində dürri-əşk, vüsalında nəqdi-can
Bilməm, hüzurü qeybətdə eylərəm nisar.

Gülşəndə gör nə şur ilə bülbül fəğan edir.
Guya ki, şax üzrə gülə həmdəm oldu xar.

Dil intizari-vəsldə pamali-fikr olub,
Tən atəşi-fərağdə cün muy biqərar.

Gər feyzi-cami-eşqi-həqiqətdə məstsən,
Əhsənət, xoş məqamda sən, olma huşyar.

Dövran ki, saqiyi-qəmə olmuş həvalə, gör,
Bu dövrdə Kəminə kimi kimdi kamkar.

***

Ey dil, rəva deyil ki, mən əğyarə yalvarım,
Sən rəhnümalıq eylə, gedim yarə yalvarım.

Murü mələxü mö'minü abidi-mütməin,
Lütfi-xudayi- qadirü qəffarə yalvarım.

Rumü firəng, özbəkü hində nə ehtiyac,
Qeyr əz xuda gedim necə tatarə yalvarım.

Hər vəqt təngə düşsən, əlindən tutar Əli,
Müşkülgüşadı, Heydəri-Kərrarə yalvarım.

Hər dəm qılır cəfa mənə çun tə'n ilə rəqib,
Şahi-qəyurü qolsuz ələmdarə yalvarım.

Kani-vəfavü qeyrəti-Abbası-namvər
Görməz rəva xəbisü xətakarə yalvarım.

Mənsurtək çəkibdi məni darə zülfi-yar,
Yad eyləyim "ənəlhəqqini", darə yalvarım.

Bülbülsifət nəvayə gətirdin Kəminəni,
Sevdayi-gül başımda, necə xarə yalvarım?!

***

# ABDULLA BƏY ASİ

XIX əsr Qarabağ ədəbi mühitinin yetirdiyi istedadlı ədəbi simalardan biri - Abdulla bəy Əli bəy oğlu Fuladov Asi 1841-ci ildə Şuşa şəhərində anadan olmuş, ilk təhsilini də orada almışdır. Yüksək istedadı sayəsində qısa müddət ərzində ərəb, fars, rus və cığatay dillərini öyrənmişdir. Rus dilini yaxşı bildiyinə görə naçalnik dəftərxanasında qeydiyyatçı-tərcüməçi vəzifəsində çalışmış və orada katiblik çini almışdır. Onun şair kimi formalaşmasında ana babası Qasım bəy Zakirin xüsusi rolu olmuşdur. Erkən yaşlarında atasını itirən Abdulla bir müddət Xan qızı Natavanın və babası Qasım bəy Zakirin himayəsində böyüyüb ərsəyə çatmışdır. Şuşada fəaliyyət göstərən "Məclisi-fərumuşan"ın üzvü olan şairin şöhrəti ətraf regionlara da yayılmışdır. Onun yüksək şairlik istedad olduğunu nəzərə alan Firidun bəy Köçərli yazırdı ki, Asinin təbi-şeriyyəsinin sədası hər yerə yayılıb, öz əsrində kəlam əhlinin sərəfrazı, şerü qəzəl deməkdə üdəbalar mümtazı olub, onun namü şöhrəti Şəki, Şirvan, Gəncə və Qazax mahalına yayılmışdır.

Şairin müasiri və yaxın dostu Seyid Əzim Şirvani də onun istedadlı şair olduğunu əsərlərində qeyd etmiş və hətta özünü onun "...izzət qapısının qulamı olması ilə sahibi-ixtiyar olacağını" söyləmişdir.

Cəmi 34 il ömür sürən Asi 1874-cü ildə vəfat etmişdir. Digər əksər müasirləri kimi onun da əsərləri tam şəkildə gəlib bizə çatmamışdır. 2009-cu ildə Şairin AMEA ƏYİ-nin arxivində saxlanılan əsərləri müxtəlif mənbələrdən toplanaraq araşdırılmış və nəşr etdirilmişdir. (Raqub Kərimov. Abdulla bəy Asinin həyatı və yaradıcılığı. Şeirləri. B., Nurlan, 2009, 210+83 s.). Buradakı nümunələr həmin kitabdan götürülmüşdür.

## Qəzəllər

Rüsvaylığıma gərdişi-peymanədi bais,
Mey içməyə ol nərgisi-məstanədi bais.

Cəmiyyəti-zülf içrə könül oldu pərişan,
Şan-şan ola, bu zülmə genə şanədi bais.

Eşqimdən olub hüsnü rüxum aləmə məşhur,
Gül şöhrətinə bülbüli-divanədi bais.

Əfqan edərəm münca, genə bəxtim oyanmaz,
El uyğusuna rəsm imiş, əfsanədi bais.

Dün tövbə veribsən mənə, qəhr eyləmə, görsən
Meyxanədə, zahid, demə peymanədi bais.

Dil mürği görüb zülfara, Asi, genə xalın,
Gər damə düşə, qətlinə bir danədi bais.

***

Zahida, güşeyi-məsciddə nəyim var mənim?
Bərbətü çəngü dəfü nayü neyim var mənim.

Kövsəri vədə edirsən mənə gərçi nisyə,
Nəqd dəstimdə bu gün cami-meyim var mənim.

Hurü qılmanını çox vəsf eyləmə minbərdə,
Gör neçə saqiyi-fərxəndəpeyim var mənim.

Nə üçün Kəbə üçün kuhü biyabanı gəzim?
Meykədə mənzili_Leyladi, heyim var mənim.

Yığılıb müğbeçələr piri-muğan dövrünə,
Düxtəri-nəş[1]arasında Cüdeyim[2]var mənim.

Asiya, meykədə küncün özünə məskən edib,
Nüsrəti-mülki-Kəyavüsü Keyim var mənim.

***

Çəkmə şanə, gözəlim, zülfi-ənbərəfşanə,
Rəhm qıl, görmə rəva kim, ola dil viranə.

O qara zülfün əlindən məni qurtar, Allah,
Belə zəncirə necə tab eyləsin divanə?

Sənin, ey hurliqa, nuri-rüxündür təfsir,
Nə qədər ayeyi-rəhmət yazılıb Quranə.

Verə hər kimsənə zünnari-səri-zülfə könül,
Gərək iman gətirib tabe ola Sənanə.

Vermişəm könlümü ol daneyi-xalə, ey gül,
Talibəm Adəmə, allatdı onu bir danə.

Qələt etdim o ləli-ləbindən umdum busə,
Etməmiş qan, kişi böylə düşərmiş qanə.

Rəbbi-Minayi-məhəbbətsən, aya, İsmail,
Asiyi-zarı qəbul eyləgilən qurbanə.

***

Ülfət xətadı şiveyi-çeşmi-siyahilən,
Min ev yıxar baxanda bir oğrun nigahilən.

---

[1] Kiçik Ayı bürcü
[4] Qütb ulduzu

Çahi-zənəxdə könlüm arar genə hüsnün,
Yusif həvası ilə dutub üns çahilən.

Olmuş siyahpuş könül sanki istəyir
Ülfət tuta bu rəng ilə ol zülfi-siyahilən.

Tiği-kəc ilə döndərəsən taği-əbruyuna,
Mehrabə səcdə eyləyəni iştibahilən.

Etmə xiyali-busə yüzindən, könül, sağın,
Mirati-zat zəng dütar dudi-ahilən.

Yol bul, sərrad qat cəmalə o mahdan,
Yetmiş Xəlil qürbə, könül, mehrü mahilən.

Asi xəyal edir ki, yetə xaki-payına
Qürbi-gəda məhaldır hərçənd şahilən.
***

## Cinaslı qəzəl

Rəhm qıl, dəymə səba, zülfi-kəci-dildarə,
Nə rəva kim düşə vüsətdə ikən dil darə.

Eşq ruyində urub lafi-ənəlhəqq guya,
Çəkilib zülfdə Mənsursifət dil darə.

Hər xədəngin səfi-müjgandan əgər kəm bulsa,
Kimsəyə etmə güman, zülfün ara, dildarə.

Qoyma kim, şanə dəyə zülfə, özün məhrəmsən,
Şərhə-şərhə ol onuntək, onu, ey dil, darə.

Asiya, çini-səri-zülfdə güm buldu könül,
Zülməti-şəb tanımaq qüdrəti yox dildarə.

***

## Təcnis

Qorxum budur imanımı əlimdən
Süzgün baxmaq ilə gülən göz ala.
Sənansifət döndəribən əlindən,
Zünnari-zülfilə sala gözala.

Məhəbbət tapılmaz dilə xalından.
Dil mürğünə daim verir xalından.
Ey gül, sənin zülfü xəttü xalından,
Yüzüm bir dəm istəməyir göz ala.

Ey dil, girmə bəhri-hicrə, dərindi.
Nihali-vəslidən səmər dər indi.
Gör necə düzülüb yüzə, dər indi.
Çün alır aşiqdən xumar göz ala.

Zülfi-siyah hüsni-yar aşiqidi,
Hər kəs onu sevməz, yar aşiqidi,
Bir ahu baxışlı yar aşiqidi
Könül, mail olmuyasan gözala.

Ruxi-alə düşüb zülfi-asiya.
Zinət nə lazımdır, xoşdur asıya.
Vəhşi könül qəzalini, Asiya,
Mahir səyyad imiş, götdü göz ala.

***

## Müxəmməs bəhri-təvil

Ey zülməti-zülf içrə yüzün mehri-münəvvər,
Vey baği-rəşadətdə qədi sərvi-sənubər,
Məqbul yaratmış səni ol xaliqi-əkbər,
Vermiş sənə zinət Məşşateyi-qüdrət.
Yox sən kimi löbət, Bu nazü nəzakət,
Bu lütfü lətafət, Bu qəddü bu qamət,
Həm hüsnü məlahət, Ey ayeyi-rəhmət,
Yox kimsədə əsla, Ey dilbəri-ziba,
Olmaz sənə həmta Şirinü Züleyxa.
Layiqdi ki, Yusif ola sən sərvərə çakər
Ey qaməti ər-ər, dodağı qəndi-mükərrər.

Ruyin çəməni-hüsndə ta qaldıdı beydəğ,
Gül urdu müqabildə məgər lafi-ənəlhəqq,
Gülbün qurubən dar onu asdı müəlləq,
Kim batma vəbalə, Düşmə bu xiyalə,
Olmaz gülü lalə Həmta o cəmalə,
Xurşid misalə, Ol arizi-alə,
Bu çeşmi-qəzalə, Bu xəttü bu xalə.
Bilməm bu nə gisu, Nə silsileyi-mu,
Nə nərgisi-cadu Kim, canın alıb bu,
Əbru, necə əbru kim, olub bir-birə mülhəq,
Qan tökməyə amadə edib tiği-düpeykər.

Sən simbədən, zülfü rəsən, qönçədəhənsən,
Aşubi-zəman, sərvi-çəmən, babi-fitənsən.
Sən sib zəgən, ruy səmən, vəchi-həsənsən,
Ey ruhi-rəvanım, Qarətgəri-canım.
Ey qönçədəhanım, Əbrusi kəmanım.
Ey muymiyanım, Qılmanü cinanım,
Vey tutizəbanım, Məhmudi-zəmanım,
Şəmsü qəmər üzlüm, Hər ləhcəsi duzlum,

Tutu kimi sözlüm, Süzgün ala gözlüm,
Ahuyi-Xütən, sərvi-çəmən, dürri-Ədənsən.
Çatmaz ləbinə abi-bəqa, çeşmeyi-Kövsər.

Qan yaşım axar nərgisi-caduni görəndə.
Kim tifltək vəpu edər ahuni görəndə.
Divanə könül silsileyi-muni görəndə,
Dərdim ola pabənd. Yüz mərdi-xirədmənd,
Ta vurmayalar bənd, Müşkül eşidər pənd.
Ey dilbəri-dilbənd, Hicran qəmi ta çənd.
Verrəm sənə sövgənd. Bir et məni xürsənd.
Ver buseyi-pünhan, Canım sənə qurban
Kim, möhnəti-hicran Bağrım eləyib qan.
Kafər də yanar hali-digərguni görəndə.
Sən həm mənə bir rəhm eylə, ey şuxi-sitəmgər.

Sənsən güli-bağü ləqəd kərəmül-insan.
Mazağə, bəsər çeşmi-xumarında nümayan.
Vəşşəmsi-züha zülfü rüxin vəsfinə tibyan.
Ey dilbəri-ziba, Süni-şəhi-yekta,
Ruyində hüveyda. Gər etsə təcəlla,
Ol arizi-həmra, Mədhuş olu Musa.
Olmaz yədi-beyza, Ol nur ilə həmta.
Ey sevgili yarım Vey çeşmi xumarım,
Gör haləti-zarım, Yox səbrü qərarım.
Zünnari-səri-zülfə uyub Asiyi-nalan,
Az qaldı rəhi-eşqdə, ey büt, ola kafər.

***

# MƏMO BƏY MƏMAİ

Məmo bəy Hacı Əhməd oğlu Məmai təqribən 1842-ci ildə Şuşa şəhərində anadan olmuş, ilk təhsilini də orada almışdır. Güzəranını ticarətlə keçirən Məmai müasirləri arasında istedadlı şair kimi də şöhrət tapmışdır. Hələ erkən yaşlarında şeirə, sənətə maraq göstərən Məmo bəy yaxın qohumu Hacı Abbas Agəhin mənzilində təşkil edilmiş şeir məclisinin daimi iştirakçısı olmuşdur. Bu mənada onu "Məclisi-üns"ün ilk yaradıcılarından biri hesab etmək olar. Şair əsərlərini əsasən klassik üslubda yazmış və Qarabağda fəaliyyət göstərən hər iki məclisin fəal üzvü olmuşdur.

Məmo bəy peşəsilə əlaqədar olaraq Aşqabad, Səmərqənd, Peterburq, Şimali Qafqaz, həmçinin Türkiyə və İranın bir sıra şəhərlərində olmuş, bu şəhərlərin mütərəqqi ruhlu ziyalıları ilə dostluq əlaqəsi yaratmışdır. Bu tanışlıq və dostluq əlaqələri şairin dünyagörüşünə ciddi təsir etmişdir. Bunun nəticəsi idi ki, əksər müasirlərindən fərqli olaraq onun şeirlərində İngiltərə və Fransa kimi müstəmləkəci dövlətlərin Asiya və Afrikanın müxtəlif yerlərində, o cümlədən, Hindistan, Əlcəzair, Marakko kimi ölkələrdə apardıqları işğalçılıq siyasətinə qarşı nifrət hissi öz əksini tapır. Şair məktublarının birində bu səfərlərin yekunu olaraq "Səfərnamə" adlı əsər yazdığını qeyd etsə də, həmin əsər hələlik əldə edilməmişdir.

Məmo bəy 1918-ci ildə təxminən 76 yaşında vəfat etmişdir. Onun əsərləri 2016-cı ildə nəşr edilmişdir (Məmo bəy Məmai. Şeirlər. Bakı, Elm və təhsil", 2016). Burada verilən şeir nümunələri həmin əsərsdən götürülmüşdür.

## Qəzəllər

Ta ki qəm dəfinə ləlin şövqi bir peymanədir,
Məstlər sərmənzili xaki-dəri-meyxanədir.

Gecələr zülfin xəyalı birlə bu müjganlarım,
Ta səhər xabi-pərişan türrəsinə şanədir.

Gözlərəm xaki-səri-küyində, durmaq məqbuldur,
Aşinadır sərvinazım, sanma kim, biganədir.

Sordum ol xali-ləb, zülfi-xəmin əsrardan,
Vurdu əl zülfə ki, damü xalinə kim,danədir.

Naləvü fəryad ilə daim Məmai söylər:
Bu qədər cövrü cəfa bir cism içün cana nədir?

***

Saqiya, gəldi şəbi-hicran, gətir cami-şərab,
Salma gözdən, qoyma olsun xanəyi-taqət xərab.

Naseha, eşq əhlinə pənddən olmaz heç sud,
Hansı müstəsqi qəbul eylər ona mən olsa ab?

Vermə nisbət bu kətan suraxını zəxmi-dilə,
Bunu ol məh hicri etmiş, anı vəsli-mahtab.

Səndən özgə sənə yol tapmaq bəs müşküldür,
Afitab olmuş cahan içrə dəlili-afitab.

Halədir məh dövrəsində, ya ki zülfi-ənbərin,
Ruydir zülf içrə, ya çıxmış buluddan afitab.

Ağlasa məşuq, aşiq halına olmaz əcəb,
Abi-çeşmi-güldür, ol su kim, ona derlər gülab.

Hicri- rüxsarından, ey məh, qaməti-sərvi-Məmai
Oldu xəm, ol tağı-əbrulər kimi vəqti-şəbab.
***
Çəkmə, ey dil, bu qədər möhnəti-əyyam əbəs,
Olmuş aləmdə yolun təng əbəs, nam əbəs.

Olur asudə bu əyyamda gümnam olan,
Sahibi-nam olan kəs olur bədnam əbəs.

Əvəz yad edüb sağəri-çeşmim pürxun,
Vermədi saqiyi-dövran bana bir cam əbəs.

Əvəzi-şiri-qəza xuni-cigərdən daim,
Almış ağuşə, verir madəri-əyyam əbəs.

Görmədim milləti-islamda bir kəs salim,
Verməsün xəlqi özünə nisbəti-islam əbəs.

Dami-təzvir edib xirqəvü əmmamə, rida,
Bəsdür, ey şeyx, dəxi qurmaginən dam əbəs.

Mərifət kəsb eylə, ilət odi məxluqə, Məmai,
Gəlməyib həzrəti-insanə bu əhkam əbəs.
***
Hər dəm düşəndə səfhəyi-rüxsarə tellərin,
Yandırdı, ey sənəm, bəni o dəmdə tellərin.

Tel-tel açanda həlqeyi-zülfi-muənbəri,
Səd parə qıldı könlümü sədparə tellərin.

Ömrüm yetişdi başa, əlim zülfə yetmədi,
Axırda bağladı bəni bir tarə tellərin ,

Ney, tar, zülf rişteyi-canımdurur mənim,
Qılmış cəbinin üzrə onu parə tellərin.

Bir dəm kənar olmadı ol məhcəmaldən,
Olmuş hicab, arizi-gülnarə tellərin.

Salmış kəməndə tir-kaman ilə, oxlayır,
Şəhla gözün, hilal qaşın, qarə tellərin.

Etmiş əsir silsiləyi-zülfi-pürxəmə,
Məcnunsifət çəkib məni bazarə tellərin.

Cana, Məmai dərdinə dərman bulunmadı,
Ey kaş, edəydi dərdinə bir çarə tellərin

***

Can içrə bəslərəm səni cananələr kimi,
Ey gənci-hüsn, gənc ilə viranələr kimi.

Diriğ, qədrini bilməz o kimsələr ki,
Xərmöhrəni hesab edə dürdanələr kimi.

Biganə aşina ola gər, olmaz etimad,
Sən sanma aşinalar, biganələr kimi.

Ey sənəm, bəni fəraq oduna yandırdın,
Yandırdın aləmi, dərda, pərvanələr kimi.

Tüxmi-vəfa əkdisə dildə hər qədər,
Etməz nəmöv daşa düşsə danələr kimi

Sübhdəm vuranda şanəni zülfə,
Şan-şan olur da dilim, şanələr kimi.

Olub əğyar ilə həmbəzm hər zaman,
Məmaidən qaçarsan döyülmüş danələr kimi.

## Qoşma

Əmirin qapsına dadə gəlmişəm,
Əzəl məni ol Xüdayə bağışla!
Hər günah ki desəm günəhkarıyam,
Kərbəlayi-müəllayə bağışla!

Biçarə, binəva günahkar canım,
Əgər ki, öldürsən halaldır qanım.
Gəlmişəm qapına, eylə divanım,
Məhəmmədi-Mustafayə bağışla!

Bən gəlmişəm ocağına bəndivan,
Bənim sağlığıma heç yoxdur güman,
Saxla dul külfətim, əhlü-əyalım,
Çəkdiyin əmmi Rəsayə, anama bağışla!

Gecə-gündüz sənsən fikrü xəyalım,
Sənə qurban mənim bu yazıq canım.
Dolandım başına, eylə qurbanım,
İsmayıla və Minayə bağışla!

Allah, görən ağa gəldimi rayə?
Rəhm eyləyərmi mən binəvayə?
Canım qurban olsun təkcə şəhlayə,
O Musayə, o İsayə bağışla!

Əzəldən var idi mehrü məhəbbət,
Hamısını eyləmişəm bihörmət,
İlləti bu işdən gəl eylə azad,
Yenə xaki-Kərbəlayə bağışla!

## Mürəbbe

Zəmanə  münqəlib, övza bəd, dövran xərab olmuş,
Fələk təsiri xak üzrə sərasər inqilab olmuş,
Keçib həddən cəfa, zülmü sitəmlər bihesab olmuş,
Dili-aləm cəfavü cövrdən  püriztirab olmuş.

Çəkib əl isəvilər sərbəsər əhkami-İsadən,
Dönübdür musəvilər cümləgi qanuni-Musadən.
Çıxır aşubü fitnə dəmbədəm deyrü kəlisadən,
Hərə bir tazə qanun başlayıb, sahibkitab olmuş.

Hamı millət deyib, tədbiri-hali-millət istərlər,
Hamı insan olan insan üçün bir izzət istərlər.
Əsarət qeydindən qurtarmağa hürriyət istərlər,
Keçənlər bu yolu sidq ilə getmiş kamiyab olmuş.

Olubdur xaki-Rusiyə sərasər qan ilə rəngin
Hərə bir rəng vurub öz əmrinə, istər edə təmkin.
Bizim də karımız olmuş ədavətlə küdurət-kin,
Nifaqü təfriqə bizlərdən ötrü bir əzab olmuş.

Birinə ad qoyub molla, biri bəy, biri xan olmuş,
Biri köhnəpərəst olmuş, birisi növcavan olmuş.
Gədavü düzdlər meydana girmiş, pəhləvan olmuş,
Olub yüz firqə millət, şimdi işlər bahesab olmuş,

Olubdur müttəhid, hər qövm öz övza halında,
Durub sabitqədəm rüəsayi-millət öz xəyalında.
Hərə öz əmrinə məşğuldur həddi-kəmalında,
Həmişə ittifaq ilə olan işlər səvab olmuş.

Bizi tədbiri-nakəslər edib aləmara rüsva,
Nədən həmsayə ilə oldu bu cəngü cədəl, qövğa.

Gülüstani-vətən odlandı, yandı sərbəsər yekca,
Yanıb nazikbədənlər atəş içrə, çün kabab olmuş.

***

## Tərcibənd

Düşdü yadıma keçən günlərim, əfsus olsun!
Bizi məyus edən dəhridə məyus olsun!

Hanı ol gecə-gündüz, zövqi-səfa, işrət idi?
Hanı ol gün ki, sərapa hamıya ləzzət idi?
Hanı ol əhdi-vəfa əhli ki, həmsöhbət idi?
Düşdi yadıma keçən günlərim, əfsus olsun!
Bizi məyus edən dəhrdə məyus olsun!

Noldu əxlafi-hüsn sahibi, yarani-qədim?
Noldu ərbabi-sədaqət, hanı ol təbi-səlim?
Yox idi kimsədə əsla rəvişi-divi-rəcim,
Düşdi yadıma keçən günlərim, əfsus olsun!
Bizi məyus edən dəhrdə məyus olsun!

Hanı ol bəzmi-səfa, noldu o ərbabi-vəfa?
Oxunurdi gecə ta sübhə kimi şurü nəva,
Yox idi kimsədə dərdü, ələmü, qəm əsla.
Düşdi yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Malü can eylərdi sərf o yarani-əziz,
Özünü naxoş edib, hifzi-rəfiqani-əziz.
İkilik yox, görünürdü hamı bir cani-əziz.
Düşdi yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Hər kəsin var idi sərf eylərdi simü zəri,
Bir-birindən yox idi heç kəsin bir kədəri,

Yox idi heç kəsin möhnətü qəmdən xəbəri,
Düşdi yadıma keçən günlərim, əfsus olsun,
Məni məyus edən dəhrdə məyus olsun!

Şimdi bu şəhrdə bir əhli-sədaqət yoxdur,
Bu qədər xalqda bir mərdi-dəyanət yoxdur,
Nə mürüvvət, nə cəfa, əhdü əmanət yoxdur.
Düşdi yadıma keçən günlərim, əfsus olsun,
Bəni məyus edən, dəhrdə məyus olsun!

Bən səyahət eylədim aləmi çox ləzzət ilə,
Gördüm ərbabi-kəmalatı hünər, hörmət ilə,
Görmədim heç kəsi dərdü qəmü möhnət ilə.
Düşdi yadıma keçən günlərim, əfsus olsun!
Bizi məyus edən dəhrdə məyus olsun!

Yoxdu, ya Rəb, görəsən Şişədə bir əhli-kəmal,
Oturub aqibəti-karı edə bircə xəyal.
Qoymaya milləti-islamı ola əmri-məhal
Düşdü yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edəni dəhrdə məyus olsun.

Bundan əvvəl var idi tacirü bəyü xanü xəvan,
Hamısı sahibi-tədbir, pirü cəvan,
Bir-birindən ötəri verməyə hazır sərü can,
Düşdü yadıma keçən günlərim, əfsus olsun!
Bizi məyus edən dəhrdə məyus olsun!

Şimdi olmuş cümlə firqə, rəhbərimiz,
Cahilü na əhl olub sərvərimiz,
Gizlənibdir üləma, əhli-qələm bəylərimiz.
Düşdü yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edən, dəhrdə məyus olsun!

Dövrəyi-çahardəhümdür qəmərin dövranı,
Nə yaman dövr idi, dərhəm elədi dünyanı,
Məhv edib cövrü cəfa, zülmü sitəm insanı.
Düşdi yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edən, dəhrdə məyus olsun!

Qərnlərdir bu iki firqə, bu övladi-vətən,
Bir-birilə dolanırdı  necə kim, can ilə tən,
Nə küdurət, nə ədavət, nə qəm, nə mühən.
Düşdi yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edən, dəhrdə məyus olsun!

Ermənilərlə müsəlman çalışıb leylü nahar,
Qıldılar səy ki, abad ola bu mülkü diyar,
Nə gözəl olmuş idi mülki-vətən axiri-kar,
Düşdi yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edən dəhrdə, məyus olsun!

Ah, o gündən bu gülüstana gəlib neçə qürab,
Verdilər səs-səsə, avaz eləyib misli-külab,
Bu gözəl gülşəni onlar elədi böylə xərab.
Payimal oldi vətən gülləri, əfsus olsun,
Bizi məyus edən dəhrdə, məyus olsun!

Rumdan Qafqaza yüz qoydu çü daşnaqsiyun,
Düşdi ortalığa aşub, bəla, fitnə, cünun,
Bu qədər qanlara bais olar oldi əknun.
O axan qan, o gedən canlara əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Saldı fürsət əlinə düşmənü  əğyari-vətən,
Qıldı tədbir ki, aşub edə əşrari-vətən,
Gör nə xunxar elədi xalqı, bu xunxari-vətən.
Bir deyən olmadı bu qanlara əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Tarü mar oldu vətən gülşəni, pamal oldu,
Bülbülani-vətən avarə qalıb, lal oldu,
Bir deyən olmadı, ya Rəb, niyə bu hal oldu?
Düşdi yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

De, ey qövm, kifayətdi, bu qəflət, bəsdir,
Tarü mar oldu vətən, bəsdir, ədavət bəsdir.
Bu qədər bəsdir həqarət, bu rəzalət bəsdir.
Bir çəkin bari, xəcalət, deyin əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Şimdi aləm yığışıb, səy edər azad olsun
Ki, gərək bir-birinə xəlqdən imdad olsun,
Qoymasın zülmü sitəm, evləri abad olsun!
Bu qədər zülmü sitəmlər olub, əfsus olsun,
Bizi məyus edən, dəhrdə məyus olsun!

Bir baxın Dumda nə fəryad edirdi vükəla,
Sizdən ötrü o qədər səy edirdi üqəla,
Verməyin düşmənə fürsət, dəxi bəsdir cühəla,
Siz də bircə ayılın, söyləyin əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Vətən övladı gərəkdir çəkə dərdi-vətəni,
Ta qəbul eyləyə hər zülmü, cəfavü məhəni,
Ola möhkəm bu məmalikdə fəllah, əncüməni.
Söyləyə keçmiş olan işlərə əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Qoymaya gülşənara məskən edə zağü zəğən,
İndi lazımdır həmavaz ola mürğani-çəmən.
İndi vacibdi, verin əl-ələ, ey əhli-vətən,
Soyulur bülbülü can, ah, səd əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Şimdi məxluq olub əhli-qərəz, hasidü  dun,
Kizbü böhtanü riya, xəlqi edib zarü zəbun,
Yoxdu bir yar deyim dərdi-dilim ona künun.
Düşdü yadıma keçən günlərim, əfsus olsun!
Bizi məyus edən dəhrdə məyus olsun!

Şimdi düzdanü müxənnəslər olub rəhbərimiz,
Cahilü  nakəsü  naəhl olub sərvərimiz.
Gizlənib alim olan əhli-qələm bəylərimiz.
Düşdü yadıma keçən günlərim,əfsus olsun!
Bizi məyus edən dəhrdə məyus olsun!

Bulaşıb xəlq sərasər tökülən qanə təmam,
Təng olub kar, yetib xəlqi-cahan canə təmam,
Lənət olsun belə əsrə, belə dövranə təmam.
Düşdü yadıma keçən günlərim, əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Gündə min fitnəvü aşubü  bəla bərpadır,
Cəngdir, qətlü qarətdi, ya qövqadır,
Ölən adamdı, axan qandı, düşən əsadır.
Bir deyən yoxdu bu adəmlərə əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

Ey Məmai, eylədi diltəng məni tərhi-süxən,
Yuxudan indi açıb gözlərini əhli-vətən,
Bir deyən varmı nədən ötrüdü bu zülmü fitən?
Yuxudan göz açıban söyləyə əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun!

# İSGƏNDƏR BƏY RÜSTƏMBƏYOV

Qarabağın məşhur Rüstəmbəyovlar nəslindən olan İsgəndər bəy 1845-ci ildə Şuşada doğulmuş, ilk təhsilini də orada almışdır. Mükəmməl mədrəsə təhsili alan İsgəndər bəy sonralar müstəqil çalışma yolu ilə rus və fars dillərini də kifayət qədər yüksək səviyyədə mənimsəmiş və hətta təhsilini rus dilində davam etdirmişdir. Bu qabiliyyətinə görə o, dövlət idarələrində müxtəlif vəzifələrdə çalışmışdır. İsgəndər bəy ədəbi ictimaiyyətdə açıqfikirli, yenilikçi ziyalı kimi tanınmışdır. O, Xurşidbanu Natəvanın dərin rəğbətini qazanmış, onun oğlu Mehdiqulu xan Vəfa ilə yaxın dostluq əlaqəsi yaratmışdır. İsgəndər bəy "Məclisi-ünsün" fəal üzvlərindən olduğu kimi, "Məclisi-fəramuşanda" da iştirak etmişdir. Şair 1918-ci ildə Şuşada vəfat etmişdir.

AMEA ƏYİ-nın arxivində B-236/10536 şifri ilə şairin tərtib etdiyi cüng saxlanılır. Şeir nümunələri həmin mənbədən götürülmüşdü.

## Qəzəllər

Olum heyranın, ey ahuyi-tatarı qara gözlər
Yaman gözdən səni hifz eyləsin Tarı, qara gözlər.

Səni-Tarı, nigara, bir söylə fikri nədir, bilməm,
Edir pürxun dəmadəm bu dili-zarı qara gözlər.

Yəqin küfr əhlinə hökmi-cihad olmuş müsəlmanlar
Yığıbdır başına əqvamül-farı qara gözlər.

Dili-bimarə bir dəm qıl tərəhhüm, ey təbibi-mən
Ki, səndən qeyri əsla yoxdu simsarı, qara gözlər.

İsgəndərvar seyr etdim cahanı görmədim, cana,
Gözün mərdümləritək mərdümazarı, qara gözlər.

***

Bəni salmış xətaya bir xəta kanı qara gözlər.
Degil eymən fününü hiylədən anı qara gözlər.

Mühəyya ol, bu qan tutmuş gəlir qan etməyə, ey dil,
Çəkib əbrulərindən tiği-bürranı qara gözlər.

Tapılmaz mərdümintək mərdümazar dünyada,
Olunsa cüstcu İranü Turanı, qara gözlər.

Xəta oldu xəta, intixab edibdi səni, ey şux,
O kəc-kəc baxışın hər an qurbanı, qara gözlər.

Əgər sehr etməyə meyl etsə İsgəndər müsəddiqdir,
Edər batil təmam ecazi-Musanı qara gözlər.

***

Rüxün təfsiri-ayati-hüdadır,
Bəyan sizə şəmsi- zühadır.

Gözün bimarıyam müddətdir, ey şux,
Cigər qanı daim bana qəzadır.

Ləbin qoy nuş edim kim, ləli-nabın
Belə deyirlər ki, hər dərdə dəvadır.

Məni düşnam ilə yad etsən, ey məh,
Səzavarəm, əgərçi nasəzadır.

Edən aşüftə könlüm zülfün içrə
Gəhi şanə, gahi badi-səbadır.

Ləbin müştaqıyam, likən deyillər,
Filani təşneyi-abi-bəqadır.

Yolunda can nisar eylər İsgəndər,
Güman etmə ki, yarın bivəfadır.

***

## Qoşma

Badi-səba ərzim sənə eylərəm,
Zəhmət qəbul edib yara yetir sən.
Allah rizasına mənzur eyləyib,
Dərdi-dilim o nigara yetir sən.

Gülüzlü yarıma yetən zamanda,
Küstax olub söhbət qatan zamanda,
Zülfünü şanəyə tutan zamanda,
Pərişan halımı yara yetir sən.

Düşüb ayağına, şux qamətinə,
Gərdəni minanın göz afətinə
Gəldigim hicrində yar zillətinə,
Məqamında gülüzara yetir sən.

Baxıb gözlərinə, əyri qaşına,
Rəhm edərsən o dəm gözüm yaşına.
Gedib, səba, əvvəl dolan başına,
Sonra salam o dildara yetir sən.

De kim, canə yetib hicran əlindən,
Dərmədim bağında qönçə gülündən,
Hər nə söz danışsa şirin dilindən,
Yaxşı-yaman, mən fikara yetir sən.

Müddətdi görməzəm xumar gözləri,
Yada salsın gahi-gahi bizləri.
Şirin-şirin danışdığı sözləri,
Məqamında gülüzara yetir sən.

Gül üzündən ayrı xar olduğunu,
Sübhədək aşiqin zar olduğunu,
Bu dünya başına dar olduğunu,
Badi-səba, sitəmkara yetir sən.

Şurü nəva salıb ərzü səmaya,
Çərxi-müxalifdən edir gilayə,
Səndən əl götürməz gələ yüz ayə,
Doğru sözdür, ol nigara yetir sən.

Zülfün salıb İsgəndəri zülmata,
Təşnədir ləlindən abi-həyata,
Bimar olub yox ümidi həyata,
Ahu gözlü o xumara yetir sən.

***

## Xurşidbanu Natəvana

Xudadan istərəm, ey can, hələ sən ölməyəsən.
Be həqqi-şahi-Xorasan, hələ sən ölməyəsən.

Nəzərdə sanma ki, bir zəifə övrətsən,
Vətəndə rükndən, ey Natəvan, sən ölməyəsən.

Ahınla rövşən olur şəmi-bəzmi-Al Xəlil,
Tikibdi göz sana bir dudman, sən ölməyəsən.

O dudmani-nəcibin dəlili-rəhbərisən,
Sənin ilə adlanır ol xanıman, sən ölməyəsən.

Əgərçi çoxdu sənin dərdü möhnətin, bilirəm,
Dilin tabilə etmə əyan, sən ölməyəsən.

Yüzin çırağına pərvanə olmuyan kimdir?
Dili yoxdu mənimtək yanan, sən ölməyəsən.

Düz degil olasan sinədağ lalə kimi,
Özünü etməgilən bağırıqan, sən ölməyəsən.

Bahar laləsini yad qıldı qanlı könül,
Axıtdı göz yaşını xunəfşan, sən ölməyəsən.

Zəbanə gəlmə, könül mürgü, vəqti-nalə degil,
Xəmuş ol hələ, etmə fəqan, sən ölməyəsən.

Vücudi-heyfsən, axər sana yaraşmaz ölüm,
Qəddin olunca qaşıntək kaman sən ölməyəsən.

Vilayət içrə vücudun bəsi qənimətdir,
Sən ölmə barı, qoy ölsün filan, sən ölməyəsən.

Həmişə şüğlün ola eyşü işrətü ləzzət,
Keçə günün habelə bir zaman, sən ölməyəsən.

Duaçıyam sana sidqi-dililə bimənzur,
Sözümdə yoxdu yaranmaq, yalan, sən ölməyəsən.

Yaşa yüz il səni dili-güşadilə
Behəqqi-hörməti-Quran hələ sən ölməyəsən.

***

## Müləmmə

Ey Vətən, sən necün oldun ha böylə xarü zəlil,
Niyə yüz ildə sana bir nəfər olmadı dəlil?
Kim səbəb oldu ki, qaldın belə rəncurü əlil,

Baisin nəslini nabud eləsin rəbbi-cəlil,
Qismətin ta be əbəd nalevü fəryad büvəd.

Ta be key sərzənişü töhməti-taci-cəhan?
Ta be key mənzili-ma guşeyi-beytüllahi-həzan?
Ta be key xaneyi-dil əz qəmi-dövran viran?
Ta be key misli-bir nakəsi-namərdi-zəman?
Ta be key mürği-dilim bəsteyi-səyyad bivəd?

Ta be key dövlətü sövkət olacaq özgələrin?
Ta be key rahətü ləzzət olacaq özgələrin?
Ta be key mənsəbü rəfət olacaq özgələrin?
Ta be key qeyrətü himmət olacaq özgələrin?
Ta be key zin həme qəmhayi- diləm azad büvəd?

Ey vətən, rəm elə, qutardı qəmu taqətiü hal,
Dalda qalmaqdan olubdur işimiz əmri-məhal.
Bisərü palar içində əcəb olduq pamal,
Gedib əldən hünərü qüvvətü tədbirü kəmal
Key ze tovfiqi-İlahi bizə ərşad büvəd.

Qəmu dərdi-dili mümkün eyləməz etmək əyan,
Müxtəsər, ançe əyan əst, çe haceti bəyan?
Qalmışıq bisərü saman pərişanü heyran,
Dadə yet sən özün, ey padşəhi-kövnü məkan!
Darəm ümmid ki, mara zeto imdad büvəd.

***

Eşq aləmidir bu aləm, Axund,
Daim verir aşiqə qəm, Axund

Aşiqlər olur müdam qəmgin,
Qəm onlara olu həmdəm, Axund

Əbruyi-nigari-məhcəbinlər,
Aşiqin qəddin edər xəm, Axund

Şərhi-qəmi-eşq tuldur, tul
Ey əqlü şüurdan kəm Axund.

Bundan sonra naseh olma hərgiz,
Deyər həmişə bifəhm Axund.

Naseh danşarmı ləfzi-xilaf,
Sən etməmisən ki sərsəm, Axund

***

## Növhə

Şam əhli-mərdü çəngü çəğan ilən,
Pişvara gəldilər fövci-giran ilən.
Likən Səkinəcan ahü fəqan ilən
Ağladı hər zaman viranə Şamda.

Zülmət xərabələr oldu məqamımız,
Nə xürü xabımız nə şəmü şamımız,
Bir yana yetmədi dad-harayımız,
Gəzdirdilər bizi hər yanə Şamda.

Hər dəm deyirdilər tiflani-əhli-beyt,
Əmmə olub məgər sultani-əhli-beyt.
Qahuş xərabədə əfşan əhli-beyt,
Düşdük bu hal ilə xumanə Şamda.

Ərz eləyin sana hansı hekayəti,
Həddin keçirdilər zülm ədavətin.
Dağ etdi sinəmi düşman şəmatəti,
Az qaldı kim, olam divanə Şamda.

İsgəndər, etmə qəm, axər cəza günü
Yad eylərəm səni şuru nəva günü
Nəzm et müsibətim hər dəm əza günü
Lən eylə sübhü şam əduvanə Şamda.

***

## ƏBDÜSSƏMƏD BƏY AŞİQ

Əbdüssəməd bəy Məhəmməd bəy oğlu Aşiq 1845-ci ildə Şuşada anadan olmuş, təhsilini də orada almışdır. O da atası Məhəmməd bəy Zəngilani kimi özünə "Aşiq" təxəllüsü götürərək klassik və xalq şeiri üslubunda fars və azərbaycan dillərində şeir yazmışdır. Müasirlərinin sevimlisi olan Əbdüssəməd bəy Şuşada fəaliyyət göstərən hər iki ədəbi məclisin üzvü olmuşdur. Şair 1915-ci ildə Şuşada vəfat etmişdir. Onun haqqında "Təzkireyi-Nəvvab" və Azad Qaradərəlinin "Aşiqlər" (B-1998) kitabında məlumat verilmişdir. Buradakı şeir nümunələri həmin əsərlərdən və AMEA ƏYİ-nin arxivində mühafizə olunan əlyazmalardan götürülmüşdür.

### Qəzəllər

Qara gözlülərə möhtac olur könlüm qocaldıqca,
Bəli, əfzun olur nabi-hərarət od aldıqca.

Gəzər tərlan xəyalım kuhü səhranı, bir məsəldir bu,
Tülək tərlan şikarın artırar hər il dolandıqca.

Baxanda şaxi-limuyə, əzizim, heç məlahət yox,
Lətafət görsənir şaxində limulər saraldıqca.

Könül, gülzarə meyl etmə, vəli biar olarsan sən,
Gülü əldən gedən bülbül olur rahət usandıqca.

Sənubər qəddinə mail olan Aşiq, nə mailsən,
Düşüb sərgərdan gəzər sən hər ucaldıqca.

***

Əla, ey dildə sakin, didədən məstur olan yarım,
Xəyalı munisi-can, vəsli naməqdur olan yarım.

Fələk gərçi məni məhcur qılmış gül üzarından,
Könüldən dişrə bir ləhzə deyilsən dur olan, yarım.

Çıxarmaq eşqini müşküldü candan, ey məlahətgu,
Çıxarda canı xüd təndən məgər məzkur olan yarım.

Məni mədhuş, ey huş əhli, tut məzur kim, badə
Veribdir nuşi-ləlindən mənə məxmur olan varım.

Sənə qilmanü hurivü behiştin qalsın, ey zahid,
Mənə huridən artıqdır bu dəm  mənzur olan yarım.

Tərəhhüm eyləməz viranə könlümdən gələn yaşa,
Binayi-eşqi daim əşk ilə məmur olan yarım.

Deyil bimehrlikdən Aşiqin tərk eyləmək, haşa,
Səni el təni məcbur eyləmiş, məzur olan yarım.

***

Salmazdı ol pərivəş hərgiz məni nəzərdən,
Saldı məni kənara bədgulər ol həzərdən.

Nəqşi-rüxün gözümdən məhv etsə abi-didə,
Sevdayi-zülfü xəttin çıxmaz ölüncə sərdən.

Urma bu cismi-zarə bica bu qədri yarə,
Nuki-müjən keçibdir, xatircəm ol, ciyərdən.

Su kimi gəlir gözümdən gülgün sirişk daim,
Xuni-ciyərdi cümlə cari bu rəhgüzərdən.

Cövrün nə qədr olsa, minnətdi cana, amma,
Billah, cəfa yaraşmaz sən kimi simbərdən,

Hicrində cismi-zarım dönmüş quru nihalə,
Gərçi alır dəmadəm suyun bu çeşmi-tərdən.

Yüz cövr qılsan Aşiq tərk etməz asitanın,
Olsa qulun vəfası, getməz ölüncə dərdən.

***

Hər zaman yüz min pərişanlıq qılır izhar zülf,
Bir könül oldur ki, cəm olmaz nə qədr var zülf.

Küfr ilə zülfü qələti-məşhur olub dildarımın,
Bəs ki, iman əhlinə məşhurdur əsrar, zülf.

Bir telin gər tərpədə badi-səba, yüz min könül
Yüz qoyar pabusuna, guya qılıb əhzar zülf.

Kəbədən üz döndərib, qiblə deməzdim qaşına,
Tərki-dini millətə vadar edir naçar zülf.

Var idi əqlim, vəli uydum əbəs geysulərə,
Aqibət çəkdi məni bazarə Məcnunvar zülf.

Aşiqə aşiq demin kim, eşqdə avarədir,
Ol zamandan kim, düşüb ortaya bu küffar zülf.

***

## Mürəbbe

Eşqi-dildar edib aşiqi-divanə məni,
Yandırıb şöleyi-rüxsarı çü pərvanə məni,
Xasə, şimdi qəmi-dilbər dili-divanə məni
Eyləyib çərxi salıb çün qəmi-hicranə məni.

Var idim qəbl dilbərin bir neçə gün mehmanı,
Söhbəti-nazik urub, gülər idik pünhanı,

Salsalar istəməzəm, canın üçün, qılmanı,
Yardan ayrı əgər cənnəti-rizvanə məni.

Çeşmi-şəhlası alıb əldən imanü dinimi,
Tar edib zülfi-siyahı, yəqin eylə, günümi,
Daima xeyir-duadan sənə kəsməm dilimi,
Çünki sənsən yetirən bir belə cananə məni.

Gərdənim silsileyi-zülfdə zəncirə düşüb,
Könlüm ol həlqeyi-kakilidə təsxirə düşüb,
Şükr kim, yaxşı kəməndində könül girə düşüb,
Gəzdirir Qeyssifət zar bu hər yanə məni.

Qan töküb Qanlıcada təşneyi-didar varam,
Ol səbəbdən gecələr sübhə qədər zar varam,
Leyk hicrani-siyəhçeşmilə bimar varam,
Yetiribdir qəmü qüssə, yəqin et, canə məni.

Əfv qıl, çünki bəsi şimdi pərişanəm mən,
Yadi-ləlin edibən daima giryanəm mən,
Hamıdan qəti-nəzər, kudəki-padanəm mən,
Bir siyəh daqə salıb çahi-zənəxdanə məni.

Nə deyim züfi-piçü arizi gülnarı üçün,
Tarını üzsün onun badi-səba, tarı üçün,
Çün o kafər yaranıbdır könül azarı üçün,
Oldu daim ki, edib aşiqi-nalənə məni.

***

## Bostan

Bir bostanın xəyalına düşmüşəm,
Şöhrəti yayılsın cahana gərək.

Bu hüsndə, təravətdə bir gülşən,
Yetirməmiş olsun zəmanə gərək.

Hər yanı güllükdür, ətraf laləzar,
Çox basəfa yerdə tutmuşdur qərar.
Axtarsan içində can dərmanı var,
Kişinin hər işi yeganə gərək.

Suyun kəsin, havaladın başını,
Təpcək ilə bel olmuşdur maşını.
Atacağam kasıblığın daşını,
Bir azdan eylərəm əyana gərək.

Şamaması düyələkdən iridir,
Qoyun-quzu kimi sürü-sürüdir.
Bir məclisi bir dənəsi kiridir,
Çatsın ondan bütün ümmana gərək.

Burda gəzmək haqqı çatar o cana,
Əyilib qaşları dönüb kamana.
Gözəllikdə var o qədər nişana,
Vursun hamısını tamama gərək.

Zəngilanda baği-cənnət qurmuşam,
Bütün bostanları yerə vurmuşam.
Sözümdə sadiqəm, möhkəm durmuşam,
Kim yarışır çıxsın meydana gərək.

Müxtəsər ki, bir bəzəkli gəlindir,
Çardağının altı xeyli sərindir.
Bostan demə, bir behişti-bərindir,
Yazılsın tərifi dastana gərək.

***

# MİRZƏ ƏLİ AŞİQ

Mirzə Əli Molla Zeynalabdin oğlu Aşiq təqribən 1847-ci ildə Şuşa şəhərinin Qurtlar məhəlləsində anadan olmuşdur. Onun atası Zeynəlabidin Sağəri Qarabağın məşhur şairlərindən idi. Əsas peşəsi mollalıq və müəllimlik olan Mirzə Əli şeirə-sənətə maraq göstərmiş, atasının yolu ilə gedərək "Aşiq"təxəllüsü ilə klassik üslubla şeirlər yazmışdır.

Şair 1903-cü ildə vəfat etmişdir. Aşağıdakı şeir nümunələri "Təzkireyi-Nəvvab"dan götürülmüşdür. Təzkirəyə daxil edilmiş həmın şeirlər onun öz dəsti-xətti ilə yazılıb.

## Qəzəllər

Surətgərin nə yaxşı çəkib surət, afərin!
Səd afərin bu surətə, ey surətafərin!

Məxluqlar hamı yaranıb abü xakdən,
Adəmlər içrə yoxdu belə xilqət, afərin!

Bu qaş-gözdə, hüsndə, həm naz-qəmzədə
Yusif yetirməyib sənə bir şirkət, afərin!

Xoşxülqü xoştəbiət, xoşləhcəvü xoşzəban,
Öyrətdi sanei nə gözəl sənər, afərin

Öldürməyi fəraqda, əhyası vəsldə,
Hiç kəsdə yoxdu dəhrdə bu xislət, afərin!

Yoxdur müzayiqə, əməsən ləblərin müdam,
Ruzi-əzəl yarandı bu xoştinət, afərin!

Bu zinət ilə getsən əgər payi-məhşərə,
İqrar edər bu hüsnünə yüz cənnət afərin!

Adətdi lütf aşiqə məşuqə etməyi,
Gəl, eyləmə bu adəti sən bidət, afərin!

Nari-fəraq ilə məni yandırdın, ey sənəm,
Kəsdin nədən bu Aşiqdən vəslət, afərin!

***

Deyin ol Yusifə, laf urmasın hüsnü lətafətdən,
Əgər yar ilə bəhs etsə, düşər, billah, məlahətdən.

Bu bir İsanəfəsdir, xəlqi əhya eyləyir hər an,
Əsərdir qaməti, xəlqə qiyam etsə qiyamətdən.

Nədir tuti gələ güftarə bu qalü məqal ilə,
O şirin ləblərin yanında naqisdir fəsahətdən.

Yəqin gülzarə seyr etmiş büti-siminbədən dilbər,
Salıb əfsürdə açmış gülləri hüsnü təravətdən.

Gözün çox qəsdi-can eylər, məni sən imtahan etmə,
Verir canın yolunda Aşiqin canı sədaqətdən.

***

Fələk məni elədi qəmlərə düçar, ölürəm,
Şikəstə könlümü dərd etdi tarumar, ölürəm.

Məni qutar bu bəladən özün, xudavənda,
Fəraqi fövt elə, gəlsin o növbəhar, ölürəm.

Mənim kimi görəsən var cahanda bir bədbəxt?
Olubdu dərdü qəmim xəlqə aşikar, ölürəm.

Bu dərdə yoxdu dəva, dərdimiz dəvasızdır,
Əlacıdır belə dərdin o türfə yar, ölürəm.

Nə yaxşıdır, verəsən dil könül sevən yara,
Ürəkdə olmaya bir qeyri-intizar, ölürəm.

Amandı, Qeyssifət qılma sən bu Leylanı,
Salıb bu dağlara, qılma dağdar, ölürəm.

Nə çatmaz əl, eləyim ərz dərdi-hali-dili,
Nə yoxdu tabü təvan, dildə bir qərar, ölürəm,

O zülfdən mənə bir tel səbayə ver, göndər,
Siratdır, aparım qəbrə yadigar, ölürəm.

Könül bir özgə nigara olubdu bənd, Aşiq,
Çəkilsə gərçi bu söz küçələrdə çar, ölürəm.

***

Ey dil, oyan, nə qəflətdir, bu nə xabdır?
İqdamı-eşq etgilən, ey dil, səvabdır.

Mişkin telinə, arizi-alinə qıl nəzər.
Pişanisi ərəqləri vəh, vəh, gülabdır!

Qılmış qiyam yar, qiyamət zamanıdır.
Ey dil, cavab verginən, ruzi-hesabdır.

Dil mürği, damdan sənə yox bir gürizgah,
Şahmar zülf boynuna möhkəm tənabdır.

Bədməst çeşminə məzə hazır edib könül,
Bu dağdarü parə ciyərdən kəbabdır.

O tirə zülf aləmi zülmət eyləmiş,
Amma rüxün bu tirədilə afitabdır.

Bu rahi-eşqdə mənə qalib nə Qeysdir,
Aşiq bu rahlərdə əcəb sərhesabdır.

***

Neylədim sənə, ey gül, kuyində xar oldum,
Yanında bəxti-qara mülki-ahü zar oldum?

Tükəndi ömr fəraqında, çatmadım vəslə,
Zəif can ilə yüz min qəmə duçar oldum.

O tiri-qəmzələrin birbəbir dəyib cana,
Şəhidi-eşq olub, ahulara şikar oldum.

Könüldə qaldı bu dərd, girdi can qəbr içinə,
Cahani-fanidə mən həsrəti-nigar oldum.

Məzəmmət etdi mənə xəlq ah-nalə əlindən,
Baharü  qış kimi çeşmi əşkbar oldum.

Bu xublarda vəfa yoxdu, dil, kənara çəkil,
Qulaq vermədi, azürdə, qəmküsar oldum.

Könül, ciyərləri, Aşiq, tamam qanə dönüb,
O gün ki, maili-ləli-ləbi-nigar oldum.

***

## XOSROV BƏY POLADOV

Xosrov bəy İbrahim bəy oğlu Poladov Abdulla bəy Asimin qardaşı oğlu, Qasım bəy Zakirin nəticəsidir.Təqribən 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Mükəmməl mədrəsə təhsili almış, "Xosrov" təxəllüsü ilə klassik üslubda şerlər yazmışdır. Buradakı şeir nümunələri "Təzkireyi-Nəvvab" əsərindən götürülmüşdür.

### Qəzəllər

Urma, məşşatə, əlin zülfə, pərişan olsun,
Neçə min qümşüdə dil onda nümayan olsun.

Getdi dilbər, nə durubsuz dəxi, ey didələrim,
O qədər əşk tökün, yer üzü tufan olsun.

Eləyib ahları zülfüsifət ruzimi şəb,
Görüm, Allah, bu sınıq könlümü viran olsun.

Elə güftar açıban ləli-ləbi-gülbərgin,
Nəqdi-qönçə çəkilib səbzədə pünhan olsun.

Könül iblissifət zülfün ara gizlənmiş,
Bəlkə ta məskən ona rövzeyi-rizvan olsun.

Meyi əğyar ilə gülşəndə içib, görmə rəva,
Qönçəvəş hicri-ləbində ciyərim qan olsun.

Rəhm qıl, Xosrovunu hicr oduna yandırma,
Vəslini eylə səbəb nar gülüstan olsun.

***

Xurşidə səcdə eyləmək, ey dil, səvabdır,
Torpağa düş ki, ismi-nigar Aftabdır.

Təsxir edibdi beyti-xudanı məgər nigar
Kim, zülfi-siyahı Kəbə yüzində hicabdır?

Şəbnəm deyil gül üzrə düşən, bülbüli-həzin
Sübhün dəmində tökdüyü əşk gülabdır.

Gülruyi-yarda yazılıb xəttü xal ilə,
Bir busə ləbdən ummağa yüz qan cavabdır.

Ya şanə zülfü, ya ki, səba dərhəm eyləyib?
Vəchi budur könül belə pür piçü tabdır.

Xosrov, oyan, deyirlər ki, şəkkərləbin gedir,
Qafil, nə yatmısan, bu nə şirin xabdır?!

***

## MİRZƏ RƏHİM FƏNA

Mirzə Rəhim Məhəmmədbağır oğlu Fəna 1848-ci ildə Şuşa şəhərində anadan olmuş, ilk təhsilini də orada, üç sinifli İslam mədrəsəsində almışdır. 1862-ci ildə mədrəsənin bağlanması ilə əlaqədar olaraq dövrün tanınmış müdərris-alimi Mirzə Əbülqasim Qazinin yanında ərəb və fars ədəbiyyatı ilə bağlı nəzəri biliklərə yiyələnmiş, rus dilini də bildiyi üçün 1866-cı ildən 1872-ci ilə kimi hökumət qulluğunda çalışmışdır.

1872-ci ildə uzun müddət xan sarayında dərbar münşisi vəzifəsində çalışan atası Mirzə Məhəmmədbağır dünyasını dəyişdiyi üçün onun missiyasını davam etdirmək məqsədilə saraya dəvət edilmişdir. Şuşada əhalinin poeziyaya rəğbətlə yanaşdığını nəzərə alan Xurşidbanu Natəvan sarayda ədəbi məclis yaratmaq təşəbbüsündə oldu və bunun icrasını Mirzə Rəhimə həvalə etdi. Yeni yaranmış məclis fəaliyyətə başladığı ilk gündən ona rəsmi şəkildə "Məclisi-üns" (Dost məclisi) adı verildi və tezliklə onun şöhrəti hər tərəfə yayıldı.

Ömrünün axırına kimi xan ailəsinə sədaqətlə xidmət edən Mirzə Rəhim əvvəllər "Aşiq", "Məclisi- üns"də fəaliyyətə başladağı gündən etibarən isə "Fəna"təxəllüsü ilə yazıb-yaratmışdır. Şeirlə yanaşı, nəsrlə yazdığı elmi, tarixi əsərlər də ("Tarixi-cədidi-Qarabağ", "1905-ci il hadisəsi", Nizami əsərlərinin tədqiqi və s.) şairə ədəbi ictimaiyyətdə böyük şöhrət gətirmişdir.

Mirzə Rəhim 1931-ci il fevral ayının 11-də Bakida vəfat etmişdir. Şairin əsərləri 2023-cü ildə nəşr olunmuşdur:Mirzə Rəhim Fəna. Əsərləri.B., 2023.(Ön sözlə nəşrə hazırlayanlar: Raqub Kərimov və Könül Bağırova). Aşağıdakı şeir örnəkləri həmin kitbdan götürülmüşdür.

### Qəzəllər

Bəzmi-dünya içrə bir cami-müsəffadır savad,
Kim içər bu camdan, onda hüveydadır savad.

Aləmi-kövni-vəfadan rüknidir dərgahara,
Cismlərdə can kimi hər yerdə peydadır savad.

Feyzü büsati-xilqətilə qüvvəti məlum olur,
Daşilə topraq vücudunda mühəyyadır savad.

Tabişi-nur ilə bir ayinədir surətnüma,
Ünsüri-tar aləmində bir memardır savad.

Cinsi-heyvan içrə insan ləfzilə mümtaz olur,
Surəti-əlfazilə nitq içrə guyadır savad.

Gah-gülzarə təravətdir, gah məşşatədir,
Gəh səba namilə peyki-rahpeymadır savad.

Abi-heyvandır, onun əzqası kim canbəxşdir,
Cayiz olseydi, Fəna, gər söyləmək madır savad.

***

Vardırmı görəsən, bən kibi bir xanəxərab?
Yarı yox, möhnəti çox, bəxti zəbun, çeşmi pürab.

Gah pabəndi-səri-zülfi-nigar oldu könül,
Ömrlər saldı tənü canimə yüz piçilə tab.

Gah bir türki-siyəhməst qılub can qəsdin,
Ciyərim qanını mey sandı edüb könlü kəbab.

Məsti-çeşmin olalı meykədə tərkin qıldım,
Yadi-ləlinlə rəvadırmı dəxi meyli-şərab?

Ta məgər sərv qəddin baş çəkər, ey tazə nihal,
Ömrlərdir tökürəm payına su misli-səhab.

Nə deyim nasehə gər dərdi-dilim etsə sual,
Əşki-çeşmim söyləyür kim, bu sözə yoxdu cəvab.

Nə qədər var idi qüdrət çəkər idim qəmini,
Dəxi indi belə yox firqətinə taqətü tab.

Nəqbələr açdı fələk köksümə enməz xakə,
Görəli navəki ahi-dilimi tiri-şəhab.

Səndən ayrı nə deyim kim necədir hali-Fəna,
Guşələr içrə qalub xəstədilü bixürü xab.

***

Mahi-təmamı gördüm, aləm olub münəvvər,
Atmış ziya cəhanə rövşənçirağı-xavər.

Kövkəblərin füruği ay zövinə müqabil,
Bənzər çirağı-sübhə nuri-ziyası kəmtər.

Ay surəti nihanı heyran baxar cəhanə,
Aləm qəriqi-heyrət, heyranlığı müsəvvər.

Gün tabişi çü atəş bəs tündü tiz sərkəş,
Əmma qəmər ziyası dilçəsbü mehrpərvər.

Aşiqlərin ənisi, bidarlər çırağı,
Əsrari-yarə məhrəm, mehrü vəfayə rəhbər.

Yalquz gəzər səmanı peydavü həm nəhanı,
Hər cilvəsi günəş tək nuri-xudayə məzhər.

Nuri-ruxi məaniyi- dil bəzmin etsə rövşən,
Kor olsa çeşm zahir olmaz, Fəna, mükəddər.

***

Kor olan gözlərim, az ağla ki, yollar göl olur,
Gedəcək sərvi-rəvanım, səfəri müşkül olur.

Cümleyi-xatirimi bəkləməyən dildarə,
Hansı viranələrin küncü görən mənzil olur?

Sarban nəğməsi könüllərdə gedən fəryadım,
Cərəsi-naqə səri-zülfünə bağlı dil olur.

Nə gözəl ölkədi kim, yarım ona qıldı səfər,
Nə sefid ölkə vüsalından onun xoşdil olur.

Sanma kim səndən iraq şad olur könlüm gərçi,
Xubrulər yığışıb işrətə, çox məhfil olur.

Könlümün çoxdu xəridarı, verən yoxdu bəha,
Səndən özgə demə bir dilbərə dil mayil olur.

Sən düşən mihfələ baxcaq tökülür göz yaşım,
Sən gəzən gülşəni görcək bənə daği-dil olur.

Təməm yoxdu yetə dəsti-tələb damənin̈ə,
Hər nə bu yolda çəkəm rəncü təəb zayil olur.

Səməri-eşq cəfadır, hünəri-yar sitəm,
Aşiqin mayəsi qəm, zəhməti bihasil olur.

Yar getdi, bənə cövr etdi, həlakım yetdi,
Ah kim, hali-Fənadən o sənəm qafil olur.

***

## Məsnəvi

Ey bənim həmrazım əncüm, ey füruzan qətrəyi-əşk
Çıx gözüm görsün səni, kövkəblər etsin sənə rəşk.
Bən səninlə munisəm hali-dilim rövşən sana,
Sən bənə bidarlıq həmrahısan sübhü məsa,

Mehriban yoldaş sənintək görmədim dünyadə bən,
Həm bənimtək bir bəlakeş görmədin aləmdə sən.

Sən baxub hey saxlarsan bənim əsrarımı,
Hər kəsə izhar qılmazsan yoxilə varımı.

Söylədikcə bən sənə hali-dilim qan ağlaram,
Könlümü ahi-cigərsuzilə daim dağlaram.

Sən hara olmaq bənimlə dərdü möhnət yoldaşı,
Salmasun həqq taleyin hərgiz başına qəm daşı.

Sən ki eymənsən bəlayi-dəhrdən, ey nuri-pak,
Qeydi-canü tən səni bir tər kibi etməz həlak.

Sən bənimçün şami-qəm, bir şəmi-şəbəfruzsan,
Razdari- sineyi-püratəşü pürsuzsan.

Aləmi-əzdadda heyranü sərgərdan bizik.
Əvvəl- axır cəhanda didəsi giryan bizik.
***

## Görmədim

Bari-ilaha, səbəb nədir dünyadə,
Əshabi-dili xürrəm görmədim.

Hər nə gördümsə möhnətü qəmdir,
Qəmdən səva özgə aləm görmədim.

Cilveyi-sərayə bənzər nişatı,
Mayeyi-qəmidir hər ixtilatı,
Viran ola görüm köhnə ribatı,
Asudəlik onda bir dəm görmədim.

Qönçəlikdə gülün bağrı dolur qan,
Açılsa övraqı büryan, pərişan,
Bülbülün işidir naləvü əfqan,
Heç kimin zəxminə mərhəm görmədim.

Cəvanlığı aşüftə, pirliyi dərhəm,
Məntiqi-şirinin axıri əbkəm.
Mihfəli-işrəti məclisi-matəm,
Şadlıq istəyirdüm, cüz qəm görmədim.

Mətayi möhnətdir, bazarı zəhmət,
Müştərisi nadim, sudi xəsarət,
Hansı aqil edər bundə ticarət,
Fayidə istəyüb dirhəm görmədim.

Əcəb qəmxanədir bu dari-fani,
Dərd ilə bağlanub taği, eyvani,
Bu qədər olsə də rahət imkani,
Dünya əsasını möhkəm görmədim.

Məşuqi bivəfa, aşiqi şeyda,
Hüsnü eşqi bir-birindən mübtəla.
Hər kəsi gördümsə pabəndi-cəfa,
Küdurətsiz əsla həmdəm görmədim.

Hər gülruxun yüzü axər əfsürdə,
Dilxəstə aşiqin hali pəjmürdə,
Eşqü həvəs yolu batil bir yerdə.
Məhbubə zülfünü pürxəm görmədim.

Adəm övladının şövkətü şanı,
Dünya zinətidir hökmi-rəvanı.
Hərçənd ki, istədim bən görüm anı,
Aləm dedi bənə adəm görmədim.

Aləmi-vücudun axırı ədəm,
Daimidir [fəqət] xaliqül-aləm.
Süleyman mülkünün axırı bərhəm,
Həmişəlik ondə xatəm görmədim.

Gedən çox olubdur dari-dünyadan,
Var ikən yox olan dari-fənadan.
Sorsalar Fənadan, o bivəfadan,
Deyərəm dünyanı bən həm görmədim.

***

## Qəsidə

### Füzulinin 400 illiyi münasibətilə iftitahi-məclisnamə

Dila, amadə ol təbrikə, çünki cəşni-ürfandır,
Cahanda tazə bir üslubi-xoşayət nümayandır.

Bu gün deyirlər Füzuli nami-niki zibi-məclisdir,
Onun zikrilə bəzmi-arifan dilşadü xəndandır.

Füzuli dudimani-türkdən fərzəndi-fərzani,
Ədibü fazilü danavü rəşki-əhli-iğandır.
Bu gün bu bəzmdə onu edən təsviri-ruhani,

Təmamən əhli-ürfan, sahibi-elmilə vicdandır.

Nə deyirlər? Hər biri tovsif edir öz zövqi-halilə,
Biri söylərsə “Bəngü Badə” dən, digəri qəzəlxandır.

İki aləm sözün yazmış biri zahir, biri batin,
Kəlamı heyəti-məcmuyeyi-halati-insandır.

Həqayiq aləmindən bəski zikr eylər dəqayiqlər,
Deyil məsturi-məni görməsə məzuri-nadandır.

Məzaqi can verir üşşaqə, cami-badə məstanə,
Onadır hasili-eşqi, buna kim badə dərmandır.

Dürrü yaqutü mirvaridi-qəltan nisbəti batil,
İrəm gülzarinə təşbih kim eylərsə üsyandır.

Fəsahət bürcünün tabəndə mahi, zib xərgahı,
Bəlağət övci-əlasında bir mehri-dirəxşandır.

Lisani-sahiri təlim edər adabü təqriri,
Bəyani-mahiri əhli-bəyanə əsl bürhandır.

Zəhi ustadi-rövşəndilü həkimi-fazilü kamil,
Təsərrüf zövqi-insanə yetirmək müşkül asandır.

Əla, ey şəxsi-ruhani, nə sahibi-elmi-zişansan,
Kəmalati-tənü can nöqteyi-qəlbində pünhandır.

Yeganə milləti-türkü görüb dil ixtilafinda,
Muradın ittifaq olmuş əgərçi ziddi-imkandır.

Atub könlün həqiqət aləminə istədin kamın,
Danışdın bir dililə kim o dildə əql heyrandır.

Lisani-əzblə cari bəyanə qadirü nafe,
Hamı türkün məzağində dəlilü ülfətü candır.

Kəramət eylədin əqvami-türkə xoşbəyan bir dil
Ki, hər bir kəlmə onda came bir fəzli-tibyandır.

Lisani-türkü əhya eylədin İsakəramət sən,
Səni canbəxş kim söylərsə doğru, bu nə böhtandır.

Sənin adınladır baği-cahanda turklük adabı,
Əgər iqsayi-mülki-Rumdur, ya səthi-Turandır.

Kəmalati-Nəvaidən deyildir heç kəs qafil,
Onundur sibqəti-hüsnü kəlamü sahibi-şandır.

Xələf gər saleh olsa, ol şərəf islamə rahibdir,
Xələf rəcmanına təmcid əslafı nə nöqsandır.

Düşübdür qürəyi-dövlət sənin adınla, ey dana,
Dəhanın nöqtəsindən hər nə çıxsa abi-heyvandır.

Qərəz, bu bəzmdən təşrif nami-pürkəmalındır,
Onunçun əhli-ürfan cəm olubdur təhniyətxandır.

Əla, ey arifan nəqdi-kəmalati-kəlafilə,
Gələk bazarə, çünki ruzi-beyi-mahi-Kənandır.

Deyək şükranələr padaşi-nemət ol süxəndanə,
Bu sevdadə təqafül mayeyi-əfsusü xüsrandır.

Pərişan halilə yazmış Fəna bunça əbyatı,
Təmənnayi-məzərətdir, çünki bəzmi-xasi-ürfandır.

Füzulinin qalar asarı baqi ta cəhan baqi,
Fəna yoxdur kəmalə hər zəman, hər dövr dövrandır.

***

# HƏSƏNƏLİ XAN QARADAĞİ

Maarifpərvər şair Həsənəli Xan Qaradağı 1848-ci ildə Şuşada anadan olmuşdur. Onun əslən Güney Azərbaycanın Qaradağ mahalından olan babası Məhəmmədqulu ağa uzun müddət çar ordusunda yüksək rütbəli zabit kimi xidmət etmiş və 1804-cü ildə köçüb Şuşaya gəlmişdi. Atası Həsənəli xan da hərbçi olmuşdur. Balaca Həsənəli hələ ana bətnində ikən atası Həsənəli xan dünyasını dəyişdiyi üçün onun adını oğluna qoymuşdular. "Balaca ağa" (onu Şuşada belə çağırırdılar) anası və əmisinin himayəsində böyümüşdür. Əmisinin dəvəti ilə bir müddət Tiflisdə yaşayan Həsənəli xan başda M.F. Axundzadə olmaqla (Axundov ona "qardaşoğlu" deyərək müraciət edərmiş) bir sıra maarifpərvər ziyalılarla tanış olmuş və onlarla yaradıcılıq əlaqələri yarada bilmişdir. Ərəb, fars, rus və fransız dillərini mükəmməl bilən Həsənəli xan 1870-ci ildə Şuşada yeni tipli üsuli-cədid məktəbi açmış və ömrünün axırına kimi müəllimliklə məşğul olmuşdur. O, Şuşada fəaliyyət göstərən ədəbi məclislərin fəal üzvü olmuşdur.

Həsənəli xan Qaradaği 1929-cu ildə Şuşada vəfat etmişdir. Onun əsərləri 2001-ci ildə nəşr edilmişdir. (Həsənəli xan Qaradaği. Əsərləri. B,2001.Toplayıb transfoneliterasiya edərək ön sözlə nəşrə hazırlayan Raqub Kərimovdur). Buradakı nümunələr həmin kitabdan götürülmüşdür.

## Qəzəllər

Hansı dildir zülfünü gördükdə sevdalənməsin?
Hansı aşiqdir sənin şövqində qocalənməsin?

Arizin göstər gülə gülşəndə hümralənməsin;
Sərvə göstər qamətin ta sərv rənalənməsin.

Könlümü sevdayi-zülfün eyləmiş divanəvəş,
Payibənd et zülfün içrə, ta ki, rüsvalənməsin.

Daneyi-xali-siyahə mayil olmuş mürği-dil,
Öz əlilə damə düşdü, hiç pərvalənməsin.

Urma, zalım, həlqeyi-geysulərə ol şanəni.
Xatirim məcruh olur, zülfün cəlipalənməsin.

Mən kimi tab etməyib eşqə, qaçıb səhralərə,
Siz əbəs yerdən deyin Məcnunə şeydalənməsin.

Sən kimi bir məhvəşi gördükdə, ey tərsabeçə,
Şeyx Sən’an neçə tab etsin ki, tərsalənməsin?

Nəqd can vermiş Qaradaği o xali-hindunə,
Bu təmənnayə düşüb bir kimsə sevdalənməsin.

***

Salıbdı indi nəzərdən, gedib ol yar məni,
Edibdi möhnətü dərdü qəmə düçar məni.

Fəqanü nalə yükün  çəkmək ilə keçdi gün,
Bəla qatarına çərx etdi sərqatar məni.

Bəla xədənginə olmuş nişan dili-zarım,
Nedim ki, eylədi səyyadi-qəm şikar məni.

Fəqan ilə ətəgin tutdum o turşruyin,
Cəfadə söylədi: “Yan get, od tutar məni!”

Bu fikri yordu məni ahu seyd edənlərtək,
O ahu gözlü görəndə nədən qaçar məni?

Nə söz dedim, görəsən, dəydi qəlbinə, ya Rəb!
Küsübdü, indən belə dindirməz nigar məni?

Qaşından özgə əgər qiblə tutsam aləmdə,
Görüm ki, eylər sədparə zülfiqar məni.

Gecə sabahə kimi yoxdu taqətü tabım,
Gətirdi təngə, Xudaya, bu ahüzar məni.

Əsiru xəstədil oldum bu möhnətü qəmara,
Əcəl yetişdi, gəleydi, görəydi yar məni.

Nə etmişəm, Qaradaği, bu qədər yar belə
Rəqiblər nəzərində tutubdu xar məni?!

***

Mən bir nocəvan, türfə gözəl yarə aşiqəm,
Oğrun baxışlı, gözləri xummarə aşiqəm.

Şəmi-cəmalə gərçi yanıb natəvan könül,
Pərvanələr yandıran odlarə aşiqəm.

Baxmaz yüzümə bircə nədən döndərib yüzün?
Bilməzmidir ki, ona mən biçarə aşiqəm?!

Müjgan oxuna etmiş hədəf dağlı sinəmi,
Hər ləhzə bağrımı dələ, yarə aşiqəm.

Aya, alır bu canı, düşüb xaki-payına
Mən etsəm ərz yalvarə-yalvarə, aşiqəm.

Bir mehri yox, vəfası bulunmaz, cəfası çox,
Zahirdə xoş, batini sitəmkarə aşiqəm.

Nə zəmm edin, nə tənə Qaradağini, yaran!
Aləmdə mən də bir belə yarə aşiqəm.
***
Fələyin bir belə dövrü olacaymış, nə bilim?
Saralıb bağü gülüstan solacaymış, nə bilim?

Bitirib, bağ salıb, bir neçə güllər yetidim?
Uzadıb dəst qəza kim, yolacaymış, nə bilim?

Ürəyim yaralanıb, sinəmə dağlar çəkilib,
Gözümə qan sağılıb, yaş dolacaymış, nə bilim?

Əl çəkib nakəsidən, çərx özü nakəsimiş.
Tək bana cövrü cəfalar qılacaymış, nə bilim?

Bəslədim zülfü, dedim, başıma salsın sayə,
Dolanıb boyna, ilantək çalacaymış, nə bilim?

Aşiqə naz eyləmək adət olub məşuqə,
Bu qədər naz eləyib can alacaymış, nə bilim?

Səltənət rütbəsinə naz qılardım şahikən,
Məni başdan-ayağa qəm saracaymış, nə bilim?

Dolanıb ruzigarın haləti bir özgə hala,
Ey Qarabaği, sana qəm qalacaymış, nə bilim?
***
Əbrvəş məh yüzinə zülf salanda sayə,
San ki, bir ay tutulur şur düşür dünyayə

Düşsə bir tar telindən yüzinə,Tarı bilir,
Ləkələr zahir olur, nəqs yetər ol ayə.

Gərçi İsa dəmi çox mürdələr əhya eləyib,
Özü əhya olu, gər yetsə dəmin İsayə.

Naz edib, fəxr qıla çərxə bu yer, kim yeridir,
Gəlməz onda gəzənin mehrü məh üzlü sayə.

Yığılıb dövrəsinə bir neçə dilbər, guya,
Duxtəri-nəş alıbdır cudəyi ortayə.

Üzməzəm tarı bilir daməni-vəslindən əlim,
Gətirə ruhüləmin göydən əgər min ayə,

Varıdıq bundan əzəl biz nə gözəl həmxabə!
İndi biganəsifət göz kimiyik həmsayə.

Mən hara, eşq hara, dilbəri-məhruy hara?
Nə yaman yerdə yenə düşdü başım qovqayə!

Sən hara, sərv hara, qamıti-mövzun hara?
Bu xuraman gəzişin nisbəti yox tubayə.

Baş çəkib aşiqdən böylə xuraman gəzmə,
Salma, ey sərv, məni mərəkeyi-üzmayə.

Ey özü, adı şirin, ləhcəsi, güftarı şirin!
Süd verəndə südünə, balmı qatıbdır dayə?

Neçə təqrir qılım vəslidə hicran şərhin,
Dərdü hicrü qəmin, ey dust, gəlirmi sayə?

Görməmiş mehrü vəfa, cövrü cəfa çəkmək üçün
Belə zahir ki, Qaradağı gəlib dünyayə.

***

Badə ilə laləyə, ləli-Bədəxşanə ləb
Rəng verir gör neçə bəhridə mərcanə ləb,

Cami-meyə yüz tutub qan eləyir qan ilə,
Rəngü cila artırır yaquti-rummanə ləb.

Şirü şəkər kanıdı, şəhdü şəkər razadır .
Oxşamaz əsla deyim püsteyi-xəndanə ləb.

Malü mənaldan keçib, bil ki, nisar eylərəm,
Bir də qəbul eyləsə canımı qurbanə ləb.

Cənnəti də, Kövsəri zahidə ver, istəməm,
Abi-həyat kanıdı, gətdi məni canə ləb,

Qüvvəti yox badənin, ey Qaradağı, inan,
Çox yaman sərməst edər, gər dəyə dəndanə ləb.

***

## Müxəmməs

Bir bəxşi-xudadır bu məlahət sənə, dilbər,
Güftarı bəlağət, bu fəsahət sənə, dilbər,
Bu nazü nəzakət, bu təravət sənə, dilbər,
Məxtum olub ol hüsnü lətafət sənə, dilbər,
Naz etmə gəl uşşaqə, əmanət sənə, dilbər!

Ey məh, nə əcəbsən, nə qəşəngsən, nə gözəlsən?
Xubluqda bu gün Yusifi-Kənanə bədəlsən.
Deməк nə rəva, Yusifi-sani, sən əzəlsən.
Dur mən dolanım başına, bir yanıma gəlsən
Haşa edəlim bil ki, xəyanət sənə, dilbər!

Öldürdü məni dərdü qəmü möhnəti-hicran,
Qurtarsa bu qəmdən məni gər xaliqi-sübhan,
Nəzr eyləmişəm, canım edəm vəslinə qurban.
Yoxdur dəxi bir özgə qəmim, ey şəhi-xuban,
Gər yetsə canım sağü səlamət sənə, dilbər.

Avarə gəzərkən mən o divanələr içrə,
Düşdü güzərim bir neçə məstanələr içrə,
Saqi tökərək badəni peymanələr  içrə,
Söylədi ləbin vəsfini meyxanələr içrə.
Yetməzmi bu tərif, bu şöhrət sənə, dilbər,
.
Olmaz bu gözəllikdə deyim, bir bəni- adəm.
Heyrandı sənin hüsnünə bu məhvəşi-aləm.
Əhdinə vəfa eylə, qıl iqrarını möhkəm.
Ol səcdəgahım, səcdə qılım hüsnünə hər dəm
Şayəstədi, əlbəttə, dəyanət sənə, dilbər!

Salma nəzərindən məni, ey vəhşi qəzalım!
Gündən günə artır nə edim, dərdü məlalım.
Rəhm et bana, zülfün kimi aşüftədi halım.
Insafdımı, zalım, belə bu hal ilə qalım?
Etməzmi görən kimsə məlamət sənə, dilbər?!

***

## MOLLA SALEH

Molla Saleh təqribən 1850-ci ildə Zəngilanda anadan olmuşdur. Mükəmməl dini təhsil olan Saleh mollalıqla yanaşı özünə rövzəxanlığı da peşə seçmişdir. Ədəbi ictimaiyyətdə şair kimi də tanınmş, şeirlərini klassik üslubda "Bülbül" təxəllüsü ilə yazmışdır. Ona məxsus aşağıdakı şeirlər "Təzkireyi-Nəvvab"dan götürülmüşdür.

### Qəzəllər

Taği-əbrulərini görmüşəm, ey can, ölürəm,
Edərəm gözlərinə canımı qurban, ölürəm.

Səcdagahımdı mənim qaşlarının tağı, yəqin,
Etməyən taət ona tapmayıb iman, ölürəm.

Qoy baxım gözlərinə, gözlərim olsun rövşən,
Olmuşam gözlərinə valehü heyran, ölürəm.

Məni bimar eləyib nərgisi-bimarlərin,
Gər ləbindən, sənəma, olmasa dərman, ölürəm.

Mürği-dil xalını görmüş, uça istər təndən,
Dama sal, zülfünü bir eylə pərişan, ölürəm.

Olma məğrur, gözüm, hüsnünə, bax aşiqinə,
Nə zərər, baxsa əgər çakərə sultan, ölürəm.

Nə rəvadır məni məhrum qılıb padşahım,
Səg rəqibi edəsən qapına dərban, ölürəm.

Məni öldürdü bu həsrət ki, rəqibim oturub,
Yar ilə söhbət edir xürrəmü xəndan, ölürəm.

Bülbüləm, gül üzünün həsrətiyəm, bircə dayan,
Görüm ol gül üzünü, can verim asan, ölürəm.

***

Ey yarı-dilrüba, səni pünhanı görmüşəm,
Guya behiştdə nəxleyi-tubanı görmüşəm.

Mövzun qədini, şiveyi-rəftarını görüb,
Etdim yəqin ki, sərvi-xuramanı görmüşəm.

Qamət deyil, qiyami-qiyamətdir aşkar,
Görgəc dedim: Qiyaməti-kübranı görmüşəm.

Təşbih edərlər ərərü şümşada qəddini,
Vallahi, mən əgər belə böhtanı görmüşəm.

Məcnunmisal çöllər olub məskənim mənim,
Ol vəqtdən ki, qaməti-Leylanı görmüşəm.

Can nəqdini nisar edərəm xaki-payına,
Lazım deyil bu can mənə, cananı görmüşəm.

Bir Bülbüləm ki, şüğlüm olub naləvü fəğan,
Fəsli-xəzanda türfə gülüstanı görmüşəm.

***

# MOLLA MƏHƏMMƏD

Kərbəlayi Molla Məhəmməd Mirzə Əhməd Təbib oğlu təqribən 1850-ci ildə Qarabağın Bağbanlar kəndində anadan olmuşdur. Dövrünün savadlı şəxslərindən olan Molla Məhəmmədin əsas peşəsi mollalıq olmuşdur. Bununla yanaşı poeziyaya maraq göstərmiş, adını təxəllüs kimi qəbul edərək klassik üslubda müxtəlif mövzuda şeirlər yazmışdır. Şeirlərini avtoqraf nüsxədə Mir Möhsün Nəvvaba göndərən şairlərdən biri də Molla Məhəmməddir. Şeir örnəkləri "Təzkireyi-Nəvvab"dan götürülmüşdür.

## Qəzəllər

Könlüm olubdu parə xədəngi-məlal ilən,
Allah rizası, qoyma məni böylə hal ilən.

Nitqin Məsihi-zəmanədi, bir gəl təkəllümə,
Qəlbim olubdu mürdə, qıl əhya məqal ilən.

Daim sabahadək gecə əncüm sayar gözüm,
Yeksandı sübhü şam mənə bu xəyal ilən.

Əlhəqq, kəsbi-hüsnünə heyrandı aftab,
Müddətdi ərşdə dolanır mahü sal ilən.

Lütfün mənə gər olmasa, yoxdur məzəmmətim,
Baxmaz gədaya şah bu qədr cəlal ilən.

Tavus hüsnun axırı, ey məhvəşi-cahan,
Aldatdı mürği-ruhumu bir danə xal ilən.

Eşqin Məhəmmədin necə gör əqlini alıb
Divanəvar edibdi bu fəhmü kəmal ilən.

***

Nə ruzi-vəsldə əhdin mənimlə möhkəm olaydı,
Nə öylə möhkəm olaydı, nə böylə bərhəm olaydı.

Nə gəlməyəydi cahana bu cismi-zarü fikarım,
Nə olmayaydım anamdan, nə cəddim Adəm olaydı.

Nə görməyəydi cəmalın bu çeşmi-əşkəfşanım,
Nə firqətində, nigara, bu qədr pürnəm olaydı.

Nə olmayaydı səri-kuyin üzrə mənzili-qürbim,
Nə indi ol səri-kuyə rəqib məhrəm olaydı.

Nə sən kimi qədi-ərər görəydi çeşmi-zəmanə,
Nə qamətini görəydim, nə qamətim xəm olaydı.

Nə eşqin ilə muxəmmər olaydı bu dili-xunin,
Nə eşq olaydı, nə aşiq, nə yarü həmdəm olaydı.

Nə öylə vəslin olaydı mənimlə, ey güli-behcət,
Nə böylə firqəti-cansuzü möhnətü qəm olaydı.

Nə keçməyəydi fələkdən bu qədr şöleyi-ahım,
Nə cana atəşi-hicrin belə müsəlləm olaydı.

***

Düşübdü təxtim, əzizan, ümidgahım ilən,
Xədəngi- hicrinə tab etməyə bu ahım ilən.

Fəraqa səbr elədim, cana qəsdü xabı həram,
Şikayət eyləmədim bir belə güvahım ilən.

Nisari-can elәmәk məqdəmində asandır,
Vüsal hasil ola bircə qibləgahım ilən.

Müyəssər olsa yetəm xidmətində dilbərin.
Nə güftgu edərəm ol camalı mahım ilən!

Zəmanə içrə əzəldən əcəb mükərrəm idim,
Həmişə fəxrim idi malü izzü cahım ilən.

Dağıldı izzü cəlalım, gədasifət gəzirəm,
O gün ki aşiqəm ol yari-xoşnigahım ilən.

Xəyali-xalın ilən xab görmürəm gecələr,
Sabahadək edirəm cəng xabgahım ilən.

Fəraq silsiləsinə könül düçar oldu,
Nə gunə vəslə yetim taleyi-siyahım ilən?!

***

Həbiba, noldu bais kim, məni aləmdə xar etdin?
Qara gözlüm, məgər bir qeyri aşiq ixtiyar etdin?!

Nəzərdən məhv edib, bəzmi-nişatımdan əyaq çəkdin,
Qara gözlüm, məgər əğyar bəzminə güzar etdin?!

Həmişə fəxr edərdim məhrəmi-qürbi-vüsal oldum,
Qara gözlüm, nədən miskini kuyindən kənar etdin?!

Məni bədgulərim bietibar etmiş hüzurunda,
Qara gözlüm, nədən qövli-rəqibə etibar etdin?!

Nə müddət daği-hicranın dili-zarım nihan tutdu,
Qara gözlüm, nədən bu sirri xəlqə aşkar etdin?!

O qədr şükr qıldım, hicr ənduhi kənar etdim,
Qara gözlüm, nədən canım qəmi-hicrə düçar etdin?!

Əzəl gün xidmətində seyri-gülzara qədəm qoydum,
Qara gözlüm, nədən qeyr ilə seyri-laləzar etdin?!

Vüsalın nəşəsilə bəzmi-eyşə rövnəq artırdım,
Qara gözlüm, nədən bu bəzmi-eyşi tarmar etdin?!

Şəfəqgun eyləmişdi şəmi-hüsnün külbeyi-tarım,
Qara gözlüm, nədən bu xanəgahım tirə-tar etdin?!

Edib biganəlik tərkin, mənimlə həmdəm olmuşdun,
Qara gözlüm, nədən bu biganəlikdə iştihar etdin?!

Qədəm qoydun bu gün nazilə bəzmi-eyşi-xubanə,
Qara gözlüm, nədən xubani-dəhri şərmsar etdin?!

Nə müddətdir dili-zarım olub pabəsteyi-zülfün,
Qara gözlüm, nədən bu zənciri-eşqi üstüvar etdin?!

İçib peymaneyi-eşqin xumaru laybal oldum,
Qara gözlüm, nədən miskinini munca xumar etdin?!

Həmişə fəxr edərdim sayeyi-lütfündə dövr edim,
Qara gözlüm, nədən lütfün kəsib, zülmün şüar etdin?!

Məhəmməddir sənə dirinə çakər, ey büti-ziba,
Qara gözlüm, nədən ol pirdən tərki-nigar etdin?!

***

Sənin o gözlərində qəsdi-can əlaməti var,
Bu can sənindi, əzizim, mənə nə minnəti var?

Üzündə daneyi-xalındı dil təmənnası,
Mutiyi-adəm aqibət nədaməti var.

Bu nazü qəmzə, bu işvə, bu şiveyi-dilgir,
Behişti-ədəndə hurilərə nə nisbəti var?

Görən zamanı üzün afitabi-aləmtab
Girir səhabdə pünhan olur, xəcaləti var.

Ləbini şəhdi-şəkər söyləyən xilaf eləyib,
Ləbin yanında, gülüm, şəkkərin nə ləzzəti var?

Sənə "gülüm" dedim, ey mahru, xəta elədim,
Çəməndə hansı gülün sən kimi təravəti var?!

Xilafı-qaidədir sərv, çox müərrifdir,
O neçə sərvdi, sən tək bu qəddü qaməti var?!

Məhəmmədin sənə can verməyə  talibdir,
Məqami-eşqdə hər aşiqin nə qüdrəti var?!

***

## KƏRBƏLAYİ ƏLƏKBƏR SAFİ

Kərbəlayi Ələkbər Məşədi Məhəmmədhüseyn oğlu təqribən 1850-ci ildə Şuşada anadan olmuşdur. İctimaiyyətdə sənətkar kimi tanınan Kərbəlayi Ələkbər şair kimi də məşhur olmuş, şeirlərini klassik üslubda "Safi" təxəllüsü ilə yazmışdır. "Təzkireyi-Nəvvab"a daxil edilən şeirlər onun öz dəsti-xətti ilə yazılmışdır. Bu şeir örnəkləri həmin mənbədən götürülmüşdür.

### Qəzəllər

Ta əzəl mehri-rüxun bəs ki, dili-zarə düşüb,
Sirri-pünhaniyi-eşqim əcəb izharə düşüb.

Dami-zülfünlə könül mürğünü seyd etmək üçün
Daneyi-xali-siyahın gülrüxsarə düşüb.

Dəmbədəm qarət edib sehr ilə can almaq üçün
Qəmzə ol çeşmi-siyəhməsti-xətakarə düşüb.

Güli-həmra təki gülşəndəki xəndan güllər,
Əksi-ruyindi kim, ayinə gülzarə düşüb.

Gün deyil rövşən edən şəhrləri, bəlkə sənin
Pərtövi-nuri-camalın dərü divarə düşüb.

Bu nə insaf ilə qismətdi ki, sən eyləmisən,
Vəslin əğyar ilə, hicrin məni-xunbarə düşüb?

Şəkkəri-ləli-ləbin vəsfini zikr etmək üçün
Safinin sözlərinin şöhrəti bazarə düşüb.

***

Dil tutdu vətən zülfi-şikən pürşikən içrə,
Müjgan oxilə urma onu sən vətən içrə.

Yox ləl ləbin kimi, əzizim, Yəmən içrə,
Sən şivədə ahu ola bilməz Xütən içrə.

Ol daneyi-xali-siyəhin dövri-rüxunda
Çün daği-şəqayiq ki, düşübdür çəmən içrə.

Aldım ləbini ağzıma, gördüm məni-nalan,
Məmzuç olunub, şəhddi guya ləbən içrə.

Cəllad gözün tökdü mənim qanımı nahəq,
Bari öz əlinlə məni qoy sən kəfən içrə.

Gördüm qədi-sərvi, nə əcəb barvər olmuş
Püstanını yarın, könül, ol pirəhən içrə.

Məni- Safiyi-divaneyi- Məcnuni-zamanam,
Söyləllər mənim adımı hər ənçümən içrə.

***

Zülfün telidi boynuma zəncir, dilbərim,
Qaşın çəkibdi qətlimə şəmşir, dilbərim.

Ləli-ləbin havası ilə qan olub könül,
Daim edər o naleyi-şəbgir, dilbərim.

Hüsni-rüxunda süni-xuda eyləyib zühur,
Olmaz bəşərdə sən kimi təsvir, dilbərim.

Hər dəm üzünə gün düşübən kəsbi-nur edər,
Bağ içrə misli-adəmi-gülgir, dilbərim.

Səyyadi-eşq gər gəzə dünyanı sərbəsər,
Düşməz əlinə sən kimi nəxcir, dilbərim.

Bir ləhzə iltifata gəlib halımı soruş,
Könlüm evini gəl elə təmir, dilbərim.

Safi sənin camalına müştaqdır, ona
Bir busə ver, gəl eyləmə dilgir, dilbərim.

***

Qədin sərvi-sənubərdir və ya xüld içrə tubadır?
Yüzün xurşidi-rəxşantək müniri-aləmaradır.

Ləbin ləli-Bədəxşandır və ya çün qönçeyi-xəndan?
Zənəxdan çahi-zəmzəm, dişlərin çün dürri-yektadır.

Gözün səyyadtək qoymuş kamana tiri-müjganın,
Könül seydinə çıxmış, şəhr içində gör nə qovğadır!

Təalillah, zəhi dilbənd surətdir cahan içrə,
Təmamən xəlqi- aləm valehü şövqi-tamaşadır.

Səni bu hüsnlə gər görsə Yusif, məhv olur şəksiz
Ki, gün çıxcaq kəvakib məhvi-nuri-aləmaradır.

Təkəllüm qıl, səni tarı, məni sən salma gözdən kim,
Ləbin bu qalibi-biruhimə misli-Məsihadır.

Tərəhhüm qıl, mənə bir busə lütf et ləli-nabindən ,
Mərizi-eşq üçün innabi-ləb eyni-müdavadır.

Məzəmmət eyləmə, naseh, məni, çün ixtiyarım yox,
Könül mürğü uçub, pabəsteyi-zülfi-çəlipadır.

Sağın, ey məhliqa, sən Safinin ol ahü zarindən,
Gecə ta sübh oluncan sinəsindən şölə peydadır.

***

Könül, yarə eylə ərzi-halını izhar
Ki, dərdi-eşqinə şayəd əlac edə dildar.

Tut əldə damənini, öp ayağını hərdəm,
O xaki-payını qıl kühəli-dideyi-xunbar.

Fəqan ilən sözünü söylə ol sitəmkarə,
Sirişki gözdən elə carı misli-əbri-bahar.

Düşübdü başıma sövdayi-zülfi-mişkinin,
Edibdi məskənimi kuhü dəşt Məcnunvar.

Həvayi-zülfü rüxunla olub günüm qarə,
Nedim, olub mənə yeksan həmişə leylü nahar.

Bu qədr etmə cəfa, salma aşiqi gözdən,
Məgər olur elə məşuq həmdəmi-əğyar?

Bu rəngi-zərdimə bax, bir zaman soruş halım,
Çıxar səmayə könüldən şərari-atəşbar.

Vüsalın olmadı qismət mənə çü, ey dilbər,
Fəraq oduna yanar daim bu dili-əfkar.

O gül camalına həsrət qalıb, edər nalə
Həmişə Safiyi- dilxəstə həmcü bülbüli-zar.

***

Eşqin edib əcəb məni divanə, ey sənəm,
Məcnun kimi salıbdı biyabanə, ey sənəm.

Qəddin kimi çəməndə hanı sərvi-dilrüba?
Tənə edər üzün küli-xəndanə, ey sənəm.

Yusif sənə müqabil olub, etsə bəhsi-hüsn,
Sal sən onu o cahi-zənəxdanə, ey sənəm.

Xəlqi tamam valeh edər sərv qamətin,
Hərdəm edəndə cilveyi-məstanə, ey sənəm.

Hər kəs baxıb camalına təhsin qılmasa,
Baxmaz məgər ol ayəti-sübhanə, ey sənəm?

Olsan əgər müsahibi bu qəmli könlümün,
Meyl eyləməz nə hurivü qılmanə, ey sənəm.

Vəslin əgər müyəssər ola xəstə canıma,
Yox ehtiyacı rövzeyi-rizvanə, ey sənəm.

Zülf içrə könlümün quşu bəs ki, aşiyan tutub,
Mənus olubdu gör necə sövbanə, ey sənəm.

Qoyma yana fəraq oduna, yoxdu taqəti,
Gəl, rəhm qıl bu Safiyi-nalanə,ey sənəm.

***

## Müstəzad

Sənsiz gecələr ərşə çıxar ahü fəqanım,
Ey ruhi-rəvanım.
Hicranına yox munca dəxi tabü təvanım,
Ey afəti-canım.
Qıldı məni divanə sənin hüsni-camalın,
Həm şövqi-vüsalın.
Fəryadıma yet, var sənə aləmdə gümanım,
Ey Yusifi-canım.
Ol daneyi-xalın həvəsiylə dili-nalan,
Çün mürği-xoşəlhan

Istər ki, bu dəm tən qəfəsindən çıxa canım,
Ey püstədəhanım.
Zülf içrə düşüb dama, olub hali pərişan,
Daim edər əfqan.
Kaş ola fəda sən kimi canana bu canım,
Ey sərvi-rəvanım.
Güftarə gəlib eylə təni-Safini əhya,
Sən misli-Məsiha.
Ahuyi-Xütən, simbədən, qönçə dəhanım,
Ey tutizəbanım.

***

## MİRZƏ HEYDƏR

Mirzə Heydər Hacı Əliməmməd oğlu təqribən 1850-ci ildə Şuşada anadan olmuşdur. Mədrəsə təhsili alan Heydər fars və ərəb dillərini öyrənmiş, şeirə böyük maraq göstərmiş, təbibliklə məşğul olduğu üçün özünə "Təbib" təxəllüsü götürmüşdür. Şairin ölüm tarixi məlum deyil. M.M.Nəvvab "Təzkireyi-Nəvvab" əsərini yazarkən (1892) onun yaşının təqribən qırxa çatdığını qeyd edir. Aşağıdakı şeir nümunələri şairin "Təzkireyi-Nəvvab"a təqdim etdiyi avtoqraf nüsxələrdən götürülmüşdür.

### Qəzəllər

Munca, ey sərvi-rəvan, yüz naz edirsən, yüz itab,
Qana dönmüş könlümü gəh şad edib, gahi xarab.

İnikas etmiş şüayi-hüsni-ruyin çərxdə,
Gecələr bədri-münəvvər, sübh olanda-afitab.

Ruzigarımdan mənim yar etmədi halım sual,
Öz ləbi-ləlindən istər kim, dil alsın bir cavab.

Hər zaman imkanü fürsət yoxdu, cana, vəslinə,
Firqətindən başa varmış taqətü aramü tab.

Kəbeyi-mehrab qaşın qibləgahımdır mənim,
Etmə, zahid, bu ibadətdən məni məni-səvab.

Qoy dolansın başına üşşaq, müddətdir sənin
Həsrətindən künci-firqətdə çəkibdir çox əzab.

Çareyi-bimari-eşqi yara söylərsən, Təbib:
Söhbəti-canan, dürdi-cam, səhbayi-şərab.

***

Dağü büryan eyləmiş vəslin bu dərhəm könlümü,
Yaxma yüz gəz atəşi-hicrana sən həm könlümü.

Gərçi sevdayi-təriqi-eşqə çoxlar düşdü, leyk
Qeystək divanəlikdə söylər aləm könlümü.

Qoy fəzayi-eşqdə bir ləhzə sərgərdan, rəqib,
Möhnəti-qəmdən nə çəkmiş, bilsin hərdəm könlümü.

Mən əzəl gündən giriftari-kəməndi-zülfünəm,
Çeşmi-xummarın müsəxxər etdi möhkəm könlümü.

Bülbüli-gül gülşəni-kuyində etmiş aşiyan,
Gül üzü şövqü bəlaya saldı kəm-kəm könlümü.

Əşki-didə verdi seylaba təni-bimarımı,
Qərqi-xunabi-qəmə olmuş müsəmməm, könlümü.

Bir zaman qıl, yad etsin vəsfi-rüxsarın Təbib,
Göz dikib didarına, sorsan bu bərhəm könlümü.

***

Bəndə urubdu bir sənəmi-xubru məni,
Üz vermədi görüm yüzünü rubəru, məni.

Məcnundan artıq eylədi şöhrət cünunluğum,
Səhraya saldı eşq onu, kubəku məni.

Uğrandı dil o türreyi-tərrara, ey səba,
Lütf eylə, ver nişan, arıyıb mubəmu məni.

Əyyami-hicr, fəsli-xəzan, yari-səngdil,
Olmuş yəqinim, öldürəcək arzu məni.

Əzmi-şikar edib yenə şəhbaz gözlərin,
Eylər baxanda hər tərəfə cüstücu məni.

Düşməz xəyali-qeydi-səri-zülfdən könül,
Həbs eyləmiş əzəl günü bir mahru məni.

Eşq əhlidir Təbib, ona tapşır məzacını,
Tapsın həyati-tazəvü tər, nobənu məni.

***

Bilmədim mənləblərin ləli-Bədəxşan olduğun,
Badətək ruhi-rəvan hər dərdə dərman olduğun.

Zülməti-zülfündə könlüm çəkdi zəhmət Xizrvəş,
Bilmədi ağzında pünhan abi-heyvan olduğun.

Şiveyi-çeşmi-xumarın naz ilə min can alır,
Eyləməz insaf zalım, könlümün qan olduğun.

Yusifə bənzər məlahətdə cəmalın, ey əziz,
Mülki-Misri-eşqdə kim, şahi-xuban olduğun.

Çün fəramuş eylədin rəsmi-vəfayi-yarlıq,
Vari tərk etmə mənimlə əhdi-peyman olduğun.

Aşiqin olmuş mərizi-möhnətü dərdi-fəraq,
Rəhm qıl, bir çarə, qurtarsın bu qurban olduğun.

Kəsdi mehri-eşqi candan Təbibi-binəva,
İstəməz daim qəm ilə dil pərişan olduğun.

***

Dəmbədəm kim, möhnəti-hicran qəmi-dil tazələr,
Xuni-dildən əşki-didə ruyə çəkmiş ğazələr.

Tari-zülfün vəsli-didara nişan vermiş səba,
Görməmişdim mən kimi heç doğru yoldan azələr.

Səs salıbdır karvani-eşqi-hüsnün könlümə,
Açılıb hər bir münafisdən ona dərvazələr.

Hüsn üçün qoymuş kənarında ləbin nəqqaşı xal,
Rəsmxəttdir bu məgər, ləb üstə bir xət yazələr?

Şikvə, ey məhparə, etmə ahü zarımdan mənim,
Atəş üstündə kabab hər dəm çəkər avazələr.

Kəştiyi-dil düşdü girdabi-qəmi-hicranına,
Badi-şürtə kəsdi ümmidi-nicat əndazələr.

Tiri-eşqin bəsdi, cana, bu Təbibin canına,
Aşinalıq fəridir ülfət, ona ver cazələr.

***

Çox arzu edərdi könül bir görəm səni,
Leykən çəkib çox həsrətini gözlərəm səni.

Sərv qəddin ayağına göz yaşı cari edib,
Şümşadtək sevib boyunu, bəslərəm səni.

Ruyində türreyi-telini dəstə eyləyib,
Sünbül kimi basıb sinəmə, bəslərəm səni.

Şəmi-camaluvun olub əzzəldən aşiqi,
Pərvanəvəş dönüb başına, islərəm səni.

İzhari-mətləb olsa "ənəlhəqq" yaridan,
"Yahu" deyib, qiyamətədək səslərəm səni.

Müşküldü aşinalıq edib, sonra ayrılıq,
Bu növ bivəfa olasan bilmirəm, səni.

Söylər Təbib, zərrəcə yox ləmeyi-həyat,
Ey şəmsi-hüsn, tari bilir, sevmərəm səni.

***

Bir ləhzə görmədim üzün ol sərvqamətin,
Çəkdim nə qədr var isə, cana, daği-həsrətin.

İqrar qılma məhşəri, zahid, əbəs yerə,
Hicran günü məaniyə gəl, gör qiyamətin.

Məcnun ki, kuyi-eşqdə sultani-eşq idi,
Məntək müsəxxər etmədi mülki-məlahətin.

Xovfü hərasi-duzəxi rizvan qiyas edər,
Kafər görəndə atəşi-hicran hərarətin.

Ey dil, vəfadan urmagilən dəm vüsalda,
Var aqibət nihayəti bu şəkkər nemətin.

Tərki-məhəbbət eyləsə canan, nə hasilin,
Yox mərcəi, ümidi-zaman nədamətin.

Əyyami-gül gəlir yetə bülbül muradına,
Fövti-təğafül eyləmə əyyami-fürsətin.

Bir büt alıbdı könlümü razü niyaz ilən,
Gəlməz bəyana vəsfi-sənası məlahətin.

Bəs ki, Təbib, aləmi-qəm özgə haldır,
Fəxr ilə yaz sən eşqdə qəmlər hekayətin.

***

## Qəsidə

Saqiya, etmə təğafül, yetişib fəsli-bahar,
Cami-gülgünü gətir, dolduruban qıl sərşar.

Əvvəli-ordubehiştü həməlü fərvərdin,
Eydi-novruz tutub mah cəlalında qərar.

Sünbülü susənü xeyrivü bənövşə, nərgiz,
Qalıb heran gülə bir-bir deyəsən butimar.

Qələmi-sənəti-xəllaq ilə nəqqaşi-səba
Kaxü eyvani-gülüstanı edib minakar.

Möcüzi-Musavü İsa gətirib əbri-bahar,
Yəni-əhyai-rəyahin yədi-bəyzayi-çinar.

Ərğəvan rəng çalır, şaxi-zümürrüd, guya,
Xuni-aşiqlə nigar əllərin eylibdi nigar.

Qıl tamaşa ki, səhni-çəməni-minayə,
Ərğəvan sanki zəmirani-zümürrüdasar.

Qönçə pirahənini çak qılıb nazından,
Açılıb, xəndə edir bülbülə manəndi-ənar.

Var idi həsrəti-tubavü riyazi-rizvan,
Tağı-rizvani-cahan seyrinə yüz rəşk güzar.

Vərəqi-güldə yazılmış sifəti-lütfi-xuda,
Qəzəbi-iyzədə şahid düzülüb dövrünə xar.

Hər tərəf gül açılıb vəcdi-sürür ilə, vəli
Nişi-xar ilə olub xatiri-bülbül əfkar.

Mütrübü çəng nəvazandeyi-təhvili-bərat,
Bərbüti zirü bəmi övc qılır musiqar.

Bir tərəf laləvü gül, nəstərən, sərvi-rəvan,
Bir tərəf saz eləmiş nəğmə qumrivü həzar.

Gəh təzəlzəldə qərənfil əyilib hər yana,
Göstərirdi özünü mislinə misli-salar.

Cəm olub yer üzünə hurü pərivü qilman,
Xuşeyi-şaxi-dirəxt, gülü pərvin darar.

Nikhətü qaliyeyi-susənü gül
Səhni-gülzarı edib tibleyi-müşki-tatar.

Lalə camından içib badeyi-şövqi-vəhdət,
Badi-sübh ilə düşər hər tərəfə sərvi-xumar.

Vəsfinə valeh idi təbi-gühərbar Səna,
İczinə fikri Əqadilis edərdi iqrar.

Belə mövsümdə şikəstəqədəhi-işrət idim,
Axtarırdım bütümü zövqi-yəmin ilə yəsar.

Nagəhan bir-birinə dəydi dəri-bağı-nişat,
Bağban verdi mənə müjdeyi-təşrifi-nigar.

Şadmərk olmuş idim, zövqdən oldum bihuş,
Gətirib huşa məni eylədi canan güftar.

Həzzinəfs oldu tapıb qüvvəti-ərvahi-Təbib
Başladı söhbəti-gilagi, segahü hasar?
***

## ABDULLA BƏY

Abdulla bəy Məşədi Əsədulla oğlu təxminən 1852-ci ildə Şuşada anadan olmuşdur. Məhəmmədəli bəy Məxfinin qardaşı, Mirzə Vəli Vidadinin nəvəsidir. Təxəllüs götürməyib, şeirlərini öz adı ilə yazmışdır. Şeir örnəkləri "Təzkireyi-Nəvvab"dan götürülmüşdür.

### Qəzəllər

Könlüm necə xürsənd olu meyxanədən özgə?
Dəfi-qəm edən olmaz o viranədən özgə.

Rahi-həqqi tut, məscidə, könlüm, həvəs etmə,
Verməz sənə zahid səmər əfsanədən özgə.

Dərdü qəmi yüz şərh qılam piri-muğana,
Çarə edən olmaz mənə peymanədən özgə.

Pabəst könül oldu əcəb həlqeyi-zülfə,
Yox dami-bəlalar mənə cananədən özgə.

Çəksəm sitəmü cövrü cəfa badi-səbadan,
Aşüftəliyin baisi yox şanədən özgə.

Ol şöleyi-rüxsarını görçək verirəm can,
Yanmağıma nisbət hanı pərvanədən özgə?

Abış, demə Nəvvaba ki, bimehrü vəfadır,
Yox munisin əz bəs ki, o dürdanədən özgə.

***

Verdim əgərçi türreyi-tərrarə könlümü,
Etdim düçar, gör necə şəhmarə könlümü.

Xalü xətin xəyalı günüm tirə eylədi,
Qəmzən xəyalidə yenə sədparə könlümü.

Ey şanə, mubəmu ara hər tari-zülfünü,
Gör kim, çəkibdi harda mənim darə könlümü?

Naseh, demə ki, yara könül verməyin dəxi,
Ruzi-əzəldə verdim o bir tarə könlümü.

Zahid, məlamət etmə sən Abdullahı görüb,
Məzur tut, alıbdı o məhparə könlümü.

***

Eylə ki, zülfi-siyəh arizi-canana düşər,
Piçü tab içrə o dəm bu dili-virana düşər.

Gecələr sübhə kimi fikr səri-zülfündə,
Çalar əfi bu qarabəxti ki, suzanə düşər.

Çeşmi-xummarına baxdıqca könül yaralanır,
Yadi-ləli-ləbilə yadıma peymanə düşər.

Oldu şan-şan bu könül xaneyi-zənbur kimi,
Hiç gör, dəsti-nigarımdan axır şanə düşər?

Düşsən Abdullahdan sən də cüda, incinməz,
Talibi-vəsl olan rəsmdi, hicranə düşər.

***

Nigarım, mahrüxsarım salıb üzdən niqab, oynar,
Sanasan çərxdə rəqsə gəlibdir aftab, oynar.

Dolanır həlqeyi-zülfün, nigra, dövri-ruyində,
Gün ətrafın alıb guya ki, bir mişkin səhab oynar.

Təəccüb eyləmə hər an üzündə qıvrılır zülfün,
Düşəndə atəşə əfi edər yüz piçü tab, oynar.

Şəbi-hicran hərarətdən könül, ey qibleyi-üşşaq,
Rəgi-bimar tək hər dəm edər yüz iztirab, oynar.

Ümidi-vəslə, Abdulla, nigarım öylə xürrəmdir,
Görüb guya biyabanda ki, bir təşnə sərab oynar.

***

## SEYYİD QARABAĞİ

Seyyid Zeynalabdin ağa Mirseyyid Haşım oğlu Qarabaği təqribən 1854-cü ildə Şuşada anadan olmuşdur. Qarabağın məşhur seyidləri nəslindən olan Mir Zeynalabdin hələ gəncliyində şeirə maraq göstərmiş, "Seyyid" təxəllüsü ilə klassik üslubda şeirlər yazmışdır. Seyyidin nümunə üçün verdiyimiz şeirləri "Təzkireyi-Nəvvab"dan götürülmüşdür.

### Qəzəllər

Könlüm edər həmişə səni, dilbər, arzu,
Od urdu cismü canım ara yeksər arzu.

Sən bir girami gövhərsən, mən fəqiri-eşq,
Müflis olan həmişə edər gövhər arzu.

Mən kafəri-məhəbbətəm, ey tələti-behişt,
Bicadı, gər behişti edə kafər arzu.

Gözdən salıb o nərgisi-bimarlar məni,
Müddətdi məst gözlərini gözlər arzu.

Şəha, nə mən müqəyyədəm ol zülfi-ənbərə,
Aləm edər o türreyi-mişki-tər arzu.

İslam görsə qamətini, bütpərəst olur,
Bütxanə içrə vəslin edər bütlər arzu.

Gəl bir xurama, ta ki, qiyamət əyan ola,
Seyyid o sərv qamətini eylər arzu.

***

Ey məhvəşim, edib günümü qara gözlərin,
Bülbül kimi gətirdi məni zara gözlərin.

Qaşın çəkibdi xəncərini üstümə, nədən
Hökm eyləyibdi qətlimə ol qara gözlərin?

Kəc baxma, məhcəbin, eləmə bağrıqan məni,
Bağrım başın nədən eləyib para gözlərin?

Bir baxmaq ilə aldi əlimdən qərarımı,
Saldı məni bu bəstəri-bimara gözlərin.

Söylə ki, razı olmasın, ey sərvnazi-hüsn,
Aşiqlər içrə yalvaram əğyara, gözlərin.

Rəbbim edib cəhim odunu Seyyidə haram,
Billah, yəqin məni salacaq nara gözlərin.

***

Əzizim, bir yaman dərdə əcəb könlüm düçar olmuş,
Qərarü səbrimi aldı, şəbü ruzim nə tar olmuş.

Mənə Məcnun kimi zəncir urub səhralara saldı,
Necə gör bivəfadır kim, gedib əğyara yar olmuş.

Nedim, məhrulərin yoxdur vəfası bu cahan içrə,
Mənim, billah, yuxum gəlməz, o məh məndən kənar olmuş.

Gülün cövrü cəfasın çox çəkər biçarə bülbüllər,
Nə mürvətdir cəfa çəksin gülün qoynunda xar olmuş?

Sərimdən məhv olub əqlim ki, rüsvayi-cahanəm mən,
Sənin eşqində, ey cana, bu çeşmim əşkbar olmuş.

Tamam aşiqlərin məşuqəsin gördüm kənarında,
Mənim də dilbərim, ey dil, əcəb məndən fərar olmuş.

Rəqiba, həq sənin yıxsın evin, məndən kənar etsin,
Yəqin bil, Seyyidin karı həmişə ahü zar olmuş.

***

Mail olubsan gözləri şəhlaya, ey könül,
Bel bağlama bu dəhrdə zibaya, ey könül.

Az qaldi dinimi ala Sənantək mənim,
Gəh çəkdi deyrə, gahi kəlisaya, ey könül.

Məcnuna Leyli neylədi, məlumdur sənə,
Yusif də Misrdə o Züleyxaya, ey könül.

Üşşaqın öldürür necə, insafı yox bunun,
Mən nə deyim bu kafəri-tərsaya, ey könül?

Hər kimsə gəlsə bir dəfə güftara yar ilən,
Qəlbi düşər bir özgə təmənnaya, ey könül.

Əhya edər, bir ləhzə nəzər salar mürdəyə,
Bənzər bunun bu möcüzü İsaya, ey könül.

Şirin dil ilə bir dəfə dindirmədi məni,
Dərdi-dilim de qaməti tubaya, ey könül.

Qurban olum o sərvqədü gülüzara mən,
Canım fəda o zülfi-çəlipaya, ey könül.

Seyyid yanır fəraq oduna, sən də hifz elə,
Salma özün bu zəhməti-bicaya, ey könül.

***

Sənin eşqində bu könül olub sədpara, ey dilbər,
Edən səndən səvay olmaz bu dərdə çara, ey dilbər.

Necə gör şəkkə gəldim bu cahan içrə ki, rüsvayam,
Nedim, yoxdur əlacım, yalvarım əğyara, ey dilbər.

Olum qurban o sərvqəddə mən, ey dilbəri-məhru,
Rəqibə razı olma aşiqin yalvara, ey dilbər.

Görəndə qamətin, billah, sərimdən əql olur zail
Ki, az qaldı düşüm Məcnunsifət dağlara, ey dilbər.

Iki şəhla gözün bimarıyam mən, ey mələksima,
Əcəb darudur vəslin sənin bimara, ey dilbər.

Sənə yaxşı deməzlər mən öləm bu arzu ilən,
Nolu gəlsən mənimlə bir dəfə goftara, ey dilbər?

Gər atsan tiri-müjganın, sınar ayineyi-qəlbim,
Necə peyvənd olur şişə, gər olsa para, ey dilbər?

Yanır Seyyid fəraqında həmişə ahü zar ilən ,
Ona lütfünlə bir rəhm et, elə nəzzarə, ey dilbər.

***

## MEHDİQULU XAN VƏFA

Xurşidbanu Natəvanın ilk övladı, Knyaz Xasay xanın oğlu Mehdiqulu xan Usmiyev 1854-cü ildə Şuşada anadan olmuşdur. O, mükəmməl saray təhsili almış, erkən yaşlarında şeirə maraq göstərmişdir. “Məclisi-üns”ün üzvü olmuş, fars və Azərbaycan dillərində “Vəfa” təxəllüsü ülə şeirlər yazmışdır. Bu təxəllüs ona məclisin ilk təşəbbüskarı Mirzə Rəhim Fənanın təklifi və Mirzə Sadıq Piranın xeyir-duası ilə verilmişdi.

Mehdiqulu xan 5 sentyabr 1900-cü ildə vəfat etmiş və Ağdam şəhərində yerləşən “İmarət” adlı ailəvi xan qəbristanlığında anasının məzarı yanında dəfn olunmuşdur.

Aşağıdakı şeir örnəkləri “Təzkireyi-Nəvvab”, “Riyazül-aşiqin” əsərlərindən və AMEA ƏYİ-də saxlanılan cünglərdən götürülmüşdür.

### Qəzəllər

Gül gəldi, gəlmədi xəbər o gülüzardan,
Yox hasilim bu fəsldə bağü bahardan.

Eyşim səninlə eyşdi, könlüm səninlə şad,
Sənsiz nə hasilim çəmənü laləzardan?

Ya rəb, olaydı mən kimi min dərdə mübtəla
Bu dəhrdə cüda eliyən yarı yardan.

Axır rəva deyil ola gül xar ilə ənis,
Biganələr kimi baxa bülbül kənardan.

Əğyara şərhi-hal qılıb şikvə eyləməz,
Yüz min cəfa yetişsə əgər yara yardan.

Peyğami-yara müntəzirəm ta ki, can verəm,
Ya rəb, xilas qıl məni bu intizardan.

Müşküldü kağız ilə qılam yara ərzi-hal,
Çoxdur şikayətim ona bu ruzigardan.

Pamal qıldı dəhrdə ümmid nihalını,
Dehqan kəsər nihalı, əgər düşsə bardan.

Məxmuri-nəşeyi-meyi-qəflət olan Vəfa,
Bidar olaydı kaş bu xabi-xumardan.

***

Ol deyil şair ki, şerin ehtiramın bilməyə,
Dəviyi-şer eyləyə, amma məqamın bilməyə.

Pul təmannsıyla şerin ərz edə hər nakəsə,
Küçələrdə xar olub, öz nəngü namın bilməyə.

Şer hikmətdi, bəsi alidi qədri şairin,
Heyf ola şair əgər qədrin kəlamın bilməyə.

Şərtdir naəhlə izah etməyə hali-dilin,
Ruzigari tar ola, ya sübhü şamın bilməyə.

Ruzü şəb virdi-zəban etmiş Vəfa bu misrəi:
"Lənət olsun şairə, gər öz məqamın bilməyə".

***

Qərəbağ içrə bu tənhalığa səbrü qərarım yox,
Qəmindən başqa bu viranədə bir qəmküsarım yox.

Hüzurunda qəmim ərz etməyə bir dəm macalım yox,
Yolunda zillətim çox, xidmətində etibarım yox.

Köçən bülbül kimi kim, tərk qılmış səhni-gülzarı,
Xaraba məskənimdən başqa, ey gül, yadigarım yox.

Həvadisi-sərsəri görmüş mənəm nakam olan bülbül,
Gülüm yox, gülşənim yox, aşiyanım, növbaharım yox.

Yolunda xakisar oldum, təhərrüm qılmadin  bir dəm,
Bu həm xoşdur ki, məndən damənində bir qubarım yox.

Vücudum nəqş edən nəqqaş əldə cami-mey çəkmiş,
Vəfa, tərki-meyü cam etməyə bir ixtiyarım yox.

***

**Anası Natəvana cavab olaraq yazıb**

Ey Natəvan, bu hali-dili-natəvana bax,
Könlüm kimi xərabə qalan xanimanə bax.

Rüxsari-zərdim üzrə sirişki-rəvanə bax,
Qanlar tərəşşüh ilə güli-zəfəranə bax.

Pamal olub büsati-çəmən novbəharikən,
Avaralıq şüar qılan bağibanə bax.

Biçarə bülbülün qəmini bağban bilir,
Gülçinə söylə kim, dağılan aşiyanə bax.

Zağü zəğən nəşimən edibdir gülşənara,
Bülbül yerində məskən edən pasibanə bax.

***

## Məsnəvi

Yaran, gəlin, bu gün fürsət məqamıdı,
Viran olub vətən, qeyrət məqamıdı.

Dini-Məhəmmədi xarü zəlil olub,
Qan ilə könlümüz peymanə tək dolub,

Avarə qalmışıq, sərdarımız hanı,
Keçmiş zəmanədən asarımız hanı?

İcma edin, bu gün dərdə dəva edək,
Dinü təriqətə canlar nisar edək.

Abad olan vətən axır xərab olub,
Bu dəşti-zülmdə min lalələr solub.

Dünyada məhv olub namü nişanımız,
Yoxdur bu möhlətə tabü təvanımız.

Axır nə vəqtədək bu hala səbr edək,
Bunca sitəm görək, belə cəfa çəkək?

İcma edin, bu gün dərdə dəva edək,
Dinü təriqətə canlar nisar edək.

Hər dindən bizim rövşəndi dinimiz,
Leykən zəlil olub, yoxdur müinimiz.

Ta key ala bizi qəflət, oyanmayaq,
Huşyar olub, gərək bir an dayanmayaq.

Fani olub gedir ömri-girənbəha,
Sidqilə çağıraq, ya vahibül-əta,

İcma edin, bu gün dərdə dəva edək,
Dinü təriqətə canlar nisar edək.

## MƏŞƏDİ MÜRTƏZA

Məşədi Mürtəza Kərbəlayi Əsgər oğlu Qarabağı təqribən 1855-ci ildə Şuşada anadan olmuşdur. Əslən Qarabağın Qazyan kəndindən olan Məşədi Mürtəza Şuşada yaşamış və orada da fəaliyyət göstərmişdir. Mir Möhsün Nəvvab onun qarasifət, kosa, arıq bir şəxs olduğunu və buna görə də "Rusiyah" (qarasifət) təxəllüsü götürdüyünü qeyd edir. Əsas peşəsi tacirlik olan Məşədi Mürtəza müasirləri arasında şair kimi də şöhrət tapmışdır. Şairin klassik üslubda yazdığı şeirlərindən bir neçəsi avtoqraf nüsxə ilə "Təzkireyi-Nəvvab"a daxil edilmişdir. Bu şeir örnəkləri həmin mənbədən götürülmüşdür.

### Qəzəllər

Hicrin salıbdı dərdə məni, yoxdu çarəsi,
Əflakı yandırır şöleyi-ahım şərarəsi.

Müjgani-çeşmi-nərgisi-məstanın eyləyib,
Qılmış nişəst sinədə peykan yarəsi.

Küncü kənari-çeşm ilə iması məhvəşin
Almış qərarü səbri-dili kəc nəzarəsi.

Nəzirindi, bu ciyərlərimi itlərinə ver,
Təqsim qıl, hər itə bir öfgə parəsi.

Sənansifət salma məni küfrə, səngdil,
Düşvardır dinə yetişmək dübarəsi.

Mən aşiqəm o hüsnünə, şərh etməyim ziyad,
Məşuqə aşiqin bəs olur bir işarəsi.

Ey Rusiyah, bu naleyi-bicadan əl götür,
Xaki-qüdumi-yara döşənməkdi çarəsi.

***

Barilaha, bu siyəhzülfi-səmənasadı bu?
Ya ki, əfidir bu tirə, ya şəbi-yeldadı bu?

Məxzəni-ahənrübadır, ya dəmi-bu əjdaha,
Bu kəşakeşdə yəqin ki, nərgisi-şəhladı bu.

Bu qəmərdir, rövşəna qılmış cahanı tələti,
Arizi-məhparəyi-şuxü  mələksimadı bu?

Bağі-rizvandır bu gülşən, türfə açmış qönçələr,
Ya ləbi-şəkkərfəşan, ya laleyi-həmradı bu?

Bu sədəfdir qönçələb, yainki mirvaridir?
Dişlərin dürri-Ədən, ya lölöi-laladı bu?

Bəh, nə qamət, bu nə gərdən, saədi-simindir,
Ya ki, Musada görünmüş bir yədi-beyzadı bu?

Rusiyahə qıl inayətlər, soruş əhvalını,
Xaki-kuyində sənin bir aşiqi-şeydadı bu.

***

Xoş ol zaman ki, səninlə söhbətim var idi,
Hərimi-qürbi-vüsal içrə işrətim var idi.

Hanı o günlərimiz qol-boyun sabaha kimi,
Misali-şaxeyi-gül xeyli ləzzətim var idi.

Nə meyli-huri edərdim, nə abi-kövsərdən,
Neçün ki, şəhdi-ləbin kimi şərbətim var idi.

Sücudi-razü niyazım qüdumi-pakın idi,
O xaki-məqdəmdən çünki türbətim var idi.

Yetişsə bir də əlim daməni-şəfaətinə,
Nisari-can edərəm, çünki həsrətim var idi.

Yazıb qəza rəqəmi ayrılıq aralığıma,
Ziyarət etməyə pabus minnətim var idi.

Məni bu lalərüxun eşqi dağdar eləyib,
Zibəs ki, arizi-gülnara ülfətim var idi.

Şərari-şöleyi-ahım qurutmuş afaqı,
Səbəb ki, naleyi-Məcnuna nisbətim var idi.

Nə cürm sadir olub Rusiyahi-qəmkeşdən,
Məni bağışlagilən, çünki tövbətim var idi.

***

Fəraqi-pərtövi-hüsnün gətirmiş aşiqi canə,
Edib dil kişvərin qarət, qılıb məmuri viranə.

O geysuyi-müənbər tirəvü tar eyləmiş könlüm,
Zi cədi-türreyi-mişkinədir eşq əhli divanə.

Alıbdır qövsdən tərhi kamanəbruyi-aşiqküş,
Xəyali çünki qan tökməkdi, vermiş izn müjganə.

Alıb tiri-şəhabindən həmin müjganlar məşqin,
Düzülmüş çöhreyi-çeşmə, dönüb hər biri peykanə.

Məni mən eyləmə, zahid, rəhi-eşq içrə, məzurəm,
Əsiri-çeşmi-şəhlayəm, dürüstü mərdi- mərdanə.

Qılıb xali-siyəh mənzil rüxi-gülzari-həmradə,
Açıb tər qönçəsin ləblər, dönüb həm bağı-rizvanə.

Zəbani-şəkkərəfşanın olub çün püsteyi-xəndan,
Düzübsən həm nizamilə cəvahir cayi-dəndanə.

Alıb qəndi-mükərrərdən məmən təlimi-şirini,
Həvasilə xiridarəm mətai-narü püstanə.

Məni gözdən salıb, ey büt, rəqibə mehriban olma,
Sənin eşqində heyranam, yəqin bil, türkü türkanə.

Mənimtək Rusiyəhdən kəsmə lütfün, ey şəhi-xuban,
Mənə bir busə lütf eylə, beməргəm, rindü rindanə.
***
Könül, vəslilə hicran olmasaydı,
Fəraqi-gülüzaran olmasaydı.

Nə Məcnun Qeys ikən Məcnun olurdu,
O Leyli xanəviran olmasaydı.

Nə bülbül növhəvü əfqan edərdi,
Əgər səhni-gülüstan olmasaydı.

Açılıb qönçələr solmazdı, hərgiz,
Fəğani-əndəliban olmasaydı.

Nə Yəqub eyləməzdi çeşmin ima,
Əgər çah ilə zindan olmasaydı.

Edərdi Rusiyəh gövhərfəşanlıq,
Əgər min dərdi-pünhan olmasaydı.
***

Mən həzini, ey Xuda, etmə cüda cananıma,
Qılma naməhrəm  məni bu dilgüşa sultanıma.

Sən məni məhrum qılma kuyi-canandan, Xuda,
Eşqini əfzun elə, məmlüvv qıl bu canıma.

Aşiqi üşşaqdən qılmaq cüda düşvardır,
Təndə yoxdur tab, qılsın zilləti-hicranıma.

Rəhmdən dur olma ancaq, qönçəvəş dərdimə yet,
Bais olma, səngdil, bu naləvü əfqanıma.

Məh camalından kənarə at niqab, etmə hicab
Kim, bulut lazım deyil bu mahi-növtabanıma.

Qeyri-səndən kimsə yox nami-Pəri cim, hey. əlif,
Nuni-sakitin salıb qönqa təni-ürfanıma.

Mim, rey, tey, zat, əlif eşqində sərgərdandır,
Qıl tərəhhüm, lütf elə bu dideyi-giryanıma.

Bir gədadır, qönçələb, mail olub güftarına,
Döndərib ya nuş ver, qoy minnətin kim, canıma.

Eşqdən, billah, götürməz əl ölüncə Rusiyah,
Gündə min dəfə batam şəmşir ilə gər qanıma.

***

Görəndə şuxi-rənanı düşər lərzə, bədən titrər,
Gedər əqli, qaçar səbri, zəbanü həm dəhən titrər.

Görə hər kim bu xunxarın məqali-şəhd güftarın,
Dəyəndə bir-birə ləblər misali-yasəmən titrər.

Şəbi-sərmadə xab içrə gəzəndə nari-püstanın,
Məmə əldə, bədən ürpər, dəyib ta pirəhan titrər.

Qoyub əl piçi-nafə bir yavaş növilə təprədsən,
Zi sər ta pa həmə əza, libasü həm bədən titrər.

Girib gülzarda vəqti-səhər məşuq ilə aşiq
Edib bazi, tuta küşti nigarilə, çəmən titrər.

Məzara yarsız getsəm, yəqinimdir, məzar içrə,
Diruni-qəbrdə, billah, məzarım, həm kəfən titrər.

Xurü xabın kəsildi, Rusiyah, məhparə zövqündən,
Olub cismin müqəvva tək nə güftarinə titrər.

***

Könül məmurəsin edib kəc ruzigar, artar,
Çəkib əl rövnəqi-bəxtim qılıb məndən fərar, artar.

Düşübdür taleyi-fərrux yenə bu əncumi-nəhsə,
Qəmər daxil olub Əqrəb içində bir qərar artar.

Çəkib hər bir tərəfdən üstümə ləşgəri-qəza fövcün,
Yığılmış xani-yəğma tək, dəmadəm hər nə var, artar.

Dilər dil qurtara qeydi-mərəzdən, müqtədi olmaz,
Könül istər rəha olsun, dəmadəm ahü zar artar.

Ki, məndən pişəki ixrac edib fərzəndi-dilbəndin,
Ona əfsus qılma, çünki hər il bir məzar artar.

Əgər sənduqi-ənduhə qoyam mən büqçeyi-könlüm,
Gərək karım fəqan olsun, gözümdən əşkbar artar.

Mənə xoşdur keçənlər, qurtaraq rəncur qeydindən,
Bu ünvan ilə ənduhum həzar olsa, həzar artar.

Təbibin dəst-çəngindən qutarmaq çox olub düşvar,
Buyur hərfi-günagun ki, hər gün bişümar artar.

Nə qədri nüsxəbənd olsa, birinin yoxdu imanı,
Deyir daruyə bir qiymət, ən axir bir dinar artar.

Keçə hər kim yaxası nüsxəbəndin dəst-çənginə,
Qutarsa, əldə nəleyni şitab eylər, fərar artar.

Bu yanda naleyi-vay-vay, o yanda xovfi-əttaran.
Ki, məkuli meyl etsəm ki, güya zəhrimar artar.

Qaralıq meyl edib bəxtim neçən kü, Rusiyahəm mən,
Keçib həddi-qaralıqdan, tutub bir özgə bar artar.

***

Nigarım, qaməti-rəna, əcəb naz ilə bəslənmiş
Ki, ləblər qönçətək şəbnəm düşüb, güya ki, tərlənmiş.

Məgər bagi-cinanda olmuşuz sirab kövsərdən,
Alıb təlim huridən və ya qəsr içrə əylənmiş?

Çəkilmiş nəxli-tubatək qədi şümşad dilcunun,
Təzərvi-bağı-rizvantək gülüm bəs nerdə dənlənmiş?

Düşə gər qəbrim üstə məqdəmin, mərqəd olur münşiq,
Olur təsvir bərpadır qiyamət mürdə səslənmiş.

Deyirlər xəlq: İsadır, tanır məhparəsin aşiq,
Sölər kim, bu nə İsadır, dəmi İsadən öyrənmiş.

Nə qədri icz qıldım, dil, bu eşqin düşmə daminə,
Nə qədr pəndin etdim, bilmədin kim, narəva sölənmiş.

Dedim: Düşmə xəyalə, mahrudən xeyr bulmazsan,
Əcəb qovqalara düşdün ki, bəhri-qanə bulqənmiş.

Düşübsən türreyi-zəncirə billah, çarə bulmazsan,
Sözümə şimdi baxmazdın, çəkil get, cani oxlənmiş.

Qalıbdır Rusiyəh bu vadiyi-qəmlərdə Məcnun tək,
Cünuni-paybənd olmuş, qəmu dillərdə söylənmiş.

***

## ƏLAĞA

Əlağa Kərim ağa oğlu Cavanşir təqribən 1855-ci ildə Şuşada Hacı Yusifli məhəlləsində anadan olmuşdur. O, mədrəsə təhsili ilə yanaşı rus dilini də öyrənmiş, müxtəlif vəzifələrdə çalışmışdır. Gəncliyində poeziyaya maraq göstərən Əlağa klassik üslubda "Əli" təxəllüsü ilə şeirlər yazmışdır. Onun nümunə üçün seçilmiş şeir örnəkləri "Təzkireyi-Nəvvab"dan götürülmüşdür.

### Qəzəllər

Vücudun olmasa, mən bu cahanı neylərəm sənsiz,
Sənin zikrindən özgə dastanı neylərəm sənsiz?

Mənim könlüm açılmaz səndən ayrı, ey mələksima,
Gülü, bağü baharü gülüstanı neylərəm sənsiz?

Səri-kuyində olmaq xaki-payın eyni fəxrimdir,
Bu halilə məni-xəstə cahanı neylərəm sənsiz?

O qara zülfdən, məstanə gözlərdən iraq yerdə,
Salam zəncirə ahuyi-Xətanı, neylərəm sənsiz?

Həqiqət, mən əgər bir busə ilə ağ buxağından
Təməttö tapmasam, abi-bəqanı neylərəm sənsiz?

Əli Məcnun kimi zənciri-zülfündən xilas olmaz,
Olub misli-cəhənnəm, xanımanı neylərəm sənsiz?

***

Sənin ahu kimi çeşmin mənə bir ləhzə ram olmaz,
Təəccübdür, bu gunə dərd ilə ömrüm tamam olmaz.

Həqiqətdə nə xoşdur kafərin qəlbində rəhm olsa,
Sənin qəlbində bəs rəhm eyləmək necə, həram olmaz?

Hüzurunda pərişan söylərəm, məzur tut, cana,
Cünuni-eşq əqlində yəqindir ki, nizam olmaz.

Səni dilbər nəvaziş eyləyə, əlbəttə, qədrin bil,
Qənimətdir, könül, məhvəşlərin lütfü müdam olmaz.

Mənə məşuqəsiz xüldi-bərin bağı cəhənnəmdir,
Hüzuri-yardən qeyri, həqiqət, xoş məqam olmaz.

Nə lazımdır mənə sazü nəvazü tar, həm bərbüt,
Fəraqında xarab olmuş könül heç şadkam olmaz.

Əgər kərrat ilə məzul qılsan xaki-kuyindən,
Əli bir yana getməz, çün onuncun nəngü nam olmaz.

***

Bir deyirmi görəsən aşiqi-məhcur idi bu?
Eşq peymanı dəyib, sinəsi pəncur idi bu?

Gündə min al eləyib, qəlbimə çox yara urub,
Yoxsa zülm etmək üçün aləmə məmur idi bu?

Qabə-qövseyn kimi qaşları bir hala salıb,
Hər görən “heyf” deyib, gör necə məchur idi bu!

Hər nə təqsirim ola, əfv eləyin, əz bəs ki,
Eşq divanəsiyəm, aləmə məşhur idi bu.

Əliyəm, eyləməyin çox mənə rizvan vəsfin,
Kuyi-yarı görürəm, siz deməyin “gur idi bu”.

***

Ey mahru, nə vəqtə kimi hay - hu çəkim?
Həmvarə qumri dil açıb, ku-ku çəkim?

Hicrin sənin ki, dağ çəkib qəmli sinəmə,
Göz yollara dikib, haçana arzu çəkim?

Çün səndə rəhm yoxdu, mənə vacib oldu kim,
Şəkkər dodağü xali-ləbi mən giro çəkim.

Daim xəyalın ondadı kim, şövqü zövq ilə,
Xuni-Əliyə mümkün ola ta vüzü çəkim.

***

## HÜSEYN AĞA CAVANŞİR

Hüseyn ağa Kərim ağa Cavanşirin oğlu, Əli ağanın qardaşıdır. O, da qardaşı kimi təhsil almış, rus dilini öyrənmişdir. Ziyalı ailəsində böyüyən, poeziya sənətinə maraq göstərən şair "Hüseyn"təxəllüsü ilə klassik üslubda şeirlər yazmışdır. Onun da şeirləri "Təzkireyi-Nəvvab"da gəlib bizə çatmışdır. Bu şeir örnəkləri həmin mənbədən götürülmüşdür.

### Qəzəllər

Düşəndə yadıma zülfi-nigar qürbətdə,
Xərabə könlüm olur tarümar qürbətdə.

Tənim nizar, özüm zarü gözlərim pürxun,
Məni bu dərdə salıb hicri-yar qürbətdə.

Gecə sabaha kimi ahü zara mötadam,
Gözüm yolunda qalıb intizar qürbətdə.

Vüsalın ilə elə könlümü şikar, barı,
Bu növ qoyma məni dilfikar qürbətdə.

Fəraqi-zülfilə zarsan, Hüseyn, möhnətdə,
Urubdu yoxsa səni şahmar qürbətdə?!

***

Libasın nazilə dün gün o dilbər səbzfam etdi,
Nizamü işvəvü əyyarlıq rəsmin tamam etdi.

Götürüb dəstinə bir beydəqi-hüsn ol şəhi-xuban,
Çəkib səf ləşkəri-müjgandan türfə xuram etdi.

Kaman qaşı çəkib xəncər, siyəh çeşmi tutub peykan,
Büsati-cəngi bir qaşü göz ilə intizam etdi.

Piyada əzmi-bağ etdi, dili-üşşaq mat oldu,
Yığıldı xaneyi-şeşdərdə bu ləşkər dəvam etdi.

Mübariz üzdə ol daneyi-xal oldu mərdanə,
Kəməndi-zülfi-pürçini könül mürğinə dam etdi.

Kəsib rahi-gürizi hər tərəfdən qoydu həsrətdə,
Əsir olmağa şövqilə dili-üşşaqı ram etdi.

***

## HÜSEYN AĞA

Hüseyn Ağa Hidayət ağa oğlu Cavanşir təxminən 1857-ci ildə Şuşa şəhərində anadan olmuş, təhsilini də orada almışdır. Babası Cəfərqulu xan Nəvanın yolu ilə gedərək poeziya sənətinə maraq göstərən Hüseyn ağa klassik üslubda öz adı ilə şeirlər yazmışdır. Onun da şeirləri "Təzkireyi-Nəvvab"da gəlib bizə çatmışdır. Bu şeir örnəkləri həmin mənbədən götürülmüşdür.

### Qəzəllər

Zindani-eşqdə yenə ol qarə tellərin
Etdi günümü qara üzüqara tellərin

Var səbrü tabü taqəti biçarə aşiqin
Ursa bu sinə içrə dilə yarə tellərin.

Hər dəm edəndə zulfünü rüxsarına niqab,
Bənzər o gənc ustə yatan.mara tellərin.

Vay ol zaman ki, şanə dəyə, zülf titrəşə,
Ol vəqt edər bu könlümü sədparə tellərin.

Divanəvar düşdü könül bəndi-zülfünə,
Lazımdır eyləsin ona bir çara tellərin.

Fəryadü ahü dadü aman zülfdən, həray
Bir görməgilə saldı məni tara tellərin.

Bir tar içrə şurü nəvayi-Hüseyni gör
Saldı bu həbsi-zülfdə min zara tellərin.

***

Zindani-eşqdə mənə qıl bir nəzarə sən
Divanəvar qeyd eləmə zülfi-tarə sən.

Zəncirü qeydi-silsilə hicab deyil mənə,
Etdin əsir nərgisi-çeşmi-xumarə sən.

Hüsnün, yəqindi, Yusifi təhtüş-şüa edər,
Gər bürqəini eyləyəsən bir kənarə sən.

Qiblə hesab eyləyibən səcdə eylərəm,
Etsən işarə hər tərəfə, hər güzarə sən.

Eşqin hasara saldı Hüseyni əsir tək,
Dərdin yetirmə həbs ara səd hezarə sən

***

## MƏŞƏDİ MƏHƏMMƏD BÜLBÜL

Məşədi Məhəmməd Kərbalayi Qaryağdı oğlu Bülbül 1858-ci ildə Şuşanın Seyidli məhəlləsində anadan olmuşdur. Şair ilk təhsilini Şuşada-Molla İbrahimin məktəbində almışdır. O, məşhur muğam ustası Cabbar Qaryağdı oğlunun böyük qardaşıdır. Şairlik istedadı ilə yanaşı Məşədi Məhəmmədin gözəl səsi, mahir ifaçılıq qabiliyyəti də olmuşdur. O, Şuşada fəaliyyət göstərən hər iki məclisin üzvü olmuşdur. Şair 1918-ci ildə Şuşada vəfat etmiş və Mir Faseh ocağı adlanan yerin yaxınlığında dəfn olunur.

Məşədi Məhəmməd Bülbülün əldə olan Azərbaycan və fars dillərində yazdığı şeirləri 2008-ci ildə "Məşədi Məhmməd Bülbül. Əsərləri" adı ilə çap edilmişdir (nəşrə hazırlayan Raqub Kərimovdur). Buradakı şeir örnəkləri həmin əsərdən götürülmüşdür.

### Qəzəllər

Gözüm nuri, gözümdən ayrılub bir dəm kənar olma,
Vəfadar aşiqin gözdən salıb, əğyarə yar olma.

Alıbsan ixtiyarim, hər nə qılsan ixtiyarın var,
Qüruri-hüsn olub, üftadələrlə kəcmədar olma.

Deyirlər, ləkkədar almas olur xərmöhrədən[1] kəmtər
Cəvahirsən, gözün qurbanı, gözlə, ləkkədar olma.

Təmaşa istəsən, bax hüsnüvə, getmə təmaşayə
Ki, səndən yaxşı yoxdur bir təmaşa, biqərar olma.

Vəfa kim gördi, Bülbül, bu cəhanda mahrulərdən,
Gözəllərdən vəfavü mehrə sən ümmidvar olma.

---

[1] Göy muncuq.

***

Ey ləbi-ləlin mərizi-eşq üçün abi-həyat,
Vey nihali-sərvi-qəddin nəxli-ümmidi-nicat.

Ləblərindən kami-dil almaq zəhi düşvardır,
Xızr xəttindən gər əldə olmasa möhkəm bərat.

Müflüsi-eşqəm, əzizim, ver zəkati-hüsnünü,
Şərən, ürfən müflisə, əlbəttə, caizdir zəkat.

Təndə hər bir oxların guya “əlif”dir “can” ara,
Ey nigari-sərvqamət, at oxun, amma tən at.

Küfri-zülfün aldı bəndən əqlü huşum, ey pəri,
Dideyi-giryan buna şahiddi, eyləllər səbat.

Gülşəni-hüsnündə Bülbül hər zaman qan yaş tökər,
Ey gül, gəl, səni- Tanrı, o zarə ver nicat.

***

Allanub[1] daneyi-xali-siyəhə bu dili-zar,
Bilmədi dam[2] qurub zülfi-siyah ilə nigar,

Öz-özün dami-bəlayə salub etdi pabənd,
Nə qutarmaqlıqa bir çarə, nə bir rahi-fərar.

Ahuyi-çeşmi edibdir dilü dinim qarət,
Kim görüb ahuyi-vəhşi eləyə şiri şikar.

Seyd edüb könlümü şəhbazsifət nərgisi-məst,
Belə birəhm dilazarə könül oldu düçar.

---

[1] Aldanıb
[2] Tələ

Alıb aramımı, etdi məni Məcnuni-cəhan,
Naz ilən aldı əlimdən aparıb səbrü qərar.

Göstərüb Bülbülə gül arizin, aldı əqlin,
O pəriruy eləyüb gözdən özün indi kənar.

***

Qan olan kölim olub bir bivəfa canana tuş,
Rəhm qıl, ya Rəb, ki, oldum dərdi-bidərmanə tuş.

Atəşi-rüxsarına kölim yanar əsfənd tək,
Necə suzi-şəmə bəzm içrə olur pərvanə tuş.

Vəsli-didari-nigarimdən həmişə binəsib,
Eyləyən bəxti-siyahimdür məni hicranə tuş.

Çeşmi-məstindən o şuxun eylərəm hər ləhzə dad,
Sinəmi daim edibdir navəki-müjganə tuş.

Çərxi-kəcrəftar edibdir kölimi qəm məcməi,
Min bəlavü möhnətə oldum məni-divanə tuş.

Dərdimi izhar edərdim yarə ahü zar ilən,
Bir məkanda gər olaydım ol ləbi-xəndanə tuş.

Hali-zarim görcək eylər dustü düşmən ahü zar,
Bülbüli-biçarə olmuş atəşi-suzanə tuş.

***

## Rübailər

Yar naz ilə alub tabü qərarim dildən,
Saxlaram eşqi nihan dildə, keçib bir ildən,
Sən bu hüsn ilə mələksən, belə insan olmaz,
Bavərim yoxdi, vicudun ola abü gildən[1].

Hər kimün simü zəri yoxdur əgər dünyadə,
Ona divanə deyəllər hamı bu əsnadə.
Bisəmərdir bu zaman mərifətü danalıq,
Verme bica dəxi sən ömrüvi, Bübül, badə.

İntizar ilə keçib ömr, o məhru gəlməz,
Oldu didəm yaşı cu[2] yari-cəfacu gəlməz,

Gülüstanda açılıb gül, yetişib fəsli-bəhar,
Döndi qanə ürəgim, ol güli-xoşbu gəlməz.

***

[1] İnanmıramki, sən su və torpaqdan yaranmısan.
[2] Arx, çay, axar su

# NƏCƏFQULU BƏY ŞEYDA

Nəcəfqulu bəy Mirzə Məhəmmədhəsən oğlu Şeyda 1858-ci ildə Şuşa şəhərində anadan olmuş, təhsilini də orada almışdır. O, İbrahimxəlil xanın yaxın məsləkdaşı Mirzə Vəli Baharlının nəvəsidir. Şeyda Şuşada fəaliyyət göstərən hər iki məclisin üzvü olmuş, təxminən 1937-ci ildə Bakı şəhərində vəfat etmişdir. Şairin AMEA ƏYİ-nin arxivində saxlanılan əsərləri 2006 və 2014-cü illərdə işıq üzü görmüşdür (Nəcəfqulu bəy Şeyda. Əsərləri. B., 2006, nəşrə hazırlayan Nailə Mustafayeva; Nəcəfqulu bəy Şeyda. "Gülşəni-maarif" təzkirəsi, B., 2014, nəşrə hazırlayan Paşa Kərimov). Aşağıdakı şeir örnəkləri həmin əsərlərdən götürülmüşdür.

## Qəzəllər

Yoxdu mən tək sevgidə bir kəs ki, püriqrar ola,
Sevilə, həm də sevə, zahirdə leyk biyar ola.

Hüsn bazarında yoxdur ruyi- dilbərtək məta,
Çox cəfadır, müştərisi gər onun əğyar ola.

Şaxi-gülbündə güli mədh eyləyən bülbül olur,
Nə rəva madam xar gülbində bir xiridar ola.

Möhnəti-hicranə vaqif aşiqi-məhcurdur,
Tuli-hicranə bədi xoşdur aşiqə didar ola.

Söhbəti- nadandan yetməz nədamətdən səva,
Neyləsin arif ki, nadan söhbəti naçar ola.

Bəxt dönəndə xabi-qəflət nagahan eylər hücum,
Vay ola ol qafilə gər düşməni bidar ola.

Tərk qıl, Şeyda, dəxi sən söhbəti-nadanları,
Axtarıb həmsöhbətin tap, arifü hüşyar ola.

***

Qeydi-möhnətdən mənə verdin nicat, ey xoşsiyər,
Oldu didarın müyəssər çün mənə bari-digər.

Atəşi-hicranına düşdüm də, tab etdim əcəb,
Şaxi- səbrim gör olubdur nə gözəl xoş barvər.

Hər kəsin, bir dilnəvazü dilrübası var isə,
Sən misalə olamaz hiç dilnəvazi-simbər.

Səyü zəhmətsiz yetən sərvət səbatı olamaz,
Çəkməsə zəhmət, olarmı kandan hasil gövhər?

Ləli-famın şəhdinə çoxları həvəs etmişsə də,
Kamyab olmuşlar olmuş ibtida xunincigər.

Surətü sirətdə qüdrətdən qələm nəqş etməyib,
Sən vəcahətdə cəmiləsən, nəzafətdə süvər.

Vurma nəzmü şerdən, Şeyda, dəm bihudə sən,
Şeri tənzim etməgə labüd gərək olsun hünər.

***

Adəmiyyət şanıdır kəsbi-ədəb,
Adamə verməz şərafət bir nəsəb.

İbtida təhsil et elmü hünər,
Ta sənə fəxr eyləsinlər cəddü əb.

Olma kibr ilə səvar sən nəxvətdə,
Müftəxor olmaz bu həsbiylə həsəb.

Ey bəsa səy eylə çox vəqt bivücud,
Büləcibə bir vucud olmuş əcəb.

Səbr ilə düşvarlar asan olur,
Zillətə düçar edər şəxsi qəzəb.

Xudqiyas ol, bil özün tək qeyrini,
Xeyrə xeyr olmuş, şərə şərdir səbəb.

Həqpərəst Şeydadır, olmaz xüdpərəst,
Şöhrəti sevməz, bəgənməz o ləqəb.

***

Nə rəva xisləti – ali işi idbarə düşə,
Naəlac olsa da bir öyləcə bədkarə düşə.

Qoyma, yarəb, bu rəviş adət ola dünyada,
Get-gedə pakların işləri murdarə düşə.

Hər kəs öz həddi-hüququnda durarsa, nə əcəb,
Nanəcib olmıya ta zümreyi-əğyarə düşə.

Bülbülün vardı qədindən gül ilə rabitəsi,
Kəcrəvişlikdən olar gahi işi xarə düşə.

Rəsmdir ummalı yerdən küsər əhli-himmət,
Ardır gər kişinin hacəti əğyarə düşə.

Ürəfa məcməinin dairəsindən, Şeyda,
Nə əcəb müşkül işin dövreyi-pərgarə düşə.

***

Gərçi mey içdikcə qəlbə verir zövq əsəri,
Nəşəsi söndükcə artıq olur dərdi-səri.

Zövqi-xalis əsəri-eşqi-həqiqidəndir,
Yox imiş əhli-məcazın bu rəvişdən xəbəri.

Laübalıdı gəzən güşeyi-meyxanəni tək,
Tərki-badə eyləməz, var nə qədər simü zəri.

Zahidin kisəsi xalidi, edir badəni mən,
Mayəsi çıxmış əlindən, yox onun bir dəyəri.

Qüvveyi-cazibədir aşiqi sərgəştə qılan
Ki, edir tərki-vətən məskən edib bəhrü bəri.

Ey könül, sanma əbəsdir bu fəza içrə bu qədr,
Seyri-səyyarələrin vardı yəqin rahi-bəri.

Olma lal vəqti-məqal, Şeyda, sözün həddini bil,
Bağban hər çiçəgi bəlli qılar, sonra dəri.

***

## Qoşma

Toxunma, ey səba, qönçədir gülüm,
Açılmış yaprağı tərü tazədir.
Toxunsan da elə toxun, solmasın,
Çöhrəsinin rəngi bir əndazədir.

Həsrətkeşdir didarına bülbüllər,
Dövrəsini tutub hər yan sünbüllər.
Pərdə üzdən atıb hamı gözəllər,
Açıb ağuş derlər ki, xəmyazədir.

Yoxdur çiçəklərdə qönçətək gözəl,
Gözəllər səfində durubdur əzəl.
Sınamaq istəsən budur əlbəəl,
Qeyrilərdə yüz əlvanı qazədir.
Bahar gülün şivə satan çağıdır,

Gül budağı bülbüllər yatağıdır.
Aşiq üçün gülşən cənnət bağıdır,
Cənnətdə də həvəs dilnəvazədir.

Bülbül oxur səhər tezdən nəğməsin
Ta kim, qönçə atsın üzdən pərdəsin.
Nəzakətlə göstərsin öz işvəsin.
Bilsin meyli o tən, o tənnazədir.

Səhni-çəmən bülbüllərin oynağı,
Gülün şaxı əndəliblər sığnağı.
Vardır orda nəzirələr yığnağı,
Şeyda meyli bülbüli-həmrazədir.

***

## Müxəmməs

Ey qaşı kaman, kiprigi ox, ləbləri mərcan
Vey şiveyi-rəftarı edən aləmi heyran,
Bu dərdi- dilə vəsli-cəmalın olu dərman,
Əsirgəmə, gül üzlü, gülündən eylə ehsan,
Yəni dodağım üstə ləbin qoy, güli-xəndan.

Dərdi-qəmi-hicrindən mənim çoxdu məlalım,
Hansı birini şərh qılım, ey güli-alım,
Aşüftə edən zülfi-siyahındı xəyalım,
Çarə nə olur dərdimə, səndədi sualım,
Ancaq bulunu buseyi -ləbdən mənə dərman.

Ovqat çəkirdim qəmi-hicrani-vüsalın,
Röyada görərdim gecələr şəkli-cəmalın,
Səd şükr xudaya ki, dönüb fikrü xəyalın,
Tərəfi-gülü bostana gəlir sərvi-nihalın,
Can məqdəminə imdi gərəkdir ola qurban.

Dün şərh elədim dərdi-qəmim piri-muğanə,
Zülfi-siyəhin qissəsi çün düşdü miyanə,
Aşüftə, pərişan elədi halımı şanə,
Döndərdi üzarın həvəsi bağrımı qanə,
Ondandı, nəvayə gəlib könlüm edir əfqan.

Ey mehri-münəvvər, sənə övsaf nə hacət,
Hər yerdə cəmalın süxəni türfə hekayət,
Söz çoxdu, budur müxtəsəri, ey kani-lətafət,
İnsafə gəlib eyləgilən bircə ədalət,
Ver imdi- icazə, olayım mən sənə mehman.

Əsbabi-tərəb məclis ara ola bir dəm,
Tarü neyü bərbət çalınıb, dəf vurula həm,
Sərməst olasan, mey əsərindən dəxi xürrəm,
Saqi oluban mey verəsən sən mənə hər dəm,
Ağuşuma mən onda çəkərdim səni çün can.

Buyi-səri-zülfün yetirib bad dimağə,
Şux gül ruyin məni qalxızdı bu dağə,
Bülbül kimi qonsam, gözəlim, şaxü budağə,
Şeyda kimi səbr etməz axır kimsə bu dağə,
Görüb deyələr aşiqi-güldür bu pərişan.

***

## Müstəzad

Dün sayeyi-gülbəndə açıb gül səri-söhbət,
Göstərdi müvəddət.
Eylərdi bəsi bülbülə izhari-məhəbbət,
Key kani-mürüvvət,
Səndən səva yoxdur mənə bir yari-vəfadar,
Olsun mənə qəmxar.

Bu qəmli zəmanımda verib dəsti-şəfəqqət,
Etsin də himayət.
Bir xeyli zəmandır məni bir xar eyləyir xar,
Mehrin edib izhar.
Varımdır onun bu əməlindən bəsi xiclət,
Basmış məni möhnət.
Qəddar əliylə eyləyir damənimi çənk,
Olur mənə bu nəng.
Bir böylə dənidən ötəri ta gedə ismət,
Yetsin mənə töhmət.
Var çarən əgər sən bu bəladan məni qurtar,
Ey aşiqi-hüşyar.
Ta var həyatım nə qədər rəsmi-məhəbbət,
Sənlə olu vüslət.
Bülbül eşidib şikvəyi ol ətri-məcazdan,
Həm mayeyi-nazdan,
Şirin nəzər ilə eyləyib yarına diqqət,
Sordu nə fəzihət:
Nazik bədənim sənlə dürüştxu qonuşublar,
Sənlə tutuşublar.
Həmsayə sənə eyləmiş bədxuyi təbiət,
Ey vay, nə müsibət.
Gülbəndə əgər olsaydı sənlə müsahib,
Həmdərdi-münasib,
Daha mənilə etməz idin nərmcə söhbət,
Həm böylə məhəbbət.
Hər xubluğun əksinə bir zidd yaranıbdır,
Məqsəd aranıbdır.
Nurun qədri olmaz idi olmasa zülmət,
Ey ənbərintinət.
Sən tək bədəni nazikə ol nişi-dəhanın,
Məskən sənin yanın.
Ta kim ola eşqim sənə olmağı həqqiqət,
Ey kani-lətafət.

Hicrində bəsi naləvü əfğan eyləyən mən,
Gülbən xara məskən?
Pəs, bülbüli-Şeydaya yetər bunca həqarət,
Bəsdir belə zillət.
***

## Rübailər

Gül mövsümü bülbül gələ gər şuri-nəvayə,
Aşiq olan ibrət eyləməzmi bu həvayə?
Ey dil, gözün aç, bülbülü güldən geri qalma,
Suziş ilə çək ah, fəqanın yetə ayə.

Gər fələk kəc rəvişində sala hicran araya,
Qanlı yaş tökmək üçün gözlərim giryan araya.
Eylərəm səbr nə qədər cövrü cəfa yağdırsa,
Ta ki hicranı qəti-vəslinə meydan araya.

Ey dil, qəmü ənduh ilə oldu sər karın,
Dərdü ələm həmrahın olub, hüzn fikarın.
Peyvəstə bu qəm ləşkəri təqibin edirlər,
Bilməzlər ki, onlar ilə yox hiç də qərarın.

Ey dust, cəfa halimə gəl görmə rəva sən,
Tərk eylə cəfa, olgilən gəl əhli-səfa sən.
Aşiq nə qədər zülm edə, məşuqi edər səbr,
Bu şərt ilə ta kim, edəsən əhdə vəfa sən.
***

# MİRZƏ HÜSEYN ÇAKƏR

Mirzə Hüseyn Mirzə Kərim oğlu Çakər təqribən 1861-ci ildə Şuşa şəhərinin Qurtlar məhəlləsində anadan olmuşdur. Fars dilini mükəmməl bilən, Şuşada tacir kimi tanınan Hüseyn şeirə də böyük maraq göstərmiş və klassik üslubda "Çakər" təxəllüsü ilə şeirlər yazmışdır.

Buradakı şeirlər şairin "Təzkieyi-Nəvvab"da gəlib bizə çatan avtoqraf nüsxələrdən və AMEA ƏYİ-də saxlanılan mənbələrdən götürülmüşdür.

## Qəzəllər

Zülfün töküldü arizinə, oldu sayəban,
Guya bahar güllərini çulğadı xəzan.

Yox bir könül ki, qəmzən anı etməsin şikar,
Şahid bu kim, müjəndən axır qətrə-qətrə qan.

İstərdi mürği-dil tuta zülfündə aşiyan,
Dövri-rüxunda xalü xətin vermədi aman.

Şami-siyah xəlvət zülfündə sübhətən,
Çeşmin xəyalı məndə, gözəl, qoymadı təvan.

Çəkmiş əsirlər kimi zülfün səlasili,
Hər həlqəsində min könülü eyləmiş nihan.

Adəm yeri deyil, könül, andan həvası kəs,
Cənnət qapısına dikilib mar pasban.

Qəmzən sipahı könlüm evin tarü mar edib,
Şahid bu hala, sorsan əgər, göz yaşım əyan.

Ah eylədim ki, ahım odu çərxi yandısın,
Ahım sütuni-çərx olub indi, işim fəğan.

Əbruyi-yarı qiblə bilib, səcdə eyləyib,
Oldur ki, tir qaməti-Çakər olub kaman.
***
Fəraqi-arizi-alın salıb od canə, billahi,
Könül dərdi-fəraqından dönübdür qanə, billahi.

Qalıb zülmati-zülfündə könüllər Xizrtək heyran,
Ləbin də qalib olmuş çeşmeyi-heyvanə, billahi.

Əzizim, gözlərin hifz et ki, çox qan etməsin axır,
Bu qədri qan edən, vəhm et ki, düşsün qanə, billahi.

Görən dəm xalını, zülfün kəməndi-tar ilə tutmuş,
Salıb dama könül mürğünü, verməz danə, billahi.

Dəyib bəs ox ox üstə sineyi-məcruhə peykanın,
Dəxi yox tab edim ol navəki-müjganə, billahi.

Təvafi-kuyin eylər ruzü şəb bu binəva könlüm,
Olubdur şöleyi-rüxsarına pərvanə, billahi.

Yüz il təlim edən adabi-eşqi Qeysü Fərhadə,
Özün aqil bilən Cakər olub divanə, billahi.
***
Aləm olar könül kimi viranə, doğrusu,
Gər tari-muyi-zülfə dəyə şanə, doğrusu.

Dövri-bərini zülf tutub əbri-halətək,
Həsrət verir yüzün məhi-tabanə, doğrusu.

Gəh qaşi- tiğə, gəh ol zülfi-əqrəbə
Sinəm nişanədir gəhi müjganə, doğrusu.

Sallam nəzərdən abi-heyvan ilə kövsəri,
Dəysə ləbim o mənbəi-heyvanə, doğrusu.

Yüz Yusifi o silsileyi-zülf əsir edib,
Bir yerdə saldı çahi-zənəxdanə, doğrusu.

Xaki-dərində sübhü məsa əşkdən gözüm
Dönmüş mühiti- qülzümü ümmanə, doğrusu.

Hər kim dərində can verə gər Cakərin kimi,
Ölməz yəqin, dübarə gələr canə, doğrusu.

***

**Müxəmməsi-təzmin**

Ləbin, ey gül, məlahət gülşənində qönçeyi-xəndanə bənzətdim,
Qaşın taqi-hilalə, xəncəri-bürranə bənzətdim,
Dolanmaqda özümü şəmi-qədin başına pərvanə bənzətdim,
Tənimdə zəxmi-tiğin çeşmi-xunəfşanə bənzətdim,
Oxun kim, səf-səf ətrafındadır, müjganə bənzətdim.

Mükəddər olmadım bir ləhzə güftarın itabından,
Şəbi-hicranın içrə sübhədək yandım əzabından,
Dəvayi-dərdim oldu busə, neylədim, yox cəvabından,
Bəqayi-ruhumu bildim xəyali-ləli-nabından,
Həyatımdır - dedim, bağrıma basdım, qanə bənzətdim.

Dedim, ey dil, usan bu fikrdən, bil qədrini canın,
Xəbərdar olsa sirrindən əgər şanə tökər qanın.
Düzülmüş bağrıma basdım səfi-çeşmində müjganın,
Tənimdən incinib çıxdı rəvan can kimi peykanın,
Neçün incinməsin kim, təndə zövqün canə bənzətdim.

Bərabər tutdu, ey məh, məh üzün rüxsari-alilə,
Utanmıb hər gecə dişrə çıxar bu, yox kamal ilə.
De, qəmzən dil kimi salsın ayağa, payimalilə
Sökülmüş köksümü kim, doludur qəmzən xəyalilə,
Həramilər yatağı mənzili-viranə bənzətdim.

Könül, viranın içrə sevdiyin mehmanını gördüm,
Səriri-mülki-hüsnü naz olan sultanını gördüm,
Nisar olmuş ayağında dürü mərcanını gördüm,
Gözümdə bəslənib qiymət bulan peykanını gördüm,
Sədəfdə gövhər olan qətreyi-baranə bənzətdim.

Dəhanın dürrü olmuş xəlq ara dürü gühər təni,
Olub övsafi-hüsnün göydə xurşidü qəmər təni,
Ləbi- meygunindən Cakər olub əhli-hünər təni,
Füzuli, öldürür hər dəm məni əhli-nəzər təni
Ki, neçün yar ləlin çeşmeyi-heyvanə bənzətdim.

***

## BAXIŞ BƏY SƏBUR

Baxış bəy Əsəd bəy oğlu Səbur 1863-cü ildə Şuşa şəhərinin Hacı Yusifli məhəlləsində anadan olmuşdur. Bəhram bəy Fədainin kiçik qardaşı, Asinin bacısı oğlu və Zakirin nəticəsidir. Şuşada mədrəsə təhsili almış, fars və rus dillərini də mükəmməl öyrənmişdir. "Məclisi-fəramuşan"ın fəal üzvlərindən olmuş, Azərbaycan və fars dillərində klassik üslubda "Səbur" təxəllüsü ilə şeirlər yazmışdır. Şair 1931-ci ildə vəfat etmişdir.

Aşağıdakı şeir nümunələri"Təzkireyi-Nəvvab"da olan avtoqraf nüsxələrdən götürülmüşdür.

### Qəzəllər

Ruyin kimi gülşəndə nə gül, nə çiçək olmaz,
Xalın kimi nə müşki-Xütən, nə mixək olmaz.

Ey arizi-cananı görüb, "huri"  deyən kəs,
İdrakına gəlməzmi, bu surət mələk olmaz?

Rəmzi-dəhənin qönçədən ilhahilə sordum,
Bir sirr idi mövhum, dedi kim, deмək olmaz.

Ey eşq, nə kim var qəmin, könlümə göndər,
Tifli-qəmə könlüm kimi rahət bələk olmaz,

Səbr eylə, Səbur,  eyləmə nahəq yerə fəryad,
Pamali-qəmi-eşq olana bir kömək olmaz .

***

Qəmgin könüldə qaşlarının iştiyaqidir,
Mehrü məhəbbətin dili –zarımda baqidir.

Candan əziz saxla  onu laləsan, könül,
Bağrımdakı o lalərüxun hicr dağıdır.

Qəmzən xədəngi sinəmə sancılsa, vəchi var,
Zinət verir ona, qəm eşqin vüsağıdır.

Çeşmin kənarına yazılan xət budur, gözüm,
Bimar edən bunu o birinin fəraqıdır.

Lə'li-ləbindi badi-həqiqətdə, yoxsa kim,
Zülmatı nur, abi-həyatın bulağıdır?

Hər qanda bir qəm olsa, gəlir qəmli könlümə,
Guya rəmidə könlüm elə qəm yatağıdır.

Tərki-vəfavü əhd elədi yar, sən də et
Nalə, Səbur, naləvü fəryad çağıdır.

***

Yenə təxti-hükumətdə şəhi-xuban məqam etdi,
Sipahi-hüsn mövcun səthi-rüxda intizam etdi.

Yığıb başına müjganın sipahi-bihüdudu göz,
Könül mülkünü viran etməyə ol şəh qiyam etdi.

Rüxi dil mürğünə xali-siyahın etdi cün danə,
Düzüb ətrafi-xalə həlqeyi-geysuni dam etdi.

Çəkib tirü kamanı qaşü gözdən Rüstəmi-dövran,
Kəməndi-zülfə dil padşahını qulam etdi.

Qoyub üz üstümə ol şuxi- rə'na yüz təravətlə,
Alıb can paytəxtin, möhnətin onda davam etdi.

Əsir etdi dilim çahi-zənəxdə zülfü bir müddət,
Ona rəhm eyləyib, axər ləbi təklifi-cam etdi.

İlahi, günbəgün xəndan qıl yarımın ləbi-lə’lin
Ki, bir camilə biçarə Səburu niknam etdi.

***

Gəl, ey xəyalı tənimdə müdam olan, ölürəm,
Xəyali-lə’lin ilə bağrım oldu qan, ölürəm.

Gəl imdi başımın üstə otur ürəkli, sənə
Edim bu dərdi-dilim ləhzei bəyan, ölürəm.

Əcəb qaraldı günüm dudi-ah ilə şəbü ruz,
Fəraqi-zülfün edib zarü natəvan olürəm.

Nolur vüsalında eyləsən məni xürrəm?
Fəraqa yetmək ilə yetdi cana can, ölürəm.

Səbur idim, tükənib səbrü taqətim, etdim
Xəyali-vəslin ilə tərki-xaniman, ölürəm.

***

Gün ruyinə ki, həlqeyi-zülfün səhab olur,
Eylə kənara, yoxsa bu aləm xərab olur.

Qoy bir baxım üzündə sənin xəttü xalına,
Qur’an hürufinə nəzər etmək savab olur.

Bərgi-çinartək səri-zülfündə dil əsər,
Hərgah səbada zülfi-siyəh piçü tab olur.

Zülfün nə vəqt cilvə edib nərd oynayır,
Səthi-ruxunda cümleyi-ev bəstəbab olur.

Olmaz əcəb əgər dura əflak bisütun,
Onlara bəs ki, rişteyi-ömrüm tənab olur.

Gərçi Səbur vəsfi-rüxun yazmaq istəsə,
Vallahi kim, o vəsf tükənməz kitab olur.

***

Zülfün fəraqda mənə şəb gör nə tar olur,
Könlüm ənisi ol gecədə şahmar olur.

Bilməm nedim ki, dəysə səba tari-zülfünə,
Bişəkk, mənim bu könlüm evi tarü mar olur.

Gər gül edə müqabil özün gül cəmalına,
Eylə yəqin ki, xarı kimi xarü zar olur.

Xiclət çəkib səhaba girər aftab o dəm,
Məhtək cəbindən səri-zülfün kənar olur.

Nərgis qaçıb, həras edib, bağda gizlənir,
Hər vəqt çeşmi-nərgisi-məstin xumar olur.

Eylər Səbur həlqeyi-zülfünara vətən,
Çünki qəribə mənzil olur, qanda tar olur.

***

Dərsin nə vəqtədək güli-ruyin rəqiblər?
Aya, olurmu kam alalar binəsiblər?

Can versəm, etmə mən' ki, çoxdan bu rəsmdir,
Məhbuba can nisar qılarlar həbiblər.

Şurü nəvaya gəldi könül arizin görüb,
Ari, gül üstə nalə edər əndəliblər.

Düşnam ləblərinə nə layiq, dedim, dedi:
"Dərman içində zəhr verərlər təbiblər".

Səbrü şəkibə etmə dəlalət məni, Səbur,
Sabir olurmu xasiyyəti muztəriblər?

***

Mənə sənsiz, nigara, munisü qəmxar olubdur qəm,
Nə andan özgə bir yavər, nə ondan özgə bir həmdəm.

Görüm ey dil, qəra gün olmasın bir ləhzə səndən dur,
Neçə kim hərfi-qaf olmaz olur ləfzi-qəradən kəm.

Qaşınla bəhs qılmaz əyrilikdə tazə ay, bəlkə
Əyağın toprağından busə almağa olubdur xəm?

Deyil adəm səri-kuyində mənzil tutmağa layiq,
Fəzayi-xaki-payın feyzini bulmaz yetən adəm.

Səbur etməz təvafi-Kə’bəyə meyl, afəti-candır,
Dərindir səcdəgah uşşaqə, oldur Kə’beyi-əzəm.

***

# MİRZƏ YƏHYA BƏY QARABAĞİ

Yəhya bəy Həsən bəy oğlu Hacıbəyzadə təqribən 1863-cü ildə Şuşa şəhərində anadan olmuş, ilk təhsilini də orada almışdır. Şeirə böyük maraq göstərən Mirzə Yəhya özünə "Şeyda" təxəllüsünü götürmüş, fars və Azərbaycan dillərində klassik üslubda şeirlər yazmışdır. Onun istedadlı şair olduğunu Nəvvab təzkirəsində xüsusi olaraq qeyd etmişdir. Təzkirədə olan şeirlər onun öz dəsti-xətti ilə yazılmış avtoqraf nüsxələridir. Bu şeir örnəkləri həmin mənbədan götürülmüşdür.

## Qəzəllər

Ürəkdə inqilabi-çərxdən ahü fəğanım var,
Necə ahü fəğan etmim ki, min dərdi-nihanım var?

Sızıldar ney kimi könlüm nəfəs çəkdikcə hər saət,
Mənimlə baqidir bu nalə ta cismimdə canım var.

Səba, yarın səri-zülfün dağıtma bu səyaq ilə,
Mənim də cədi-geysu içrə axər aşiyanım var.

Fəraqi-yarda hər gecə-gündüz, bəlkə hər saət
Qəmü ənduhi-hicr ilə dü çeşmi-xünfəşanım var.

Mənə göstərmə sərvi-paybəsti, ey bağban, şərm et,
Mənim gülzari-dəhr içrə belə sərvi-rəvanım var.

Səri-zülfündə könlüm atəşin rüxsar dövründə
Tutub məskən Səməndərvəş od üzrə, gör, məkanım var.

Məni mən eyləyir Şeyda əcəb ol yar eşqindən,
Belə sanmış əlimdə ixtiyar ilə ənanım var.

***

Sənəma, yaradı qəlbim sənə mən yar olalı,
Paybəndəm səri-zülfündə giriftar olalı.

Sübhədək nara yanar cismi-zəifim gecələr,
Xabgahım məni-biçarə üçün nar olalı.

Munisim möhnətü qəmdir, işim əfqanü nəva,
Çəkərəm bu sitəmi aşiqi-əfkar olalı.

İstərəm vəslə yetəm, bəxti-siyahım qoymaz,
Netmişəm bəxtimə bu dərdə mən var olalı.

Bu qədər qara günə tab eləmək müşküldür,
Tapmadım bir əsəri-zöv, günüm tar olalı.

Dərdimi ərz elədim cümlə təbibə, dedilər
Bir gözəl eşqidi bu aləmə izhar olalı.

Canımı bir kələf etdi, mələka, şux ruxun
Yusifi-Misr kimi rövnəqi-bazar olalı.

Misli-məcnun düşüb çöllərə divanəsifət,
Sənə Şeyda, gözəlim, aşiqi-didar olalı.

***

## Müxəmməs

Ey qaşı kaman, kipriyi ox, ləbləri mərcan,
Şəhdi-ləbi-ləlin məni-biçarəyə dərman.
Yaqut ləbindən mənə sən eylə bir ehsan,
Ləbin ləbim üstünə qoy, ey nögüli- xəndan.
Gülbərgi-tərin eyləgilən xak ilə yeksan.

Dərdü qəmi- hicr içrə mənim çoxdu məlalım,
Hansı birini şərh qılım, ey güli-alım?

Aşüftə edən zülfi-siyahındı xəyalım,
Çarə nə olur dərdimə, səndəndi sualım,
Əlhəq, bulunu şəkkəri-ləbdən mənə dərman.

Övqat keçərdi qəm ilə, leyk vüsalın,
Röyada görərdim gecələr əksi-camalın,
Səd şükr xudaya ki, dönüb fikrü xəyalın,
Tərfi-gülü bustanə gəlir sərv nihalın.
Can məqdəminə indi gərəkdi ola qurban.

Dün şərh elədim dərdi-dilim piri-müğanə,
Zülfi-siyəhin qissəsi çün düşdü bəyanə,
Aşüftə, pərişan elədi halımı şanə,
Döndərdi üzarın həvəsi bağrımı qanə,
Ney kimi nəvayə gəlib üşşaq edər əfqan.

Ey mehri-münəvvər, sənə övsaf nə hacət,
Hər yerdə cəmalın süxəni türfə hekayət,
Söz çoxdu, budur müxtəsər, ey kani-lətafət,
İnsafa gəlib, eylə özün bircə ədalət,
Ver indi icazə, olalım ta sənə mehman.

Əsbabi-tərəb məclisara ta ola bir dəm,
Tarü neyü bərbüt çalınıb, dəf urula həm,
Sərməst ola zahid, ləbi-meydən ola xürrəm,
Saqi oluban, mey verəsən sən mənə hər dəm.
Ağuşuma mən onda çəkərdim səni çün can.

Buyi-səri zülfün yetirib bad dəmağə,
Şövqi-güli-ruyin məni qalxızdı bu tağə,
Şeyda kimi səbbar olumu kimsə bu dağə?!
Bülbül kimi qonsam, gözəlim, şaxə, budağə,
Görüb deyələr: aşiqi-güldür bu pərişan.

***

## MƏŞƏDİ ƏYYUB BAKİ

Məşədi Əyyub Hacı Ocaqqulu oğlu Baki 1866-ci ildə Şuşada anadan olmuş və orada da təhsil almışdşr. Hələ erkən yaşlarında şeirə maraq göstərən Baki “Məclisi-fəramuşan”ın fəal üzvlərindən olmuş, 25 yaşında olarkən “Riyazül-məhəbbət” (“Məhəbbət bağçası”) adlı divanını tamamlayıb məclisə təqdim etmişdir. Məclis üzvləri tərəfindən yüksək qiymətləndirilən bu əsərdə onun “ ... yeddi ilə yaxın Qarabağın ədəb (ədəbiyyat – R.K.) evində yüksək rütbəli Mirzə Kərim ibn cənnətməkan Hacı Məhəmməd bəy Qarabağinin yanında dərs aldiğı” deyd olunur..

Baki əsərlərini iki dildə - Azərbaycan və fars dillərində həm klassik və həm də xalq şeiri üslubunda yazmışdır.Şair 1909-cu ildə vəfat etmişdir.

Bakinin “Riyazül-məhəbbət” adlı əsəri 2000-ci ildə nəşr edilmişdir: (Məşədi Əyyub Baki. “Riyazül-məhəbbət”. B-2000. transfoneliterasiya, tərtib və tərcümə edərək ön sözlə nəşrə hazırlayan Raqub Kərimovdur).

Şairin burada verilən şeir nümunələri həmin əsərdən götürülmüşdür.

***

### Qəzəllər

Eyni surət görünür, surətin olmaz canı,
Hər kimin yoxdu sənin tək, gözəlim, cananı.

Görsə zahid yüzini dini-məsihayə gələr,
Tərki-taat eyləyib bəlkə danar Quranı.

Səcdə edərmi, ola gər Kəbə kimi yüz xanə,
Sənəma, guşeyi-əbruda tapan imanı.

Hər baxanda min ölür, min biri dünyaya gəlir,
Gözlərin bərhəm edib möcüzeyi-Musanı.

Qüdrəti-Allah isə İsa edib əmvat əhya,
Ləb ləb üstən götürüb zində elə İsanı.

Kafər olmaz, gərək eşq əhli müsəlman olsun,
Kafərəm, kafər əgər bir də biləm Sənanı.

Dolanır başına pərvanə kimi şamü səhər,
Yazılıb Bakiyə, ey şeyx, fəda fərmanı.

***

Kafərdi gər mələk bilə, cana mələk səni,
Sultani-hüsnsən, yaradıb tanrı tək səni.

Verməz yüz ayə, yüz günə kim, çərx, bir telin,
Yüz min əzizi-Misrə də keşməz fələk səni.

Nə hur, nə pərisən, əzizim, nə mahsan,
Hansı dililə, söylə görüm, dindirək səni?

Yar, danan səni danıb, Allaha kəc gedib,
Xəlq içrə çünki Tanrı yaratmış məhək səni.

Məhşərdə üzr istəməyə hər günahıma,
Allah hüzuruna aparam mən gərək səni.

Göz yaşım ilə bəsləmişəm sərv qamətin,
Gözlə ki, tutmasın gözüm axıradək səni.

Gər başı üstə gəlmiyəsən can verən zaman,
Billahi, Baki gözləyəcək həşrədək səni.

***

Səni hər kim bilə tari, o, peyənbəri-el olar,
Odu, hər dəm mənə Cəbriyli-bəla nazil olar.

Yetsə İsanın əli gər sənə, Allaha yetib,
Adəm ər görsə səni tazədən abü gil olar.

Sən yığıb dəstə tutan gülləri hər kim yığsa,
Həm mənə, həm gülə, həm bülbülə çox niskil olar.

And olsun eşqə, əzizim ki, vəfa bağında,
Nə sənin tək gül olar, mən kimi nə bülbül olar.

Keçsə gər ömr belə həsrətilə, billahi,
Hər dəqiqəm gün olar, hər günüm axər il olar.

Dönmə qana, səni tarı, çəkib ah incinmə,
Aşiq, əlbəttə, könül, dərdü qəmə mail olar.

Bakiya, ahi-ciyərsuzilə yandırma məni,
Belə qan ağlama, eşq əhli ki, dəryadil olar.

***

Nədir eşq, ey məhəbbət bir bəladır,
Soruş pərvanədən, çox aşinadır.

Məhəbbət eşqə daim səcdə eylər,
Bu, peyğəmbər, əzizim, o, xudadır.

Vücudu var, gözə hərgiz görünməz,
Danan eşqi məgər qəlbiqaradır?

Sənəmlər astanın şeyx yazmış,
Şəhidi-eşq üçün Kərbübəladır.

Səməndər tək gərək eşq əhli yansın,
Bəli, aşiq yeri küyi-fənadır.

Qoyar eşq aşiqə hər ləhzə bir ad,
Özüm də aşiqəm, adım fədadır.

Odur, eşq Əyyub adın Baki qoymuş,
Həmişə can evi matəmsəradır.

***

**Şikəstələr**

Canan, o məh üzə zülfü siyahı,
Şanə edib dəstə-dəstə düz ayrı.
Hər xəminə yapışıbdı bir aşiq,
Vərd eyləyib əyri ayrı, düz ayrı.

Silsileyi-məhəbbəti pozma sən,
Barı bir-bir eylə bizə göz ayrı.
Kəc-kəc dönüb gəh-gəh gözəl baxanda,
Xumar-xumar gözlərini süz ayrı.

Eşitmişəm İsa ölü dirildib,
Məqam ayrı, kəlam ayrı, üz ayrı.
Yolunda can verənlərə de dursun,
Bədən ayrı, kəfən ayrı, üz ayrı.

Yüz ildə bir dağı çapıb Kühkən,
Süst eşqilər içrə olub söz ayrı.
"Ya eşq" - əgər deyib bir ləhzə baxsam,
Hər kiprigim dağdan açar göz ayrı.

Pərvanələr dönər şəmin başına,
Yanar, yanar, axər olu köz ayrı.

Pərvanələr mənim kimi yanmayıb,
Yüz yol ölüb-dirilmişəm, yüz ayrı.

Məcnun degil Baki düşə çöllərə,
Yalan yerə gündə deyə söz ayrı.
Gecə-gündüz həsrətində qan ağlar,
Könül ayrı, bədən ayrı, göz ayrı.
***
Bikef olma , gül, dodağın qurbanı,
Gül açmasın, bülbül xəcalət olsun.
Dolandır başına, nazlı yar, məni,
Təsəddüq et, danışılsın, ad olsun.

Səndən özgə gözəl, gözüm bəyənsə,
Elə gözü istəmirəm, kor olsun.
Ayrısına könlüm uysa qarğaram,
Canım ölsün, işrət evi gor olsun.

Yarı görüm mənim kimi xar olsun,
Aşiq olub eşqə giriftar olsun.
Bülbül kimi kami-dilə yetməsin,
Qəm evində qəmə pərəstar olsun.

Dərdü balan de, öldürsün Əyyubu,
Qəmlər əsiridi, qoy azad olsun.
Hər çərşənbə üstündə tut dırnağın,
Çilləni kəsdi, həm könlün şad olsun.
***

## Bayatılar

Mən aşiqəm düz qiblə,
Əyri qiblə, düz qiblə.
Çox axtarıb tapmadım,
Qaşın kimi düz qiblə.

Od tutubdu bədənim,
Nisgilim çoxdu mənim.
Mən canımdan keçmişəm,
Boynumdadır kəfənim.

Dərdin dərmanı neylər,
Qurban qurbanı neylər.
Sənə könül tapşıran,
Bilmirəm canı neylər.

Yox, aşiq yetirən var,
Verən var, yetirən var.
Ağlama, kor gözlərim,
Yar yara yetirən var.

Əzizim qara keçdi,
Gün gəldi, qara keçdi.
Yüz il canım sağ oldu.
Hamısı qara keçdi.

Dərd olan hər dəm ağlar,
Dəm sızıldar, dəm ağlar.
Gör nə günə qalmışam,
Əhvalıma qəm ağlar.

İşim düşüb bəndə yar,
Can nə görüb səndə, yar?

Məni Allah öldürsün,
Sən də qurtar, mən də, yar.
***

**Təsnif**

Tanrı bilir yetmişəm,
Canan deyib canə mən,
Ömrümdə bir yar sevib,
Düşmüşəm min qanə mən.
Çox etmişəm zümzümə,
Düşmüşəm zirü bəmə.
Hər gecə şəmi-qəmə,
Olmuşam pərvanə mən.

Dərya olub göz yaşım,
Dərdü qəmdi yoldaşım.
Sən Allah, dur kəs başım,
Layiqəm qurbanə mən.

Almışam qəm dərsini,
Örgənmişəm yasini.
Qoyma ərşi-kürsini,
Qərq edim ümmanə mən.

Mən canımdan keçmişəm,
Qəm köynəgin biçmişəm.
Zülfünə and içmişəm,
Olmuşam divanə mən.

Könlüm dönüb qanə tək,
Yaralanıb şanə tək.
Qalmışam prəvanə tək,
Odlanə-odlanə mən.

Rəhm et məni-müztərə,
Yığım dərdi bir yerə.
Verim ya bir kafərə,
Ya bir müsəlman mən.

Bilmişəm qəm çarəsin,
Yarım telin darəsin.
Qanlı cigər parəsin.
Eyləmişəm şanə mən.

Degin töksün qanımı,
Qaş alsın imanımı.
Tafşırmışam canımı,
Zülfi-pərişanə mən.

Acıqlanıb əsmisən,
Məhəbbəti kəsmisən.
Eşitmişəm küsmüsən,
Deyim sənə ta nə, mən.

Qudurmusan, azmısan,
Ölüm hökmün yazmısan.
Qəbrimi gər qazmısan,
Gedim qəbristanə mən.

Eşqi məhəbbət basıb,
Boynumdan zünnar asıb.
Nahaq yerə əl basıb,
And içdim Quranə mən.

Kafər olma, dinə gəl,
Dinsizsən, imanə gəl.
Xətanı qoy, Çinə gəl,
Qoy gedim İranə mən.

Pozuldu can gülşəni,
Öldürdü dərdin məni.
Vəfasızsan, get səni,
Tafşırdım Qurana mən.

Gəl, çəməndə gül kimi,
Günüm keçsin il kimi.
Həsrətlə bülbül kimi,
Baxım gülüstanə mən.

Peyğəmbərsən, tarısan,
Dindirmə əğyarı sən.
Qoyma əgər yarısan,
Qalım yanə-yanə mən.

Yaratmısan, ölmərəm,
Səni görmək istərəm.
Turi-qəmdə bənzərəm,
Musa bin İmranə mən.

Çərxi-fələk mahisən,
Çox böyük dərgahisən.
Əgər sən Allah isən,
Səcdə edim sanə mən.

Gah ağlayıb, gah gülüb,
Gahi göz yaşın silib.
Baki tək həsrət ölüb,
Yetmədim cananə mən.

***

## Müxəmməs

Könlüm əsiri-türreyi-ənbərfəşan idi,
Zülmət içində nuri-həqiqətnişan idi,
Bu rütbə ilə mərhəmi-razi-nihan idi.
Xoş ol zaman ki, yar mənə mehriban idi,
Dəmlər o dəmlər idi, zaman ol zaman idi.

Nazın çəkərdi könlüm o çeşmi-xumarımın,
Mən yüz məzaq edəndə edərdi o yar min,
Saqi özüdü, badə-dodağı nigarımın.
Süzgün baxanda qəmzələri qüti-can idi,
Dəmlər o dəmlər idi, zaman ol zaman idi.

Aşiqlər içrə sevmiş idi yar tək məni,
Almışdı gül kənarına həm, xar tək məni,
Mən yarı tək qucaqlar idim, yar tək məni.
Yüz min dil ilə könlüm alıb, həmzəban idi,
Dəmlər o dəmlər idi, zaman ol zaman idi.

Zünnar zülfü tutmuş idim əldə Şeyx tək,
Bütxanə içrə virdim idi "ya sənəm" demək,
Olmuşdu adətim ona həm səcdə eyləmək.
Həmvarə siynə bir bütə xəlvət məkan idi,
Dəmlər o dəmlər idi, zaman ol zaman idi.

Gülzari-vəslə dəymədi hərgiz xəzan əli,
Şaxi-gül üstə eyləmədi xar bülbüli,
Bu rəmzi bir murada yetən əhli-dil bili.
Billah, vəfası düz, özü yarımın həman idi,
Dəmlər o dəmlər idi, zaman ol zaman idi.

Düşməzdi qəm xəyalıma yadi-fəraqilə,
Bir ləhzə ömr keçmədi həm iştiyaqilə,

Həmraz idi həmişə dodağım dodağilə.
Könlüm o yerdə vaqifi-sirri-dəhan idi,
Dəmlər o dəmlər idi, zaman ol zaman idi.

Gözdən salıbdı indi nədir yar yarını,
Qəm güşəsində həm qoyub ağlar yarını,
Əğyara yar olub, sanır əğyar yarını.
Namehriban deyildi belə, mehriban idi,
Dəmlər o dəmlər idi, zaman ol zaman idi.

Noldu, nigar tapşurdu dərdü bəla bizə,
Çəkdikcə ah, cari olur xuni-dil üzə,
Yüz naz ilə qoyardıq, o gün keçdi, üz-üzə.
Biçarə Baki şamü səhər şadman idi,
Dəmlər o dəmlər idi, zaman ol zaman idi.

## MİRZƏ SÜLEYMAN

Mirzə Süleyman Molla Əli oğlu Qarabaği təqribən 1866-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Müəllimlik peşəsini seçən Süleyman gənc olmasına baxmayaraq Şuşada savadlı müdərris və şair kimi tanınmışdır. O. şeirlərini öz adıyla, əsasən, klassik üslubda yazmışdır.“Təzkireyi-Nəvvab”da şairin bir neçə şeiri avtoqrafla gəlib bizə çatmışdır. Həmin şeirlər aşağıdakılardan ibarətdir:

### Qəzəllər

Könül, hər qanda kim, bir yar gördüm, bivəfa gördüm,
Yolunda gərçi can qoydum, vəli yüz min bəla gördüm.

Siyəhbəxt oldum ol gündən ki, meyli-xəttü xal etdim,
Pərişanruzigar oldum, çü zülfi-müşkasa gördüm.

Bu həm bədbəxtlikdir, bir gül üzlü yara dil verdim,
Səfa bir ləhzə ondan görmədim, yeksər cəfa gördüm.

Driğa, görmədim olsun gülün həmsöhbəti güldən,
Gülü xara, rəqibi yara hər dəm aşina gördüm.

Nigara, sirri-eşqi xaneyi-dildə nihan tutdum,
Yaxıb qəm afəti yeksər, o sirri bərməla gördüm.

Könül itmişdi çoxdan, şanədən əhvalını sordum,
Dedi: Zənciri-zülfi-yaridə mən mübtəla gördüm.

Deyin ol yari-məhruyə: Süleymanın düşüb dərdə,
Ümidi- səhhət asarı tapılmaz, bidəva gördüm.

***

Pabənddir könül yenə bir şux dilbərə,
Bir gülüzarü sərvqədü simpeykərə.

Zülfi-siyahıtək günümü qara eyləyib,
Bilməm ki, netmişəm yenə ol mahi-ənvərə?

Bir ləhzə gər, görəm, sənəma, əyri qaşların,
Salmam xəyalımı dəxi mehrabü minbərə.

Mail olubdu tutiyi-könlüm, dilər müdam
Ləlü ləbi-nigar tökən şəhdü şəkkərə.

Ol sərvqəd xuram edə gər gülsitanara,
Yüz min şikəstlik verü sərvü sənubərə.

Üzrüm olar qəbul, könül, ruzi-həşrdə,
Yarım əgər bu hüsn ilə üz tutsa məhşərə.

Ruzi-cəzada gər mənə həq versə yarımı,
Meyl etməzəm nə hüriyə, billah, nə kövsərə.

Tutdun təriqi-eşqi, Süleyman, keçirdin ömr,
Neylim ki, yetmədin o nigari-səmənbərə.

***

Könlüm sevər o yari-sitəmkər buxağını,
Həsrətlə qaldı, sormadım ol gül dodağını.

Çox arzu edərdi könül kim, onunla mən
Ta qol-boyun olub, öpəm ol gül yanağını.

Can nəqdini yolunda nisar eylərəm, əgər
Lütf eyləyib otağıma bassa ayağını.

Bir dəm rəqib qoymaz olam yarilən, nedim,
Fikri budur, həmişə çəkim mən fəraqını.

Könlüm əsirdir səri-zülfi-nigarda,
Rəhm et, səba, dağıtma könüllər yatağını.

Əvvəl məni vüsalilə şad eyləyən nigar
Şimdi nəsib edibdi mənə qəm bucağını.

Müddətdi firqətində Süleyman əsirdir,
Ol şux kim, nədəndi bir almaz sorağını?

***

Yolunu gözləyirəm, yari-mehribanım, gəl,
Cəfayi-firqətə yox taqətü təvanım, gəl.

Camalının gülünü arzu edər hər dəm
Bu əndəlibi-dili-zarü natəvanım, gəl.

Üzündən ayrı tökər gözlərim dəmadən qan
Ki, az qalıbdı tuta aləmi fəğanım, gəl.

Xəzani-hicrilə soldu bu gülşəni-ömrüm,
Pozuldu rövnəqi-gülzarü gülüstanım, gəl.

Mərizi-bəstəri-qəmdir könül fəraqında,
Yetiş harayıma, qoyma, qəm aldı canım, gəl.

Diyari-hicrdə kim, cismi-natəvan əriyib,
Həyat tapmağa yoxdur dəxi gümanım, gəl.

Yetibdi cana Süleyman fəraq cövründən,
Tərhhüm eylə, gəl, ey cismə rəvanım, gəl.

***

Dedim: Ey məh, neçün zülfün üzündən bir kənar olmaz?
Dedi: Ey kordil aşiq, məgər gənc üstə mar olmaz?

Ləbindən sordum ol yarın dəhanın, söylədi: Vəh kim,
Bu elmi-qeybdir, mütləq, bəyanı aşikar olmaz.

Doyunca yara bax, ey gözlərim, qanlı sirişk az tök,
Təğafül etmə, huşyar ol, həmişə vəsli-yar olmaz.

Nigari-sərvqəddin gördüm ol limuyi-püstanın,
Qələti-məşhur imiş kim, sərvdə derlər bar olmaz.

Üzün görkəc, əzizim, gözlərim qan-yaş təkər daim,
Bəli, bu rəsmdir mütləq ki, yağmursuz bahar olmaz.

Nigarın zülmünə səbr et, Süleyman, çox fəğan etmə,
Nə qəmsiz aşiq olmaz, nə cəfasız bir nigar olmaz.

***

Yarım bizə bir gözucu şayəd nəzər eylər,
Alt-üst edibən mülki-vücudi hədər eylər.

Ənbər qoxuyan saçlarını eyləsə çin-çin,
Töksə üzünə ahu baxışlım, nələr eylər?

Eldən qəmimi gizli tutardım, vəli çeşmim
Göz yaşı töküb, sirrimi xəlqə xəbər eylər.

Hicran gecəsi yad eyləyib gülşəni-ruyin,
Könlüm quşu fəryada gəlib nalələr eylər.

Bir sözlə o daş qəlbli cananıma, aya,
Mümkünmü demək mətləbi, yaxud əsər eylər?

Eşq içrə Süleymanə budur daimi arzu,
Ta qəmzeyi-cananə fəda canü sər eylər.

# MİRZƏ ƏLİ MÜHƏRRİR

Mirzə Əli Hacı Abbas oğlu Mühərrir 1867-ci ildə Şuşada anadan olmuşdur. Orada mükəmməl mədrəsə təhsili alan Mirzə Əli fars dilini də öyrənmiş,.Azərbaycan və fars dillərində klassik üslubda şeirlər yazmışdır.“Məclisi-fəramuşan”ın üzvü olan şair həm də gözəl xəttat idi.

Şeir nümunələri “Poetik məclislər” kitabından götürülmüşdür.

***

## Qəzəllər

Dağıldı xaneyi-çeşmim xərabə xanimanlartək,
Könül şəhrin tutub girdi-qübari-ğəm dumanlartək.

Yol azdım zülməti-zülfündə könlüm cüstücusində,
Vuruldum rəhzən xali-siyaha karivanlartək.

Gözümdə qanlı peykanın gəzər gülgün libas ilə,
Bu zalım ayrı bir yana yayınmaz qan tutanlartək.

Günəş ruyin kənarında düşübdür zülfi-mişkinin,
Qoyub baş, yuxlamış naz ilə yorğun bağbanlartək.

Qatari-qəm sərəfsarı əlimdə, vadiyi-eşqi
Dolandım pa- piyadə gecə-gündüz sarbanlartək.

Ciyər qanı gözümdən seyltək axdıqca hər saət,
Açar dövri-bərimdə türfə güllər gülüstanlartək.

Xəyali-tiği-əbruyi-nigar ilə tutubdur xu,
Həlakın qəsd edib könlüm, həyatından doyanlartək.

Uzun illərdi göz yaşı tökər aşüftəhal ilə,
Geyinmiş qarə könlüm zülfdə matəm tutanlartək.

Mühərrir əşki-çeşmi sərvqəd yarın əyağından,
Dönübdür dürri-qəltanə, axar abi-rəvanlartək.

***

Alışdı atəşi-hicrinlə cismü can, ölürəm,
Mənim odumla yana qorxuram cahan, ölürəm.

Ciyərdə tiri-müjən sancılıbdı bir-birinə,
Oxun, nədəndir içir su yerinə qan, ölürəm?

Deyil fələkdəki əncüm, şəbi-fəraqında
Tutub şərareyi-ahımdan od asiman, ölürəm.

Yaralı könlümə dəymə, uzatma tənə dilin,
Bu ahi-dil dağıdıb xeyli xaniman, ölürəm.

Qətari-qəmdən ayırma məni-fələkzədəni,
Fəzayi-eşqdə, ey miri-karivan, ölürəm.

Tutub əcir məni dəhr anası göz yaşına
Edibdi tifli-qəmi-dəhrə pasiban, ölürəm.

Yetişdi zəfi-tənim bir məqamə eşqində,
Məni görən deməz insandı, bigüman, ölürəm.

Görəndə nəxvət ilə keçmə, sorgilən halım,
Ölüm zamanı mənə olma sərgiran, ölürəm.

Besani-şəm yanıb, əşki-çeşm edər cari
Mühərrir, ey büti-ziba, yəqin inan, ölürəm.

***

## İBRAHİM TAHİR MUSAYEV

İbrahim Tahir Məşədi Əbdül oğlu Musayev 1869-cu ildə Şuşa şəhərində anadan olmuş, ilk təhsilini də orada Molla Əli Xəlifənin məktəbində almışdır. Gənc yaşlarında ticarətlə məşğul olan İbrahim sonralar maarifçi-şair kimi formalaşmış, Şuşa "Nərmaniyyə", "Bünyadiyyə", "Kəmaliyyə" kimi qızlar məktəbində tarix müəllimi vəzifəsində çalışmış, Bakıda fəaliyyət göstərən müxtəlif qəzet və jurnallarda "Nofəl", "Ağcaqanad", "Şahdəyi", "Tərəqqi", və "Şişeyi" imzaları ilə tənqidi-satirik, maarifçi-tərbiyəvi, publisistik yazıları və şeirləri ilə çıxış etmişdir. İbrahim Tahir tərcüməçi kimi də məşhur olmuş, Firdovsinin "Zöhhak və Gavə" əsərini dilimizə çevirərək nəşr etdirmiş, Xəyyamın rübailərini bədii tərcümə şəklində nəşrə hazırlamış, dövlət sifarişi ilə Xaqani və Nizaminin əsərlərini sətri tərcümə etmişdi.

İbrahim Tahir 1943-cü ildə Bakı şəhərində vəfat etmişdir. Şairin əsərləri 2013-cü ildə işıq üzü görmüşdür (İbrahim Tahir. Əsərləri. B,2013, elm və təhsil. 633s. Transfonoliterasiya edib ön sözlə nəşrə hazırlayanlar: Raqub Kərimov və Əli Məmmədbağıroğlu). Buradakı şeir örnəkləri həmin əsərdən götürülmüşdür.

### Qəzəllər

Səni gördükdə düşür yadə çəmənlərdə çiçək,
Sən gözəllikdə inanmam ola göylərdə mələk.

Cəlb edir aşiqi-bimarını qaş ilə gözün,
Xariqüladə gözəlsən sənə yok bir deyəcək.

Ruhum istər gögə pərvaz qıla şövqümdən,
Sən baxarkən mənə hər ləhzə dönüb ceyrantək.

Sən gülən dəmdə sənə qarşı gülər ərzü səma,
Bir daha gül ki sənə mat ola əcrami-fələk.

Nə dili ilə səni tövsif edən eylər bilməm,
Kimdə vardır bu nəzakət, bu lətafət, bu nəmək.

Qələmi göstərür ecaz yazan dəmdə qəzəl,
Söylə, kimdir qəzəl ustadı ola Tahirtək?

***

Görüb ol xali-siyəhfami yanaq üstündə,
Dedim, aya, nə qaradır belə ağ üstündə?

Xunbəhası olamaz versən əvəz dünyayı,
Bir səri-muyin əgər gəlsə taraq üstündə,

Dövri-ləbində bir nöqtədir ol xali-siyəh,
Fameyi-süni qılıb vəz dodaq üstündə.

Atəşi-sinəm ilə gözdən axan əşki-tərim,
Bənzəyür ol suyə kim, qaynar ocaq üstündə.

Oxşadır kəndini pərvanə yaxılmaqla bana,
Şəbi-yelda edüb şut çırağ üstündə.

Gözlərin yaşını el görsə nə mane, Tahir,
Toplanar, rəsmdü bu, xəlq bulaq üstündə.

***

Fəsli-gül oldu, qönçeyi-rəna açıb dəhən,
Geydi çəməndə lalə də bir al pirəhən.

Fəsli-baharı qılmağa təbrik birbəbir,
Səhni-çəməndə eylədi quşlar da əncümən.

Zahid də çıxdı gülşənə, rindan eşqilə,
Bir mövqeyə yığıldı nasıl ağlayan, gülən.

Bir böylə fəsli-dilkəşi-ənbərnisarda,
Sülhə bənimlə uymayacaq yar mənbilən.

Biçarə bən də gülşəni tənhamı seyr edim?
Şayani-lütfü mərhəmətim, ey gələn-gedən.

Ömrümdə bir zaman bəni dilşad qoymadın,
Düşmüş səninlə işlərim, ey bəxt, köndələn.

Ahımla taş qopardığıma qılsa bir nəzər,
Ağlardı hali-zarıma biçarə Kuhkən.

Peyvəstə dərdü möhnətə qıldım müqavimət,
Kimdi bənim kibi qəmi-əyyamə döş gərən.

Tahir, gəzib dolaşdığı bir yerdə mərdü zən,
Matəmsəra kəsildi bənə səhneyi-çəmən.

***

Nə dəm o məhvəşə mədhətniqar olur qələm,
Əlimdə rəqsə gəlib biqərar olur qələm.

Çəkəndə nəqşin anun bir bəyaz kağızda,
Gələndə çeşminə birdən xumar olur qələm.

Cızanda lövhədə timsali-zülfi-şəbrəngin,
Şikənci-zülfünə yarın düçar olur qələm.

Açar kəmali-təravətlə bin güli-rəna,
Riyazi-nəzmə nə dəm abyar olur qələm.

Məlamət etmə onun bunca yüz qəralığına,
Rəqəmkəşi-xətti-rüxsari-yar olur qələm.

Besan əbr dökər, Tahira, sirişk gözdən,
Yazanda yar adını lərzədar olur qələm.

***

Hər qövmdə təlimə yarar hal yazublar,
İslamidə ancaq hamıdan dal yazublar.

Tovsi ticarət yaraşur, ömr eylə ziyadə,
Guya bizi də anlara həmmal yazublar.

Bəxş eylədilər aləmə xərvar ilə elmi,
Hissə bizə də bir-iki misqal yazublar.

Gündən-günə əfsanəpəsənd dolu müsəlman,
Guya bizi məclislərə nəqqal yazublar.

Tovzi olunub özgələrə elmü sənaət,
Biz millət i cadugər, rəmmal yazublar.

Heyrət veriyor başqaların elmə təlaşi,
İslamda hər bir işə ehmal yazublar.

Təhsil, ədəb mayeyi-iqbal  idi, Tahir,
İnsanə anı nüxbeyi-amal yazublar.

***

Bizlərdə bu əfali-bəhimanə nədəndir?
Axır böylə əhvali-vəximanə nədəndir?

Övladi-vətən sərfi-cəhalətdə yaşarlar,
Bir bunca tənəffürləri ürəfanə nədəndir?

İllərcə yatub xabi-təğafüldən ayılmaz,
Anlarda bu əxlaqi-zəmimanə nədəndir?

Kaşaneyi-bir milliyyəti təmir eləyən yox,
Bizdə bu evin qalması viranə nədəndir?

Vermiş bizə əfsadi-təbiət yaramazlıq,
Bilməm bu mərəz təbi-müsəlmanə nədəndir?

Toxmə böyrək bizdə səlahiyyəti yoxdur,
Bu məzrədə bitmədi bir danə nədəndir?

Din qardaşını bisərü saman görən oğlan,
Evdə bürünüb yatması yorqanə nədəndir?

Millət sözi, ehsan adı ortayə çıxanda,
Kəc dutması ağzın hərə bir yanə nədəndir?

Laqeyd durub, xatirinə acları salmaz,
Miskinlərə qıymaz qurı bir nanə nədəndir?

Məclisdə durub millət, va millət bağırıb da,
Bica böylə gəlməkləri qəlyanə nədəndir?

Zindani-əsarətdə qalub Yusifi-millət,
Təciz edəməz naləsi ixvanə nədəndir?

Gördikdə bizi gizləniyor şahidi-iqbal,
Göstərməz üzin dideyi-vicdanə nədəndir?

Möhtacə verənlər alı bin həcc səvabın,
İmsak eyləmək bir belə ehsanə nədəndir?

Dünyalar oyandıqda gedüb yatmadayız biz,
Gərm olmağımız bir belə nisyanə nədəndir?

Əşar yazub millət üçün Tahiri-miskin,
Bir bunca anın gəlməsi əfğanə nədəndir?

## Qoşma

Göglər guruldayub yağış yağanda,
Şad oluram ay bulutdan toğanda,
Xoşum gəlür annəm inək sağanda,
Yaylayuram, yaylamalı günümdür.

Şahnişində segah okur cavanlar,
Qoruqlarda tütək çalur çobanlar,
Qoy bağrı çatlasın çöldə qalanlar,
Yaylayuram, yaylamalı günümdür.

Böyük-kiçik olub şəhrə fərahəm,
Qalmazdı çöldə kimsə bundan əqdəm,
Şimdi onlar çəkür çöldə cəhənnəm,
Yaylayuram, yaylamalı günümdür.

Hil, mixəkli Qarabağın bozbaşı,
Quymaq kimi Mollaoğlunun lavaşı,
Bişiddirib meşədə süd lavaşı,
Yaylayuram, yaylamalı günümdür.

Şimdi birdir gədavü bəyə rəhmət,
Keçən keçməli mazipərəstə lənət,
Lazımdır eyləyək bu yolda üxüvvət,
Yaylayuram, yaylamalı günümdür.

***

# MƏHƏMMƏD AĞA MÜCTƏHİDZADƏ

Məhəmməd ağa Mirzə Sədray oğlu Müctəhidzadə təxminən 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Dörd yaşında olarkən hər iki valideynini itirən Məhəmməd böyük qardaşı Əbdürrəhmanın himayəsi altında on bir il Təbriz şəhərində yaşayıb orada təhsil aldıqdan sonra on beş yaşında ikən vətəni Qarabağa qayıdır. Mir Möhsün Nəvvab onun "...ərəbcə, farsca və türkcə savadlı, xoşsifət, xoşxasiyyət və comərd təbiətli bir cavan, ...millətpərəst, namuslu, qeyrətli bir şəxs" olduğunu yazır. Məhəmməd ağa erkən yaşlarından ədəbiyyata böyük maraq göstərmiş. "Məhəmməd" və "Müştəri" təxəllüsləri ilə klassik üslubda şeirlər yazmışdır. Bununla yanaşı şair vətəni Qarabağın ağır günlərində siyasi hərəkata qoşulmuş çarizmin məkirli siyasəti və erməni vandallarının vəhşiliyinə qarşı mübarizə aparmışdır.

Məhəmməd ağanın ədəbiyyatımıza göstördiyi xidməti də təqdirəlayiqdir. Onun Nəvvabdan sonra ərsəyə gətirdiyi "Riyazül-aşiqin" əsəri XIX əsri Qarabağ ədəbi mühitini öyrənmək üçün dəyərli mənbə hesab olunur.

Məhəmməd ağa Müştəri 1958-ci ildə vəfat etmişdir.Şairin əsərləri 2021-ci ildə işıq üzü görmüşdür (Məhəmməd ağa Müctəhidzadə Müştəri. Əsərləri. B., Elm və təhsil 2021. Transfoneliterasiya və tərtib edərək ön sözlə nəşrə hazırlayan: Raqub Kərimovdur). Aşağıdakı şeirlər həmin əsərdən götürülmüşdür.

## Qəzəllər

Qarabağ içrə qara bağrımı qan etmə, gülüm,
Gülşəni-ömrümü gəl fəsli-xəzan etmə, gülüm.

Vətənin bağına gəl, seyr elə, ey sərvqədim,
Çeşmeyi-çeşmimi çün çeşmə rəvan etmə, gülüm.

Sıxma gül qönçəsitək könlümü əyyami-bəhar,
Bülbüli-zar kimi ahü fəqan etmə, gülüm.

Gəl sərayerdə, dildə, gözəlim, məstur ol,
Başqa bir mənzilü mavada məkan etmə, gülüm.

Mərhəmətlə bana sarı nəzər et, nərgisçeşm,
Munca bimarını gəl dərdə nişan etmə, gülüm.

Müştəri xar olub gülşəni-vəslindən iraq,
Gözlərimdən yüzini munca nihan etmə, gülüm.

Əli mehrini Məhəmməd çıxararmı dildən,
Bu qədər gəl anı bimehr güman etmə gülüm.

***

Könül, ta var həyatın, daməni-canandan əl üzmə,
Əl üz dünyayi-mafihadan, ancaq andan əl üzmə.

Əgər kəsbi-şərəf etmək dilərsənsə günəşasa,
Gədayi-kuyi-canan ol, şəhi –xubandan əl üzmə.

Qüsursuz təxti-izzətdə oturmaq istəsən daim,
Fəraqət mülkünün şahı olan soltandan əl üzmə.

Əgər düşsən bəla zindanına, səbrü təhəmmül qıl,
Züleyxavar ol rəşki-məhi-Kəmandan əl üzmə.

Məhəbbət gülşənində xar olsan, ey könül mürğu,
Çu xar ol, bağ içrə bəslənən reyhandan əl üzmə.

Əgər sərmənzili-canana yetmək istəsən, ey dil,
Qübari-rəhi-eşq ol, andakı kardan əl üzmə.

Dila, dürci-dəhani-yar löv-lövlər saçan dəmdə,
Qulağın  çun sədəf aç, ol iki mərcandan əl üzmə.

Təbiba, gəl başım üstə otur, lütfilə nəbzim dut,
Bu möhlək dərdə dərman ol, üzülmüş candan əl üzmə.

Əla, ey Müştəri, bil kim, həqiqi mehrdir mahın,
Anınçun sayə təqib et, o binöqsandan əl üzmə.

***

Qəza memarı tikmiş yarım üçün xanə bir yerdə,
Nə mümkündür anınla əglənə biganə bir yerdə.

O bir dövlətsəradır kim, o qəsri-biqüsur içrə,
Yaşayır aşiqi-sadiq ilə cananə bir yerdə.

Xoşa ol aşiqü məşuqə kim, bəzmi-məhəbbətdə,
Müdam göz kasəsitək doludur peymanə bir yerdə.

Fəraqın atəşinə yanmıya hər biri bir yanda
İki hizom kimi baş-başa verib yanə bir yerdə.

Müqəvvəs qara qaşlartək verə əl-ələ peyvəstə,
İki göz nuru həmçinin dolanə bir yerdə.

Məhəbbət məclisində sonra o iki vəfa namı,
Yaxıla şövqündən çun şəmü pərvanə bir yerdə.

Xilas olmaq təmənna etmiyə qeydi-əsarətdən,
Əgər Yusif cəmalilə düşə zindanə bir yerdə.

Behişti-ədən sannam, Müştəri, hər ləhzə neyranı,
Qüsursuz hurim ilə varsam ər neyranə bir yerdə.

***

Barilahi, qəmi-hicran gətirib canə bəni,
Hanı lütfün, yetirə bəlkə o cananə bəni.

Gözəlim, gəl göz evin şəmsifət rövşən qıl,
Atəşi-hicranara yaxma çu pərvanə bəni.

Kəştiyi-ömr qalıb bəhri-qəm içrə çü hübab,
Naxuda, mərhəmət et sövq elə bir yanə bəni.

Lütf edib vəhşi qəzalım, bana ram ol bir dəm,
Gözlərin fikri salıb kuhü biyabanə bəni.

Zahida, kuyi-bütan xoşdu bana cənnətdən,
Dəvət etmə bu qədər rövzeyi-rizvanə bəni.

Ey deyən mehr o məhruyə nədir isbatın,
Hansı bir Leylivəş etmiş belə divanə bəni.

Qarabağ içrə zibəs, Müştəri, dad eyləmişəm,
Oxşadıb əhli-vətən bülbüli-nalanə bəni.

***

## Məsnəvilər

Ey olan pakzadü xoştinət,
Etmə bədfitrət ilə ünsiyyət.

Yari-nacins düşməni-candır,
Həmçinin müddəiyi-imandır.

Andan, əlbəttə, ehtiraz eylə,
Mümkün olduqca ünsü az eylə.

Yari-nacinsə yar olsan əgər,
Vuracaq o sana yəqin ki, zərər.

Filməsəl, mar olsa bir kəsə yar
Mümkündürmü vermiyə azar?

***

Ey olan münsikü ləimü bəxil,
Özünü xəlq içrə etmə zəlil.

Yüzünün qanını gəl etmə qəza,
Qəmi-dünyadan et özünü rəha.

Nəqdi-can sərf etmə dünyayə,
Qəmi-dünyanı qılma sərmayə.

Qənisən, malını yeyər varis,
Olürsən kəllənə söyər varis.

Düşsən malə, saxlama malı,
Ölümün anlarındır amalı.

Ey gözüm, fürsəti qənimət bil,
Darü dünyanı vəqti-fürsət bil.

Əkgilən toxmi-xeyr dünyadə,
Biçgilən hasilini üqbadə.

Ad qazan aləm içrə çün adəm,
Eylə rahi-Xudada bəzl dərhəm.

Açgilən misli-məən dəsti-səxa,
Yığgilən dövri-süfrənə füqəra.

Təngçeşm olma muri-zəif,
Ruzini cəm qılma fəsli-həzif.

Raziğətin həmişə çeşmi-ümid,
Naümid olma, istə rizqi-cədid.

Bir nəzər qıl dirəxti-pürsəmərə,
Verə şayəd sənə o bir səmərə.

Öyləkim, nəxl bəzl edir varın,
Arturar Tari tazədən barın.

Ey olan tabe əmri-şeytanə,
Şövqümənd olma kizbü böhtanə.

İctinab et, həmişə qiybətdən,
Salar ol həmişə şəxsi hörmətdən.

Saliki-rahi-həqqi-rəsuli-xuda,
Buyurub qiybəti əşəddi zina.

Əl götür bircə rişxəndindən,
Xəlqə niş urma nuşxəndindən.

Xəlqara olma hiç gəh nəmmam,
Həmçinin vermə kimsəyə düşnam.

Föhşü dur et, gözüm, dəhanından,
Ləfzi-napaki sil zəbanından.

Nə rəvadır dəhən besan məbal,
Lovsü föhş ilə ola mala-mal.

***

Üstünə gər dökülsə seyli-sitəm,
Misli-əmvaci-bəhri-möhnətü qəm,

Hala təğyir verme dəryatək,
Hərəkət etmə kuhü səhratək.

Həddən əfzun olsa nari-qəzəb,
Ad qazan, yan çu  udü neyü çu mətəb.

Yəni səngi-cəfa başın üstə
Düşsə, ol nimxənd çün  püstə.

Dəhənin nöktəsini aç çun nun,
Qoxu manəndi-qönçeyi dilxun.

Cuş edən dəmdə gül gülab olar,
Məni atəş görəndə ab olur.

***

## Müxəmməs

Diyari-eşqə yanaşdım mihən-mihən deyərək
O qəmi-fəzayı dolaşdım çəmən, çəmən deyərək,
Kəsildi nəxli-ümidim vətən, vətən deyərək,
Səmum möhnəti içdim ləbən-ləbən deyərək,
Vətən türabını öpdüm səmən-səmən deyərək.

Bu xaki-pak, dila, rəşki bağü səhradır,
Gülü şəqayiqi çün əşki-çeşmi-şəhladır,
Kəfi-ərusi-çəmən qan ilə mühənnadır,
Vətən xərabəsi məncə behişti-əladır,
Xərabələr gəzirəm mən çəmən, çəmən deyərək.

Diyari-həzində dun bir sitəm məfhumi
Görüb də ərz eylədim, key şəhid-məxdumi,
Budurmu həddən əfzun hüzn məfhumi?
Axıtdı seyfi-müzalım dəm`i-məzlumi,
Arasın əhli-himmət kəfən, kəfən deyərək.

Vətən türabı turabımdı. xaki-əslidən
Ayırmayın bəni, yaran, təami-ülviyədən,
Şəhidi-eşqə səlavat uymayın məsəlidən,
Olurdu bəlkə nəsibim mənim təsəllidən,
Məzara yas ilə girsəm vətən, vətən deyərək.

Çu mürği-ruh gəzərkən məqami-əlanı,
Gəzinmək istədi bu seyrgahi-ədnanı,
Vəsilanə sanıb dutdu dari-dünyanı,
Dedi nədir bu cahanda nəsibi-insanı?
Dəhani-aləm açıldı mihən, mihən deyərək.

Vətən yolunda bəni kəssə səxtdil cəllad,
Əgilməzəm ona çun tiğ, etməzəm fəryad.
Nə xoşdu, Müştəriya vəqti-mərğ bu övrad:
-Məzarü məhbəsi ərz eylədikdə istibdad,
Həmiyyət əhlinə şimdi bekən, bekən deyərək.

***

## Mürəbbelər

Könül, çun mehrü məh çərxi dolanmaq kari-asandır,
Pələngü bəbir ilə üns dutmaq kari-asandır.
Zəhərli şahmarı boyuna sarımaq kari-asandır,
Vəli kəcru olan yarilə yar olmaq çətin işdir.

Ülum ilə cəmadatı danışdırmaq degil müşkül,
Kəlağü zağı tutivəş qonuşdurmaq degil müşkül,

Təmamən növ heyvanə söz andırmaq degil müşkül,
Vəli nadan olan əşxası qandırmaq çətin işdir.

Qolaydır şahbaz ilə tizrovu aşina qılmaq,
Qəzalı taziyə ram edib də bir yerə salmaq,
Qoyunu qurda tapşırmaq, çu səg andan vəfa ummaq,
Vəli bu əhlidən mehrü vəfa ummaq çətin işdir.

Könül, müşkül değül şərik əlindən töməsin qarpmaq,
Nəhəngin bətninə girmək, pələngin ağzını yırtmaq,
Ərzi-ərtən etdigim şeylər təmamən səhldir. ancaq
Vətəndən zar olan könlü geri almaq çətin işdir.

Sudan atəş çıxarmaq, Müştəri, müşkül degil hərgiz,
Cahanı nura sarmaq, Müştəri, müşkül degil hərgiz,
Dağı dağdan ayırmaq, Müştəri, müşkül degil hərgiz,
Vəli canandan köksü cüda qılmaq çətin işdir.

***

Seyli-əşkə səd çəkin, aləmdə tufan olmasın,
Dəmbədəm göz mərdümü çün Nuh giryan olmasın,
Şişənin dağ-daşları qanilə ərvan olmasın,
Səy edin kim, bu vətən yerləri viran olmasın.

Qəlb evi yanmışların viranəsin abad edin,
Göz evindən diçrə qoymun, qüssədən azad edin,
Dəmbədəm, saətbasaət onlara imdad edin,
Şişə içrə ta bu cəmiyyət pərişan olmasın.

Daş könüllü düşməni, yaran, çıxardın Şişədən,
Həmçinin dil şişəsin xali edin əndişədən,
Qubarın yeksər Qarabağın alağın rişədən,
Ta bu cənnət guşəsi mavayi-şeytan olmasın.

Xabi-qəflətdən, vətəndaşlar, dəxi bidar olun,
Bəsdi bu xabi-cəhalət, göz açıb hüşyar olun,
Yar ilə yar olubən əğyar ilə əğyar olun,
Qeyri kəslər ta bu yerdə mərdi-meydan olmasın.

Bu gözəl topraqda toxmi-ədavət əkməyin,
Adamiyyət kəsb edin, qeyri işdə zəhmət çəkməyin.
Misli-Qabil qardaşın qanın nahaq tökməyin,
Ta bu yerdə bəd əz in nahaq yerə qan olmasın.

Dəmi-qənimətdir, vətəndaşlar, təqafil etməyin,
Əldə fürsət var ikən işdə təkahil etməyin,
Vətənin düşmənlərin məqsudə nail etməyin,
Şəhr ta viran olub xak ilə yeksan olmasın.

***

## Qəsidə

Ey deyən güldü bütün xarizari-səmənzari-vətən,
Xarı güldürsə, nədir bəs güli-gülzari-vətən?

Can fəda olsun o bir bağa ki, gülzar tikəni
Onda aksın qanı hər suyə çu ənhari-vətən.

Dün səbatək o gülüstanı gəzərkən gördüm,
Bu sözü vird eləyib mürği-diləfkari-vətən.

Şişəni cövrü cəfa daşları təhdid eyləyir,
Belə afətdən anı saxla, negəhdari-vətən.

Batmasın daməni-gültək qanə, Tarı, bu çəmən,
Görməsin dağı-hənu laləyi-kuhsari-vətən.

Gülməsin gültək o şəxsin yüzi aləm içrə,
İstəyir əbrsifət olmuş ola zari vətən.

Bədnəzər çeşminə batsın gözəlim nuki-ələm,
Zərd olsun yüzi çun nərgisi-bimari-vətən.

Ah o gündən ki, ala düşmən ələ tişeyi-zülm,
Rişədən qət oluna nəxli-səmərdari-vətən.

Hər tərəfdən o gülüstanə əsə badi-səmum,
Tökülə bərgi-xəzantək yerə əsmari-vətən.

Acı göz yaşı axa su yerinə hər suyə,
Təlx əsmar verə nəxli şirinbari-vətən.

Vətənin dağı-daşı gülgün ola al qanilə,
Ola sirab o qızıl qanilə gühərvari-vətən.

Çeşmeyi-çeşmim kimi anda axa çeşmeyi-xun,
Qan içə su yerinə rəşhəyi-əşhari-vətən.

Laləvəş dağ görə sineyi-övladi-vətən,
Yaxa can riştələrin şəmsifət nari-vətən.

Atəşi-qəmdə yana dərdilə dil misli-kəbab,
Sixi-mühdən  saça qan dideyi-xunbari-vətən.

Şişə şəmtək yaxıla hər nə ziyalıları var,
Qala avarə çu pərvanə, əgə kari-vətən.

Dudeyi-şəmi-dil, ahi-yətiman şəhri,
Bürüyə zülmət içində qala ənvari-vətən.

Şişədən ayrı düşən dəmdə şikəstədillər,
Gələlər naləyə misli-neyi-neyzari-vətən.

Həbs ola Şişədə sərşar kimi əhli-kəmal,
Sağəri-qəlbi edə qanilə sərşari-vətən.

Tən ilə əhlinə düşmən deyə get qürbətdə
Yaşa naəhl ilə öl, öldü nədən yari-vətən.

Ömrümüz dəftəri övraq ola çun dəftəri-gül,
Dağıla hər tərəfə, məhv ola tumari-vətən.

Vətəni dost tutan kimsə desə öz-özünə,
Olmasın kimsə mənimtək giriftari-vətən.

Dökə qan-yaş yüzə bu sözləri ura diqqətlə,
Nəzəri-mərhəmətin kəsmə, mədədkari-vətən.

Qıldı biçarələri nari- qəmə çar-düçar,
Bulmuya dərdinə çarə, qala naçari-vətən.

Vətən övladı ona canı nisar eyləsələr
Səri-təslim eləməz düşmənə sərdari-vətən.

Ğedər əldən fərəhü şövkətü izzü şərəf
Keçsə düşmən əlinə cəbr ilə muxtari-vətən.

Müştəri, sözlərini xətm elə bu misra ilə:
“Vay o gündən ki, gedə rövnəqi-bazari-vətən”.

***

# ZAKİR SANİ

Zakir Ağabəy oğlu Sani Qasım bəy Zakirin oğul nəvəsidir, Şuşada təhsil alıb. Klassik üslubda şeirlər yazmışdır. Adını babasının şərəfinə təxəllüs götürmüşdür. 1897-ci ildə vəfat etmişdir. Şeir nümunələri "Riyazül-aşiqin"dən götürülmüşdür.

## Qəzəllər

Xoşdur, nə qədər eyləsə yarım cəfa mənə,
Ta kim, rəqib söyləməsin bivəfa mənə.

Sənsiz diyari-hicrdə sərgəştə qalmışam,
Vəslin ümidi billəm olur rəhnüma mənə.

Verrəm nisar canü dili xaki-payinə,
Ey gül, gətirsə nükhəti-zülfin səba mənə.

Zəf tənim qalıbdı eylə xürdü xabdən,
Xuni-dilim olubdu, əzizim, qəza mənə.

Qəm bəstərində qoyma məni zarü natəvan,
Ver şərbəti-vüsaldən, ey gül, şəfa mənə.

Çox səy eylədim səgi-kuyinlə xu tutam,
Onlar həm olmadı, gözəlim, aşina mənə.

Zakir, yazanda katibi-qüdrət təriqi-eşqi,
Dərdü qəmü fərağı yazıbdır səna mənə.

***

Getməz könüldən ol büti-xunxar qayğısı,
Başdan gedər nə zülfi-siyəhkar qayğısı.

Xalü xətin xəyalı məni dərhəm eyləməz,
Gər olmasa o türreyi-tərrar qayğısı.

Canü dil ilə mən çəkərəm yar çövrüni,
Həqqi budur ki, olmaya əğyar qayğısı.

Bülbül gülün cəfasını çəkməkdən inciməz,
Aşüftə etməsə onu gər xar qayğısı.

Sən kimi Zakirin, gözəlim, gülüzarı var,
Dəxi, çəkərmi dəhrdə bir kar qayğısı?

***

Mənim ol mahrüxsarım salıb üzdən niqab, oynar,
Sanasan çərxdə rəqsə gəlibdir aftab oynar.

Dolanır həlqeyi-zülfi o mahın dövri-ruyində,
Gün ətrafın alıb, güya ki, bir mişkin qürab oynar.

Şəbi-hicran hərarətdən könül, ey qibleyi-üşşaq,
Dili-bimar tək hərdəm edər çox iztirab, oynar.

Düşübdür atəşin rüxsarə, hərdəm qıvrılır zülfün,
Düşəndə atəşə əfi edər çox iztirab, oynar.

Ümidi-vəsl ilə Zakir əzizan ilə xürrəmdir,
Görüb guya biyaban içrə bir təşnə sərab oynar.

***

## MİR İBRAHİM

Mir Möhsün Nəvvabın oğlu Mir İbrahim Ağamirzadə 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşada həm atasından və həm də dövlət məktəbində mükəmməl təhsil alan Mir İbrahim fars, ərəb, rus və fransız dillərini də öyrənmişdir. Klassik üslubda “Miriş”, “Mir”, “Münir”, “Mir Natiq”, “Mir İbrahim” təxəllüsləri ilə şeirlər yazmışdır. Şuşa əhli ona “Miriş ağa” deyə müraciət edirdilər. Sovet hakimiyyəti illərində müxtəlif vəzifələrdə çalışan Mir İbrahim, hətta 1926-cı ildə Şuşa şəhərindən III Sovetlər qurultayına nümayəndə də seçilmişdir. Miriş 1948-ci ildə vəfat etmişdir.

Şairin əsərləri 1999-cu ildə nəşr edilmişdir (Miribrahim Ağamirzadə. Şeirlər. B., 1999, Şuşa nəşriyyatı. Ön sözlə nəşrə hazırlayan Əli Məmmədbağır oğludur).

Şeir örnəkləri həmin kitabdan götürülmüşdür.

### Qəzəllər

Nədən ol mahü mehr üzlüm mənə bir ləhzə ram olmaz?
Neçün dərdü qəmi-hicrində bəs ömrüm tamam olmaz

Gülə mail olan könlüm gəzər şeydasifət hər yan,
Şikəstə bülbüli-zarə gülüstanda künam olmaz.

Keçər hər bir günüm hicranda yüz il ahüzar ilə,
Məgər firqət gününə, ey Xudaya, sübhü şam olmaz?

Mənim yarım, nigarım, növbaharım kimi yar olmaz,
Mənim mahım, şəhənşahım kimi aliməqam olmaz.

Günüzlər biqəraram, intizaram, sövgüvaram mən,
Gecə əncümşümaram, gözlərimdə həm mənam olmaz.

Ləbi ləli-Bədəxşandır, ruxu bir mehri-tabandır,
Rəisi-cümlə xubandır, belə sərvi-xüram olmaz.

Pərişan etmə dami-zülfünü ol daneyi-xala,
Qəfəs içrə müqəyyəd mürği-dəstamuza dam olmaz.

Mirişin mürği-ruhu ol nihali-sərvinə qonmuş,
Mənim könlüm kimi “gu-gu”deyən hərgiz hümam olmaz.

***

Getdi əğyara qonaq dün gecə, cananıma bax!
Qətlimə hökm yazıb, əldəki fərmanıma bax!

Hicrətəə saldi o məhru  nə yaman yerdə məni,
Həsrəti-ləli-ləbilə bu çıxan canıma bax!

Xar qoymuş məni əğyar, görüm xar olsun,
Bülbüləm gülşənara, naləvü əfqğanıma bax.

Qaldı şirin ləbinə həsrəti-didar gözüm,
Müntəzir gözlərimə, sineyi-suzanıma bax.

Adət olmuş Mirişə hər gecə “ya dust” deyib,
Gözlərimdən bu axan əşki-dürəfşanıma bax.

***

Qoydu məni bu halilə dildarım, ağlaram,
Soldu xəzani-hicrdə gülzarım, ağlaram.

Bülbülsifət nəvaya gəlib, eylərəm fəğan,
Pəjmürdə çün qoyubdu məni yarım, ağlaram.

Qərq eylərəm bu aləmi mən əşki-çeşmimə,
Dərdi-fəraqa yoxdu mədədkarım, ağlaram.

Bilməm nə edim, nə çarə qılım, yoxdu taqətim,
Gözdən məni salıbdı o sərdarım, ağlaram.

Mir Münirin əlinə dəxi gəlməyə daməni-vüsal,
Ta həşr olunca ərşə çıxar zarım, ağlaram.

***

Əya Baki, nedim çarə, mənə rəhm eyləməz yarım,
Fəraqında olub nalə gecə-gündüz mənim karım.

Buyursun, eyləyim səcdə həmişə taqi-əbruyə,
Olub taət üçün qiblə iki əbruyi-dildarım.

Gecə əncümşümarəm, biqərarəm hicri-ruyində,
Vəli rəhm eyləməz bir dəm əgər ərşə çıxa zarım.

Dəyəndə zülfünə badi-səba bərhəm olur könlüm,
Olur aləm münəvvər, çıxsa gər ol mahrüxsarım.

Çəməndə bülbülə yer yox, qucubdur xar çox güllər,
Mənim qəlbim gülü solmuş gülüstan içrə gülzarım.

Sınıbdır şişeyi-qəlbim bu məhvəşlər cəfasından,
İlahi, sən yet imdadə ki, rəhm etsin cəfakarım.

Gətirməz yadına Mir Müniri bir oğrun nigah ilə,
Kimə eyləyim şikayət, böylə keçsin bəs mənim karım?

# MÜNDƏRİCAT

*XIX ƏSR QARABAĞ ƏDƏBİ-MƏDƏNİ MÜHİTİ......................3*
*AŞIQ VALEH..................................................................39*
*ASƏF LƏNBƏRANİ.......................................................53*
*ƏBÜLFƏT XAN TUTİ.....................................................63*
*MƏHƏMMƏD BƏY AŞİQ...............................................66*
*ABDULLA CANIOĞLU...................................................79*
*BABA BƏY ŞAKİR..........................................................90*
*CƏFƏRQULU XAN NƏVA.............................................107*
*QASIM BƏY ZAKİR.......................................................118*
*MİRZƏCAN BƏY MƏDƏTOV.......................................133*
*MOLLA ZEYNALABDİN SAĞƏRİ QARABAĞİ.....................141*
*SEYİD MİR HƏMZƏ ƏFƏNDİ NİGARİ................................152*
*HAMİD QARABAĞİ......................................................169*
*AŞIQ PƏRİ....................................................................175*
*MİRZƏ SADIQ PİRAN.................................................188*
*MİR MEHDİ XƏZANİ...................................................192*
*ŞƏHİD QARABAĞİ.......................................................201*
*MƏŞƏDİ ƏLİMƏDƏD QAZİ OĞLU QURTLAR..................207*
*HƏSƏN LƏLƏ...............................................................211*
*MOLLA İSMAYIL MƏHZUN...........................................213*
*MƏHƏMMƏDƏLİ BƏY MƏXFİ.......................................219*
*KƏRBƏLAYİ QULU YUSİF............................................226*
*MİRZƏ HÜSEYN SALAR..............................................229*
*MİRZƏ HƏSƏN QARABAĞİ..........................................235*
*HƏSƏN QARA HADİ QARABAĞİ...................................244*
*MOLLA ABBAS CAVANŞİR...........................................255*
*XURŞİDBANU NATƏVAN.............................................260*
*MİRZƏ MƏHƏMMƏD KATİB.........................................269*

*MİR MÖHSÜN NƏVVAB......................................................280*
*İBRAHİM BƏY AZƏR.........................................................291*
*HACI ABBAS AĞƏH...........................................................294*
*MİRZƏ ƏLƏSGƏR NÖVRƏS...............................................298*
*MİRZƏ İSMAYIL DARUĞƏ.................................................307*
*MƏŞƏDİ MİRZƏ CƏFƏR HACI SEYİD QASIM OĞLU*
*“CƏFƏR”.............................................................................311*
*ŞAKİ ABDAL.........................................................................315*
*MƏŞƏDİ ƏBDÜLHÜSEYN ŞAHİN........................................323*
*SƏDİ SANİ QARABAĞİ........................................................330*
*FATMA XANIM KƏMİNƏ.....................................................337*
*ABDULLA BƏY ASİ..............................................................343*
*MƏMO BƏY MƏMAİ.............................................................350*
*İSGƏNDƏR BƏY RÜSTƏMBƏYOV.......................................361*
*ƏBDÜSSƏMƏD BƏY AŞİQ..................................................369*
*MİRZƏ ƏLİ AŞİQ.................................................................374*
*XOSROV BƏY POLADOV.....................................................378*
*MİRZƏ RƏHİM FƏNA..........................................................380*
*HƏSƏNƏLİ XAN QARADAĞİ..............................................390*
*MOLLA SALEH.....................................................................397*
*MOLLA MƏHƏMMƏD... .....................................................399*
*KƏRBƏLAYİ ƏLƏKBƏR SAFİ.............................................404*
*MİRZƏ HEYDƏR..................................................................410*
*ABDULLA BƏY.....................................................................417*
*SEYYİD QARABAĞİ............................................................420*
*MEHDİQULU XAN VƏFA.....................................................424*
*MƏŞƏDİ MÜRTƏZA............................................................428*
*ƏLAĞA..................................................................................436*
*HÜSEYN AĞA CAVANŞİR...................................................439*

*HÜSEYN AĞA......................................................................................441*
*MƏŞƏDİ MƏHƏMMƏD BÜLBÜL........................................443*
*NƏCƏFQULU BƏY ŞEYDA..................................................447*
*MİRZƏ HÜSEYN CAKƏR.....................................................455*
*BAXIŞ BƏY SƏBUR..............................................................459*
*MİRZƏ YƏHYA BƏY QARABAĞİ...........................................464*
*MƏŞƏDİ ƏYYUB BAKİ..........................................................467*
*MİRZƏ SÜLEYMAN..............................................................478*
*MİRZƏ ƏLİ MÜHƏRRİR.......................................................482*
*İBRAHİM TAHİR MUSAYEV..................................................484*
*MƏHƏMMƏD AĞA MÜCTƏHİDZADƏ................................490*
*ZAKİR SANİ........................................................................502*
*MİR İBRAHİM.....................................................................504*

# Qeyd üçün

# Qeyd üçün

# XIX ƏSR QARABAĞ ŞAİRLƏRİNİN ŞEİR ANTOLOGİYASI

**Bakı – 2024**

Çapa imzalanmışdır: 22.02.2024
Fiziki çap vərəqi: 32
Tirajı: 150

